**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Texnologiya Universiteti**

# İNNOVASİYALI İQTİSADİYYAT VƏ MENECMENT

№1 2022

**Baş redaktor:**

Süleymanov Akif Şamil oğlu t.e.d., professor

**Redaksiya heyəti**

**Baş redaktorun müavini:**
Gülalıyev Mayıs Gülalı oğlu i.e.d., dos.,

**Məsul katib:**
Həmzəyeva Jalə

Hacıyeva Nüşabə, i.f.d., dosent
Qurbanova Xatirə, i.f.d, dosent
Qarayev Maarif , f.f.d., dosent
Hümbətov Yusif, i.f.d., dosent
Əhmədova Mətanət, t.f.d., dosent

**GƏNCƏ – 2022**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınıb: Reyestr №4155**

**Azərbaycan Texnologiya Universitetinin Elmi Şurasının qərarı ilə çap olunur**

**Jurnal aşağıdaki Beynəlxalq elmi məlumat bazalarına daxildi:**

*International Scientific Indexing (ISI), International Institute of Organized Research (I2OR), Journal factor, Cite factor, Academic Scientific Journals, Scientific Indexing Services*

**Print** – 2616-8626

*Innovasiyali iqtisadiyyat və menecment №1, 2022, - 250 səh.*

©Azərbaycan Texnologiya Universiteti

## MÜNDƏRİCAT

**Gülalıyev Mayıs Gülalı oğlu**
Azərbaycanda birbaşa xarici investiyaların makroiqtisadi təsirlərinin qiymətləndirilməsi.. 3

**Cəfərova Rumella Telman qızı**
Tikinti iqdisadiyyatının özəllikləri və onun inkişafının qiymətləndirilməsi üçün əsas determinantlar........................................................................................................ 13

**Mustafayev Elçin Ramiz oğlu**
Azərbaycanda BOEM üzrə dövlət tənzimləməsinin əsas istiqamətləri............................. 23

**Məmmədova Gülnarə Vaqif qızı**
Azərbaycanda elektirik enerjisi sektorunun natural moniopoliyadan bazara keçidi zamanı mümkün qiymət dəyişmələri və sosial yükün azaldılması yolları..................................... 32

**İlyasov Asiman Rasim oğlu**
Ali təhsil müəssisələrinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığının strateji planlamasında mövcud problemlər........................................................................... 41

**Hümbətova Sevil Rafiq qızı**
Yaşıl İqtisadiyyat Kompozit indeksi yanaşması............................................................... 49

**Əliyev Arif Nail oğlu**
İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə innovasiyalı inkişafa müqayisəli baxış.... 58

**Hətəmov Firudin Eldar oğlu**
Neft qiymətləri şokunun məcmu istehlaka təsirinin qiymətləndirilməsi (panel analiz)..... 67

**Gülalıyev Emil Çingiz oğlu**
Minumum əmək haqqının gəlir bərabərsizliyinə təsirinə müxtəlif yanaşmalar və qiymətləndirmə metodları..................................................................................... 76

**Vəlibəyli Ayşən Rövşən qızı, Fizuli Əziz oğlu Məmmədov**
İqtisadiyyatın informasiya sektorunun təşkilatı-iqtisadi xüsusiyyətləri............................. 86

**Salahov Fariz Rafiq oğlu**
Vergilərin iqtisadi artıma təsirlərinə nəzəri yanaşmalar...................................................... 95

**Hacıyeva Ruhiyyə Cəfər qızı**
Azərbaycan və Türkiyə arasında ticarətin iqtisadi sferasındakı münasibətləri................... 103

**Qurbanova Xatirə Vəli qızı, Cəfərov Hüseyin Həsən oğlu**
**Qluzadə Bəhram Qalib oğlu, Hümbətov Vəli Tofiq oğlu**
Müəssisələrdə pul vəsaitlərinin uçotunun normativ tənzimlənməsi.................................... 110

**Tağızadə Nihad İlham oğlu**
Qarabağın işğaldan azad olan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarları.......................................................................................... 117

**Rəhimli Sahib Raiq oğlu**
Sənayenin klasterləşməsinə dünya alimlərinin və ölkələrinin yanaşmaları........................ 125

**Verdiyev Nazim Talıb oğlu. Məmmədov Cəlali İbadət oğlu**
COVİD-19 Pandemiyasının Dünya və milli turizmə təsiri, post-pandemiya dövründə turizm sektorunun vəziyyəti.......................................................................................... 134

**Həsənova Şəlalə Knyaz qızı**
Torpaq, su və əmək resurslarından Aqrar istehsalda səmərəli istifadə istiqamətləri........... 142

**Rəhimova Məlahət Firqət qızı**
Aqrar sahədə innovasiya strategiyasının reallaşdırılması mexanizmi................................ 150

**Hüseynov Səfər Məzahir oğlu**
Vençur fondları: kicik və orta sahibkarlıq subyektlərinin maliyyələşməsində vençur kapitalının əhəmiyyəti.......................................................................................... 158

**Babayev Elvin Əzizağa oğlu**
Biznesdə baş verən böhranların yaranma səbəbləri və bu böhranların biznes mühitinə təsiri.......................................................................................................... 168

**Nuruzadə Səbinə Canoğlan qızı**
Azərbaycanda qida Məhsullarının satış və ixrac fəaliyyətinin təkmilləşdirilməsi............... 177

**Hacıyeva Nəcibə Qabil qızı**
Aqrar müəssisələrində qərarların qəbul edilməsi və əsaslandırılması mexanizimləri.......... 185

**Abbasov Səbuhi Mübariz oğlu**
Antiinflyasiya yönümlü pul kredit siyasətinin nəzəri aspektləri...................................... 195

**Babayeva Səmayə Oqtay qızı**
Aqrar sahədə dövlət tənzimlənməsi və onun kənd təsərrüfatında təzahürü........................ 204

**Atakişiyeva Rasimə Əlihüseyn qızı**
Azərbaycan Respuplikasında fövqaladə hallarla mübarizə sisteminin formalaşması.......... 212

**Əmirova Fatimə Elçin qızı**
Istisu mineral suyunun markalaşmasi yollari…………………………………………… 217

**Yusifli Leyla Səməd qızı**
Biometrik sistemlərin ümumi tanınma texnalogiyaları…………………………………… 225

**Qurbanova Xatirə Vəli qızı, Abdullayev Elgün Təhmasib oğlu**
**Mehtiyeva Sevda İsmət qızı, Qasımova Hüsnüyyə Həsən qızı**
Müəssisələrin investisiya qərarlarına vergilərin təsiri...................................................... 233

**Hacıyev Musa Rzaqulu oğlu**
Beynəlxalq daşımalar və hava nəqlıyyatı......................................................................... 240

**Mayıs Gülalı oğlu Gülalıyev**
İqtisad üzrə elmlər doktoru, dosent

# AZƏRBAYCANDA BIRBAŞA XARİCİ İNVESTİSİYALARIN MAKROİQTİSADİ TƏSİRLƏRİNİN QIYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**
Məqalədə Azərbaycan iqtisadiyyatına yönələn birbaşa xarici investisiyaların müxtəlif makroiqtisadi göstəricilərə, o cümlədən, ÜDM həcminə, iqtisadi artıma, məşğulluq səviyyəsinə, ev təsərrüfatlarında adambaşına gəlirlərə, yoxsulluq səviyyəsinə təsirləri kəmiyyətcə qiymətləndirilib. Müəllif belə nəticəyə gəlir ki, BXİ artdıqca ölkədə yoxsulluq səviyyəsinin aşağı düşməsi gözlənləndir. Azərbaycan iqtisadiyyatı üçün BXİ ilə yoxsulluq səviyyəsi arasındakı ciddi reqresiya əlaqəsi göstərir ki, BXİ-ın azalması mütləq daxili investisiyalarla kompensasiya olunmalıdır. Əks halda, ölkədə yoxsulluq səviyyəsi arta bilər.

**Açar sözlər:** ümumdaxil məhsul; iqtisadi artım; məşğulluq səviyyəsi; ev təsərrüfatlarında adambaşına gəlirlər; yoxsulluq səviyyəsi; birbaşa xarici investisiyalar

**UOT:** 339
**JEL:** E62

## Giriş

Xarici investisiyaların ölkə iqtisadiyyatına təsirinin qiymətləndirilməsi çətin olsa da ölkənin iqtisadi inkişaf tarixini qiymətləndirməklə, həmçinin gələcək iqtisadi inkişafı proqnozlaşdırmaqla bağlı maraqlı nəticələrin çıxarılmasına imkan verir. R. Lipseyə [1] görə xarici investisiyaların ölkə iqtisadiyyatına təsirinin qiymətləndirilməsi üç səbəbdən vacibdir. Birincisi, belə qiymətləndirmələr ölkəyə xarici investisiyaların cəlb edilməsinin zəruriliyinə aydınlıq gətirir. İkincisi, belə qiymətləndirmələr xarici investisiyaların nə qədər və hansı şərtlərlə cəlb edilməsi haqda düzgün iqtisadi siyasət yaratmağa kömək göstərir. Üçüncüsü, belə qiymətləndirmələr gələcəkdə xarici investisiyalardan maksimum fayda götürmək üçün ölkənin iqtisadi sistemində "zəif" yerlərin üzə çıxarılmasına şərait yaradır.

## Metodologiya

İqtisadi ədəbiyyatda bu və ya digər ölkələrin timsalında neft sektoruna yönələn investisiyaların iqtisadi inkişafa və ya hər hansı iqtisadi fəaliyyət sahəsinə təsirlərinə həsr edilən tədqiqatlara çox rast gəlinir. Məsələn, L. Alfaro birbaşa xarici investisiyaların iqtisadi artıma pozitiv təsirlərini nəzəri olaraq [12], David Kim və Jung-Soo Seo [13] isə Koreyanın timsalında empirik olaraq təsdiq edirlər. Belə tədqiqatlara neftlə zəngin olan ölkələrin timsalında çox rast gəlinir.

Beləliklə, investisiya azadlığının iqtisadi inkişafa təsirlərinin əsas kanalının birbaşa xarici investisiyalarla bağlı olduğunu nəzərə alaraq, belə investisiyaların iqtisadi və sosial-iqtisadi inkişafa necə təsir etdiyini kəmiyyətcə qiymətləndirməklə biz həmçinin investisiya azadlığının təsirlərini qiymətləndirmiş oluruq. Belə qiymətləndirmənin aparılması üçün biz aşağıdakı iki hipotezin hansının doğru olduğunu yoxlamalı olacağıq:

1-ci hipotez: $H_0$: ölkə iqtisadiyyatına yönəldilən xarici investisiyaların ($FDİ_t$) 1) ÜDM həcminə ($GDP_t$); 2)iqtisadi artıma ($GDPG_t$); 3)məşğulluq səviyyəsinə ($EMP_t$);

4)ev təsərrüfatlarında adambaşına gəlirlərə ($HHRPC_t$); 5) yoxsulluq səviyyəsinə ($POV_t$) təsiri yoxdur.

2-ci hipotez:$H_1$: $H_0$ hipotezinin inkiarı.

Yuxarıda qeyd etdiyimiz asılı dəyişənlərin BXİ-dan asılılıq modeli üçün biz iki göstəricidən istifadə edəcəyik: BXİ cəmi həcmi ($FDİ_t$); və 2)cəmi xarici investisiyaların ÜDM-dəki payı $({FDİ_t}/{GDP_t}) = SFDİ_t$. Modelə həmçinin (t-1) ilindəki ÜDM həcmi ($GDP_{t-1}$) də daxil ediləcəkdir. Beləliklə, yuxarıda qeyd etdiyimiz asılı dəyişənlərin xarici investisiya həcmindən asılılıq modellərini aşağıdakı 6 tənliklə ifadə edə bilərik:

$$GDP_t = a_1 + a_2 * GDP_{t-1} + a_3 * OİLİNV_{t-1} + a_4 * TFDİ_{t-1} + a_4 * SFDİ_{t-1} + \varepsilon_t \quad (1)$$

$$GDPG_t = a_1 + a_2 * GDP_{t-1} + a_3 * OİLİNV_{t-1} + a_4 * TFDİ_{t-1} + a_4 * SFDİ_{t-1} + \varepsilon_t \quad (2)$$

$$EMP_t = a_1 + a_2 * GDP_{t-1} + a_3 * OİLİNV_{t-1} + a_4 * TFDİ_{t-1} + a_4 * SFDİ_{t-1} + \varepsilon_t \quad (3)$$

$$HHRPC_t = a_1 + a_2 * GDP_{t-1} + a_3 * OİLİNV_{t-1} + a_4 * TFDİ_{t-1} + a_4 * SFDİ_{t-1} + \varepsilon_t \quad (4)$$

$$POV_t = a_1 + a_2 * GDP_{t-1} + a_3 * OİLİNV_{t-1} + a_4 * TFDİ_{t-1} + a_4 * SFDİ_{t-1} + \varepsilon_t \quad (5)$$

Cəmi xarici investisiyaların ÜDM-də payı hesablanmış və bu göstəricilər arasındakı toplu reqresiya əlaqələri analiz edilmişdir. Hesablamaların nəticələri 1-ci cədvəldə verilmişdir. Hesablamalar göstərir ki, reqresiya analizlərində t-ilindəki ÜDM həcmi daha çox (t-1) ilindəki həcmdən asılı olur. Lakin buna baxmayaraq, onun neft sektoruna qoyulan xarici investisiyadan və cəmi xarici investisiyadan asılılığı var. Bizim hesablamalarda t-ilindəki ÜDM həcminin (t-1) ilindəki cəmi investisiyalardan və neft sektoruna qoyulan investisiyadan asılılığı nəzərdə tutulub. Hesablamalar zamanı avtokorrelyasiyanın aradan qaldırılması metodundan istifadə edildiyindən (6) və (7) toplu reqresiya tənliklərinin forması aşağıdakı kimi dəyişmiş olacaq:

$$GDP_t - p * GDP_{t-1=} = a_1 + a_2 * (GDP_{t-1} - p * GDP_{t-2}) + a_3 * (OİLİNV_{t-1} - p * OİLİNV_{t-2}) + a_4 * (TFDİ_{t-1} - p * TFDİ_{t-2}) + a_4 * (SFDİ_{t-1} - p * (SFDİ_{t-2}) + + \varepsilon_t \quad (6)$$

$$POV_t - p * POV_{t-1=} = a_1 + a_2 * (GDP_{t-1} - p * GDP_{t-2}) + a_3 * (OİLİNV_{t-1} - - p * OİLİNV_{t-2}) + a_4 * (TFDİ_{t-1} - p * TFDİ_{t-2}) + a_4 * (SFDİ_{t-1} - p ** SFDİ_{t-2}) + \varepsilon_t \quad (7)$$

**Əsas Hesablamalar**

1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycan ciddi iqtisadi çətinliklər qarşısında qaldı. Keçmiş SSRİ məkanında olan respublikalarla iqtisadi əlaqələrin qırılması, dünya ölkələri ilə yeni əlaqələrin hələ yaradılmaması Azərbaycanın neft sənayesini və digər aparıcı iqtisadi sahələri maliyyə çətinliyi ilə üzləşdirdi. Azərbaycanla Ermənistan arasında baş verən müharibə nəticəsində Azərbaycanın 20% ərazisinin işğal edilməsi və yüz minlərlə insanın öz yaşadıqları əraziləri qaçqın və məcburi köçkün kimi tərk etməsi də əlavə problemlər yaradırdı. Müharibə nəticəsində 1 milyondan çox insanın qaçqın

və məcburi köçkün kimi yeni ərazilərdə məskunlaşması, işğal edilən ərazilərin yeraltı və yerüstü sərvətlərinin məhv edilməsi, bu ərazilərdə təsərrüfat sisteminin tamamilə dağıdılması, digər tərəfdən, bütün respublika üzrə bir-birinin ardınca sənaye sahələrinin, fabrik və zavodların fəaliyyətinin dayanması işsizlər ordusunun yaranmasına, yüksək inflyasiyaya, əhalinin sürətlə yoxsullaşmasına səbəb oldu. 1991-ci ildə ÜDM 1990-ci ilə nisbətən təqribən 3 dəfə aşağı düşərək 703,1 milyon dollar təşkil etdi. Sonrakı illərdə isə iqtisadiyyatda müəyyən artım olsa da yalnız 1995-ci ildə 1990-cı ilin səviyyəsinə çataraq 2,4 milyard ABŞ dolları oldu. Bu, adambaşına ÜDM-in 319,3 ABŞ dolları olması demək idi [2].

Həmin dövrdə ölkədə siyasi sabitliyin olmaması və Azərbaycan-Ermənistan münaqişəsi geniş həcmli xarici investisiyaların qoyulmasına imkan vermirdi. 1994-cü ilə qədər Azərbaycan iqtisadiyyatına az miqdarda xarici investisiya qoyulmuşdu. “*Əsrin Müqaviləsinin*” imzalanması ilə ölkəyə yönələn birbaşa investisiyaların həcmi kəskin artdı.

Azərbaycana yönələn xarici investisiyaların bəzi təsirləri “keçid iqtisadiyyatına malik ölkələrə” xas olan təsirlərə oxşayır. Belə ölkələrdə investisiya mühiti də bir-birinə çox oxşayır. İnvestisiya mühiti isə daha çox ölkənin malik olduğu siyasi, iqtisadi, sosial, coğrafi və sair amillərindən asılı olur. Keçmiş SSRİ-nin planlı iqtisadiyyatından təzəcə ayrılmış ölkələrin əksəriyyətində, o cümlədən Azərbaycanda əlverişli investisiya mühiti birdən-birə formalaşa bilməzdi. Çünki bu ölkələrin bəzilərində, məsələn, Azərbaycanda, Qazaxıstanda, Rusiyada investisiya potensialı olsa da, investisiya riski hələ yüksək idi. İnvestisiyaların qorunması və əlverişli biznes mühitinin yaradılması üçün zəruri olan qanunvericilik sistemi və dövlət idarəçiliyi hələ tam formalaşmamışdı. Bu ölkələrin əksəriyyətində siyasi sabitlik yox idi. Azərbaycanda xarici investisiyaların axını üçün zəruri olan siyasi sabitlik yalnız 1994-cü ildən sonra yarandı. Sonrakı illərdə də bu sabitliyin davamlı olması investisiyaların həcminə ciddi təsir göstərdi. Bunu investisiya mühitini qiymətləndirməklə məşğul olan beynəlxalq təşkilatların Azərbaycana verdikləri investisya reytinqləri də sübut edir.

Həm investorlar, həm də ölkələr üçün onların motivlərini müəyyən edən determinatorlar sistemi mövcud ola bilər. Məsələn, hər hansı ölkədə bazarın böyüklüyü, işçi qüvvəsinin ucuzluğu, təbii resursların ucuzluğu və zənginliyi və sair motiv üçün determinator ola bilər. Əgər Azərbaycanda neft gəlirlərinin perspektiv artımı olmasaydı iqtisadiyyatın digər sahələrinə, məsələn, Qaradağ sement zavoduna və ya tikinti sektoruna investisiya qoyuluşu da indiki həcmdə olmazdı. Həmçinin Azərbaycan neft və qazla zəngin olmasaydı, neft şirkətləri burada neft sənayesinə investisiya yatırmazdılar. Hər bir ölkə üçün elə özünəməxsus determinatorlar ola bilər ki, onlar ölkənin müqayisəli üstünlüyünü şərtləndirər və investisiya qoyuluşunun cəlb edilməsini stimullaşdırara. Əksər hallarda belə müqayisəli üstünlüklər həm də rəqabət üstünlüyünə çevrilərək ölkənin iqtisadi təhlükəsizliyinin təməlinə çevrilir.

Lakin nəzərə almaq lazımdır ki, investisiya mühitinin yaxşılaşdırılmasına yönələn belə determinatorlar xarici investorların yerli əhalinin maraqlarına zidd hərəkətlərinə şərait yaratmamalı və ya haqq qazandırmamalıdır. Məsələn, xarici investora münbit biznes mühitinin yaradılması onu ekoloji tələblərə əməl etməmək, insan

hüquqlarına, xüsusilə əmək hüquqlarına etinasız yanaşmaq səlahiyyəti verməməlidir.

Azərbaycanda son 20 ildə iqtisadi və siyasi vəziyyəti nəzərə alaraq, investorlar üçün cəlbedici olan əsas determinantları belə qruplaşdırmaq olar:

- Azərbaycanın müstəqilliyi və suverenliyi;
- Azərbaycanda siyasi sabitliyin və daxili təhlükəsizliyin təminatı;
- İnvestisiya qoyuluşuna hakimiyyət tərəfindən təhlükəsizlik təminatının verilməsi;
- Keçirilən iqtisadi, hüquqi, siyasi islahatların təhlükəsiz investisiya mühiti yaratması;
- Cəmiyyətdə təhsilin orta səviyyəsinin qənaətbəxş olması;
- Ölkədə mövcud infrastrukturların böyük qisminin investisiya qoyuluşu üçün yararlığı;
- İnvestisiyaların yönəldiyi sahələrdə təbii resurslarla zənginlik;
- İstehlak bazarına yaxınlıq və dünya birjalarına asan çıxış imkanları.

ABŞ Enerji İnformasiya İdarəsinin və BP-nin [**3**] məlumatlarına əsasən Azərbaycanın neft ehtiyatları 7 milyard barel həcmindədir. Neft ehtiyatlarının həcminə görə Azərbaycan ilk onluğa düşməsə də onun Xəzər regionundakı əlverişli coğrafi mövqeyi, neft hasilatı və emalın da tarixi imici xarici investorların və transmilli şirkətlərin diqqətini həmişə cəlb edib. Elə bu səbəbdən də hələ keçən əsrin 80-ci illərinin sonunda Qərbin bəzi neft şirkətləri Azərbaycan nefti ilə maraqlanmağa başladılar. Sovet İttifaqının dağılması isə onların regionda geniş miqyasda fəaliyyət göstərməsinə şərait yaratdı. Lakin müstəqilliyin ilk illərində regionda qeyri-sabitlik və investisya mühitinin normal olmaması transmilli şirkətlərin ölkə iqtisadiyyatına cəlb edilməsinə xeyli maneə yaratdı. 1992-ci ildən başlayaraq xarici investisiyaların cəlb edilməsi məqsədilə qəbul edilən qanunlar, xüsusilə 1993-cü ildən sonra ölkədə və regionda yaradılan sabitlik Azərbaycan iqtisadiyyatına, xüsusilə neft sektoruna xarici investisiyaların cəlb edilməsini sürətləndirdi.

Ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və biznes mühitinin yaxşılaşdırılması məqsədilə 1992-ci ildən indiyə qədər Milli Məclisdə 120-dən çox qanun qəbul edilib. "Xarici İnvestisiyaların qorunması haqqında" [4], "Torpaq islahatı haqqında" [5], "Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" [6] və Azərbaycan Respublikasının digər qanunları, həmçinin bu qanunlara edilən düzəlişlər Azərbaycanda xarici investisiyaların təşviqi və biznes mühitinin yaxşılaşdırılması üçün mühüm əhəmiyyətə malik oldular. Lakin xarici investisiyaların cəlb edilməsində mühüm rol 1994-cü ilin sentyabrında imzalanan "Əsrin Müqaviləsi" oldu. "Əsrin Müqaviləsi" nəinki xarici investisiyaların Azərbaycana cəlb edilməsində, həm də Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin təmin olunmasında mühüm tarixi hadisə idi. 1995-ci ildə qəbul edilən "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunu [7] və sonrakı illərdə qəbul edilən çoxlu sayda qanunlar Azərbaycanda xarici investorların geniş fəaliyyəti üçün hüquqi baza yaratdı.

2001-ci ildə yeni Vergi Məcəlləsinin qüvvəyə minməsi də xarici investisiyaların cəlb edilməsində mühüm rol oynadı. Bu Məcəlləyə əsasən fiziki şəxslərdən gəlir vergisi 40%-dən 35%-ə, hüquqi şəxslərdən isə 30%-dən 27%-ə, ƏDV isə 20%-dən 18%-ə endirildi. Azərbaycan hökuməti tərəfindən

xarici investisiyaların cəlb və təşviqi sahəsində davamlı çalışmalar öz nəticəsini verdi.

İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən 2003-cü ildə təsis edilən Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) xarici investorlar, yerli istehsalçılar və hökumət arasında körpü funksiyasını həyata keçirir. AZPROMO-nun missiyası iqtisadiyyatın balanslaşdırılmış inkişafı, Qeyri-neft sektoruna birbaşa xarici investisiyaların yatırılmasının təşviqi və ixrac yönlü sektorların inkişafı yolu ilə iqtisadi artımı təmin etməkdən ibarətdir [8].

Xarici investisiyaların cəlb edilməsi əsasən bir neçə amildən asılı olur. Hər şeydən əvvəl, ölkədə investisiya yatırımı investor üçün mənfəət gətirməlidir. İkincisi, ölkədə qoyulan investisiya təhlükəsiz şəraitdə yerləşməlidir. Üçüncüsü, investisiya fəaliyyəti üçün əlverişli biznes mühiti yaradılmalıdır. Dördüncüsü, kadr potensialı ilə bağlıdır. İnvestisiyaların cəlb edilməsi sahəsində ölkələrin bir-birindən fəqrli və müqayisəli üstünlüklərinin yaranması bu amillərdən asılı olur. Hər hansı ölkədə sadaladığımız amillər digərindən üstündürsə, orada müqayisəli üstünlüklər yaranır.

Hazırda ölkələrdə mövcud biznes mühiti ilə bağlı tədqiqatlar aparan bir neçə tanınmış beynəlxalq təşkilatlar var. Məsələn, Doing Business 189 ölkədə biznes mühiti ilə bağlı ölçüləbilən göstəricilər əsasında biznes mühitinin illik vəziyyətini qiymətləndirir. Bu göstəricilər əsasında ölkələrin sıralanması onlar arasında müxtəlif göstəricilərə görə müqayisəli üstünlükləri müəyyən etməyə imkan verir. Doing Business-in 2020-ci il sıralamasında Azərbaycan əksər göstəricilərdə əvvəlki illərə nisbətən xeyli irəliləyib. Məsələn, "biznes qurmağın asanlığı" göstəricisinə görə Azərbaycan 2014-cü ildə 189 ölkə arasında 80-cı yerdə, 2020-ci ildə isə 9-cu yerdə qərarlaşmışdı [9]. Bu göstərici üzrə Azərbaycan Gürcüstandan geri qalsa da əksər ölkələri, o cümlədən Rusiyanı, Belarusiyanı və Ukraynanı qabaqlayıb. Yaxud "kredit almaq haqqında məlumatların əlçatanlığı" göstəricisi üzrə Azərbaycan əksər ölkədən daha yüksək göstəriciyə malikdir. Əlbəttə, region ölkələri ilə Azərbaycanın "biznes mühiti" göstəricisini müqayisə edəndə Azərbaycanın daha sürətli islahatçı ölkə olduğu təsdiq edilir.

Ölkəyə daxil olan investisiyaların həcmi, şübhəsiz ki, investisiya azadlığı ilə bağlıdır. Sonuncu və digərlərindən az vacib olmayan daha bir amil insan kapitalı ilə bağlıdır. Azərbaycanda əhalinin demək olar ki, əksər hissəsinin orta təhsilli olması, müxtəlif sahələr üzrə, xüsusilə, neft, qaz hasilatı və emalı sahəsində bilik və bacarıqlara malik yüksək ixtisaslı kadrların olması, eləcə də əməyin ucuzluğu investorların ölkəyə marağına səbəb olur. Onlar yeni bilik və bacarıqlara yiyələnmiş kadrların asanlıqla yetişdirilməsinə, innovativ ideyaların asanlıqla tətbiqinə əmin olanda ölkəyə daha da maraq göstərirlər. Nəzərə almaq lazımdır ki, ölkəyə investisya axını, təkcə maliyyə axını deyil, həm də yeni texnika və texnologiya axını deməkdir. Belə texnika ilə işləməyi bacaran, həmçinin yeni texnologiyanı tətbiq etməyə bilik və bacarığı yetə bilən kadrlar olmazsa, investorlar xeyli çətinliklərlə üzləşə bilərlər. Odur ki, onlar ölkənin intelektual potensialından az xərclə səmərəli istifadə etməyə cəhd göstərirlər. Azərbaycanda neft və qaz sahəsində, həmçinin digər ənənəvi istehsal sahələrində, məsələn, kənd təsərrüfatında xeyli sayda yüksək ixtisaslı kadrların olması və əməyin ucuzluğu da Azərbaycanın xarici

investisya cəlb etməsi sahəsində müqayisəli üstünlüyü hesab oluna bilər.

2009-cu ilədək Azərbaycan iqtisadiyyatında BXİ daxili investisiyalarla müqayisədə üstünlük təşkil edib, lakin artan tendensiya müşahidə olunub. Sonrakı dövrlərdə isə daxili investisiyalar kəskin surətdə artıb. Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyaların sahəvi strukturu da maraqlı məlumatlar verir. Belə ki, 2008-ci ilədək neft sektoruna yönəldilən xarici investisiyalar qeyri-neft sektoruna cəlb edilən xarici investisiyaları üstələdiyi halda həmin ildən sonra vəziyyət dəyişib. 2008-ci ildən başlayaraq, xarici investisiyaların əksər hissəsi qeyri-neft sektoruna cəlb edilib.

**Cədvəl 1**

**BXİ bəzi makroiqtisadi göstəricilərə təsirinin toplu reqresiya analizi**

| | $GDP_t$ | | $GDPG_t$ | $EMP_t$ | | $HHRPC_t$ | $POV_t$ |
|---|---|---|---|---|---|---|---|
| DW-statistikası | 1.1416 | 1.6720 | 0.9140 | 0.7200 | 1.6800 | 0.6700 | 1.8300 |
| $R^2$ | 0.9248 | 0.8307 | 0.4433 | 0.1084 | 0.9521 | 0.8895 | 0.7787 |
| Müşahidələrin sayı | 24 | 23 | 24 | 24 | 24 | 24 | 23 |
| $a_1$ | | | | | | | |
| əmsal | 504.4179 | 2930.0030 | 5.7682 | 92.2767 | 109.6444 | 44.5491 | 5.8526 |
| Standart xəta | 4509.8540 | 3659.6500 | 4.4423 | 1.8754 | 190.7645 | 4.4790 | 1.3071 |
| t-statistika | 0.1118 | 0.8006 | 1.2985 | 49.2028 | 0.5748 | 9.9462 | 4.4775 |
| p-qiymət | 0.9121 | 0.4338 | 0.2097 | 0.0000 | 0.5753 | 0.0000 | 0.0008 |
| $a_2 - (GDP_{t-1})$ | | | | | | | |
| əmsal | 0.7971 | 0.5290 | 0.0000 | 0.0000 | 0.0343 | 0.0000 | 0.0000 |
| Standart xəta | 0.2111 | 0.2380 | 0.0002 | 0.0001 | 0.0072 | 0.0002 | 0.0000 |
| t-statistika | 3.7763 | 2.2227 | -0.1275 | 0.2370 | 4.7871 | -0.1875 | 0.1656 |
| p-qiymət | 0.0013 | 0.0393 | 0.8998 | 0.8152 | 0.0004 | 0.8542 | 0.8712 |
| $a_3$-$OILINV_{t-1}$ | | | | | | | |
| əmsal | -5.3754 | -5.6279 | 0.0024 | -0.0006 | -0.2106 | 0.0028 | 0.0007 |
| Standart xəta | 2.4852 | 2.6524 | 0.0024 | 0.0010 | 0.1012 | 0.0024 | 0.0009 |
| t-statistika | -2.1630 | -2.1219 | 1.0001 | -0.6126 | -2.0813 | 1.1827 | 0.8524 |
| p-qiymət | 0.0435 | 0.0480 | 0.3298 | 0.5474 | 0.0577 | 0.2581 | 0.4107 |
| $a_4$-$TFDI_{t-1}$ | | | | | | | |
| əmsal | 3.6100 | 4.8389 | -0.0014 | 0.0004 | 0.1429 | -0.0052 | -0.0016 |
| Standart xəta | 2.0362 | 2.2369 | 0.0020 | 0.0008 | 0.0796 | 0.0019 | 0.0007 |
| t-statistika | 1.7730 | 2.1632 | -0.7071 | 0.4980 | 1.7940 | -2.7897 | -2.1765 |
| p-qiymət | 0.0923 | 0.0442 | 0.4881 | 0.6242 | 0.0961 | 0.0153 | 0.0502 |
| $a_5$-$SFDİ_{t-1}$ | | | | | | | |
| əmsal | 193.6408 | 40.0938 | 0.2429 | 0.0257 | 13.7033 | -0.0633 | 0.1752 |
| Standart xəta | 168.0547 | 187.9912 | 0.1655 | 0.0699 | 5.6773 | 0.1333 | 0.0617 |
| t-statistika | 1.1522 | 0.2133 | 1.4675 | 0.3674 | 2.4137 | -0.4746 | 2.8376 |
| p-qiymət | 0.2635 | 0.8335 | 0.1586 | 0.7174 | 0.0313 | 0.6430 | 0.0150 |
| F-statistika | 58.3811 | 22.0875 | 3.7824 | 0.5775 | 64.6063 | 26.1703 | 10.5568 |
| F(ehtimal) | 0.0000 | 0.0000 | 0.0200 | 0.6825 | 0.0000 | 0.0000 | 0.0007 |

Bu onunla bağlıdır ki, 2008-ci ilə qədər "Əsrin Müqaviləsinin" tam həcmdə reallaşması və Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisi ilə bağlı zəruri olan infrastrukturlar 2004-ci ildə yekunlaşdığından sonrakı illərdə neft sektoruna qoyulan investisiyaların həcmində azalma müşahidə edilib [10]. Belə bir mənzərə MDB ölkələrində də müşahidə olunur. 2010-cu ildə digər MDB ölkələrində də investisiya qoyuluşlarının həcmində azalma müşahidə edilib. Belə ki, 2010-cu ildə

bu ölkələrdə xarici investisiya qoyuluşları 2009-cu illə müqayisədə 5% azalaraq 68 mlrd. dollar təşkil edib [11].

(2)-ci cədvəldə əldə edilən nəticələri nəzərə alaraq, demək olar ki, 5%-lik etibarlılıq intervalında Azərbaycanda ÜDM həcminin ölkəyə daxil olan investisiyaların həcmindən asılığını aşağıdakı model kimi ifadə etmək olar:

$$GDP_t - 0.429 * GDP_{t-1} = \underset{(0.238)}{0.529} * (GDP_{t-1} - 0.429 * GDP_{t-2}) - \underset{(2.652)}{5.628} * (OİLİNV_{t-1} - 0.429 * OİLİNV_{t-2}) + \underset{(2.2369)}{4.839} * (FDİ_{t-1} - 0.429 * FDİ_{t-2}) \quad (8)$$

Azərbaycanda ev təsərrüfatlarında adambaşına illik gəlirlərin ölkəyə daxil olan investisiyalardan asılılıq modelini 5%-lik intervalda kimi,

$$HHRPC_t = \underset{(0.0072)}{0.0343} * GDP_{t-1} + \underset{(5.6773)}{13.7033} * SFDİ_{t-1} \quad (9)$$

10%-lik intervalda isə

$$HHRPC_t = \underset{(0.0072)}{0.0343} * GDP_{t-1} \underset{(0.1012)}{-0.2106} * OİLİNV_{t-1} + \underset{(0.0796)}{0.1429} * FDİ_{t-1} + \underset{(5.6773)}{13.7033} * SFDİ_{t-1} \quad (10)$$

kimi ifadə edə bilərik.

Azərbaycana daxil olan xarici investisiyalar ölkədə milli yoxsulluq həddi ilə müəyyən edilən yoxsulluq səviyyəsinə də təsirsiz ötüşmür. Bu göstəricilər arasındakı toplu reqresiya əlaqəsinin modeli avtoreqresiyanın aradan qaldırılmasından sonra aşağıdakı formanı alır:

$$POV_t - 0.665 * POV_{t-1} = \underset{(1.3071)}{5.8526} - \underset{(0.0007)}{0.0016} * (FDİ_{t-1} - 0.665 * FDİ_{t-2}) + \underset{(0.0617)}{0.1752} * (SFDİ_{t-1} - 0.665 * SFDİ_{t-2}) \quad (11)$$

Nəzərdən keçirdiyimiz tənliklər əsasında toplu reqresiya analizi göstərir ki, Azərbaycanda iqtisadi artım və məşğulluq səviyyəsinin xarici investisiyalardan asılılığı zəifdir. Bunun bir neçə səbəbi ola bilər. Birincisi, ölkəyə daxil olan BXİ əsas hissəsi neft sektoruna yönəldiyindən və bu sektor əmək tutumlu deyil, daha çox kapital tutumlu olduğundan investisiyalar bu sektorda daha çox əsas kapitalın inkişafına və yeni texnologiyaların tətbiqinə sərf edilir. BXİ neft və qaz sektorunda məşğuluğun səviyyəsinə müəyyən təsir göstərsə də bütünlükdə iqtisadiyyatda belə təsirlər hiss ediləcək dərəcədə deyil. İkinci səbəb ondan ibarətdir ki, Azərnbaycanda məşğul əhalinin əsas hissəsi *"özüməşğul"* statusuna malikdir. Dünya Bankının məlumatlarına əsasən, 2017-ci ildə Azərbaycanda məşğul əhalinin yalnız 35% aylıq əmək haqqı ilə çalışıb. Son 25 ildə bu rəqəm 22%-dən 35% qədər artıb. ARDSK-nin

məlumatlarına əsasən neft-qaz sənayesində məşğul əhali ümumi məşğulların sayında cəmi 1% paya malikdir. Lakin nəzərə alsaq ki, neft-qaz sənayesindən gələn gəlirlər ölkədə digər sahələrin inkişafına dolayısı ilə təkan verir, onda məşğulluq səviyyəsinin də bu sektora yönələn BXİ-dan asılılığını gözləmək olardı. Lakin qeyd etdiyimiz səbəblərlə yanaşı gələn gəlirlərin fiskal siyasətlə yenidən bölgüsü nəticəsində BXİ-ın məşğulluğa təsiri hiss ediləcək səviyyədə olmur. Odur ki, bu göstəricilər arasındakı əlaqə üçün $H_0$- hipotezi özünü doğruldur.

BXİ-ın yoxsulluq səviyyəsinə təsirləri də mühüm problemdir. Tədqiqatlar göstərir ki, BXİ-ın səmərəli istifadəsi yoxsulluğun azaldılmasında mühüm əhəmiyyətə malikdir. Məsələn, V.Denisia [15], T.Sisili, D.Elango [16] tərəfindən aparılan tədqiqatlar BXİ-ı yoxsulluğun azaldılması üçün mühüm vasitə hesab edirlər. Tədqiqatlar göstərir ki, Azərbaycanda da yoxsulluğun azalmasında BXİ-ın mühüm rolu var. BXİ-ın yoxsulluğa təsiri müxtəlif ölkələrdə müxtəlif mexanizmlərlə reallaşır. Bu, daha çox BXİ-ın yönəldiyi sahələrin müxtəlifliyi ilə bağlıdır. Azərbaycanda BXİ-ın əsas hissəsi neft və qaz sektoruna yönəldiyindən bu sektorda yaradılan əlavə dəyər, ölkənin əldə etdiyi gəlirlərin Neft Fondunda toplanması və dövlət büdcəsi vasitəsilə yenidən bölgüsü BXİ-ın səmərəli istifadəsinə imkan yaradır. Belə ki, ölkəyə BXİ daxil olması hələ bu maliyyənin iqtisadi və sosial-iqtisadi təsirlərinin pozitiv olması demək deyildir. BXİ-ın iqtisadi təsirlərinin pozitiv olması və onun səmərəli istifadəsi hər bir ölkənin iqtisadi konyukturasından asılıdır.

**Nəticə**

(7) modelinə əsasən BXİ artdıqca ölkədə yoxsulluq səviyyəsinin aşağı düşməsi gözləniləndir. Azərbaycan iqtisadiyyatı üçün bu iki göstərici arasındakı ciddi reqresiya əlaqəsi göstərir ki, BXİ-ın azalması mütləq daxili investisiyalarla kompensasiya olunmalıdır. Əks halda, ölkədə yoxsulluq səviyyəsi arta bilər.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Lipsey, R.E. Foreign direct investment, growth, and competitiveness in developing countries // World competitiveness report, -2003. - p. 296.
2. State Statistical Committee of the Republic of Azerbaijan [Elektron resurs] / - URL: http://www.azstat.org
3. BP Statistical Review of World Energy: [Elektron resurs] / BP Corporation. URL: https://www.bp.com/content/dam/bp/business-sites/en/global/corporate/pdfs/energy-economics/statistical-review/bp-stats-review-2020-full-report.pdf
4. Xarici investisiyanın qorunması haqqında Azərbaycan respublikasının Qanunu / Bakı şəhəri, 15 yanvar 1992-ci il. № 57. qüvvəyə minib. Bu günə gədər 27 dəyişiklik və əlavələr olunub. URL: http://www.e-qanun.az/alpidata/framework/data/7/f_7000.htm
5. Torpaq islahatı haqqında Azərbaycan Respublİkasının Qanunu_/- Bakı şəhəri, 16 iyul 1996-cı il. № 155-IQ. qüvvəyə minib. http://www.e-qanun.az/framework/4207
6. Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu // 7 yanvar 1993-cü ildə qəbul olunub. - Bakı, - Qanunu,-1993 URL:http://www.e-qanun.az/framework/8062
7. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu //

Bakı şəhəri, 13 yanvar 1995-ci il. № 952 qüvvəyə minib. – URL:http://www.e-qanun.az/alpidata/framework/data/9/f_9367.htm)

8. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO): [Elektron resurs] / İqtisadiyyat Nazirliyi tərəfindən təsis olunub. URL: http://www.azpromo.az/about-us/mission-vision

9. Subnational Doing Business data available [Elektron resurs] / The World Bank. Doing Buiseness. URL: http://www.doingbusiness.org/rankings

10. Гюльалиев, М., Алиев, Р. Динамика и отраслевая структура иностранных инвестиций, направленных в экономику Азербайджана.// Север и рынок: формирование экономического порядка. 2016. Т. 1.№48. с. 38-46.

11. World Investment Report 2011., Non equity Modes of International Production and Development // UNCTAD,-2011. -p.12.

12. Alfaro, Laura, and Matthew Johnson. Foreign Direct Investment and Growth. Chap. 20 in The Evidence and Impact of Financial Globalization // - United Kingdom: Elsevier edited by Gerard Caprio, - 2012. - p.299–307

13. Kim, D.D. and J.S. Seo. Does FDI inflow crowd out domestic investment in Korea? // J. Econ. Stud., -2003. - 30,- p.605-622.

14. Denisia V. Foreign Direct Investment Theories: An Overview of the Main FDI Theories// European Journal of Interdisciplinary Studies, 2010, 2(2).-p.104-110.

15. Sisili, T., Elango, D. FDİ and its determinants of İndia // International Journal of Scientific & Engineering Research, IJSE,-2013. Volume 4, Issue 1. -12p.

**Mayis Gulalı oglu Gulaliyev**
Doctor of Sciences on Economics, associate professor

## Assessment of macroeconomic effects of foreign direct investments in Azerbaijan

**Summary**

The effects of foreign direct investments in Azerbaijan on various macroeconomic indicators, including the volume of GDP, economic growth, employment level, per capita income of households and poverty level were quantitatively evaluated in the article. The author concludes that as FDI increases, the poverty level in the country is expected to decrease. The serious relationship between FDI and poverty level for the economy of Azerbaijan shows that the reduction of FDI in any time must be compensated by domestic investments. Otherwise, the level of poverty in the country may increase.

**Keywords:** inclusive product; economic growth; employment level; per capita income in households; poverty level; foreign direct investment

**Маис Гюльалы оглы Гюльалиев,**
доктор экономических наук, доцент

## Оценка макроэкономических эффектов прямых иностранных инвестиций в Азербайджане

**Резюме**

В статье количественно оценено влияние прямых иностранных инвестиций в Азербайджане на различные макроэкономические показатели, включая объем ВВП, экономический рост, уровень занятости, среднедушевой доход домохозяйств и уровень бедности. Автор приходит к выводу, что по мере увеличения ПИИ ожидается снижение уровня бедности в стране. Серьезная связь между прямыми иностранными инвестициями и уровнем бедности для экономики Азербайджана показывает, что сокращение ПИИ в любой момент должно быть компенсировано внутренними инвестициями. В противном случае уровень бедности в стране может возрасти.

**Ключевые слова:** экономический рост; уровень занятости; доход на душу населения в домохозяйствах; уровень бедности; прямые иностранные инвестиции

**Daxil olub:** 15.02.2022

**Rumella Telman qızı Cəfərova, PhD**
Azərbaycan Memarlıq və İnşaat Universitetinin baş müəllimi

# TİKİNTİ İQTİSADİYYATININ ÖZƏLLİKLƏRİ VƏ ONUN İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ ÜÇÜN ƏSAS DETERMİNANTLAR

**Xülasə**

Məqalə tikinti sektorunun iqtisadi fəaliyyət sahəsi özünəməxsusluğuna və onun inkişafının qiymətləndirilməsi üçün əsas determinantların müəyyənləşdirilməsinə həsr edilib. Müəllif belə nəticəyə gəlir ki, tikinti sektorunun infrastruktur tipli məhsullarının iqtisadi artıma pozitiv təsirləri deməyə əsas verir ki, bu sector iqtisadi inkişafda mühüm əhəmiyyətə malikdir. İqtisadi ədəbiyyatda adambaşına təhsilin loqarifminin tikinti sektorunun ÜDM-da payı ilə əlaqəsi, tikinti sektorunda kapital yığımının adambaşına ÜDM həcmindən asılılığı və sair problemlər də tikinti sektorunun iqtisadiyyatın müxtəlif sahələrinə ciddi təsir etdiyini sübut edir. Bu elmi faktlar sübut edir ki, tikinti sektoru milli gəlirin və ölkədə əlavə dəyərin yaranmasında mühüm əhəmiyyətə malikdir.

**Açar sözlər:** tikinti sektoru, ÜDM, iqtisadi artım, istehsl gücləri, əsas fondlar

**UOT:** 332
**JEL:** L74

## Giriş

İqtisadi fəaliyyət sahələri arasında tikinti sektorunun iqtisadi artıma təsirləri problemi çox mübahisəli problemdir. Bu onunla bağlıdır ki, tikinti sektorunun özünəməxsusluğu var və onun iqtisadi artıma təsir mexanizmi bu özünəməxsusluqla bağlıdır. Biz tədqiqat zamanı tikinti sektorunun iqtisadi artıma və rifah səviyyəsinə təsirlərini qiymətləndirmək və qısa və uzunmüddətli dövrdə proqnozlaşdırmaq üçün bu sektorun özəlliklərini fərqləndirməli və əsas determinantlarını müəyyən etməliyik.

Qeyd edək ki, tikinti sektoru ilə bağlı statistik məlumatların verilməsi zamanı onun əsas determinantları kimi 1) Əsas kapitala yönəldilmiş vəsaitlər; 2) Tikinti-quraşdırma işlərinə sərf edilən vəsaitlər; 3) İnvestisiyanın texnoloji strukturu; 4) əsas fondlar; 5) istehsal gücləri; 6) Podrat müqavilələri ilə yerinə yetirilən tikinti işlərinin həcmi; 7) Yaşayış binalarında mənzillərin ümumi sahəsi; 8) Yaşayış evlərində mənzillər; 9) tikinti sektorunda məşğulların sayı və sair kimi göstəricilərdən istifadə edilir.

## Ədəbiyyata baxış

İqtisadi ədəbiyyatda tikinti sektorunun tərifi üç fərqli səviyyələrdə verilir [1]. Birinci yanaşmada tikinti sektoruna tikinti materiallarının istehsalından və ya tikinti üçün istifadə edilən xammaldan və tikinti ilə bağlı müxtəlif xidmət növlərinin təqdim edilməsindən tutmuş (məsələn, layihələşdirmə və ya layihənin idarə edilməsi) tikintinin reallaşdığı yerdə fiziki işlərin görülməsinə qədər bütün prosesləri əhatə edən iqtisadi fəaliyyət sahəsi kimi baxılır. Belə yanaşmada tikinti üçün zəruri olan təbii resursların hasilatı, tikinti materiallarının istehsalı və layihələndirmə tikintinin fiziki cəhətdə reallaşmasından xeyli əvvəl baş verir.

Digər yanaşmaya əsasən tikinti sektoru deyiləndə yuxarıda qeyd etdiyimiz dörd mərhələdən sonuncusu, yəni fiziki cəhətdən tikinti prosesinin reallaşması nəzərdə

tutulur. Bu halda tikintinin reallaşması üçün zəruri olan əvvəlki mərhələlərdə yerinə yetirilən işlər nəzərə alınmır. Qeyd edək ki, belə yanaşma BMT-nın klassifikasiyasına uyğundur [2] və ona görə də ölkə statistik məlumatlarında tikinti ilə bağlı yalnız son məhsulun göstəricilərinə üstünlük verilir. Belə təsnifata əsasən, tikinti sektoru binaların, qurğuların, yolların, körpülərin və sair tikintisi ilə bağlıdır. Tikinti materiallarının istehsalı, layihələşdirmə və arxitektura fəaliyyəti tikinti sektoru ilə bağlı statistik məlumatlarda əks olunmur. Buna görə də tikinti sektorunda məşğullar deyəndə statistika yalnız tikintinin fiziki cəhətdən reallaşdığı meydanda çalışan işçiləri nəzərdə tutur [3].

Tikinti sektoruna verilən üçüncü tərifə əsasən bu sektor layihələndirmədən başlayaraq fiziki cəhətdən reallaşana qədər olan bütün prosesləri əhatə edir. Əlbəttə bu yanaşmada tikinti materiallarının istehsalı və ya tikinti üçün zəruri olan təbii ehtiyatların hasilatı daxil deyil. Fikirimizcə, tikinti sektoru ilə bağlı daha geniş və detallı məlumatın əldə edilməsi üçün onun daha geniş tərfindən istifadə etmək daha faydalı olar. Məsələn, tikinti materiallarının istehsalı sahəsi ilə və ya belə məhsullar bazarı ilə bağlı məlumatlar olmadan tikinti sektorunun inkişafı ilə bağlı tam təsəvvür yaratmaq çətindir.

Tikinti sektorunun əsas xüsusiyyətlərini fərqləndirmək məqsədilə əvvəlcə tikinti sektorunda istehsal olunan məhsullarla tanış olaq. Bu məhsulların müəyyən edilməsi ona görə vacibdir ki, məhz bu məhsullara olan tələb və təklif əsasında sektoru qiymətləndirmək mümkün olur. Belə məhsullara olan tələb və təklif ə təsir edən amillər vasitəsilə biz tikinti sektoruna mümkün təsirləri müəyyən edə bilərik. BMT-nın təsnifatına əsasən tikinti sektorunun əsas məhsulları yaşayış və ofis binaları, mağazalar, müxtəlif təsərrüfat binaları, kənd təsərrfatı tikililəri, avtomagistral yollar, küçələr, tunellər, dəmir yolları, aeroportlar, körpülər, su təchizatı qurğuları, irriqasiya sistemləri, kanalizasiya sistemləri, sənaye obyektləri, boru kəmərləri, elektrik xəttləri, idman qurğuları, və sair hesab olunur. Belə məhsulların növünün çox olmasına baxmayaraq, bəzi tədqiqatçılar, məsələn, [4], [5] onları əsasən 1) yaşayış binaları; 2) infrastruktura; 3)sənaye və kommersiya binaları; 4)təmir və texniki xidmət kimi qruplara ayırırlar.

Şübhəsiz ki, bu məhsulları bir-birindən fərqləndirən və eyniləşdirən xüsusiyyətlər var. Məsələn, bu məhsulların hamısı daşınmazdır, uzunmüddətli istifadə üçün yaradılır. Digər tərəfdən, bu məhsulların hamısı yüksək dəyərə malikdir və böyük həcmdə maliyyə və əmək tutumlu olurlar. Lakin fərqli cəhətləri ondan ibarətdir ki, onlar fərdidir.

Tikinti sektorunun əsas məhsul qruplarından biri infrstrukturdur [6]. Tikinti sektorunun yaratdığı bu "məhsul" qrupu əsasən digər iqtisadi fəaliyyət sahələrinin inkişafına xidmət edir. Məsələn, yollar, körpülər, aeroportlar nəqliyyat sektorunun, irriqasiya sistemlərinin, su kanallarının və sair tikintisi kənd təsərrüfatının inkişafına dəstək verir. Tikinti sektorunun bu məhsul qrupu digər qruplardan onunla fərqlənir ki, əsasən ictimai mülkiyyətə daxil olur və dövlət tərəfindən idarə edilir. Elə buna görə də bəzi tədqiqatçılar, məsələn, [7] infrastrukturu "social xərc" hesab edirlər. Bəzən infrastruktur qrupuna məktəbləri, xəstəxanaları da daxil edirlər. Elektri enerjisi, telekommunikasiya, su təchizatı, kanalizasiya və sair kommunal xidmətlərlə bağlı olan tikintilər də infrastruktura daxil ola bilər. Lakin bəzi ölkələrdə bu növ infrastruktur

tikililər dövlət mülkiyyətində olmur. Dünya Bankının təsnifatına əsasən həm kommunal xidmətlərlə, həm də ictimai fəaliyyətlə, məsələn, yol tikintisi, irriqasiya və bənd tikintisi kimi layihələr də infrastruktur məhsullar qrupuna daxildir [8].

Tikinti sektorunun strukturunu əsasən bu sektorun məhsulunun xarakterinə uyğun müəyyən edirlər. Lakin təsnifləşdirməni başqa meyarlar əsasında da aparmaq olar. Məsələn, tikintinin coğrafi yerləşməsinə, və ya tikinti işinin mürəkkəbliyinə əsasən də təsnifləşdirmə aparmaq olar. Lakin fikirimizcə, tikinti sektorunun strukturunun məhsul tipinə görə təsnifləşdirilməsi daha doğrudur. Belə təsnifləşdirmə zamanı yaşayış binalarının, infrastruktur layihələri üzrə tikintilərin, sosial infrastruktur üçün binaların, kənd təsərrüfatı istehsalı üçün müxtəlif qurğuların və sair tikintisi üzrə strukturlaşma belə tikintilərin bu sahələrdə əlavə dəyərə təsirini qiymətləndirməyə imkan verə bilər. Ona görə də elə təsnifləşdirməyə üstünlük verilməlidir ki, sonrakı qiymətləndirmələr zamanı ondan istifadə etmək mümkün olsun.

Tikinti sektorunun mülkiyyət növünə görə təsnifləşdirilməsi də mümkündür. Bu halda tikinti sektorunda fəaliyyət göstərən dövlət şirkətləri və özəl şirkətlər əsasında təsnifləşdirmə aparmaq olar. Lakin əksər ölkələrdə tikinti şirkətləri istehsal etdikləri məhsula kimin sahiblik etməsindən asılı olamayaraq, özəl mülkiyyətə malik olurlar. Onların fəaliyyəti əsasən müxtəlif mülkiyyət sahiblərinin, məsələn, dövlət, özəl və bələdiyyə mülkiyyəti sahiblərinin sifarişi əsasında tikinti layihələrini yerinə yetirirlər. Tikinti şirkətlərinin rezident və ya qeyri-rezident olması əsasında da struktur bölgüsü aparmaq olar. Xüsusilə, son 50 ildə qloballaşma prosesinin genişlənməsi mal və xidmətlərin, həmçinin əmək miqrasiyasının ölkələrarası axınını genişləndirdiyi kimi, tikinti sektorunun da beynəlxalq əmək bölgüsündə iştirakını sürətləndirib. Yüksək ixtisaslı layihələndirmə və qurşdırma imkanlarına və təcrübəsinə malik olan şirkətlər müxtəlif ölkələrdə sifarişlər qəbul edərək tikinti işini həyata keçirirlər. Məsələn, keçən əsrin axırlarında keçmiş SSRİ respublikaları müstəqillik əldə etdikdən sonra bu ölkələrdə tikinti sektorunda fəaliyyət göstərən çoxlu sayda Türkiyə şirkətləri var idi. Yüksək mərtəbəli, yeni dizaynda və sürətli tikinti işinin Türkiyə mütəxəsisləri sovet mütəxəssislərindən daha yaxşı bilirdilər. Belə şirkətlər Azərbaycanda da fəaliyyət göstərirdi.

Tikinti sektorundakı fəaliyyətə təsir göstərən əsas amillər digər iqtisadi sektordakı amillərdən formaca ciddi fərqlənmir. Lakin mahiyyətcə fərqlilik mühümdür. Belə ki, bu sektorda da fəaliyyətə təsir göstərən əsas amillər tələb və təklifdir. Lakin tikinti sektorunda tələb digər iqtisadi sektorlardakından fərqli olaraq davamlı deyil. Demək olar ki, dünyanın bütün ölkələrində tikinti sektorunda tələb daim dəyişir və belə dəyişmənin müddəti uzun deyil. Həm Dünya Bankının [9], həm də BMT-nın tədqiqat qrupunun [10] gəldiyi nəticə ondan ibarətdir ki, istehsal sektorunda və bütünlükdə iqtisadiyyatda baş verən ən ciddi dəyişmələr tikinti sektorunda daha qabarıq hiss olunur. Bunun əsas səbəbi tikinti məhsullarına olan tələbin mahiyyəti ilə bağlıdır. Belə ki, tikinti sektorunun məhsullarına olan tələb digər sektorların inkişafında çox asılıdır. Tikinti sektorunun məhsulları investisiya mallarıdır. Belə məhsulların "istehlakçısı", məsələn, ev təsərrüfatının aldığı mənzil, biznesmenin aldığı ofis, aqrar firmanın sifariş etdiyi irriqasiya sistemi, dövlətin sifariş etdiyi körpü və ya magistral yol və sair əslində digər mal və xidmətlərin istehsalı,

yaxud rifah halının yaxşılaşdırılması üçün investisiyadır. Tikinti sektoru digər sektorlardan fərqli olaraq, özü özünə tələb yarada bilmir. Ona görə də iqtisadiyyatda tərəqqi və ya böhran tikinti sektorunda daha qabarıq əks olunur. Adi əmtəələrdən fərqli olaraq, tikinti sektorunun məhsulu adətən "istehlakçının" ona tələbatı yaranandan sonra sifariş olunur. Ona görə də digər əmtəələrdən fərqli olaraq, tikinti bazarında (yaşayış evlərinin tikintisi istisna olmaqla) hazır məhsullar yığılıb qalmır. Yaşayiş evlərinin tikintisində müəyyən fərqlilik var. Belə ki, bu məhsulların istehsalı ilə məşğul olan şirkətlər də əslində digər tikinti məhsulları istehsalı ilə məşğul olan şirkətlər kimi sifariş əsasında fəaliyyət göstərirlər. Lakin onlar bu sifarişi təqribən mövcud bazardan qəbul edirlər və əksər hallarda, riskləri azaltmaq üçün, mümkün sifarişdən daha az həcmdə məhsul (mənzillər) istehsal edirlər. Tikinti sektorunda şirkətlər digər sektorlardan fərqli olaraq, tələbə tez reaksiya verə bilmirlər. Məsələn, mənzil alışına tələb artdığı halda dərhal yaşayış binasını tikmək və mənzilləri satışa çıxarmaq mümkün olmur. Elə ola bilər ki, bina hazır olana qədər mənzillərə tələb azalsın.

Tikinti sektorunun inkişafına təsir edən mühüm amillərdən biri də iqtisadiyyatın bütünlükdə inkişaf səviyyəsidir. İqtisadiyyatın bütünlükdə inkişaf göstəricilərindən biri, məsələn, adambaşına ÜDM həcmi artan zaman tikinti sektorunun hər hansı bir məhsuluna tələbin həcmi də arta bilər. Dövlətin gəlirlərinin çoxalması infrastruktur layihələrinin genişləndirilməsinə, əhalinin gəlirlərinin artması yaşayış mənzillərinin tikintisinə, biznes strukturlarının gəlirlərinin artması ofislərin genişlənməsinə və ya yeni istehsal qurğularının yerləşdirilməsinə, zavod və ya fabriklərin tikintisinə stimul yarada bilər.

Son onilliklərdə inkişaf etməkdə olan ölkələrin bəzilərinin, xüsusilə, Cənubi Şərqi Asiya ölkələrinin, həmçinin neft və qazla zəngin olan ölkələrin sürətli inkişafı bu ölkələrdə infrastruktur layihələrinin genişlənməsinə təkan verib. Məhz inkişaf etməkdə olan ölkələr öz büdcələrində infrastruktur layihələrinə daha çox xərcləyirlər. Bu onunla bağlıdır ki, bu ölkələrin iqtisadi modellərinə əsasən infrastruktur layihələri iqtisadiyyatın davamlı inkişafı üçün əsas rolu oynayır.

Tikinti sektorunda dəyər yaradan əsas amillər, digər sektorlarda olduğu kimi, əmək, kapital, texnologiyadır. Bunların hər birinin müxtəlif modifikasiyası tikinti sektorunda xərclərin əsasını təşkil edir. Əmək amilinə təkcə fiziki əmək deyil, layihələndirmə və menecmenti əlavə etmək olar. Kapitala bütün əsas vəsaitləri, o cümlədən, materialları, müxtəlif texnika və cihazları da əlavə etmək olar. Texnologiyaya materialların və texnikanın yenilənməsini, tikinti prosesinin hər çür texnoloji inkişafını aid etmək lazımdır.

Tikinti sektorunda da əmək əsas istehsal amili olaraq qalır. Digər sektorlarla müqayisədə bu sector, orta hesabla daha az ixtisaslı əməklə xarakterizə olunur. Tikinti sektorunda məşğulları kvalifikasiyasına əsasən bir neçə qrupa ayırmaq olar: 1) inzibati işçilər; 2) menecerlər; 3) texniki heyət; 4) fiziki işləri yerinə yetirən fəhlələr. Aydındır ki, adətən sonuncu qrupda toplanan məşğulların sayı əvvəlkilərlə müqayisədə xeyli çox olur. Dördüncü qrupda toplanan əmək az ixtisaslıdır. Elə ona görə də bu sektorda məşğulluğun davamlılığı həmişə ciddi sual yaradır. Belə ki, tikinti məhsullarına tələbin daim dəyişkənliyi bu sektorda əməyə olan tələbi də həmişə dəyişkən edir. Tikinti sektorda əməyin mühüm hissəsi az ixtisaslı olduğundan tələbin azalması çoxlu

sayda insanın işsizliklə üzləşməsi deməkdir [11]. Digər tərəfdən, tikinti sektoru digər iqtisadi sektorlarla müqayisədə xeyli riskli sahədir. Bu səbəbdən də yüksək texniki ixtisaslı kadrlar üçün o qədər də cəlbedici deyil. Ona görə də tikinti sektoruna əməyin cəlbi üçün əsas mexanizm əmək haqqı hesab olunur. Bu sektorda əmək haqqı digər sektorlarla müqayisə ediləbiləcək dərəcədə olduqda, yuxarıda qeyd etdiyimiz səbəbdən, insanlar digər sektoru seçməyə cəhd edirlər. Əksər ölkələrdə minimum əmək haqqı səviyyəsinin müəyyən edilməsi də tikinti sektorunda aşağı ixtisaslı işçilərə verilən əmək haqqının müəyyən qədər artırılmasını tələb edir. Elə bu səbəbdən də tikinti sektorlarında əmək miqrantlarından daha çox istifadə edilir. Bəzi ölkələrdə belə miqrantlar işə qeyri-qanuni qəbul edilirlər və onlarla müqavilə bağlanmadığından onlara social ödənişlər edilmir. Belə hallar digər sektorlarla müqayisədə tikinti sektorunda daha çox rast gəlinən hallardır.

Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin tikinti sektorunun ixtisaslı əməklə təmin edilməsində xeyli problemlər var. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə tikinti sektorunda ixtisaslı əməyin ümumi əməkdə payı xeyli azdır. İnkişaf etmiş ölkələrdə bu təqribən 50% yaxın olur [12]. Bu problem aradan qaldırmaq üçün inkişaf etməkdə olan ölkələrdə tikinti sektorunda çalışanların əlavə təlimlərdən keçməsi əlavə xərclər tələb etdiyindən buna əksər hallarda getmirlər. İnkişaf etmiş ölkələrdə bu nisbətin bir qədər yüksək olmasına baxmayaraq, onlar hazır konstruksiyalardan istifadəyə üstünlük verərək, daha az ixtisaslı işçilərin sayını azaltmağa cəhd edirlər. Hər iki halda tikinti sektoru az ixtisaslı əməyin payının yüksək olması ilə xarakterizə olunur.

Tikinti sektorunda az ixtisaslı əməyə bəzi hallarda üstünlüyün verilməsi və bu halda tikinti üçün daha aşağı texnologiyadan və daha ucuz texnikadan istifadə xərclərlə və layihənin yerinə yetirilmə müddəti ilə də bağlı ola bilər. Belə ki, əgər şirkətin hər hansı layihəni yerinə yetirmək üçün maliyyəsi kifayət qədər yoxdursa və ya layihənin yerinə yetirlməsi müddəti kifayət qədərdirsə, onda şirkət daha ucuz əməkdən və ya texnikadan istifadəyə üstünlük verə bilər. Nəzərə alaq ki, bəzi ölkələrdə, xüsusilə, az gəlirli ölkələrdə əhalinin işlə təminatını nəzərə alaraq, tikinti sektorunda mexaniki işlərə daha az meyil edilir.

Tikinti sektorunun məhsullarının dəyərində əməyin dəyəri ilə yanaşı tikinti materiallarının dəyəri də mühüm paya malik olur [13]. Elə ona görə də tikinti materiallarının qiymətinin dəyişməsi tikinti sektorunun məhsullarının qiymətinə də təsir göstərir. Materialların qiyməti də bazarda onlara olan tələb və təkliflə birbaşa bağlıdır. Adətən tikinti materiallarının qiyməti keyfiyyətlə, layihələndirən şirkətin zövqü ilə də bağlı olur. Digər tərəfdən, tikinti materiallarının qiymətinin dəyişməsi iqtisadiyyatda gəlirlərlə də bağlıdır. Gəlirlərin artması bütün hallarda tələb əyrisini saga sürüşdürdüyü kimi, tikinti materiallarına olan tələbi də saga sürüşdürür. Təklifin sabit olduğu halda bu qiymətlərin artması deməkdir. Lakin tikinti materiallarının təklifi də mürəkkəb prosesdir. Belə ki, əksər hallarda tikinti materiallarının mühüm hissəsi idxal edilir. İdxal olunan materialların da qiymətinin daim artması hiss edilir. Idxal edilən tikinti materiallarını yerli materiallarla əvəzlənməsi digər iqtisadi fəaliyyət sahələrində olduğu kimi tikinti sektorunda da xeyli çətindir. Çünki inkişaf etməkdə olan ölkələrdə tikinti materiallarının istehsalı üçün tələb edilən texnologiya inkişaf etmiş ölkələrin-

dəkindən xeyli geri qalır. Bu, məhsulun keyfiyyətinə mənfi təsirlə yanaşı, həm də ətraf mühitə təsiri ilə də xarakterizə olunur. Yeni texnologiyalar adətən ekoloji tələbləri nə qədər mümkünsə nəzərə almaqla yaradılır və ona görə də daha baha başa gəlir. Digər tərəfdən belə texnologiyaların alınması və tətbiq edilməsi də əksər hallarda mümkün olmur. Ona görə ki, belə texnologiyalar adətən çox bahalı olur və onların rentabelliyi üçün geniş həcmdə istehsalın yaradılması zəruri olur. İnkişaf etməkdə olan ölkələrdə tikinti sektoru əksər hallarda elə yüksək səviyyədə olmur ki, istehsal edilən bütün mallar istifadə edilsin və ya ixrac olunsun. Bu halda qısa müddətdə belə yüksək texnoloji qurğular maya dəyərini qaytara bilmirlər. Ona görə də yüksək texnologiyalı tikinti materiallarının daxildə istehsalı əvəzinə onların idxal edilməsi ölkə iqtisadiyyatı üçün daha mənfəətli olur. Lakin idxal olunan materialların dəyərinin davamlı olaraq artması tikinti sektorunun məhsullarının da davamlı bahalaşmasına səbəb olur.

Tikinti materiallarının qiymətinə təsir göstərən mühüm amillərdən biri də idxal mallarına dövlət tərfindən qoyulan tariflərlə və ya qeyri-tarif məhdudiyyətlərlə bağlı ola bilər. Lakin bəzi hallarda dövlət bəzi tikinti materlallarının idxalını əksinə dəstəkləməli olur. Lakin bütün hallarda dövlətin bu prosesə müdafiləsi sonra tikinti materiallarının qiymətinin artmasına səbəb olur.

Tikinti sektorunu iqtisadiyyatın digər sektorları ilə fərqləndirən mühüm cəhətlərdən biri də maliyyələşmə ilə bağlıdır. Adətən digər sektorlarda istehsal prosesində zəruri amillərin əldə edilməsi və istifadəsi zamanı tələb olunan maliyyə istehsalçı tərəfindən təmin edilir. Məhsul istehsal edilərək, bazara çıxarılır və satılır. Satışdan əldə edilən gəlirlər xərclər çıxılandan sonra mənfəət olaraq, istehsalçının sərəncamında olur. Lakin tikinti sektorunda belə mexanizm işləmir. Belə ki, tikinti sektorunda hər hansı məhsulun istehsalı zamanı maliyyələşmə sifarişçi tərəfindən ödənilir. Məhsul sonra istehsal edilir. Əlbəttə, yaşayış binalarının tikintisi ilə bağlı bəzən istisnalar baş verir. Lakin bu halda da tikintinin sifarişçisi bu tikintini fiziki cəhətdən reallaşdıran şirkət olmur. Tikinti sektorunda hər hansı məhsulun istehsalı zamanı maliyyələşmə prosesində əsas fiqur olaraq podratçı çıxış edir. Subpodratçılar və təchizatçılar da maliyyə mənbəyi rolunu oynaya bilərlər. Əksər ölkələrdə, o cümlədən Azərbaycanda yaşayış binalarının tikintisi zamanı maliyyə mənbəyi kimi bankların verdiyi kreditlər və sifarişçilərin ilkin ödənişləri əsas rol oynayır. Lakin digər ölkələrdə olduğu kimi, Azərbaycanda da tikinti sektorunda maliyyələşmənin gecikməsi halları tez-tez baş verir. İnkişaf etməkdə olan ölkələrdə maliyyə vəsaitlərinin mütəmadi olaraq çatışmaması tikinti sektorunun inkişafına həmişə problem yaradır.

Tikinti sektorunun əsas məhsulları sırasında ictimai mülkiyyət hesab edilən və ayrı-ayrı fərdi biznes strukturların o qədər də maraq göstərmədiyi infrastruktur layihələrinin icra edilməsidir. Belə infrastruktur tikililərinin reallaşması əksər hallarda fərdi investorların maliyyə imkanları xaricində olur. Digər tərəfdən, infrastruktur layihələrindən ictimai istifadənin mümkünlüyü fərdi investisrlarda maraq yaratmır. Ona görə də belə layihələr adətən dövlət tərəfindən həyata keçirilir. Lakin ictimai mahiyyətli infrastruktur layihələrinin reallaşmasında beynəlxalq maliyyə qurumlarının dəstəyi də mümkündür. Dövlət belə infrastruktur layihələrini reallaşdırmaqla

dolayısı ilə iqtisadi inkişafa və rifah halının yüksəlməsinə şərait yaradır [14]. Başqa sözlə desək, infrastruktur layihələrinə tələbin obyekti dövlətdir. Lakin infrastruktur layihələrindən istifadə zamanı hər hansı biznes strukturunun daha çox faydalanması da mümkündür. Bu halda belə biznes strukturları belə layihələrin qısa müddətdə reallaşmasında və uzunmüddətli fəaliyyətində maraqlı olurlar. Belə infrastrukturların özəlləşdirilməsi zamanı ondan daha çox faydalanan və ya onun faydasından istifadə etmək imkanı olan biznes strukturların özəlləşdirmə prosesində üstünlük əldə etməyə çalışırlar.

Yuxarıda qeyd etdiyimiz kimi tikinti sektorunda istehsal edilən məhsullar digər məhsullardan fərqli olaraq, digər məhsulların istehsalı üçün və ya əhalinin rifahı üçün istifadə edilir. Lakin belə məhsulların istehsalı da məcmu istehsal prosesinin tərkib hissəsidir. Digər iqtisadi sektorlarda olduğu kimi tikinti sektorunda da istehsal gücü istehsal amillərinin istifadəsi ilə bağlıdır. Tikinti sektorunda tam istehsal həcmi bu sektorda istifadə edilən əmək və kapital kimi istehsal amillərinin tam məşğulluğundan asılıdır. İstehsal amillərinin dəyişməsi məhsul buraxılığında da özünün göstərir. İstehsalın genişlənməsi istehsalda məşğul insan resurslarının və ya fiziki resursların investisiyalar vasitəsilə genişlənməsini tələb edir. Lakin məcmu istehsal həcminin artması istehsal prosesində birbaşa istifadə edilən əsas kapitalın artımı ilə yanaşı həm də infrastrukturun inkişafını nəzərdə tutur.

İstehsalın genişlənməsi üçün nəzərdə tutulan investisiyadan əlavə infrastrukturun genişlənməsi və ya yenilənməsi üçün də investisiyaların yönəldilməsi vacibdir. Başqa sözlə desək, məcmu iqtisadiyyatın inkişafı üçün istehlak edilən konkret məhsulun istehsalı ilə yanaşı zəruri infrastrukturun da olması vacibdir. Məsələn, aqrar sektorda bazar üçün məhsul istehsal edən fermer öz təsərrüfatın genişləndirmək üçün yeni texnika üçün, məsələn, kombayn üçün investisiya yatırmaq istəyirsə, lakin yaxın ərazilərdə yanacaqdoldurma stansiyası və yaxud kombaynın gətirilməsi üçün yol infrastrukturu yoxdursa, onda belə investisiyanın yatırılmasının elə də əhəmiyyəti olmur. Belə hallara, demək olar ki, bütün iqtisadi fəaliyyət sahələrində rast gəlmək mümkündür. Idman turizminin, nəqliyyat xidmətlərinin, təhsil və səhiyyə xidmətlərinin və sair sahələrin inkişafı zəruri infrastruktur olmadan inkişaf edə bilməz. İnfrastruktur layihələri yalnız bir məhsulun deyil, çoxlu sayda məhsulun istehsal həcminin artmasına şərait yaradır.

Əgər fərz etsək ki, iqtisadiyyatda yalnız iki mal, məsələn, çörək və ət istehsal edilirsə, istehsal amillərinin sabitliyi şərtində onun hər hansı birinin istehsalının genişlənməsi digərinin istehsal həminin azalmasına səbən olacaq. Lakin infrastruktur layihəsinin inkişafı istehsal amillərinin inkişafına təkan verdiyindən hər iki malın mümkün istehsal həcmi də artacaq. Məsələn, həm çörəyin, həm də ət istehsalı ilə məşğul olan fermer təsərrüfatının elektrik enerjisi və su ilə təchizatı yaxşılaşdırılarsa, digər istehsal amillərinin sabitliyi şəraitində hər iki məhsulun parallel artıma nail olmaq olar. İnfrastruktur layihələrinin iqtisadiyyata təsirləri ilə bağlı çoxlu sayda empiric tədqiqatların nəticələri sübut edir ki, bu məqsədlə istifadə edilən investisiyalar istehsal imkanlarının sərhədini saga doğru sürüşdürür. İnfrastruktura yönəldilən investisiyalar yalnız bir sahənin deyil, iqtisadiyyatın müxtəlif sahələrinə pozitiv təsir göstərə bilər. Məsələn, aqrar sektorun inkişafı üçün irriqasiya sistemi üçün yatırılan investisiyalar nəinki o ərazilərdə əkinçiliyin

inkişafına, həmçinin əhalinin məskunlaşmasına, ev təsərrüfatlarının həyat keyfiyyətinin yüksəlməsinə və gəlirlərin artmasına şərait yarada bilər.

Əslində infrastruktur layihələrinə yönələn investisiyalar vasitəsilə istehsal imkanlarının sərhədinin saga sürüçməsi konkret məhsulların istehsalı üçün vacib olan istehsal amillərinin məhsuldarlığını artırır. Yuxarıda qeyd etdiyimiz misaldan göründüyü kimi, irriqasiya sisteminin və ya elektrik enerjisi xəttlərinə qoşulma torpağın keyfiyyətini yaxşılaşdırmaqla yanaşı, o ərazilərdə əhalinin həyat şəraitinin yaxşılaşmasına, daha yüksək ixtisaslı kadrların yetişdirilməsinə və əraziyə yeni investisiyaların cəlb edilməsinə şərait yaradır. Bu isə "zəncirvari" təsirlər yaradaraq, ərazinin bütünlükdə inkişafına şərait yaradır.

İqtisadi ədəbiyyatda infrastruktur layihələrinin məcmu iqtisadiyyata təsirləri ilə bağlı çoxlu sayda tədqiqata rast gəlinir. Belə tədqiqatlar hələ keçən əsrin səksəninci illərindən başlayaraq aparılıb. Bəzi tədqiqatlar konkret infrastruktur növlərinin iqtisadi inkişafa təsiri üzrə aparılıb. Tədqiqatların əsas nəticələri ondan ibarətdir ki, inkişaf etmiş ölkələrdə infrastruktur layihələrinin gəlir normaları inkişaf etməkdə olan ölkələrlə müqayisədə daha yüksəkdir. Nəqliyyat infrastrukturunun iqtisadiyyata təsirlərinin qiymətləndirilməsi üzrə aparılan tədqiqatların nəticələrinə əsasən belə infrastruktur layihələri iqtisadi fəaliyyətin səmərəliliyini artırır. Belə nəticələr rabitə sisteminin məcmu iqtisadiyyata təsirləri üzrə aparılan tədqiqatlarda da alınıb.

Tikinti sektorunu xarakterizə edən mühüm determinantlardan biri də bu sektorda məşğulluğun səviyyəsidir. Tikinti sektorunun iqtisadi inkişafda rolunun yüksək olması həm də bu sektorda məşğulluğun yüksək səviyyəsi ilə bağlıdır. Əksər ölkələrdə, xüsusilə, inkişaf etməkdə olan ölkələrdə məşğulluq problemlərinin həlli üçün dövlət tikinti sektorundan istifadə edir. Çünki bu sector daha çox əmək tutumludur.

**Nəticə**

Tikinti sektorunun infrastruktur tipli məhsullarının iqtisadi artıma pozitiv təsirləri deməyə əsas verir ki, bu sector iqtisadi inkişafda mühüm əhəmiyyətə malikdir. İqtisadi ədəbiyyatda adambaşına təhsilin loqarifminin tikinti sektorunun ÜDM-da payı ilə əlaqəsi, tikinti sektorunda kapital yığımının adambaşına ÜDM həcmindən asılılığı və sair problemlər də tikinti sektorunun iqtisadiyyatın müxtəlif sahələrinə ciddi təsir etdiyini sübut edir. Bu elmi faktlar sübut edir ki, tikinti sektoru milli gəlirin və ölkədə əlavə dəyərin yaranmasında mühüm əhəmiyyətə malikdir. Dünya bankının məlumatlarına əsasən tikinti sektorunda yaranan əlavə dəyərin məhsul həcminə nisbəti emal sənayesində olduğundan xeyli yüksəkdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Giang Dang, Low Sui Pheng, 2015. Infrastructure Investments in Developing Economies: The Case of Vietnam. Springer, Singapore. https://doi.org/10.1007/978-981-287-248-7

2. United Nations. (1990). *Economic and social survey of Asia and the Pacific 1990*. New York: United Nations.

3. Ive, G., & Gruneberg, S. L. (2000). *The economics of the modern construction sector*. Basingstoke: Macmillan.

4. Gruneberg, S. L. (1997). *Construction economics: An introduction*. Basingstoke: Macmillan.

5. Wells, J. (1986). *The construction industry in developing countries: Alternative*

*strategies for development*. London: Croom Helm.

6. Dang, T. H. G., & Low, S. P. (2011). Role of construction in economic development: Review of key concepts in the past 40 years. *Habitat International, 35*(1), 118–125.

7. Howes, R., & Robinson, H. (2005). *Infrastructure for the built environment: Global procurement strategies*. Oxford: Butterworth-Heinemann.

8. World Bank. (1994). *World development report 1994: Infrastructure for development*. Washington, D.C.: World Bank.

9. World Bank. (1984). *The construction industry, issues and strategies in developing countries*. Washington, D.C.: World Bank.

10. United Nations. (1976). *Long-term prospects and policies in the construction sector*. New York: United Nations.

11. International Labour Office. (2001). *The construction industry in the twenty-first century: Its image, employment prospects and skill requirement*. Geneva: International Labour Organization.

12. Moavenzadeh, F. (1978). Construction industry in developing countries. *World Development, 6*(1), 97–116.

13. Ive, G., & Gruneberg, S. L. (2000). *The economics of the modern construction sector*. Basingstoke: Macmillan.

14. Howes, R., & Robinson, H. (2005). *Infrastructure for the built environment: Global procurement strategies*. Oxford: Butterworth-Heinemann.

**Rumella Telman qızı Jafarova, PhD**
Azerbaijan University of Architecture and Construction

## Features of the construction economy and the main determinants for assessing its development

### Summary

The article is devoted to the specificity of the economic activity of the construction sector and the identification of the main determinants for the assessment of its development. The author comes to the conclusion that the positive effects of infrastructure-type products of the construction sector on economic growth suggest that this sector has an important role in economic development. In the economic literature, the relationship between the logarithm of per capita education and the share of the construction sector in GDP, the dependence of capital accumulation in the construction sector on the volume of GDP per capita, and other problems prove that the construction sector has a serious impact on various areas of the economy. These scientific facts prove that the construction sector has an important role in the creation of national income and value added in the country.

**Keywords**: *construction sector, GDP, economic growth, fixed assets.*

**Румелла Телман кызы Джафарова, PhD**
Азербайджанский Университет Архитектуры и Строительства

## Особенности строительной экономики и основные детерминанты оценки ее развития

### Резюме

Статья посвящена специфике строительной отрасли и выявлению основных детерминантов для оценки ее развития. Автор приходит к выводу, что положительное влияние продукции инфраструктурного типа строительного сектора на экономический рост свидетельствует о том, что этот сектор играет важную роль в экономическом развитии. В экономической литературе связь между логарифмом образования на душу населения и долей строительного сектора в ВВП, зависимость накопления капитала в строительном секторе от объема ВВП на душу населения и другие проблемы доказывают роли строительного сектора в экономике. Эти научные факты доказывают, что строительный сектор играет важную роль в создании национального дохода и добавленной стоимости в стране.

**Ключевые слова**: *строительная отрасль, ВВП, экономический рост, производительные мощности, основные фонды.*

**Daxil olub:** 12.02.2022

**Elçin Ramiz oğlu Mustafayev, PhD**
Azərbaycan Texniki Universiteti

# AZƏRBAYCANDA BOEM ÜZRƏ DÖVLƏT TƏNZİMLƏMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə bərpa olunabilən enerji mənbələrindən istifadənin genişləndirilməsi üçün dövlət tənzimləməsinin əsas istiqamətləri tədqiq edilib. Müəllif belə tənzimləmənin vacibliyini əsaslandıraraq, onun əsas istiqamətləri kimi institusional tədbirlərin həyata keçirilməsini, bu sahəyə yönəldilən dövlət investisiyaların həcminin artırılmasını, BOEM-dən istifadə edən istehlakçıların stimullaşdırılmasını və BOEM-dən enerji istehsalçılarına müxtəlif maliyyə dəstəyinin, o cümlədən vergi güzəştlərinin verilməsini təklif edir.

**Açar sözlər:** *BOEM, günəş enerjisi, külək enerjisi, investisiya, "tələbin inflyasiyası", "texnoloji təkan"*

**Giriş:** *Enerji sahəsində dövlət tənzimləməsi*

Dövlətin müdaxilə etdiyi iqtisadi sahələrdən ən mühümü enerji sahəsidir. Enerjinin iqtisadi inkişafda və cəmiyyətin həyatında mühüm rolunu nəzərə alaraq, bütün ölkələrdə dövlət, bu və ya digər səviyyədə, enerji sektorunun fəaliyyətinə müdaxilə etməyə məcburdur. Elə buna görə də əksər ölkələrdə enerji sektoru bütünlükdə dövlətin inhisarında olan sahədir. Lakin ölkənin inkişaf səviyyəsindən asılı olaraq, enerji sektorunun müəyyən hissəsi özəl sektor tərəfindən də idarə edilir. Məsələn, elektirk enerjisi sektorunun istehsal, nəql, paylanma və satış mərhələlərindən hər hansı birinin və bir neçəsinin özəlləşdirilməsi praktikası geniş yayılıb.

Dövlətin enerji sektorunun fəaliyyətinə müdaxiləsinin bir neçə mühüm səbəbləri var. Bu səbəblərdən ən mühümü onun istehsalının böyük həcmdə investisiya tələb etməsidir. Digər səbəb onun strateji əhəmiyyəti ilkə bağlıdır. Bütünlükdə bu səbəbləri enerjiyə olan tələb və təklif ilə əlaqələndirmək daha doğrudur. Enerji təklifi ilə bağlı səbəblərdən biri ondan ibarətdir ki, enerji starateji əhəmiyyət daşıması və onun davamlı və təhlükəsiz olaraq təmin edilməsinin zəruriliyi dövlət zəmanəti tələb edir. İkincisi, qeyd etdiyimiz kimi, onun enerji istehsalı, ötürülməsi və paylanması böyük həcmdə investisiyaların qoyulmasını tələb etdiyindən yalnız dövlət vəsaiti ilə onun tam təmin edilməsinə nail olmaq mümkündür. Özəl investisiya daha tez və əlavə mənfəətlə geri qaytarılmasını nəzərdə tutur. Bu isə əksər hallarda enerji sektorunda monopoliyanın yaranmasına və qiymətlərin kəskin artmasına səbəb olur. Dövlət monopoliyası isə əhalinin sosial müdafiəsi, həmçinin biznesin inkişafı naminə qiymətlərin artmasını deyil, əksər hallarda, bazar qiymətləri ilə müqayisədə daha aşağı qiymətləri müəyyən edir. Enerjiyə olan tələblə bağlı dövlət müdaxiləsinin əsas səbəblərdən biri əhalinin sosial rifahı ilə əlaqəlidir. Belə ki, əksər hallarda enerjinin istehlak qiymətlərinin bazarla müəyyən edilməsi əhalinin sosial rifah halına mənfi təsir etdiyindən bu qiymətlərin dövlət tərəfindən aşağı səviyyədə saxlanılması zəruri olur.

Son onilliklərdə karbohidrogen ehtiyatlarının sürətlə azalması və enerjiyə olan tələbatın artması bərpa olunabilən enerji

mənbələrindən istifadənin dövlət tərəfindən dəstəklənməsini zəruri edib. Belə ki, BOEM-nin hər bir növünün inkişafı üçün böyük həcmdə investisiya ilə yanaşı, həm də özünəməxsus infrastruktur lazımdır. Belə infrastrukturun yaradılması üçün tələb olunan institusional çərçivə, ərazinin ayrılması və əldə edilən enerjinin standartlara uyğunlaşdırılması dövlətin dəstəyi olmadan mümkün deyil.

Odur ki, BOEM ilə bağlı dövlətin enerji sektoruna müdaxiləsi bərpa oluna bilən enerji mənbələrinin inkişaf etdirilməsi və davamlı enerji təminatının yaradılması üçün zəruri addımların atılması ilə bağlıdır. Dövlət zəruri hüquqi çərçivənin yaradılması, tələb olunan investisiyaların və subsidiyaların ayrılması, həmçinin vergi güzəştlərinin tətbiq edilməsi və sair tədbirlər vasitəsilə bu fəaliyyəti həyata keçirir. Dövlət enerji sektorunda bazarın səmərəli fəaliyyəti üçün zəruri olan fəaliyyəti, o cümlədən, ədalətli rəqabətin təmin edilməsini də həyata keçirə bilər. Ümumiyyətlə desək, dövlətin enerji sektorunu tənzimləməsi iqtisadi səmərəliliyin təmin edilməsi ilə yanaşı, həm də iqtisadiyyatın və cəmiyyətin davamlı və keyfiyyətli enerji ilə təmin olunması, istehlakçıların daha aşağı qiymətlə enerjiyə əlçatanlığının təmin edilməsi, ətraf mühitin çirklənməsinin qarşısının alınması, enerji təminatında sosial ədalətin təmin edilməsi və sair kimi məqsədlərlə həyata keçirilir.

Enerji sektorunun dövlət tərəfindən tənzimlənməsi digər iqtisadi sektorlarda olduğu kimi iki bir-birinə zidd mənafelərin uzlaşdırılmasını tələb edir. Belə ki, enerji bazarının tənzimlənməsi də bu sektorda mülkiyyət məsələlərinin, qiymətlərin, lisenziyalaşdırmaların, məşğulluq şərtlərinin və sair problemlərin həlli ilə bağlıdır. Enerji sistemlərinin bütün halqələrinin deyil, yalnız müəyyən həlqələrinin özəlləşdirilməsi və hər hansı həlqənin dövlət nəzarətində olması, yaxud enerji qiymətlərinin dövlət tərəfindən müəyyənləşdirilməsi, bu sektorda hər hansı fəaliyyətin yerinə yetirilməsi üçün lisenziyaların tələb olunması və sair tədbirlər istehsalçı və istehlakçı maraqları arasında müəyyən ziddiyyətlər yaradır.

Enerji sektorunda yeni texnologiyaların tətbiqi, xüsusilə, alternativ və bərpa olunabilən enerji mənbələrindən istifadəyə keçid qiymətlərin artması ilə və istehlakçıların əlavə xərcləri ilə müşaiyət olunduğundan əksər hallarda dövlət istehlakçıların mənafeyindən çıxış etməli olur. Bu isə alternativ və bərpa oluna bilən enerji mənbələrinin inkişafını ləngidir. Lakin nəzərə alınmalıdır ki, uzun müddətli dövr üçün texnologiyaların inkişafı və karbohidrogen ehtiyatlarının sürətlə azalması nəticəsində bərpa ediləbilən enerji mənbələri vasitəsilə istehsal olunan enerji daha ucuz, karbohidrogen ehtiyatlarından alınan enerji isə daha baha başa gələ bilər. Digər tərəfdən, əhalinin həyat səviyyəsinin durmadan yüksəlməsi kontekstində enerji qiymətlərinin artması alternativ və bərpa olunabilən enerji istehsalı ilə əlaqəli olan yeni iş yerlərinin yaranması və ətraf mühitin qorunması ilə müşaiyət olunduğundan balanslaşmış ola bilər.

Alternativ və bərpa olunabilən enerji mənbələri əsasən elektrik enerjisi istehal etdiyindən biz tədqiqat zamanı elektrik enerjisi sisteminin dövlət tərəfindən tənzimlənməsinə xüsusi diqqət yetirəcəyik. Qeyd edək ki, elektrik enerjisi sistemi ölkədən-ölkəyə fərqlənir. Bu fərqlərin əsasında elektrik enerjisi bazarında rəqabət mühitinin səviyyəsi, sistemin şaquli və ya üfiqi inteqrasiya dərəcəsi, elektrik sistemində dövlət-özəl sahibkarlığının nisbəti mühüm əhəmiyyət daşıyır.

Elektrik enerjisi sənayesinin dövlət tənzimlənməsi bu sənayenin istehsaldan

istehlaka qədər olan bütün mərhələlərində, o cümlədən, istehsal, ötürmə, paylanma və satış mərhələlərində mümkündür. Lakin hər bir mərhələdə dövlət tənzimləməsinin mahiyyəti və forması fərqlidir. Belə ki, bu mərhələlərin hər birində tənzimləmə səviyyəsi fəaliyyəti həyata keçirən sahibkarlıq subyektinin özəl və ya dövlətə məxsus olmasından çox asılıdır. Hətta ola bilər ki, bu mərhələlərin hamısı bir sahibkarlıq subyektinə, məsələn dövlətə məxsus olsun (məsələn, Azərbaycanda). Dünya təcrübəsi göstərir ki, sadalanan dörd mərhələnin bütünlükdə və ya müəyyən nisbətdə özəl və dövlət sahibkarlıq subyektləri arasında paylanması hallarına daha çox rast gəlinir. Məsələn, Braziliyada, Peruda, Filippində və Türkiyədə elektrik enerjisinin ötürülməsi və paylanması funksiyası əsasən özəl şirkətlərin nəzarətinə verilib [1]. Dünya təcrübəsi göstərir ki, elektrik enerjisinin sadalanan mərhələlərindən hər hansı birinin dövlət nəzarətində saxlanması onun istehlak qiymətlərinə müəyyən qədər təsir etmək imkanı yaradır. Dünya təcrübəsi həmçinin sübut edir ki, elektrik enerjisinin hansı yolla istehsal edilməsindən asılı olmayaraq, dövlət-özəl əməkdaşlığı bu sektorun inkişafını stimullaşdırır.

Enerji sektorunda dövlət tənzimlənməsinin mühüm motivlərindən biri ətraf mühitin çirklənməsi ilə bağlıdır. Belə ki, elektrik enerjisinin və nəqliyyat xidmətlərinin istehlak həcminin artması karbohidrogen ehtiyatlarından istifadə həcmini də ilbəil artırır. Bu isə ətraf mühitə atılan karbon dioksidin həcmini yol verilə bilən ölçüdən xeyli artırıb. Ekoloji problemlərin kəskinləşməsi enerji sektorunun nəinki ayrıca ölkə səviyyəsində, hətta qlobal səviyyədə tənzimlənməsini tələb edir. Hər bir ölkə enerji istifadəsinin səmərəliliyini və bərpa oluna bilən enerji mənbələrindən istifadə istiqamətində öz səyini artırmaqla həm enerji təhlükəsizliyini təmin etməyə, həm də ekoloji problemlərin həllinə çalışır. BOEM-nin dövlət tərəfindən tənzimlənməsi tədbirləri müvafiq strateji yol xəritələrinin işlənməsindən tutmuş, konkret fəaliyyət planına qədər geniş spektri əhatə edir.

***BOEM sektorunda dövlət tənzimlənməsi təcrübəsi (ədəbiyyata baxış)***

Hələ keçən əsrin axırlarında iqtisadi araşdırmalar sübut edirdi ki, yaxın onilliklərdə enerjiyə qlobal tələb həcmi ilə neft və qaz təklifi arasında ciddi fərqlər yaranacaq və mövcud tələb həcmi təklif həcmini ciddi fərqlə üstələyəcək [2]. Bu fərqi aradan qaldırmaq üçün enerjidən istifadənin səmərəliliyinin artırılmasına, bərpa oluna bilən enerji mənbələrindən istifadənin artırılmasına ehtiyac var. F.Varela (2006) öz tədqiqatlarında bərpa oluna bilən enerji mənbələri arasında külək enerjisinin daha əlverişli olduğunu xüsusi qeyd edir. Onun iddiasına əsasən, külək enerjisinin əldə edilməsi zamanı ətraf mühitə daha az ziyan vurulur və daha az xərc tələb olunur. Beynəlxalq Enerji Agentliyi (İEA) də enerji təhlükəsizliyinin təmin edilməsi üçün bərpa olunabilən enerji mənbələrindən istifadənin zəruriliyini təsdiq edərək, bu tip enerjinin istehsal edilməsinin ənənəvi enerji istehsalından bir neçə üstünlüyünü, o cümlədən, onun istehsalında, ötürülməsində və paylanmasında mərkəzləşdirilmiş geniş infrastrukturun tələb olunmamasını qeyd edir [3]. Kiçik həcmli külək generatorları, yaxud günəş batereyaları vasitəsilə alınan enerji lokal ərazilərdə enerji təhlükəsizliyinin təmin edərəklə yanaşı, həm də uzaq məsafələrdən onun ötürülməsi üçün tələb olunan xərclərə qənaət etməyə imkan verir. Bərpa olunabilən enerji mənbələrində istehsal olunan elektrik enerjisinin də geniş infrastrukturda birləşdirilməsi və müəyyən məsafəyə ötürülməsi imkanları getdikcə

inkişaf edir [4]. Məsələn, Texasda 781 MW gücündə, Böyük Britaniyada 1000 MW gücündə külək generatorları sistemi elektrik enerjisi istehsal edir.

İqtisadi ədəbiyyatda BOEM-nin vacibliyi və onun genişləndirilməsinin zəruriliyi heç bir tədqiqatçı tərəfindən şübhə altına alınmır. Əsas diskussiya onun inkişaf etdirilməsi üçün hansı tədbirlərin görülməsi ilə bağlıdır. Belə ki, BOEM-nin texnoloji cəhətdən inkişaf etdirilməsi iqtisadi mahiyyətli digər tədbirlərin, o cümlədən, elmi-texniki tədqiqatlar üçün, həmçinin BOEM-nin quraşdırılmasında və istifadəsində innovativ yanaşmalar üçün investisiyaların yönəldilməsini tələb edir. Bu isə enerji bazarına dövlət müdaxiləsinin nə dərəcədə olmasını və hansı sahələri əhatə etməsini tələb edir. R&D üçün davamlı maliyyə vəsaitlərinin ayrılması, BOEM qurğularının istehsalı üçün tələb olunan infrastrukturun yaradılması, BOEM qurğularının yerləşdirilməsi üçün ərazilərin müəyyən edilməsi və özgəninkiləşdirilməsi, istehsal olunan enerjinin rentabelliyinin təmin edilməsi üçün dövlət yardımlarının və ya stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi və sair addımlar BOEM-in inkişafında mühüm mərhələlərdir.

Müxtəlif ölkələrdə BOEM-n inkişafı üzrə dövlət tənzimlənməsinin təsnifləşdirilməsi bəzi standart formaları fərqləndirməyə imkan verir. Bu formalardan birincisi enerji sisteminin müəyyən səviyyədə özəlləşdirilməsidir. İqtisadiyyata müdaxilənin vacibliyini əsaslandıran Keyns nəzəriyyəsinin oponentləri kommunal sistemə belə müdaxilələrin olmasını investisiyaların azalmasının əsas səbəbi kimi qiymətləndirirlər [5]. Son onilliklərdə artıq tədqiqatçılar əmindirlər ki, kommunal sistemlərin, o cümlədən elektrik enerjisi sisteminin özəlləşdirilməsi və bu sistemdə dövlət-özəl əməkdaşlığının genişlənməsi vacibdir [6]. Elektrik sistemləri infrastrukturunun idarəedilməsində dövlət-özəl əməkdaşlığı getdikcə BOEM sistemini də əhatə edir. Bu problem də akademik tədqiqatların predmetidir.

BOEM-nin inkişafı tədbiq edilən dövlət siyasətinin mahiyyəti ölkədən ölkəyə dəyişir. Bu sahədə universal yanaşmaların olmaması səbəbindən hər hansı bir ölkədə tətbiq edilən siyasət uğurlu, digərində isə uğursuz ola bilər. Digər tərəfdən, hətta uğurlu təcrübənin yerli iqtisadi konyukturanı nəzərə almadan tətbiqi uğursuzluğa gətirə bilər. Ona görə də BOEM üzrə dövlət tənzimləməsi tədbirləri yerli şəraitin təbii, iqtisadi, sosial, ekoloji və hətta psixoloji xüsusiyyətlərini nəzərə almalıdır. Belə ki, rəqabətli enerji bazarı formalaşanda istehlakçı ona lazım olan miqdarda enerjini əldə etmək üçün enerji satıcıları arasında seçim imkanı qazanır. ABŞ-ın, Almaniyanın və Niderlandın təcrübəsi göstərir ki, istehlakçılar arasında BOEM-dən istifadə etmək istəyənlərin sayı o qədər də çox deyil [7]. Ona görə də bəzi tədqiqatçılar, məsələn, M. Jegen və R.Uüstenhagen, BOEM-in inkişafı istiqamətində mühüm addımlardan biri kimi qiymətlərin azaldılması istiqamətində istehsalçılara müəyyən vergi güzəştlərinin edilməsini, yaxud istehlakçılara müəyyən alış güzəştlərinin tətbiqini təklif edirlər [8]. BOEM-in inkişaf etdirilməsi üçün dövlət tərəfindən istehsalçıların stimullaşdırılması və ya istehlakçıların seçiminə müəyyən təsirlərin göstərilməsi ona görə vacibdir ki, yalnız bazar qanunlarının hökm sürdüyü şəraitdə fərdi istehlakçı seçimi ekoloji tələblərin prioritetliyinə adekvat cavab vermir. Elə bu səbəbdən də elmi debatlar "tələbin inflyasiyası" və "texnoloji təkan" istiqamətində aparılır [9]. "Tələbin inflyasiyası" siyasəti o deməkdir ki, BOEM-ə tələbi artırmaq üçün dövlət istehlakçıları müxtəlif yollarla stimullaşdırır. "Texnoloji təkan"

siyasəti isə BOEM üzrə təklifin stimullaşdırılmasına yönəldilir. Bu siyasət BOEM üzrə təklifi artırmaq üçün R&D üzrə tədqiqatlara maliyyə dəstəyinin göstərilməsini, BOEM – in inkişafı üçün güzəştli kreditlərin verilməsini, vergi güzəştlərinin və sair tətbiqini nəzərdə tuta bilər. "Tələb inflyasiyası" və "texnoloji təkan" siyasətləri arasındakı nisbət son zamanlar birincinin xeyrinə ciddi şəkildə dəyişib [10].

***Azərbaycanda BOEM üzrə dövlət tənzimləməsinin əsas istiqamətləri***

Azərbaycan Respublikasının enerji təhlükəsizliyi səviyyəsi regionda ən dayanıqlıdır. Belə ki, ölkənin həm neft, həm qaz ehtiyatları yaxın onilliklər üçün nəinki daxili tələbatı ödəməyə, həm də böyük həcmdə ixrac edərək valyuta ehtiyatları toplamağa kifayət edir. Digər tərəfdən, Azərbaycan Orta Asiya regionundan Avropaya gedən neft və qaz nəqli üçün koridor rolunu oynayaraq mühüm geosiyasi əhəmiyyət daşıyır. Beləliklə, Azərbaycan üçün daha üstün imkanlar var. Azərbaycan 1) enerji müstəqilliyinə malikdir; 2) enerji ixrac edərək region ölkələri ilə iqtisadi sahədə müqayisəli üstünlük əldə edir; 3) Orta Asiya ölkələrindən ixrac edilən enerji ehtiyatları üçün nəqliyyat koridorudur. Əlbəttə, Cənubi Qafqaz Respublikaları arasında Azərbaycan öz enerji ehtiyatları baxımından daha əlverişli mövqedədir.

ENİ Şirkətinin 2018-ci il üçün hesabatına əsasən, Azərbaycanın neft ehtiyatları 1 milyard ton, qaz ehtiyatları isə 1,3 trilyon kub metrdir [11]. Bu, uyğun olaraq, dünya ehtiyatlarının 0,5% və 0,7%-ini təşkil edir. Hazırda Azərbaycan böyük neft və qaz ixracatçısıdır. 2017-cu ildə Azərbaycanda gündəlik 783 min barel neft istehsal olunub. Həmin il Azərbaycanın gündəlik neft istehlakı 96 min barel olub. Yəni istehsal olunan neftin təxminən 12%-i daxili istehlak üçün istifadə edilib. Əgər Azərbaycan neftinin hasilat həcmi bu səviyyədə saxlanılarsa, ən geci 25-30 il ərzində tükənə bilər. Başqa sözlə desək, Azərbaycanda neft hasilatı azalaraq 2045-2050-ci illərdə tükənə bilər. Azərbaycan qaz ehtiyatları ilə də zəngindir. Lakin böyük həcmdə qaz ehtiyatlarının olmasına baxmayaraq, onun böyük həcmdə ixracı gələcəkdə ölkəni enerji problemləri qarşısında qoya bilər. Ona görə də Azərbaycanda BOEM-nin inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın davamlı və keyfiyyətli enerji təminatı üçün ölkə prezidentinin birbaşa dəstəyi ilə müvafiq tədbirlər görülməkdədir. Ölkədə BOEM-in inkişaf etdirilməsi digər enerji resurslardan istifadənin səmərəliliyinin artırılması tədbirləri ilə paralel həyata keçirilir. Bu məqsədlə bir neçə mühüm qanunlar qəbul edilmişdir. "Elektoenergetika haqqında" [12], "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" [13], "Elektrik və istilik stansiyaları haqqında" [14], "Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Nizamnaməsinin təsdiqi haqqında" [15], "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" [16] Azərbaycan Respublikası Qanunları ölkədə enerji təhlükəsizliyi, BOEM-nin inkişafı ilə bağlı hüquqi çərçivəni formalaşdırır.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-ci il fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi" [17] ölkənin davamlı və keyfiyyətli elektrik və istilik enerjisi ilə, su və qaz ilə təminatının yaxşılaşdırılması yollarını, həmçinin BOEM-in perspektiv inkişafı və bu sahədə dövlət tənzimləməsinin əsas istiqamətlərini müəyyən edir. Strateji Yol Xəritəsi 2020-ci ilədək strateji baxışı, 2025-ci ilədək olan dövr üçün

uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışı əhatə edir. Sənəddə digər sahələrə yanaşı BOEM-in inkişafı və fəaliyyət səmərəliliyinə nail olmaq üçün geniş miqyaslı tədbirlərin həyata keçirilməsi üzrə təkliflər verilmişdir.

Qlobal səviyyədə BOEM-in inkişafı ilə bağlı elmi yanaşma Strateji Yol Xəritəsində də öz əksini tapıb. Belə ki, bu sənəddə də BOEM-in inkişaf perspektivləri üçün nəzərdə tutulan dövlət siyasəti mahiyyəti etibarı ilə "tələbin inflyasiyası" və "texnoloji təkan" istiqamətində qurulub. Elektrik enerjisi sektoruna qlobal səviyyədə xas olan xüsusiyyətlət Azərbaycanda da müşahidə edilməkdədir. Ölkəmizdə də elektrik enerjisinə tələbin təklifə nisbətən az olması BOEM-in perspektiv inkişafı üçün ciddi maneə hesab edilir. Tələblə təklif arasındakı tarazlıq təklifin azaldılmasına və elektrik enerjisi sektoruna yönələn investisiyaların gəlirliliyinin azalmasına gətirib çıxarır. Buna görə də Strateji Yol Xəritəsində elektrik enerjisi sektorunun liberallaşması, BOEM-nin inkişaf etdirilməsi, BOEM-in inkişafı üçün investisiyaların qoyulmasında dövlət-özəl əməkdaşlığının genişləndirilməsi və ağıllı sayğac və şəbəkələrdən istifadə edərək, həmçinin enerjinin saxlanması üçün texniki həllərin tətbiqi nəzərdə tutulur.

2020-ci ilə qədər strateji baxış ölkənin enerji sektoruna aid normativ-hüquqi bazanın təkmilləşdirilməsini, tənzimləyici orqanların funksional səmərəliliyinin artırılmasını, elektrik enerjisi ilə təchizatın səmərəliliyinin yüksəldilməsini, bu sektora investisiya mühitinin münbitləşdirilməsini, həmçinin elektrik enerjisi sektoruna beynəlxalq norma və tandartların tətbiqini, kadr bazasının gücləndirilməsini, tariflərin optimallaşdırılmasını və stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanmasını nəzərdə tuturdu.

2020-2025-ci illəri əhatə edən uzunmüddətli dövr üçün hədəflər ölkədə topdansatış bazarı və özəl sektor subyektlərinin iştirak etdiyi investisiya mühitinin yaradılmasını, əsasən, BOEM-dən istifadənin təmin edilməsini və mikroelektrik enerjisi hasilatının tətbiq edilməsi yolu ilə elektrik enerjisi sektorunda səmərəliliyə nail olmaq məqsədini əhatə edir. Bu dövrdə elektrik enerjisinin istehsalının, nəql edilməsinin, paylanmasının və satışının idarəçilik nöqteyi-nəzərindən bir-birindən ayrılması prioritet məsələ kimi nəzərdən keçiriləcəkdir. Dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin genişləndirilməsi vasitəsilə yeni elektrik stansiyalarına investisiya qoyuluşlarının stimullaşdırılması və dövlətin bu sahəyə kapital qoyuluşu ilə müdaxiləsi azaldılacaqdır.

2025-ci ildən sonrakı dövr üçün elektrik enerjisi sektorunun investisiyalar üçün cəlbediciliyinin artırılması, yüksək səmərəli olması, ekoloji dayanıqlı və rəqabətli olması gözlənilir. Bu dövrdə karbohidrogen ehtiyatlarından əldə edilən elektrik enerjisinin payının BOEM vasitəsilə azaldılması nəzərdə tutulur. Bu məqsədlə günəş və külək generatorlarının istehsalına və quraşdırılmasına geniş investisiyaların cəlb edilməsi nəzərdə tutulur. Strateji Yol Xəritəsi elektrik enerjisi istehsal gücünün bir hissəsinin 2025-ci ildən sonrakı dövrdə bərpaolunan enerji mənbələri hesabına təchiz edilməsinin vacibliyini qeyd edir. Bu məqsədə nail olmaq üçün BOEM sektorunun geniş həcmdə liberallaşması nəzərdə tutulur. Bu dövrdə kiçik istehsal gücünə malik elektrik panellərinin tətbiqinin genişlənməsi, xüsusilə binaların damında günəş enerjisi panellərinin quraşdırılması elektrik enerjisi istehsalının səmərəliliyinin yüksəldilməsi və elektrik enerjisi ilə təminatın davamlılığı üçün mühüm tədbirlərdir.

Strateji Yol Xəritəsi elektrik enerjisi sektorunun inkişafı ilə bağlı iki mühüm vəzifəni qarşıya qoyur. Birincisi, elektrik enerjisinin paylanması zamanı kommersiya və texniki itkiləri Avropa ölkələrində olan səviyyəyə qədər azaltmaq. İkincisi, qabaqcıl ölkələrin təcrübəsindən istifadə edərək, elektrik enerjisi sektorunda mövcud çatışmazlıqları aradan qaldırmaq.

Strateji Yol Xəritəsinin qarşıya qoyduğu vəzifələrin mərhələlər üzrə həyata keçirilməsi ölkədə ümumilikdə, istehsal gücünün 1000 MVt artırılması ilə yanaşı, külək enerjisi üzrə 350 MVt, günəş enerjisi üzrə 50 MVt və bioenerji üzrə 20 MVt olmaqla, şaxələndirilməsi, həmçinin elektrik enerjisinin itki səviyyəsinin Bakıda 8,5 faizdən 7 faizədək, regionlarda isə 12 faizdən 8 faizədək azaldılması deməkdir. Elektrik enerjisi sektorunun inkişafı nəticəsində Azərbaycan Gürcüstanın elektrik enerjisi idxalının 50 faizinin, Türkiyənin isə 20 faizinin təmin edilməsinə nail olacaq.

Strateji Yol Xəritəsində BOEM-nin inkişaf perspektivləri xüsusi prioritet məsələ kimi qoyulub. Belə ki, ARDSK-nin 2017-ci il üzrə məlumatlarına əsasən Azərbaycanda istehsal olunan elektrik enerjisinin 93 faizi təbii qazdan istifadə hesabına təmin edilir. BOEM hesabına istehsal olunan enerji cəmi elektrik enerjisinin 7 faizini təşkil edir. Azərbaycanda BOEM-dən, xüsusilə, külək və günəş enerjisindən istifadə səviyyəsi onun movcud potensialından xeyli azdır. Müxtəlif tədqiqat qrupları tərəfindən müxtəlif metodlarla aparılan hesablamalara əsasən, Azərbaycanda külək enerjisinin resurs potensialı 3000 Mvt, günəş enerjisinin resurs potensialı isə 23040 Mvt həcmindədir [18]. Halbuki Bakı və Xəzər akvatoriyasında, hətta Naxçıvanda külək enerjisinin potensial gücü 15000 MVt qədər qiymətləndirilir [19]. Hazırda bu potensialın yalnız 0.4%-dən istifadə olunur. Ölkəmizdə günəş enerjisinin potensialı yüksəkdir. Belə ki, ilkin qiymətləndirmələr bu potensialın 8000 MVt olduğunu təsdiq edir. Hazırda bu potensialın yalnız 0.4%-dən, yəni 30 MVt gücündən istifadə olunur. Ölkəmizdə bioenerji ehtiyatı da xeyli yüksəkdir. Pambıqçılığın inkişafı bioenerji resurslarının da daha da inkişaf etməsinə şərait yaradacaq. Təəssüf ki, bu potensialın yüksək texniki, iqtisadi və market potensialına çevrilməsi və istifadə etdilməsi hələ də ciddi problem olaraq qalır. Belə ki, 2017-ci ildə külək və günəş enerjisindən əldə edilən elektrik enerjisi umumi elektrik enerjisi həcmində (24,320.9 milyon KVt.saat), uyğun olaraq, 0,09% (22.1 milyon KVt.saat) və 0.15% (37.2 milyon KVt.saat) olub. 2021-ci ildə isə bu rəqəmlər, uyğun olaraq, 0.33% (91.4 mln Kvt.saat) və 0.2% (55.2 mln.Kvt.saat) olub. Tullantıların yandırılmasından alınan elektrik enerjisi isə ümumi elektrik enerjisi istehsalında 0.7%(193.2 mln.KVt) təşkil edir. Göründüyü kimi, Azərbaycanda BOEM-dən istifadə həcmi mövcud resurs potensialından dəfələrlə azdır.

BOEM-nin inkişafı ilə bağlı dövlət siyasəti müvafiq qanunvericiliyin hazırlanması ilə yanaşı konkret investisiya siyasətini, o cümlədən stansiyaların dövlət təşkilatları və ya özəl investorlar tərəfindən tikilməsini və istismar edilməsini nəzərdə tutur. Bu sahədə həyata keçirilən siyasət nəticəsində yaxın, orta və uzun müddətli dövr üçün Azərbaycanda 350 MVt gücündə külək, 50 MVt gücündə günəş enerjisinin, həmçinin 20 MVt gücündə bioenerjinin əldə edilməsi üçün investisiya qoyuluşunun həyata keçirilməsi nəzərdə tutulub. BOEM vasitəsilə elektrik enerjisi istehsalı həcminin artması təbii qaz qurğularından alınan elektrik enerjisini əvəz etdiyindən təbii qazın qənaət etdirilməsinə səbəb olacaq.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Energy Sector Management Assistance Program. Private Sector Participation in Electricity Transmission and Distribution. Electron mənbə: http://www.esmap.org/sites/esmap.org/files/DocumentLibrary/FINAL_Private%20Sector%20in%20T%26D_KS0023-15_web.pdf

2. Varela, F. 2006, Plugging the gap: a survey of world fuel resources and its impact on the development of wind energy, Renewable Energy Sytems Limited, Herts (United Kingdom).

3. IEA 2007, Contribution of Renewables to Energy Security, International Energy Agency, Paris.

4. Ernst & Young Renewable Energy Group 2009, Renewable Energy Country Attractiveness Indices, Ernst & Young, London, 23

5. Furlong, K. (2012). Good Water Governance without Good Urban Governance? Regulation, Service Delivery Models, and Local Government. Environment and Planning A: Economy and Space, 44(11), 2721–2741

6. Dubash, N.K. (2003). Revisiting electricity reform: The case for a sustainable development approach. Utilities Policy, 11, 143–154.

7. Menanteau, P., Finon, D., & Lamy, M.-L. (2003). Prices versus quantities: choosing policies for promoting the development of renewable energy. Energy Policy, 31(8), 799–812.

8. Jegen, M., & Wüstenhagen, R. (2001). Modernise it, sustainabilise it! Swiss energy policy on the eve of electricity market liberalisation. Energy Policy, 29(1), 45–54.

9. Nemet, G. F. (2009). Demand-pull, technology-push, and government-led incentives for nonincremental technical change. Research Policy, 38(5), 700–709.

10. Hoppmann, J. (2015). The Role of Deployment Policies in Fostering Innovation for Clean Energy Technologies: Insights From the Solar Photovoltaic Industry. Business & Society, 54(4), 540–558.

11. World Gasand Renewables Review 2018. [Elektron mənbə: https://www.eni.com/docs/it_IT/eni-com/azienda/fuel-cafe/WORLD-GAS-AND-RENEWABLES-REVIEW-2018-Volume2.pdf]

12. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanunu. Bakı şəhəri, 13 iyun 1998-ci il № 723 Elektron resurs: https://e-qanun.az/framework/3599

13. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında Azərbaycan Respublikasinin Qanunu. Elektron resurs: https://e-qanun.az/framework/48129

14. Elektrik və istilik stansiyaları haqqında Azərbaycan Respublikası Qanunu. Bakı şəhəri, 28 dekabr 1999-cu il № 784-IQ. Elektron resurs: https://e-qanun.az/framework/501

15. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Nizamnaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanunu. Elektron resurs: https://e-qanun.az/framework/27680

16. Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında Azərbaycan Respublikası Qanunu. Bakı şəhəri, 31 may 2021-ci il № 339-VIQ. Elektron resurs: https://e-qanun.az/framework/47842

17. Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi. [Elektron mənbə: https://azertag.az/store/files/Strateji_yol_xeritesi/_Kommunal_xidm%C9%99tl%C9%99rin_inki%C5%9Faf%C4%B1na_dair_Strateji_Yol_X%C9%99rit%C9%99si_.pdf]

18. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, 2022. Elektron resurs: https://area.gov.az/az/page/yasil-texnologiyalar/boem-potensiali

19. Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi

**Elchin Ramiz Mustafayev, PhD**
Azerbaijan Technical University

## MAİN DİRECTİONS OF STATE REGULATİON ON USAGE OF RENEWABLE ENERGY SOURCES İN AZERBAİJAN

### Summary

In the article, the main directions of state regulation for the expansion of the use of renewable energy sources were studied. Justifying the importance of such regulation, the author proposes the implementation of institutional measures, increasing the volume of public investments directed to this field, stimulating consumers using of renewabel energy sources, and providing various financial support to renewable energy producers, including tax incentives as its main directions.

**Keywords:** *renewable energy, solar energy, wind energy, investment, "demand-pull", "technology push"*

**Эльчин Рамиз оглы Мустафаев, PhD**
Азербайджанский Технический Университет

## Основные направления государственного регулирования использования возобновляемых источников энергии в Азербайджане

### Резюме

В статье изучены основные направления государственного регулирования расширения использования возобновляемых источников энергии. Обосновывая важность такого регулирования, автор предлагает реализацию институциональных мер, увеличение объема государственных инвестиций, направляемых в данную сферу, стимулирование потребителей, использующих возобновляемые источники энергии, а также оказание различной финансовой поддержки производителям возобновляемой энергии, включая налоговые льготы.

**Ключевые слова**: *возобновляемая энергетика, солнечная энергия, энергия ветра, инвестиции, «спрос-притяжение», «технологический толчок».*

**Daxil olub:** 16.02.2022

**Gülnarə Vaqif qızı Məmmədova**
AMEA-nın İqtisadiyyat İnstitutunun dissertantı
Qərbi Kaspiy Universitetin "Elm" şöbəsinin müdir muavini

# AZƏRBAYCANDA ELEKTRİK ENERJİSİ SEKTORUNUN NATURAL MONİOPOLİYADAN BAZARA KEÇİDİ ZAMANI MÜMKÜN QİYMƏT DƏYİŞMƏLƏRİ VƏ SOSİAL YÜKÜN AZALDILMASI YOLLARI

**Xülasə**
Məqalədə elektrik enerjisi sektorunda bazar münasibətlərinə keçiddə ev təsərrüfatının təsiri araşdırılır. Bazara keçid qiymət artımına gətirib çıxaracaq ki, bu da istehlakçıların itki səviyyəsinə təsir edəcək. Araşdırmanın əvvəlində biz bu yolu keçmiş ölkələrin təcrübəsini öyrəndik. Təbii monopoliyadan bazara keçid aztəminatlı ev təsərrüfatlarına necə təsir etdi, çünki elektrik enerjisi istehlakının miqdarı birbaşa ev təsərrüfatlarının gəlir səviyyəsindən asılıdır.
Bizim vəzifəmiz sosial cəhətdən əlverişsiz ailə təsərrüfatlarının nisbətini öyrənmək və istehlak profisitinin itirilməsinə görə kompensasiya növlərini təklif etməkdir.
**Açar sözlər:** elektrik enerji, monopoliya, rəqabətli bazar, ev təsərrüfatı.

**UOT:** 338
**JEL:** Q40

## Giriş

Bizim tədqiqatın digər ölkələri əhatə edən oxşar tədqiqatlara əsasən üç fərqi var. Birincisi, bu tədqiqat a)inkişaf etməkdə olan; b) tam monopolist elektrik enerjisi sektoruna malik olan; c) zəngin kapbohidrogen enerji daşıyıcısına malik olan bir ölkədə, yəni Azərbaycanda ev təsərrüfatlarının elektrik enerjisinə tələb funksiyasının xarakterini və onun elestikliyini tam rəqabətli bazarlı və qismən rəqabətli bazarlı ölkələrdəki vəziyyətlə müqayisə etmək imkanı yaradır. İkincisi, bu tədqiqatda monopolist idarə edilən elektrik enerjisi sektorunda qiymətlərin azad bazar qiymətlərinə nisbətən az olması və elektrik enerjisi sektorunun hər hansı səviyyədə liberallaşma aparılarsa, bunun qiymət artımına səbəb olacağı faktı əsaslandırılıb. Lakin əvvəlki iki mühüm fərqlə yanaşı daha bir araşdırmanın da aparılmasını vacib hesab edirik. Bu, dövlət monopoliya idarəçiliyində olan elektrik enerjisi sektorunun tam və ya qismən rəqabətli bazar münasibətlərinə keçidi prosesində əhalinin sosial problemlərinin azaldılması istiqamətində zəruri addımların atılması ilə bağlıdır. Belə ki, dövlət monopoliyasında olan elektrik enerjisinin qiyməti Tarif Şurası tərəfindən müəyyən edildiyindən bazar münasibətlərinə keçid zamanı hər hansı səviyyədə qiymət artımı elektrik enerjisindən az təminatlı ailələrin istifadəsində məhdudiyyətlər yarada bilər. Bu mənada əhalinin elektrik enerjisindən istifadə imkanlarının genişləndirilməsi üçün qiymətlərin optimal səviyyəsinin müəyyənləşdirilməsi aktuallıq kəsb edir.

Woo və digərlərinin [1] tədqiqatında qeyd edilir ki, elektrik enerjisi sektorunun fəaliyyətinin, həm də tariflərin dövlət tərəfindən tənzimlənməsindən uzaqlaşma hallarına hər bir ölkədə rast gəlinir. Lakin

liberallaşma bütün hallarda uğurlu olmur və əlavə problemlər yaranır. Tədqiqatçılar müxtəlif ölkələrin timsalında elektrik enerjisi sektorunda liberallaşmanın yaratdığı problemləri təsnifləşdirərək onların İsrailin timsalında həlli üçün zəruri addımları müəyyən ediblər. Onların nəticələrinə əsasən, elektrik enerjisi sektorunda dövlət monopoliyasından liberal bazar münasibətlərinə keçid zamanı yarana əsas problemlərin yaranması bir neçə səbəblə bağlıdır. Tədqiqatda belə səbəblər arasında elektrik enerjisi istehsalı, ötürülməsi və paylanması ilə bağlı infrastrukturun çox bahalı olması, bu sektorda rəqabətli bazarın strukturunun reallaşmasının mürəkkəbliyi, topdansatış qiymətlərin daim dəyişkənliyi, investisiyaların qeyri-səmərəliliyi, elektrik enerjisi istehsalının qiymətinin aşağı salınmasındakı çətinliklər və sair səbəblər fərqləndirilib. Tədqiqatçılar belə nəticəyə gəliblər ki, sadalanan və digər problemin həlli olmadıqca elektrik enerjisi sektorunda liberallaşmanın aparılması və bazara keçid müsbət nəticə verə bilməz.

İqtisadiyyatın müxtəlif sahələrində liberallaşma səviyyəsi ilə fərqlənən ABŞ-da da elektrik enerjisi sektorunun monopoliyadan bazara keçidi müxtəlif problemlərlə xarakterizə olunub. Joskow [2] öz tədqiqatında elektrik enerjisinin topdan və pərakəndə satış qiymətlərinin müəyyən edilməsi ilə bağlı ABŞ-da 1995-ci ildən 2003-cü ilədək olan dövrdə müxtəlif ştatlarda və federal səviyyədə irəli sürülən təşəbbüsləri müqayisəli təhlil edir. Burada topdan satış bazarlarına aid institutlar, istehsal güclərinin satış bazarları və sair problemlər müzakirə edilib. Tədqiqatda pərakəndə satış bazarının inkişafı səkkiz ştatın timsalında empirik olaraq tədqiq edilib. Aparılan analiz nəticəsində məlum olub ki, elektrik enerjisi səmərəli, həmçinin rəqabətli topdan və pərakəndə satış bazarlarının inkişafı çoxlu sayda texniki, institusional və siyasi problemlərlə bağlıdır və hələ də təkmil deyil. ABŞ elektrik enerjisi sektorunda belə problemin mövcudluğu Rose [3] tərəfindən də tədqiq edilib.

Trebilcock və Hrab [4] Kanada elektrik enerjisi sektorunun timsalında liberallaşmanın yarada biləcəyi problemləri tədqiq edib. O iddia edir ki, elektrik enerjisi sektorunda liberallaşmaya keçid bu sektora investisiya axını yaratmır və ya belə axın xeyli azdır. Belə ki, elektrik enerjisi sektorunda topdansatış qiymətlərinin daim dəyişməsi, hətta qiymətəmələgəlmə prosesində güzəştlərin edilməsinə meyil investorlarda gələcəyə inamsızlıq yaradır.

Qeyd edək ki, bəzi ölkələrdə elektrik enerjisi özəl şirkətlər tərəfindən təchiz edilsə də onların fəaliyyəti dövlət tərəfindən tənzimlənir. Məsələn, 2008-ci ilədək Honq Koqda belə tənzimləmə Nəzarət Sxemi adlı institut tərəfindən həyata keçirilib. Bu institut 15 il müddətinə özəl şirkətlə dövlət arasında bağlanan müqaviləyə əsaslanıb. Tənzimləmənin əsas obyekti isə gəlir norması və qiymət olub. Müqavilə başa çatandan sonra isə ölkədə bazara keçid nəzərdə tutulmuşdu. Lam [5] hələ müqavilənin başa çatmasına bir neçə il qalmış bazara keçidə daha ehtiyatlı yanaşmanı və keçidin tədricən reallaşmasını əsaslandırmışdı. Bu tədqiqat da göstərir ki, monopolist idarəetmədən bazara keçid prosesində ciddi problem bazarın strukturu ilə bağlıdır.

Qeyd edək ki, elektrik enerjisi bazarı formaca tənzimlənən və rəqabətli bazar kimi iki qrupa ayrıla bilər. Lakin daha detallı şəkildə belə bazarları müxtəlif növlərə ayırmaq olar. Məsələn, Cramton [6] öz tədqiqatında elektrik enerjisi bazarlarının ölkədən ölkəyə fərqləndiyini qeyd edir. Belə fərqliliklər ölkədəki iqtisadi və siyasi şəraitdən asılı olaraq dəyişir. Digər tərəfdən,

resursların növündən asılı olaraq, bazarın xarakteri də dəyişə bilər. Belə ki, karbohidrogen ehtiyatlarından istifadə edən elektrik enerjisi bazarı ilə alternativ və ya bərpa olunabilən enerji mənbəyindən alınan elektrik enerjisi bazarı fərqli olur. Onun fikrincə bu bazarın əsas məqsədi istehlakçıları minimal qiymətlərlə daha etibarlı elektrik enerjisi ilə təmin etməkdir. Bu zaman qısamüddətli səmərəlilik və uzunmüddətli səmərəlilik bir-birindən fərqləndirilməlidir. Qısamüddətli səmərəlilik mövcud resurslardan səmərəli istifadəni, uzunmüddətli səmərəlilik isə yeni resurslar əldə etmək üçün investisiyaların səmərəliliyini artırmağı nəzərdə tutur. Günəş və külək enerjisindən alınan elektrik enerjisi üçün marjinal dəyər yoxdur.

Qeyd edək ki, dövlət monopoliyası şəraitində "elektrik enerjisinin optimal qiyməti" anlayışı, şübhəsiz ki, bazar münasibətləri şıraitində olduğundan fərlidir. Bunu nəzərə alaraq, əvvəlcə a) bazar münasibətləri şəraitində elektrik enerjisinin optimal qiymətləri ilə bağlı iqtisadi ədəbiyyatda müxtəlif yanaşmaları müqayisəli təhlil edək. Daha sonra b) Elektrik enerjisi sektorunun dövlət monopoliyasında olduğu ölkələrdə qiymətlərin müəyyən edilməsi mexanizmi ilə başlı mövcud ədəbiyyatlara baxış vacibdir. Tədqiqatın sonrakı mərhələlərində c) Gəlir desilləri üzrə fərqli ev təsərrüfatlarında elektrik xərclərinin cəmi xərclərdəki payı arasındakı fərqliliklərin; d)Elektrik enerjisi sektorunun dövlət monopoliyasından bazara keçidi zamanı optimallıq meyarının; e)Dövlət monopoliyasında olan elektrik enerjisi sektorunda qiymət artımının sosial təsirlərinin azaldılması yollarının mümkün modellərinin; f) Elektrik enerjisi sektorunun dövlət monopoliyasından bazara keçidi zamanı gəlir desilləri üzrə fərqli ev təsərrüfatlarında xərclərin cəmi xərclərdəki payının dəyişməsinin; h)Elektrik enerjisi sektorunun dövlət monopoliyasından bazara keçidi zamanı gəlir desilləri üzrə fərqli ev təsərrüfatlarında sosial təsirlərin azaldılmasıüçün konkret yolların müəyyən edilməsinə ehtiyac var.

- *Bazar münasibətləri şəraitində elektrik enerjisinin optimal qiymətləri ilə bağlı iqtisadi ədəbiyyatda müxtəlif yanaşmaların müqayisəli təhlili*

Elektrik enerjisinin rəqabətli bazardakı qiyməti, təbii monopoliyadan fərqli olaraq, tələb və təklifə əsaslanır. Digər şərtlərin, xüsusilə, gəlirlərin həcminin dəyişmədiyi halda, qiymətlərin artması tələb həcminin azalmasına səbəb olur. Həmçinin hər hansı səbəbdən, məsələn, gəlirlərin artması səbəbindən tələb artarsa, onda qiymətlərin artma riski də mümkündür. Digər tərəfdən, təklif həcminin azalması da, digər şərtlər dəyişmədiyi halda, qiymətin artmasına səbəb ola bilər. Həmçinin rəqabətli bazarda qiymətin azalması təklif həcminin də azalması ilə müşaiyyət oluna bilər. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, bütün ölkələrdə, həm də bütün gəlir qruplarında olan ev təsərrüfatları və hətta biznes strukturları üçün elektrik enerjisinə tələb funksiyasının qiymətə görə elsatikliyi çox kiçikdir və bu funksiyası elastik hesab etmək olmaz. Bu onunla bağlıdır ki, elektrik enerjisindən istifadənin həm minimumu, həm də maksimumu müəyyən mahiyyətə malikdir. Belə ki, ev təsərrüfatlarında işıqlandırmadan və bəzi elektrik cihazlarından, məsələn, soyuducudan, televizordan, ütüdən və sair istifadə artıq zərurət səviyyəsindədir. Lakin belə istifadənin minimumu olduğu kimi maksimumu da var. Yəni bütün günü ev təsərrüfatında heç kəs nə televizordan, nə də ütüdən istifadə etmir. Hər bir ev təsərrüfatı üçün elektrik enerjisindən istifadə zamanı

belə minimum və maksimum hədd mövcuddur. Lakin elektrik enerjisi digər əmtəələrdən fərqli olaraq, böyük həcmdə akkumulyasiya olunub anbarda saxlana və sonra istifadə edilə bilmir. Ona görə də istehsalçı öz mənfəətini artırmaq üçün qiymətləri artırmaqla yanaşı, həm də xərclərin azaldılmasına daha çox meyillidir. Xərclər isə elektrik enerjisi istehsalında istifadəsiz "əmtəənin itməsidir". Əlbəttə elektrik enerjisi bazarında tələb-təklif əsasında qiymətlərin müəyyən edilməsi digər əmtəə bazarlarındakından çevik olmaması ilə fərqlənir. Ona görə də qısamüddətli dövrdə belə bazarda qiymətlərin dəyişdirilməsi xeyli çətindir.

Təbii dövlət monopoliyası şəraitində isə qiymətlər dövlətin müvafiq orqanı tərəfindən, məsələn, Tarif Şurası tərəfindən müəyyən edildiyindən tələbin artıb və ya azalması qiymətlərə, əsasən, təsirsiz ötüşür. Burada ona görə "əsasən" ifadəsini işlədirik ki, təbii dövlət monopoliyası olan hallarda kommunal xidmətlər bazar qiymətlərindən xeyli aşağı səviyyədə saxlanılır. Bəzi hallarda isə, hətta istehsalçıların xərclərinin bir hissəsi dövlət tərəfindən kompensasiya olunur. Lakin bu halda da qiymətlərin müəyyən edilməsi zamanı müəyyən meyarlar nəzərə alınmalıdır. Məsələn, qiymətlər elə həddə müəyyən edilməlidir ki, istehsalçının itkiləri çox olmasın və belə itkilərin dövlət tərəfindən kompensasiya edilməsi mümkün olsun. Digər tərəfdən, dövlət tərəfindən müəyyən edilən qiymətlər elə həddə olmalıdır ki, aşağı gəlirli ev təsərrüfatında elektrik enerjisindən zəruri həcmdə istifadə imkanları məhdudlaşmamalıdır. Deməli, həm təbii dövlət monopoliyası, həm də rəqabətli bazar şəraiti üçün "elektrik enerjisinin optimal qiyməti" anlayışı istifadə edilə bilər. Lakin bu anlayışın mahiyyəti, həmçinin optimallıq meyarları bir-birindən fərqli olacaq. Qeyd etmək lazımdır ki, elektrik enerjisi üçün rəqabətli bazarda, digər əmtəə bazarlarında olduğu kimi, optimallıq şərtinin mahiyyətində mənfəət dayanır. Həm elektrik enerjisinin istehsalçısı, həmdə onu istehlakçıya çatdıran digər həlqənin üzvləri öz mənfəətlərinin maksimumlaşdırmağa çalışacaqlar. Təbii dövlət monopoliyasında isə istehsalçı və ya digər həlqə üzvləri belə meyarla çıxış etmirlər. Çünki bu halda optimallıq meyarı olaraq əhalinin sosial-iqtisadi vəziyyəti götürülür.

Yusta və digərləri [7] öz tədqiqatlarında iddia edirlər ki, elektrik enerjisi sektorunda azad bazar həmişə öz işinin optimallaşdırmaq cəhd edir. Bu zaman mənfəətə təsir edən müxtəlif amillər, o cümlədən, qiymət strategiyası, tariflərdə güzəştlər, istehlakçı tələbinin elastiklik funksiyası tədqiq edilir. Tədqiqatçılar iddia edirlər ki, qiymət strategiyası bir neçə mərhələni əhatə etməlidir. Məsələn, tutaq ki, sutka 6 zaman dövrünə bölünüb və bu dövrlər üçün a)bir səviyyəli qiymətlər; b) iki səviyyəli qiymətlər; c)üç səviyyəli qiymətlər; d) altı səviyyəli qiymətlər müəyyən edilib. Birinci halda qiymətlər bütün zaman dövrü üçün sabitdir, yəni $\rho_1 = \rho_2 = \rho_3 = \rho_4 = \rho_5 = \rho_6$ Qeyd edək ki, Azərbaycanda elektrik enerjisi qiymətləri məhz belə müəyyən edilib. İkinci halda isə birinci üç dövr üçün hər hansı eyni qiymət, məsələn, $\rho_1 = \rho_2 = \rho_3$ və digər üç dövr üçün başqa qiymət, məsələn, $\rho_4 = \rho_5 = \rho_6$ müəyyən edilir. Üçüncü halda isə altı zaman dövründə $\rho_1 = \rho_2$ , $\rho_3 = \rho_4$, $\rho_5 = \rho_6$ olmaqla üç müxtəlif qiymət müəyyən edilir. Dördüncü halda isə altı zaman dövründə bir-birindən fərqli qiymətlər müəyyən edilir: $\rho_1 \neq \rho_2 \neq \rho_3 \neq \rho_4 \neq \rho_5 \neq \rho_6$.

Elektrik enerjisi bazarı rəqabətlidirsə, onda pərakəndə satış bazarında satışı reallaşdıran müəssisə elektrik enerjisini topdan alaraq, istehlakçıya pərakəndə satacaq. Tutaq

ki, $i$ sayda istehlakçıya $j$ zaman dövründə $E_{ij}$ həcmində (kVt) elektrik enerjisi $(\rho_{ij})$ qiymətinə satılır. Pərakəndə satış müəssisəsi elə bu həcmdə də elektrik enerjisini topdan satış müəssisəsindən $(\alpha_j)$ qiymətinə satın alır. Pərakəndə satış müəssisəsi $j$ zaman dövründə istehlakçının elektrik gücünə olan tələbə uyğun olaraq $P_{ij}$ həcmində gücü şəbəkədən almaq üçün şəbəkəyə daxil olma tarifini $(\sigma_{pj})$ və $j$ zaman dövründə istehlakçının elektrik enerjisi həcminə olan tələbə uyğun olaraq $E_{ij}$ həcmində elektrik enerjisini şəbəkədən almaq üçün şəbəkəyə daxil olma tarifini $(\gamma_{ej})$ ödəməli olur.

Beləliklə, müəssisənin onun mənfəəti həm hər hansı zaman dövrünə aid olan satış qiymətlərindən $(\rho_j)$, həm də xərclərdən asılı olacaq. Xərclər isə hər bir zaman dövrünə aid olan topdansatış qiymətindən və şəbəkəyə daxil olma tariflərindən ibarətdir:

$$B(\rho) = \sum_{i=1}^{n}\sum_{j=1}^{6} E_{ij} * \rho_{ij} - \sum_{i=1}^{n}\sum_{j=1}^{6} E_{ij} * \alpha_j - \sum_{i=1}^{n}\sum_{j=1}^{6} P_{ij} * \sigma_{pj} - \sum_{i=1}^{n}\sum_{j=1}^{6} E_{ij} * \gamma_{ej} \quad (1)$$

Mənfəətin maksimumlaşması üçün optimal qiymətin müəyyən edilməsi hədəf funksiyasının maksimumu satış qiymətlərinin minumumunda əldə edilməlidir. Əks halda pərakəndə satış müəssisəsi rəqabətli olmaz. Bu halda hədəf funksiyası

$$\text{Max } B(\rho) = \sum_{i=1}^{n}\sum_{j=1}^{6}[E_{ij}(\rho_{ij} - \alpha_j - \gamma_{ej}) - P_{ij} * \sigma_{pj}] \quad (2)$$

və mıhdudlaşdırıcı funksiya isə

$$\sum_{j=1}^{6}\frac{E_{ij} * \rho_{ij}}{\rho_{ij}} \leq \rho_{imax} \quad (3)$$

kimi ifadə edilə bilər.

(2) və (3) ifadələrində istifadə edərək, həm müəssisə həm də i-ci istehlakçı j-zaman dövrünü seçməklə xərclərini azalda bilərlər. Bu, pərakəndə satış müəssisəsinin mənfəətini artıra, istehlakçının isə elektrik enerjisinə olan xərclərini azalda bilər. Lakin bazar şəraitində elektrik enerjisinin qiymətinin optimallığına həsr edilən əksər tədqiqatlar, pərakəndə satış müəssisələrinin mənfəətlərinin maksimumlaşdırılmasını hədəf funksiyası kimi qəbul edirlər. Menta və digərləri [8], Umale və digərləri [9], Weron [10], Alekseeva və digərləri [11], Derinkuyu və digərləri [12], Tunç və digərləri [13]. Yıldırım və digərləri [14] və sair çoxlu sayda tədqiqatçılar tərəfindən aparılan araşdırmalarda da müəyyən məhdudlaşdırıcı şərtlər daxilində biznes strukturlarının mənfəətlərinin maksimumlaşdırılması hədəf kimi qəbul edilib. Lakin təbii tövlət monopoliyasında olan elektrik enerjisi sektorunda qiymətlərin formalaşması zamanı, məqsəd olaraq, müəssisənin daha çox mənfəət əldə etməsi deyil, əksinə əhalinin sosial müdafiəsinin qorunması əsas götürülür. Elə ona görə də bazar şəraiti üçün xarakterik olan optimallıq meyarları təbii dövlət monopoliyası olan şərait üçün yararlı deyil.

- *Elektrik enerjisi sektorunun dövlət monopoliyasında olduğu ölkələrdə qiymətlərin müəyyən edilməsi mexanizmi ilə bağlı mövcud ədəbiyyata baxış*

Elektrik enerjisi sektorunun dövlət monopoliyasında olduğu ölkələrin timsalında optimal qiymətlərin müəyyən edilməsinə həsr edilən tədqiqatlara iqtisadi ədəbiyyatda rast gəlinmir. Bu, böyük ehtimalla onunla bağlıdır ki, hər ölkə öz iqtisadi və sosial-iqtisadi şəraitinə uyğun olaraq, elektrik enerjisi sektorunda qiymət müəyyən edir. Lakin bu problemə müəyyən dərəcədə aidiyyəti olan bəzi tədqiqatlarda, məsələn, *Tolstyakova və Batyrova, [14]* tərəfidnən aparılan tədqiqatda tarif tənzimlənməsinə

dövlətin fiskal tənzimləmə metodlarından biri kimi yanaşılıb. Bu problem Çinin timsalında *HuiHui Liu və digərləri [16]* tərəfindən öyrənilmişdir. Bu tədqiqatda elektrik enerjisinin qiymətinin optimallaşdırılmasının əsas meyarı kimi resursların paylanmasın optimallaşdırılması götürülüb. Bu ölkədə də 2015-ci ildən elektrik enerjisi sektoru liberallaşdırılmışdır və rəqabətli bazarın inkişafı istiqamətində islahatlar davam edir. Məqalədə dövlət monopoliyadan bazara keçid prosesindən sonra elektrik enerjisinin qiymətlərinin dəyişməsi ilə yanaşı, həm də onun istehsalı üçün tələb olunan enerji mənbələrinin, xüsusilə, komurün qiymətindəki dəyişikliklər izlənilib. Tədqiqatın nəticəsi göstərib ki, Çində elektrik enerjisi sektorunun liberallaşmasından sonra elektrik enerjisinin pərakəndə qiyməti artıb, kömürün qiyməti azalıb. Bununla yanaşı həm kömürün, həm də elektrik enerjisinin istehsal həcmi azalıb. Qeyd edək ki, bu nəticə dövlət monopoliyasından bazara keçid zamanı qiymətlərin artacağı ilə bağlı bizim əldə etdiyimiz nəticəyə uyğundur.

Beləliklə, iqtisadi ədəbiyyatda mövcud tədqiqatların müqayisəli təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, 1) təbii dövlət monopoliyasında olan və 2) bazara keçid zamanı elektrik enerjisi sektorunda optimal qiymətlərin müəyyən edilməsi üçün ölkənin iqtisadi özünəməxsusluğundan çıxış edərək uyğun meyarlar müəyyən etmək lazımdır. Belə meyarların müəyyən edilməsi üçün bəzi əsas göstəricilərdən istifadə etmək lazımdır. Bunlardan birincisi

Minimum İstehlak Səbətində (MİS) adambaşına elektrik enerjisi istehlakıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibinin təsdiq edilməsi haqqında” 2005-ci il 118 saylı Qərarına əsasən adambaşına ayda elektrik enerjisi istehlakının minimum həcmi 50 kvt.saat nəzərdə tutulub. Bir ev təsərrüfatı üçün 2007-ci ildən 2021-ci ilə qədər bu göstərici 1-ci cədvəldəki dinamika ilə dəyişib. 2010-cu ildə adambaşına aylıq gəlirləri 70 manatdan 130 manata qədər ev təsərrüfatlarında MİS-də nəzərdə tutulan həcmdən daha az elektrik enerjisi istehlak edilib. Bu ev təsərrüfatlarının 9% yaxınını təşkil edir. Bu həcmi 2011-ci ildə adambaşına gəlirləri 160 manata qədər olan ev təsərrüfatlarında MİS-də nəzərdə tutulan həcmdən daha az elektrik enerjisi istehlak edilib.

**Cədvəl 1**

**Ev təsərrüfatlarında elektrik enerjisi istehlakı və onun MİS ilə müqayisəsi**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ET-nın ölçüsü | 4,7 | 4,7 | 4,7 | 4,7 | 4,7 | 4,7 | 4,4 | 4,4 | 4,5 | 4,1 | 4,1 | 4,1 |
| MİS üzrə ET-da e/e istehlakı (ayda kVt.saat) | 235 | 235 | 235 | 235 | 235 | 235 | 220 | 220 | 225 | 205 | 205 | 205 |
| MİS üzrə ET-da e/e istehlakı (ildə kVt.saat) | 2820 | 2820 | 2820 | 2820 | 2820 | 2820 | 2640 | 2640 | 2700 | 2460 | 2460 | 2460 |
| MİS həcmini keçməyən ET-nın a.b. aylıq gəlir həddi | 140 | 160 | 180 | 180 | 180 | 200 | 250 | 250 | 250 | | | |
| ET-nın cəmi ET sayında payı (%) | 9 | 30.2 | 25.9 | 26.2 | 28.8 | 15.9 | 26.7 | 29.3 | 25.2 | | | |

Qeyd: müəllif tərəfindən hesablanıb

Nə çəkilən xərclərin ev təsərrüfatlarının cəmi xərclərindəki payın desillər üzrə bərabərliyi götürülə bilər. Belə ki, desillər üzrə bu göstəricinin fərqli olması həyat şəratindəki qeyri-bərabərliyi daha da kəskinləşdirir. Azərbaycanın elektrik enerjisi sektorunda qiymətlər tələb-təklif əsasında deyil, dövlətin tam nəzarətində olan Tarif Şurası tərəfindən tənzimləndiyindən onun hər hansı istehlakçı üçün deyil, bütünlükdə iqtisadiyyatın inkişafı üçün, həmçinin, ev təsərrüfatlarının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün optimallaşdırılmasından danışmağa əsas verir. Bu halda optimallıq meyarı kimi (2) və (3) deyil, MİS-də nəzərdə tutulan minimum həcmin daha az gəlirli ev təsərrüfatı üçün əlçatan olması əsas götürülməlidir. 1-ci cədvəldən görünür ki, 2010-2021-ci illər arası dövrdə Azərbaycanın mühüm həcmdə ev təsərrüfatlarında elektrik enerjisi istehlakı MİS-dən az olub. Hətta bəzi illərdə, məsələn, 2017-ci ildə belə ev təsərrüfatlarının sayı cəmi ev təsərrüfatlarının sayında təqribən 30% təşkil edib. Belə ev təsərrüfatlarında istehlakın az olmasını yalnız qiymətlə əlaqələndirmək əlbəttə doğru olmaz. Çünki ev təsərrüfatlarında elektrik enerjisinin istehlakı daha çox elektrik avadanlıqlarından istifadə ilə bağlıdır. Belə avadanlıqların, xüsusilə uzunmüddətli istifadə ediləbilən avadanlıqların əldə edilməsi isə ev təsərrüfatlarının gəlirlərindən daha çox asılı olur. lakin buna baxmayaraq, MİS-də nəzərə tutulan həcmdə istehlakın hər hansı bir qiymətə (hazırda bu 0.07 azn/kVt.s təşkil edir), istehlak olunan artıq həcmin isə daha baha (hazırda bu 0.11 azn/kVt.s təşkil edir) satılması əhalinin geniş təbəqəsinin sosial müdafiəsi üçün mühüm əhəmiyyət kəsb edir. Lakin əhalinin az gəlirli təbəqəsinin elektrik enerjisindən daha az, hətta MİS-də nəzərdə tutulan həcmdən az, istifadə etməsi belə ev təsərrüfatlarında rifah səviyyəsinin aşağı olmasına gətirib çıxara bilər.

Elelktrik enerjisi sektorunda dövlət monopoliyasından bazara keçid zamanı qiymətlərin artacağı *HuiHui Liu və digərləri (2019*) tərəfindən aparılan tədqiqatda da təsdiq edilir. Bu zaman 1) əhalinin az təminatlı hissəsinin elektrik enerjisi istehlakı həcmi azala və ya 2) bu xidmət üçün çəkilən xərclərin cəmi xərclərdəki payı arta bilər. Hər iki halda əhalinin az təminatlı hissəsinin sosial müdafiəsinin təşkili mühüm əhəmiyyət daşıyır. Elektrik enerjisinə olan tələbin qiymətə görə elastikliyinin olmadığını nəzərə alaraq, iddia edə bilərik ki, daha böyük ehtimalla 2-ci hal baş verə bilər, yəni bazara keçid zamanı elektrik enerjisinə çəkilən xərclər artacaq və ev təsərrüfatlarında digər məqsədlərə yönələn xərclərin müəyyən hissəsi elektrik enerjisinə olan ehtiyacın ödənilməsinə sərf ediləcək. Ev təsərrüfatlarında elektrik enerjisi istehlakı həcmi ilə gəlirlər arasındakı pozitiv əlaqənin olmasını nəzərə alsaq, iddia edə bilərik ki, bazara keçid zamanı istehlakı MİS-də nəzərdə tutulan həcmdən az olan ET-ları əsasən az gəlirli qruplara daxil olacaq. Bu halda az gəlirli ET-larının itkiləri

$$\Delta EXP_i = KVT_i * (P_m - P_r) \qquad (4)$$

Olacaq. Burada $KVT_i$-i-ci ET-da istehlak olunan elektrik enerjisi həcmi, $P_m$- bazara keçid zamanı 1 KVt.s enerjinin qiyməti, $P_r$-tənzimlənən dövrdəki qiymətdir. Bu zaman itkilərin miqdarı-$\Delta EXP_i$ monopoliyadan bazara keçid zamanı qiymət fərqindən asılı olacaq. Lakin bütün ev təsərrüfatlarında deyil, yalnız aşağı gəlirli ET-larında itkilərin kompensasiya edilməsi ($Comp_i$) daha məqsədəuyğun olardı. Bu halda

$$Comp_i = KVT_i * (P_m - P_r), (\text{əgər } KVT_i \leq MİS) \qquad (5)$$

Həcmində kompensasiyanın ödənilməsi dövlət tərəfindən ödənilməsi iki istiqamətdə müsbət nəticə verə bilər. Birincisi, ET-da

istehlak həcminin məhdudlaşdırılmasını və qənaət rejiminə keçilməsini stimullaşdırmış olar. İkincisi, Əhalinin az təminatlı təbəqələrinin elektrik enerjisindən istifadə imkanlarını genişləndirər.

Yuxarıda təsvir etdiyimiz model, təbii ki, elektrik enerjisi bazarında hazırda tətbiq edilən müxtəlif tədbirlərlə birgə həyata keçirilməlidir. Məsələn, sutkanın bir neçə zaman dövrünə bölünməsi mümkündür. Yuxarıda qeyd etdiyimiz kimi, 6 zaman dövrünə bölünməsi və bu dövrlər üçün qiymətlərin müxtəlif kombinasiyalarda tətbiqi zamanı da (5) eyniliyindəki kompensasiyanı müəyyən müddət tətbiq etmək olar. Bu halda MİS-də nəzərdə tutulmuş həcmin naturada deyil, pul ifadəsində tətbiqi daha doğru olar:

$$Comp_i = KVT_i * (P_{m,max} - P_r), \text{(əgər } KVT_{ij} * P_{m,j} \le MİS * P_{m,max}) \quad (6)$$

Burada $P_{m,max}$- zaman dövrlərində elektrik enerjisinin qiymətinin maksimumu, $P_{m,j}$- elektrik enerjisinin j zamanındakı qiyməti, $KVT_{ij}$-i-ci ET-nın j zamanında istehlak etdiyi elektrik enerjisi həcmidir. Belə bir model tətbiq edilərsə, istehlakçılar həm az həcmdə elektrik enerjisi istehlak etməyə cəhd edəcəklər, həm də günün elə saatlarından istifadə edəcəklər ki, qiymətlər aşağı olsun. Monopoliyadan bazara keçidin ilk dövrlərində belə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi həm də az gəlirli ailələrin elektrik enerjisindən zəruri həcmdə istifadəsinə imkan yarada bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Woo, C., King, M., Tishler, A., & Chow, L. (2006). *Costs of electricity deregulation. Energy, 31(6-7), 747–768.*
2. Joskow PL. The difficult transition to competitive electricity markets in the U.S.. Washington DC: AEI-Brookings Joint Center for Regulatory Studies; 2003, стр.12
3. Rose K. The state of retail electricity markets in the U.S.. Electricity J 2004;17(1):26–36
4. Trebilcock MJ, Hrab R. Electricity restructuring: a comparative review. Working paper, Department of Law, University of Toronto, Toronto, Ontario, Canada; 2004
5. Lam PL. Hong Kong's electricity market beyond 2008. Energy Policy 2004;32:851–4
6. Cramton, P. (2017). Electricity market design. Oxford Review of Economic Policy, 33(4), 589 612.
7. Yusta, J. M., Ramírez-Rosado, I. J., Dominguez-Navarro, J. A., & Perez-Vidal, J. M. (2005). Optimal electricity price calculation model for retailers in a deregulated market. International Journal of Electrical Power & Energy Systems, 27(5-6), 437–447.
8. Menta, R. V., de Oliveira, E. J., Oliveira, L. W., Dias, B. H., & Marcato, A. L. M. (2016). Optimal model for electricity Tariff calculation. 2016 Power Systems Computation Conference (PSCC).
9. V.G.Umale, Dr. S.B.Warkad , S.Wadhankar , H.S.Sakhare, (2018). Optimal Pricing of Electricity in Restructured Electricity Market. International Journal of Engineering & Technology, 7 (4.5) (2018) 389-392
10. Weron, R. (2014). Electricity price forecasting: A review of the state-of-the-art with a look into the future. International Journal of Forecasting, 30(4), 1030–1081.
11. Ekaterina Alekseeva, Luce Brotcorne, S´ebastien Lepaul, Alain Montmeat, (2018). A Bilevel approach to optimize electricity prices. Yugoslav Journal of Operations Research (2018), DOI: https://doi.org/10.2298/YJOR171115002A
12. Kursad Derinkuyu, Fehmi Tanrisever, Nermin Kurt, Gokhan Ceyhan, 2005. Optimizing Day-Ahead Electricity Market Prices: Increasing the Total Surplus for Energy Exchange Istanbul.
13. Tunç, M., Çamdali, Ü., & Parmaksizoğlu, C. (2006). Comparison of Turkey's electrical energy consumption and production with some European countries and optimization of future electrical power supply investments in Turkey. Energy Policy, 34(1), 50–59.
14. Yıldırım, M. H., Özmen, A., Bayrak, Ö. T., & Weber, G. W. (2012). *Electricity Price Modelling for Turkey. Operations Research Proceedings 2011, 39–44*
15. Olga V.Tolstyakova, Nazygul T.Batyrova, (2022). Methods of optimising tariff regulation in

the electric power industry. The Electricity Journal, Volume 35, Issue 2, March 2022, 107083

16. HuiHui Liu , ZhongXiang Zhang , Zhan-Ming Chen , DeSheng Dou, (2019). The impact of China's electricity price deregulation on coal and power industries: Two-stage game modeling. Energy Policy Volume 134, November 2019, 110957

**Гюльнара Вагиф гызы Мамедова**
Диссертант Института Экономики НАНА
Заместитель заведующего отдела «Наука» Западно-Каспийского университета

## ВОЗМОЖНЫЕ ИЗМЕНЕНИЯ ЦЕН И ПУТИ СНИЖЕНИЯ СОЦИАЛЬНОЙ ПОТЕРЬ ПРИ ПЕРЕХОДЕ ЭЛЕКТРОЭНЕРГЕТИЧЕСКОГО СЕКТОРА ОТ ЕСТЕСТВЕННОЙ МОНОПОЛИИ К РЫНКУ В АЗЕРБАЙДЖАНЕ

В Статье исследуется влияние домашнего хозяйства при переходе к рыночным отношениям в электроэнергетическом секторе. Переход к рынку приведёт повышение цены, что повлияет на уровень потери потребителей. В начале исследования мы изучили опыт стран, которые прошли этот путь. Как повлиял переход от монополии к рынку мало обеспеченным домашним хозяйствам поскольку, количество потребления электроэнергии напрямую зависит от уровня доходов домашнего хозяйства.
Наша задача изучить долу социально малообеспеченных домашних хозяйств и предложить виды компенсации из-за потери излишков потребителей.
**Ключевые слова:** электроэнергия, домашнее хозяйство, монополия, рыночные отношения.

**Gulnara Vaqif Mammadova**
PhD student of the Institute of Economics of ANAS
Deputy head of the "Science" department of the Western Caspian University

## POSSİBLE PRİCE CHANGES AND WAYS TO REDUCE THE SOCİAL BURDEN DURİNG THE TRANSİTİON OF THE ELECTRİCİTY SECTOR FROM NATURAL MONOPOLY TO THE MARKET İN AZERBAİJAN

The article examines the impact of the household in the transition to market relations in the electricity sector. The transition to the market will lead to an increase in the price, which will affect the level of loss of consumers. At the beginning of the study, we studied the experience of countries that have gone through this path. How did the transition from monopoly to the market affect low-income households, since the amount of electricity consumption directly depends on the level of household income.
Our task is to study the proportion of socially disadvantaged households and offer types of compensation due to the loss of consumer surplus.
**Key words:** electricity, household, monopoly, market relations.

**Asiman Rasim oğlu İlyasov**
TKTA şöbə müdiri, UTECA doktorantura tələbəsi

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ƏMƏK BAZARININ TƏLƏBLƏRİNƏ UYĞUN KADR HAZIRLIĞININ STRATEJİ PLANLAMASINDA MÖVCUD PROBLEMLƏR

**Xülasə**
Azərbaycanda təhsilalan və təhsilverənlər arasında keçirilmiş sorğunun nəticəsinə əsasən demək olar ki, ali təhsil müəssisələrinin strateji planlaması zamanı əsas maraqlı tərəflərin proseslərə cəlb olunmasına və onların da fikirləri nəzərə alınaraq planlamanın həyata keçirilməsinə ehtiyac vardır. Eyni zamanda, Strateji inkişaf planının beynəlxalq təcrübədə qəbul edilmiş təhlillər (SWOT, PESTEL və s.) əsasında tələbəyönlü yanaşmanı əks etdirən, keyfiyyət siyasətini özündə ehtiva edəcək formada və xarici keyfiyyət təminatı qurumunun qiymətləndirmə meyarları əsasında hazırlanmasına ehtiyac olduğu müşahidə edilir.
**Açar sözlər:** Strateji inkişaf planı, keyfiyyət təminatı, ali təhsil müəssisəsi

**UOT:** 331
**JEL:** I 21

## Giriş

Təhsilin iki mühüm ölçüsü var: istehlak və investisiya. Fərdin təhsil həyatı boyu etdiyi hər cür təhsil xərcləri fərdi məmnuniyyəti təmin etdiyi və ehtiyaclarını ödəmək məqsədi ilə edildiyi üçün istehlak xüsusiyyətlərinə malikdir. Bu təhsil xərclərinin gələcəkdə daha çox gəlir əldə etmək, daha yaxşı sosial-iqtisadi şəraitdə yaşamaq, artan məşğulluq imkanları, sosial status və prestij kimi səbəblərlə edilməsi təhsilin investisiya ölçüsünü ifadə edir [8, s.8]. Eyni zamanda, qloballaşma ölkələr arasındakı əlaqələri genişləndirir və bunun nəticəsi olaraq təhsil sistemlərinin və müəssisələrinin fəaliyyətinin keyfiyyət və effektivliyinin müqayisəsinə maraq artır. Bundan əlavə, regional və qlobal dəyər zəncirində ölkələr arasında rəqabətin artması yüksəkixtisaslı işçi qüvvəsinə tələbat yaradır və qlobal innovasiya iqtisadiyyatı şəraitində belə işçi qüvvəsi olan ölkələr üstünlüyə malik olurlar [4].

Bir sıra ölkələrdə qlobal iqtisadi qeyri-müəyyənliyin təsiri nəticəsində biznesə etimad zəifləmiş, iş yerlərinin sayı azalmışdır. İşsizlik səviyyəsinin yüksək olmasına baxmayaraq, istedadlı işçi qüvvəsinin çatışmazlığı təhsil sistemi ilə əmək bazarının tələbləri arasındakı uyğunsuzluğun nəticəsi kimi qiymətləndirilir. Xüsusən də, cari qlobal mühitdə gənclər arasında işsizlik səviyyəsinin yuxarı olması iqtisadi inkişafı ləngidən və sosial sabitliyi pozan mühüm problemlərdən biridir [4]. Yuxarıda qeyd edilən məsələlərdən də aydın görülür ki, təhsil siyasətinin icrası məşğulluq vəziyyətinə güclü təsir göstərir və təhsilə, eləcə də peşə biliklərinə qoyulan sərmayə kifayət qədər istifadə edilmədikdə işsizlik yaranır. İşsizlik nisbətlərinin yüksək olmasının ən mühüm səbəblərindən biri əmək bazarında tələb olunan ixtisaslar üzrə işçi qüvvəsinin mövcud ixtisaslı işçi qüvvəsi ilə uyğun gəlməməsidir. Belə ki, bu gün ölkəmizdə işlə təmin olunanların müəyyən faizinin təhsil aldıqları təhsil istiqaməti (ixtisas və (və ya) ixtisaslaşmalarına) ilə əmək bazarında fəaliyyət göstərdiyi istiqamətləri arasında uzaqlaşmaların olduğu görülür.

Belə olan halda təhsillə məşğulluq arasında lazımi əlaqənin sağlam şəkildə qurul-

ması və daha səmərəli planlamanın aparılması məsələsi aktuallaşır. Belə ki, xarici bir sıra elmi tədqiqat və ədəbiyyatlarda ali təhsil müəssisəsinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığı apara bilməməsinin, eləcə də əmək bazarında tələb-təklif disbalansının yaranması problemlərinin ali təhsil müəssisəsinin strateji planlamasından qaynaqlandığı qeyd olunur. Eləcə də, ali təhsil müəssisəsinin keyfiyyət təminatı siyasəti tədqiqat, öyrənmə və tədris arasındakı əlaqəni əks etdirdikdə və həm müəssisənin fəaliyyət göstərdiyi milli konteksti, həm institusional konteksti və həm də onun strateji yanaşmasını nəzərə aldıqda təsirli olur [9, s.11].

**Metodologiya**

Elmi tədqiqat aparılarkən, keyfiyyət tədqiqat metodundan istifadə edilmiş və sorğuların nəticələrinin və müvafiq ali təhsil müəssisələrinin Strateji inkişaf planlarının öncədən müəyyən olunmuş meyarlar əsasında müqayisəli təhlili aparılmışdır. Təhlil zamanı öz Nizamnaməsinə əsasən Azərbaycanda Respublikasında xarici keyfiyyət təminatından məsul qurum müəyyən olunmuş Təhsildə Keyfiyyət Təminatı Agentliyi (bundan sonra – TKTA) tərəfindən təhsilalanlar və təhsilverənlər arasında 2021-2022-ci illərdə keçirilmiş sorğunun nəticələri ikinci dərəcəli mənbə kimi istifadə olunmuşdur (Sorğunun nəticələri müvafiq qurumun əməkdaşları tərəfindən ADA Universitetində ictimaiyyətə elan edilmişdir). Eyni zamanda, bir neçə ali təhsil müəssisəsinin Strateji inkişaf planı birinci mənbə kimi qəbul edilmiş və öncədən müəyyən olunmuş meyarlar əsasında kateqoriyalaşdırılmış və qarşılıqlı təhlil olunmuşdur. Belə ki, Xüsusi təyinatlı ali təhsil müəssisələrini istisna etməklə 51 ATM-dən 40 ali təhsil müəssisəsi arasında 9 ATM seçilmiş və bu seçməninin bütün populyasiyanı təmsiletmə faizi 23%-dir. Sözügedən ATM-lər seçilərkən seçim meyarı olaraq öz internet resurslarında Strateji inkişaf planını cəmiyyətə əlçatan etməsi (2022-ci il) əsas alınmışdır. Tədqiqatla bağlı çatışmazlıq ondan ibarətdir ki, seçmənin populyasiyanı təmsiletmə faizi yüksək deyil. Eyni zamanda, bir sıra müəssisələrdə Strateji inkişaf planı sadəcə kağız parçası daşıdığı üçün ümumiləşdirilmiş nəticənin reallığı əks etdirməsi sual doğurur.

**Ali təhsil müəssisələrinin kadr hazırlığında strateji planlamanın əhəmiyyəti**

Bir-biri ilə əlaqəli prosesləri bir sistem kimi başa düşmək və idarə etmək təşkilata nəzərdə tutulan nəticələrə nail olmaqda kömək edir. Bu yanaşma təşkilata sistemin prosesləri arasında qarşılıqlı əlaqə və asılılıqlara nəzarət etməyə imkan verir ki, təşkilatın ümumi fəaliyyətini gücləndirə bilsin. Proses yanaşması təşkilatın siyasətinə, məqsədlərinə və Strateji inkişaf planına uyğun olaraq nəzərdə tutulan nəticələrə nail olmaq üçün proseslərin və onların qarşılıqlı əlaqələrinin sistematik şəkildə müəyyən edilməsini və idarə olunmasını nəzərdə tutur [5, s.7] .

"Məqsədlərlə idarəetmə" modeli, özünün Strateji inkişaf proqramında təyin edilmiş yüksək göstəricilərə nail olmaq istiqamətində təhsil müəssisəsinin bütün üzvlərinin və inzibati heyətinin fəaliyyət göstərməsinə əsaslanır. Müəssisənin məqsədləri və hədəfləri təhsil müəssisəsinin daxilində müəyyənləşdirilir, məqsədlər icraçılar arasında bölünür və onları reallaşdırmaq, həm rəhbərliyin, həm də pedaqoji heyətin ümumi dəyərinə çevrilir. Bir qayda olaraq, təhsil müəssisəsində "məqsədlərlə idarəetmə" dedikdə spesifik məqsədlərə nail olunması üçün işçi qrupların və komandaların yaradılması nəzərdə tutulur [2, s.66]. Eləcə də, strateji səviyyədə qurumlar öz missiyasını, dəyərlərini, əsas məqsəd və hədəflərini əks etdirən uzunmüddətli planlar (müddəti üç ildən beş ilə qədər dəyişir) hazırlayır və bu planlar adətən

qurumu daha geniş iqtisadi, siyasi və mədəni çərçivədə təsvir edir, eləcə də qurumun açıq şəkildə regional və ya yerli missiyasının olub-olmaması və ya onun əsas istiqamətinin milli və ya beynəlxalq səviyyədə müəyyən olunması kimi suallara cavab verir [7, s.26]. Belə ki, Strateji inkişaf planı daxili və xarici amillərin təhlili əsasında gələcək məqsəd və hədəflərin müəyyən edilməsi və bu hədəflərə çatmaq üçün hazırda mövcud olan resursların istifadəsi istiqamətlərini müəyyən edən sənəddir. Strateji inkişaf planın əsas məqsədi xarici dəyişikliklərə cavab olaraq ATM daxilində öncədən dəyişikliklərin həyata keçirilməsi və bununla da xarici dəyişikliklərin mənfi təsirlərinin minimuma endirilməsi, müsbət təsirlərinin isə maksimal fayda ilə istifadə edilməsindən ibarətdir.

Strateji inkişaf planında qeyd olunan məsələlərin icrasına gələcək maliyyə vəsaitinin ehtimal olunan məbləği də böyük təsir göstərir və strateji inkişaf istiqamətlərinin maliyyələşdirməsinin planlaşdırılması zamanı əmək bazarının dəyişən tələbləri də nəzərə alınmalıdır [7, s.26]. Bununla yanaşı, strateji planlaşdırmanın müvəffəqiyyəti yalnız müəssisənin bütün heyəti planı qəbul etdikdə mümkündür və strateji planlaşdırma idarə daxilində konkret bölmənin və ya şəxsin məsuliyyəti kimi qəbul edilməməlidir. Belə ki, Strateji inkişaf planının hazırlanması və bu plana uyğun fəaliyyətlərin icra edilməsi idarəetmənin əsas vəzifəsidir və bu səbəbdən müəssisənin rəhbərliyinin dəstəyi əvəzsiz şərtdir. Rəhbərlik Strateji idarəetmə yanaşmasını mənimsədiyini işçiləri ilə bölüşməli və korporativ mülkiyyəti təmin etməlidir [6, s.16].

"2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramında" ayrı-ayrı ali təhsil müəssisələrinin Strateji inkişaf proqramının hazırlanması məsələləri hədəf olaraq qeyd olunmasına baxmayaraq [1] əfsuslar olsun ki, bu zamana qədər icra olunmamışdır. Təhsil müəssisələrinin strateji planlaşdırmanı həyata keçirməsi üçün müxtəlif yanaşmalar mövcuddur. Lakin "vahid mükəmməl yolu" olduğunu söyləmək olmaz. Hər bir qurumun və ali təhsil müəssisəsinin strateji idarəetmədə yanaşma və fəaliyyətlərin özünəməxsus şərhi var. Milli təhsilin inkişafı ilə bağlı qanunvericilik və müvafiq sənədlərdə strateji planlaşdırma termininə istinad edilir.

**ATM-lərdə strateji planlamaya maraqlı tərəflərin cəlb olunma vəziyyəti**

Azərbaycanda xarici keyfiyyət təminatı üzrə öz Nizamnaməsinə əsasən səlahiyyətli qurum müəyyən olunan Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrində çalışan akademik və inzibati heyət arasında sorğu keçirilmişdir (sorğunun nəticələri Agentliyin əməkdaşları tərəfindən 2022-ci ilin yanvar ayında ADA Universitetində ATM nümayəndələrinə elan olunmuşdur). Sözügedən sorğuda 40 ATM-in 29-dan ümumilikdə 778 nəfər akademik və inzibati heyət iştirak etmişdir. Sorğuda iştirak edən akademik və inzibati heyətin tərkibinə nəzər saldıqda daha çox professor-müəllim heyətinin üstünlük təşkil etdiyi görülür. Eyni zamanda ali təhsil müəssisələrində çalışan digər inzibati vəzifəli şəxslər də sorğuda iştirak etmişdir. Akademik və inzibati heyət arasında keçirilmiş sorğuda ən yüksək iştirak sayı 200 nəfər ilə UNEC-ə aiddir, hansı ki bu da sorğunun ATM-lər üzrə paylanmasına mənfi təsir etmiş və nəticələrinin etibarlılığını və reprezentativliyini sual altına almışdır.

Sorğu iştirakçılarının 20%-i çalışdıqları ATM-də Strateji inkişaf planının mövcudluğu haqqında məlumatsız olduqlarını qeyd etmişdir. Sorğu iştirakçılarının yarısından çoxu (63%)

**Qrafik 1**

**Çalışdığınız ATM-də Strateji inkişaf planı mövcuddurmu sualına cavabların faiz nisbəti**




Strateji inkişaf planının hazırlanması prosesinə cəlb olunmadıqlarını və ya çalışdıqları ATM-də belə bir sənədin mövcudluğundan xəbərsiz olduqlarını qeyd etmişdir. Bu isə ATM-lərdəki Daxili Keyfiyyət Təminatı sisteminin işləkliyini, eləcə də strateji idarəetmənin səmərəliliyini sual altında qoyur.

**Qrafik 2**

**Strateji inkişaf planının hazırlanmasına cəlb olunma faiz nisbəti**




Ali təhsil müəssisələrində çalışan inzibati və akademik heyət arasında keçirilmiş sorğunun nəticələrini qarşılaşdırmaq və təlim ehtiyacları müəyyən etmək üçün Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən ali təhsil müəssisələrində təhsilalanlar arasında digər bir sorğu keçirilmiş və sorğunun nəticələri Agentliyin əməkdaşları tərəfindən ADA Universitetində ATM nümayəndələrinə elan olunmuşdur. Sorğunun nəticəsi olaraq 41 ATM-dən ümumilikdə 20729 nəfər tələbə iştirak etmişdir. Ən yüksək iştirak sayı 3118 nəfər ilə Azərbaycan Dövlət İqtisad Universitetinə aiddir. ATM-lərdə təhsilalan tələbələrin sorğuda iştirakının ATM-lər üzrə paylanmasının fərqliliyi sorğunun nəticələrinin etibarlılığını yüksəkliyi deməkdir. Sorğu iştirakçılarının 50%-dən çox hissəsi Strateji inkişaf planının hazırlanması prosesinə cəlb olunmadığını və ya ATM-də belə bir sənədin mövcudluğundan xəbərsiz olduqlarını qeyd etmişdir. Bu isə yenidən ATM-lərdəki daxili keyfiyyət təminatı sisteminin işləkliyini, eləcə də strateji idarəetmənin səmərəliliyini sual altında qoyur.

Yuxarıda qeyd olunan iki sorğunun nəticələrini müqayisəli təhlil etdiyimiz zaman belə bir nətiyə gəlinir ki, ATM-lərdə strateji planlama prosesinə əsas maraqlı tərəflərin (təhsilalan, təhsilverən, inzibati heyət) cəlb olunmasına ehtiyac vardır.

**Qrafik 3**

**Sorğu nəticəsinə əsasən təhsilalanların Strateji inkişaf planının hazırlanmasına tələbələrin cəlb olunması vəziyyəti**




**ATM-lərdə strateji inkişaf planlarının mövcudluğu vəziyyəti**

ATM-lərdə Strateji inkişaf planlarının mövcudluğu vəziyyətini tədqiq etmək üçün, xüsusi təyinatlı ali təhsil müəssisələrini istisna etməklə 51 ATM-dən 40 ali təhsil müəssisəsi arasından 9 ATM seçilmişdir (bu seçmənin bütün populyasiyanı təmsiletmə faizi 23%-dir). Sözügedən ATM-lər seçilərkən seçim meyarı olaraq öz internet resurslarında Strateji inkişaf planını cəmiyyətə əlçatan etməsi əsas alınmışdır. Tədqiqatla bağlı çatışmazlıq onda n ibarətdir ki, seçmənin populyasiyanı təmsiletmə faizi yüksək deyildir. Eyni zamanda, bir sıra müəssisələrdə Strateji inkişaf planı sadəcə kağız parçası daşıdığı üçün ümumiləşdirilmiş nəticənin reallığı əks etdirməsi sual doğurur.

ATM-lərdə Strateji inkişaf planlarının mövcudluğu vəziyyətini tədqiq etmək üçün seçilmiş bir sıra Strateji inkişaf planları öncədən müəyyən olunmuş meyarlar əsasında təhlil edilmişdir. Sözügedən meyarlar beynəlxalq təcrübə, yerli qanunvericilik, Bolonya təhsil prosesi zamanı götürülən öhdəliklər və təhsil sahəsində strateji hədəflər əsas alınaraq müəyyən olunmuşdur.

Eləcə də, tərkibində filial və kollec kimi təhsil müəssisələrinin fəaliyyət göstərdiyi halda əksər ATM-in öz hazırladıqları Strateji inkişaf planlarında onları nəzərə almadığı müəyyən olunmuşdur. Bununla yanaşı olaraq, əksəriyyət etibarı ilə ATM-lər tərəfindən hazırlanmış Strateji inkişaf planlarında hədəflər müəyyən olunmamışdan öncə aparılan təhlillərə (SWOT, PESTEL və s.) rast gəlinmir. Seçmədə təmsil olunan ATM-lərin hər birinin Stratejin inkişaf planlarında keyfiyyət təminatına, əmək bazarının tələblərinin nəzərə alınması və əlaqələrin qurulmasına, karyera planlama və məzunların işlə təmininə (məzun izləmə sisteminə dair), insan resursları siyasətinə, maddi-texniki infrastruktura, beynəlmiləlşməyə, elmi tədqiqat fəaliyyətinə dair hədəflərin əks olunması tədqiqatın sevindirici nəticəsidir.

**Cədvəl 3**

**ATM-lərin Strateji inkişaf planlarının müqayisəli təhlili**

| MEYARLAR | BDU | UNEC | ADPU | AzTU | ADAU | ADA | BANM | OYU | SDU |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1.Keyfiyyət təminatına dair hədəflərin əks olunması | + | + | + | + | + | + | + | + | + |
| 2.Əmək bazarının tələblərinin nəzərə alınması və əlaqələrin qurulmasına dair hədəflərin əks olunması | + | + | + | + | + | + | + | + | + |
| 3.Karyera planlama və məzunların işlə təminină dair (məzun izləmə sisteminə dair) hədəflərin əks olunması | + | + | + | + | + | + | + | + | + |
| 4.Tələbəyönlü tədris sisteminin tətbiqinə dair hədəflərin əks olunması | + | + | + | + | + | + | yox | + | yox |
| 5.Tələbə dəstək sisteminə dair hədəflərin əks olunması | yox | yox | + | + | yox | + | yox | + | yox |
| 6.İnsan resursları siyasətinə dair hədəflərin əks olunması | + | + | + | + | + | + | + | + | + |
| 7.Differensial yanaşma və professor-müəllim heyətinin professionallığının artırılmasına dair hədəflərin əks olunması | yox | + | + | yox | + | + | + | + | + |
| 8.Maddi-texniki infrastruktura dair hədəflərin əks olunması | + | + | + | + | + | + | + | + | + |
| 9.İdarəetmənin təkmilləşdirilməsinə dair hədəflərin əks olunması | + | + | + | + | + | + | + | yox | + |
| 10.Beynəlmiləşməyə dair hədəflərin əks olunması | + | + | + | + | + | + | + | + | + |
| 11.Beynəlxalq standartların tətbiqinə dair hədəflərin əks olunması | yox | + | + | yox | + | yox | + | + | + |
| 12.Elmi tədqiqat fəaliyyətinə dair hədəflərin əks olunması | + | + | + | + | + | + | + | + | + |
| 13.Digitallaşma və İKT infrastrukturunun təkmilləşdirilməsinə dair hədəflərin əks olunması | + | + | + | + | + | + | yox | yox | yox |
| 14.Yerli və beynəlxalq reytinq göstəricilərində irəliləməyə dair hədəflərin əks olunması | + | + | + | yox | + | yox | yox | yox | + |
| 15.Strateji inkişaf planını əhatə etdiyi müddət | 2020 | +2030 | +2026 | +2030 | +2025 | +2025 | yox | +2025 | +2025 |
| 16.Tərkibində fəaliyyət göstərən filial və ya kolleclərə dair məsələlərin əks olunması | + | yox | yox | yox | M/D | + | M/D | M/D | yox |
| 17.ATM-in statusuna dair məsələnin əks olunması | yox | + | yox | + | yox | + | yox | + | yox |
| 18.Missiya, vizyon və hədəflərin əks olunması | + | + | + | + | + | + | + | + | + |
| 19.Strategiya hazırlanarkən təhlilin aparılması vəziyyəti | yox | + | + | yox | yox | yox | + | yox | + |

Mənbə: Müvafiq ATM-lərin Strateji inkişaf planları əsasən tədqiqatçı tərəfindən tərtib olunmuşdur.

**Nəticə**

Strateji inkişaf planının hazırlanmasına əsas maraqlı tərəflərin cəlb olunması, eləcə də Strateji inkişaf planında qeyd olunan

hədəflərin maraqlı tərəflərlə kommunikasiyasının qurulması, hesabatlılığın Strateji inkişaf planında qeyd olunan hədəflər əsasında formalaşması (fəaliyyət planları əsasında) strateji idarəetmənin və planlamanın səmərəli təşkili və keyfiyyət təminatı üçün böyük ölçüdə əhəmiyyət daşıyır. Tədqiqatın nəticəsi olaraq tövsiyyə xarakterli olaraq demək olar ki:

1.ATM-lər tərəfindən Strateji inkişaf planının hazırlanmasına əsas maraqlı tərəflərin cəlb olunması və planın təhlil əsaslı hazırlanması təmin olunmalıdır;

2.Strateji inkişaf planı tələbəyönlü tədrisin təşkili, beynəllililəşmə, beynəlxalq reytinq göstəricilərində irəliləmə və rəqəmsallaşma kimi müasir dövrün tələbləri ilə bağlı müddəalarla müəssisənin yerli və beynəlxalq miqyasda rəqabətliliyini artırmağa xidmət etməlidir;

3.Strateji inkişaf planında Avropa Ali Təhsil Məkanında Təhsil Standartları və Tövsiyələrinə, eləcə də Bolonya prinsiplərinə uyğun olaraq tələbəyönlü tədris mühitinin yaradılması (tələbə dəstək mexanizminin qurulması və s. kimi) ilə bağlı müddəalara geniş yer verilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI

1."2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 295 nömrəli Sərəncamı // 22 may 2009-cu il. – Bakı.

2. Azərbaycan Respiblikası Təhsil İnstitutu Elmi Əsərləri / cild 87, №1, - Bakı, - 2020, 217s.

3.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 493 nömrəli "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları" qərarı // 14 dekabr 2020-ci il. – Bakı.

4.Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" Fərmanı // 24 dekabr 2016-cı il. - Bakı, - 2016.

5.Educational organizations — Management systems for educational organizations — Requirements with guidance for use / ISO, - Switzerland, - 2018, 74 p.

6.Kamu İdareleri için Stratejik Planlama Kılavuzu / Türkiye Cumhuriyyeti Kalkınma Bakanlığı, - Ankara, - 2018, - 96 s.

7.Quality Assurance and Labour Market Responsiveness in Higher Education: Final English National Report / D Lain A Maginn, - London, - 2003, 183 p.

8.Meslek Yüksekokulu İktisadi ve idari Programlarından mezun olan Öğrencilerin işgücü piyasasindaki durumlarının analizi: Zonguldak Karaelmas Üniversitesi Örneği / Elif Gökbulut, – Zonguldak, –2011, –124 s.

9.Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area (ESG) / EURASHE, - Brussels, Belgium, - 2015, 32 p.

10.https://www.ada.edu.az/en/about/strategic-plan

11.http://www.adau.edu.az/haqqimizda/nkiaf-stratgiyas-665/

12.https://www.ada.edu.az/en/about/strategic-plan

13.https://www.bhos.edu.az/kcfinder/upload/files/report_web_az.pdf

14.https://oyu.edu.az/uploads/universitet/OYU%20strateji%20plan%20.pdf

15.https://www.sdu.edu.az/userfiles/image/news/strateji_plan.pdf

16.https://unec.edu.az/application/uploads/2019/09/UNEC_100_inkisaf_strategiyasi.pdf

17.http://bsu.edu.az/az/content/baki_dvlt_unversrtetnn_mssya_v_stratej_nkaf_plani

**Asiman Rasim oqlu İlyasov**

## Existing problems in the strategic planning of student preparation of higher education institutions in accordance with the requirements of the labor market

### Summary

Based on the results of the survey conducted among students and academics in Azerbaijan, it can be said that during the strategic planning of higher education institutions, there is a need to involve the main stakeholders in the processes and to implement the planning taking into account their opinions. At the same time, it is observed that there is a need to prepare the Strategic Development Plan based on analyzes adopted in international practice (SWOT, PESTEL, etc.) in a form that reflects a student-oriented approach, includes a quality policy, and based on the assessment criteria of a foreign quality assurance institution.

**Keywords:** Strategic development plan, quality assurance, higher education institution

**Асиман Расим оглы Ильясов**

## Существующие проблемы стратегического планирования подготовки кадров в соответствии с требованиями рынка труда высших учебных заведений

### Резюме

По результатам опроса, проведенного среди студентов и преподавателей в Азербайджане, можно сказать, что при стратегическом планировании высших учебных заведений необходимо вовлекать в процессы основные заинтересованные стороны и осуществлять планирование с учетом их мнения. При этом отмечается необходимость подготовки Стратегического плана развития на основе анализов, принятых в международной практике (SWOT, PESTEL и др.) в форме, отражающей студентоориентированный подход, включающей политику качества, и на основе критериев оценки зарубежного учреждения по обеспечению качества.

**Ключевые слова:** Стратегический план развития, обеспечение качества, высшее учебное

**Daxil olub:** 14.02.2022

**Sevil Rafiq qızı Hümbətova**
AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun doktorantı
E-mail: s.humbatova@inbox.ru

# YAŞIL İQTİSADİYYAT KOMPOZİT İNDEKSİ YANAŞMASI

**Xülasə**

**Tədqiqatın məqsədi** –müxtəlif ölkələr üzrə Yaşıl iqtisadiyyat modeli istiqamətində inkişafın müqayisəli kəmiyyətcə qiymətləndirilməsi üçün ölçmə metodunun işlənməsi

**Tədqiqatın metodologiyası** –əksər ölkələrdə yaşıl iqtisadiyyat modelinin əsas amillərinin indeksləşdirilməsi və onların əsaslnda kompozit indeksin hesablanması

**Tədqiqatın tətbiqi əhəmiyyəti** –bu metodla hesablama ölkələrarası müqayisələrin aparılmasına imkan verir.

**Tədqiqatın nəticələri** –Müəllif bu kompozit indeksə əsaslanaraq Azərbaycanda yaşıl iqtisadiyyatın müasir vəziyyətinin bəzi komponentləri qiymətləndirir. Qiymətləndirmələr göstərir ki, Azərbaycanda son 10 ildə yaşıl iqtisadiyyat istiqamətində həyata keçirilən siyasət öz nəticəsini vermişdir və yaşıl iqtisadiyyata keçidin "Artımın parametrləri və sosial-iqtisadi mahiyyəti" göstəricisi pozitiv istiqamətlidir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi-** Yaşıl iqtisadiyyat modelinin cari vəziyyətini qiymətləndirmək üçün iqtisadi ədəbiyyatda tamamilə yeni olan beş sub-indeksdən ibarət Yaşıl İqtisadiyyat Kompozit İndeksi təklif edilir.

**Açar sözlər**: kompozit index, yaşıl iqtisadiyyat modeli, iqlim dəyişmələri, iqtisadi artım, artımın parametrləri

## Giriş

Yaşıl iqtisadiyyat konsepsiyasının son illər dütün dünyada həm siyasilər, həm də elm adamları tərəfindən imperativ qəbul edilməsinə baxmayaraq, real iqtisadi fəaliyyətdə yaşıl iqtisadi modelə keçid prosesi xeyli yavaş sürətlə aparılır. Bunun əsas səbəbi iqtisadi fəaliyyətdə əsas məqsədin mənfəət və iqtisadi artımın təmin edilməsi ilə bağlıdır. Hər bir ölkə çalışır ki, iqtisadi artım nöqteyi nəzərindən digər ölkələrdən geri qalmasın. Belə artımın hansı vasitələrlə təmin edilməsi məsələsi isə ikinci plana keçir. Belə ki, iqtisadi artımın mənbəyinin təbii sərvətlərin hasilatı və ixracı ilə təmin edilməsinə çalışmaq nə qədər yaşıl iqtisadiyyat konsepsiyasından kənardadırsa, o qədər də onun dəstəklənməsi həm belə resursları istehsal edən, həm də onu istehlak edən ölkələr tərəfindən dəstəklənir. Baxmayaraq ki, inkişaf etmiş ölkələrin hər biri öz iqtisadiyyatlarını yaşıl konsepsiyaya uyğunlaşdırdıqlarını iddia edirlər, lakin onların artan istehlakı digər ölkələrdə, xüsusilə, inkişaf etməkdə olan ölkələrdə hasilat sənayesinin inkişafına stimul vermiş olur. İnkişaf etmiş ölkələrə məxsus transmilli şirkətlər, xüsusilə, neft, qaz hasilatı ilə məşğul olan şirkətlər fəaliyyət göstərdikləri ölkələrdə ekoloji tələblərə, əksər hallarda, riayət etmirlər. Beynəlxalq qeyri-hökumət təşkilatlarının ekoloji problemlərlə bağlı hesabatlarına əsasən belə şirkətlər hətta fəaliyyət göstərdikləri ölkələrdə ekoloji qanunvericiliyin yumşaldılması istiqamətində siyasi hakimiyyətə təzyiqlər etməkdən də çəkinmirlər.

Yaşıl iqtisadiyyat konsepsiyasının dünyada geniş vüsət almasına mane olan mühüm amillərdən biri də regional müharibələrdir. Silahlı toqquşmalar çoxlu sayda insan tələfatı ilə, həmçinin fiziki infras-

trukturun dağıdılması ilə yanaşı, həm də böyük həcmdə maliyyə vəsaitlərinin əhalinin rifah səviyyəsinin yüksəldilməsinə deyil, hərbi xərclərə yönəldilməsinə səbəb olur. Silaha xərclənən vəsaitlər hesabına təhsilə, səhiyyəyə, mədəniyyətə və sair insan inkişafına yönələn xərclərin azaldılması hesabına yaranır. Belə silahlı toqquşmalar həm də atmosfer havasının çirklənməsinə səbəb olaraq, qlobal xarakter daşıyır.

**Ədəbiyyata baxış**

İqlim dəyişmələrinin yaxın illərdə də davam edəcəyi və iqtisadiyyatın, sosial həyatın demək olar ki, bütün sahələrinə ciddi təsirləri baş verəcəyi İqlim Dəyişmələri ilə bağlı Dövlətlərarası Razılaşma (IPCC, 2014) [1] tərəfindən 2014-cü ildə hazırlanan geniş hesabatda detalları ilə şərh edilib. Bu sənəddən əvvəl *Stern (2006)* [2] tərəfindən hazırlanan tədqiqatda da iqlim dəyişmələri ilə bağlı dünyanın qarşılaşa biləcəyi ciddi problemlərin yalnız kollektiv səylərlə aradan qaldırılması əsas nəticə kimi vurğulanır.

Karl Burkart (2009 [3] tərəfindən verilən tərifə əsasən yaşıl iqtisadiyyat əsasən 6 sektoru özündə birləşdirir. Bunlar 1) bərpa olunan enerji; 2) yaşıl binalar; 3) dayanıqlı nəqliyyat; 4) suyun idarəedilməsi; 5) tullantıların idarəedilməsi; 6) torpağın idarəedilməsi ilə bağlıdır. Əlbəttə bu sektorların hər biri istənilən dövrdə bu və ya digər səviyyədə inkişaf etmiş olur. Lakin onların "yaşıl iqtisadiyyat" –a uyğun səviyyədə olması o deməkdir ki, bu sektörların hər biri ən azı bir meyar üzrə tələbləri ödəməlidir. Gurieva və Rudneva (2013) [4] helə hesab edirlər ki, iqtisadiyyatın "yaşıllaşması" üçün müəyyən indikatorlar sistemi olmalıdır və bu indikatorların müəyyən qiyməti əsasında iqtisadiyyatın altı dərəcəli "yaşıl" vəziyyəti fərqləndirilməlidir.

"Yaşıl artım" anlayışına OECD (2011), World Bank (2012) [5], UNESCAP (2012) [6], Global Green Growth Institute (GGGI, 2012) [7] tərəfindən verilən tərflərin mahiyyətlərində demək olar ki, elə ciddi fərqlər yoxdur.

**Metodologiya**

Yaşıl iqtisadiyyata modelinə mahiyyətdə aidiyyəti olan əsas göstəricilər ARDSK-də beş göstəricilər qrupunda təsnifləşdirilib. Bu qrupların da hər biri bir neçə alt-göstəricini əhatə edir. Bu qruplar aşağıdakılardır:

1) Artımın parametrləri və sosial-iqtisadi mahiyyəti ($GP_t$). Bu qrup 10 alt-göstəricdən ibarətdir: a) Əhalinin hər nəfərinə düşən ÜDM; b) 1 məşğulun 1 saatda istehsal etdiyi məhsulun həcmi; c) Əmək qabiliyyətli yaşda olan əhalinin iqtisadi fəallıq səviyyəsi (faiz); d) İşsizlik səviyyəsi (faiz); e) Minimum əmək haqqının orta aylıq nominal əmək haqqındakı xüsusi çəkisi (faiz); f) Yoxsulluq səviyyəsi (faiz); g) Təhsil səviyyəsi (faiz); h) Əhalinin qocalma əmsalı (faiz);i) Əhalinin sıxlığı (nəfər/km2); j) Doğulanda gözlənilən ömür uzunluğu (0 yaş üçün) (yaş).

2) İqtisadiyyatın ekoloji və resurs effektivliyi qrupu ($ERE_t$) 15 alt-göstəricini əhatə edir: a)Stasionar mənbələrdən atmosfer havasına atılan karbon qazı (CO2) (min ton); b) Suvarma ehtiyacları üçün su istehlakının həcmi (milyon kub m); c) Su itkilərinin həcmi (milyon kub m); d) Suvarma ehtiyacları üçün istifadə zamanı su itkisinin həcmi (milyon kub m); e) Bir nəfərə düşən istehsalat tullantılarının həcmi (kq); f) Bir nəfərə düşən bərk məişət tullantılarının həcmi (kq); g) Enerjinin ümumi son istehlakı (min net); h) Enerjinin ümumi son istehlakı (teracoul); i)Enerji tutumu (kq neft ekvivalenti/min manat); j) Elektrik enerjisi istehsalı (mln Kvts); k)Bərpa olunan enerji mənbələri üzrə

istehsal (mln Kvts); l)Əkin sahəsinin 1 hektarına düşən mineral gübrələrin miqdarı (kg/ha); m)Əkin sahəsinin 1 hektarına düşən üzvü gübrələrin miqdarı (kg/ha); n)Bərpa olunan mənbələrdən enerji təchizatının ümumi enerji təchizatında payı (faiz); o) 1 kq İstehsal olunan enerji məhsulunun ÜDM-də dəyəri (1 manat/kq neft ekvivalenti).

3)təbii ehtiyatlar qrupu $(NR_t)$ 10 alt-göstəricini əhatə edir: a) Təbii mənbələrdən götürülən şirin su (milyon kub m); b) Su istehlakı (milyon kub m); c) Neft hasilatı (min ton); d)Qaz hasilatı (min ton); e), Torpaq fondunun təyinatına görə strukturu: Ölkənin ümumi torpaq sahəsi - cəmi (min hektar); f) Kənd təsərrüfatına yararlı torpaq sahəsi (min hektar); g) Qeyri-kənd təsərrüfatı torpaqları (min hektar); h)Balıq ovu (ton); i)Su resurslarından istifadə indeksi (faiz); j)Meşə ilə örtülü sahə (faiz).

4) Həyatın ekoloji keyfiyyətinin ölçülməsi qrupu $(EFL_t)$ 5 alt-göstəricini əhatə edir: a) Atmosferə atılmış çirkləndirici maddələrin əhalinin hər nəfərinə düşən həcmi (kq); b) Tənəffüs orqanlarının xəstəlikləri (nəfər); c) Kəskin bağırsaq infeksiyaları ilə xəstələnənlər : 0-17 yaşadək uşaqlar (nəfər); d) Kəskin bağırsaq infek-siyaları ilə xəstələnənlər : 18 yaşdan yuxarı olanlar (nəfər); e) Təmizlənmədən atılan çirkab sular (milyon kub m).

5) Siyasətin iqtisadi imkanları və alətləri qrupu $(EOP_t)$ isə 8 alt-göstəricini əhatə edir: a) Turizm məqsədilə Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sayı (nəfər); b) Çaylarda ammonium ionlarının (NH4) orta illik konsentrasiyası: Kür (mq (NH4+)/l); c) Çaylarda ammonium ionlarının (NH4) orta illik konsentrasiyası: Araz (mq (NH4+)/l); d) Ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə üçün əsas kapitala yönəldilmiş investisiyaların ümumi investisiyalarda payı (faiz); e) Turizm fəaliyyətinin ÜDM-də payı (faiz); f) Atmosfer havasının çirkləndirilməsinə görə ödənişlər (min manat); g) Su resurslarının çirkləndirilməsinə görə ödənişlər (min manat); h) Tullantıların yerləşdirilməsinə görə ödənişlər (min manat).

Bu göstəricilərdən istifadə edərək Yaşıl İqtisadiyyat Kompozit İndeksini $(GECİ_t)$

$$GECİ_t = \frac{GP_t + ERE_t + NR_t + EFL_t + EOP_t}{5} \quad (1)$$

Fərz edəcəyik ki, yaşıl iqtisadiyyatı xarakterizə edən bu sub-indekslərin hər biri eyni çəkiyə (20%) malikdirlər. Digər tərəfdən fərz edəcəyik ki, sub-indeklərin hesablanması zamanı hər bir göstəricilər qrupunun tərkibinə daxil olan alt-göstəriciləri xarakterizə edən alt-indekslər də eyni çəkiyə malikdir. Lakin bu halda bütün göstəricilərin eyni ölçüyə gətirilməsi üçün $I_i = \frac{X_i - X_{min}}{X_{max} - X_{min}}$ dusturundan istifadə edəcəyik. Beləliklə, hər bir alt-göstərici üçün "normallaşdırma" əməliyyatı yerinə yetiriləndən sonra uyğun sub-indeks

$$Sİ_i = \frac{\sum_{i=1}^{n} I_i}{n} \quad (2)$$

düsturu ilə hesablanacaq.

Həmçinin hər bir göstərəcinin kəmiyyətcə dəyişməsinin yaşıl iqtisadiyyata təsirlərini nəzərə alaraq, onlara "+" və ya "-"işarələri aid ediləcək. Məsələn, adambaşına iqtisadi artımın çox olması yaşıl

iqtisadiyyata töhvə olduğu halda "yoxsulluq səviyyəsinin" artması əks təsir yaradır. Ona görə də uyğun sub-indeksin hesablanmasında bu göstəricilərdən birincisi "+" işarə ilə, ikincisi isə "-" işarə ilə daxil edilir. "Normallaşdırma zamanı $X_{min}$ və $X_{max}$ müəyyən edilməsi də mühüm əhəmiyyət daşıyır. Belə fərz edəcəyik ki, $X_{min}$ və $X_{max}$ nəzəri cəhətdən hər hansı göstəricinin mümkün olan ən kiçik və ən böyük qiymətləridir. Məsələn, yoxsulluq səviyyəsi üçün $X_{min}$=0, $X_{max} = 100$ götürülə bilər.

Beləliklə, 1) Artımın parametrləri və sosial-iqtisadi mahiyyəti göstəricilər qrupu üçün ($GP_t$) sub-indeksini

$$GP_t = \frac{\sum_{i=1}^{10} I_i}{10} = \frac{I_1+I_2+I_3+I_4+I_5+I_6+I_7+I_8+I_9+I_{10}}{10} \qquad (3)$$

Burada

$I_1$ – Əhalinin hər nəfərinə düşən ÜDM. Bu göstərici "+" ilə daxil edilir və $I_{1,min} = 0$; $I_{1,max} = 250000\ azn.$ Bu göstərici üzrə məlumatlar milli statistik bazadan və ya Dünya Bankının rəsmi statistik bazasından əldə edilir.

$I_2$ – 1 məşğulun 1 saatda istehsal etdiyi məhsulun dəyəri. Bu göstərici "+" ilə daxil edilir və $I_{2,min} = 0$; ; $I_{2,max} = 300\ azn.$ Bu göstərici üzrə hazırda Lüksembur liderdir və bu ölkədə bir məşğula düşən məhsulun dəyəri AQP (PPP) ilə 242 min dollardır [8].

$I_3$ –Əmək qabiliyyətli yaşda olan əhalinin iqtisadi fəallıq səviyyəsi (faiz). Bu göstərici də "+" ilə daxil edilir və $I_{3,min} = 0$; $I_{3,max} = 100$

$I_4$ –İşsizlik səviyyəsi (faiz). Bu göstərici "-" ilə daxil edilir və $I_{4,min} = 0$; ; $I_{4,max} = 100$

$I_5$ –Minimum əmək haqqının orta aylıq nominal əmək haqqındakı xüsusi çəkisi (faiz). Bu göstərici də "+" ilə daxil edilir və $I_{5,min} = 0$; ; $I_{5,max} = 100$

$I_6$ –Yoxsulluq səviyyəsi (faiz). Bu göstərici "-" ilə daxil edilir və $I_{6,min} = 0$; ; $I_{6,max} = 100$

$I_7$ –Təhsil səviyyəsi (faiz). Bu göstərici də "+" ilə daxil edilir və $I_{7,min} = 50$; ; $I_{7,max} = 100$. Təhsil səviyyəsi ilə bağlı göstəricilər Dünya Bankının rəsmi informasiya bazasından [9] əldə edilir.

$I_8$ –Əhalinin qocalma əmsalı (faiz). Bu göstəricinin yaşıl iqtisadiyyata birbaşa təsirlərinin elmi əsaslandırılmasının birmənalı olmadığını nəzərə alaraq, biz onu (3) bərabərliyinə daxil etmirik. Buna baxmayaraq, qeyd edək ki, $I_{8,min} = 1$; $I_{8,max} = 50$ götürmək olar. Əhalinin qocalma əmsalı ilə bağlı göstəricilər Dünya Bankının rəsmi informasiya bazasından əldə edilir. [10]

$I_9$ –Əhalinin sıxlığı (nəfər/$km^2$). Bu göstəricinin də yaşıl iqtisadiyyata birbaşa təsirlərinin elmi əsaslandırılmasının birmənalı olmadığını nəzərə alaraq, biz onu (3) bərabərliyinə daxil etmirik. Buna baxmayaraq, qeyd edək ki, Əhalinin sıxlığı üçün $I_{9,min} = 0.01$; ; $I_{9,max} = 30000$ götürmək olar. Dünya Bankının rəsmi informasiya bazasından əldə edilir. [11]

$I_{10}$ – Doğulanda gözlənilən ömür uzunluğu (0 yaş üçün) (yaş). Bu göstərici "+" ilə (3) bərabərliyinə daxil edilir və $I_{10,min} = 20$; ; $I_{10,max} = 100$ götürmək olar. Bu göstərici üzrə məlumatları Dünya Bankının rəsmi informasiya bazasından əldə etmək olar.

**Əsas hesablamalar**

Ekoloji problemlərin yerli və ya regional problem səviyyəsindən inkişaf edərək qlobal problemə çevrilməsi artıq bütün ölkələr tərəfindən etiraf edilir. Belə problemlər özünün iqlim dəyişmələrində və qlobal istiləşmənin qaçılmaz olmasında biruzə verir. İqlim Dəyişmələri ilə bağlı Hökumət-

lərarası Razılaşmalar (IPCC) tərəfindən dərc edilmiş 2014-cü il Hesabatı iqlim dəyişmələrinin getdikcə ciddi xarakter daşıdığını və zəruri tədbirlərin görülmədiyi hallarda iqlim dəyişmələrinin yaxın onilliklərdə sağlamlığa və iqtisadiyyata ciddi ziyan vura biləcəyi proqnozlaşdırılır. Beynəlxalq səviyyədə ölkələrarası razılaşmalar hələ iqlim dəyişmələrinin təsirlərinin azaldılması istiqamətində mühüm nəticələr əldə etməyə imkan vermir. Bunun əsas səbəbi ətraf mühitin, xüsuilə atmosferin çirklənməsində əsas payı olan ölkələrin, məsələn, ABŞ hələ də belə razılaçmalara, məsələn, Kyota protokoluna əhəmiyyət verməməsi ilə bağlıdır. Neft və qaz istehlakının qlobal səviyyədə artması da hasilatçı ölkələri öz gəlirlərini artırmaq məqsədilə stimullaşdırır. COVİD-19 nəticəsində 2020-ci ildə neftə olan istehlakın bir qədər azalması özünü ətraf mühitin çirklənməsi səviyyəsində də müəyyən qədər göstərdi. Lakin hamıya bəllidir ki, bu hal yalnız müvəqqəti xarakter daşıyır və istehlakın artması gözləniləndir. Artan istehlakı bərpa olunan enerji ilə təmin etmək əvəzinə karbohidrogen ehtiyatlarının hasilatının artırılması çıxış yolu deyil. Aparılan tədqiqatlar göstərir ki, *"iqlim dəyişmələrinin ciddi xarakter alması ölkələrin sənaye siyasətinin koordinasiya edilməsinə zərurət yaradıb. Bu koordinasiyanın əsas məqsədi iqlim dəyişmələrinə səbəb olan karbon emissiyasının azaldılması, iqlim dəyişmələrinə adaptasiya siyasətinin formalaşmasında ölkələrin səyinin birləşdirilməsi və razılaşdırılmasıdır. Sənaye sektorunu özünün strateji prioriteti hesab edən ölkələrdə az karbonlu iqtisadi siyasətin tətbiqi nəticəsində tərəflərin qarşılıqlı fayda əldə etməsi üçün belə siyasətin razılaşdırılmasına ehtiyac var"* [12].




**Qrafik 1. Əhalinin hər nəfərinə düşən ÜDM (nominal və real manatla. Baza ili 1995)**




**Qrafik 2. Əhalinin hər nəfərinə düşən ÜDM (nominal və real dollarla. Baza ili 19995)**

"Artımın parametrləri və sosial-iqtisadi mahiyyəti" göstəricisi üzrə $GP_t$ sub-indeksini yuxarıda qeyd etdiyimiz məhdudiyyətlər şərçivəsində hesablamaqdan əvvəl Əhalinin hər nəfərinə düşən ÜDM həcminin (nominal və real manatla və ABŞ dolları ilə (baza ili 1995) müqayisə edək (qrafik 1 və 2). Qrafiklərdən görünür ki, bu illərdə nominal qiymətlərlə ÜDM həcmi real qiymətlərlə olan ÜDM həcmindən

kəskin fərqlənir. Lakin buna baxmayaraq, real qiymətlərlə (həm manatla, həm də dollarla) ÜDM həcmi də xeyli artıb. Hətta müqayis üçün deyə bilərik ki, 1995-ci ilə nisbətən real manatla adambaşına ÜDM həcmi 2020-ci ildə 6.8 dəfə, dollarla isə 7 dəfə artıb. Lakin bu illər ərzində artım davamlı olmayıb. Belə ki, 2008-ci ilə qədər artım davamlı olsa da 2009-cu ildə kəskin azalma, 2014-cü ilə qədər yenidən artma müşahidə edilir. 2015-ci il devalvasiyası zamanı real ÜDM xeyli azalıb. Lakin 2019-ci ilə qədər artım COVİD-19 səbəbindən 2020-ci ildə yenidən kəskin azalıb. Lakin bu illər ərzində əmək məhsuldarlığının artımı, demək olar ki, davamlı olub (Qrafik 3).




**Qrafik 3. əmək məhsuldarlığının* dinamikası**




**Qrafik 4. Azərbaycanda Artımın parametrləri və sosial-iqtisadi mahiyyəti göstəricilər qrupunun inkişaf dinamikası**

*(* əmək məhsuldarlığı olaraq 1 məşğulun 1 saatda istehsal etdiyi məhsulun həcminin nominal manatla dəyəri götürülüb. ARDSK-nin məlumatlar bazasında yalnız 2013-cü ildən sonrakı illəri əhatə edən məlumatlar olduğundan əvvəlki illər üzrə məlumatlar illik iş saatlarının 1900 saat hesabı ilə götürülüb. Qeyri-neft sektorunda əmək məhsuldarlığı hesablanan zaman illik orta iş saatlarının həcmi 1900 saat götürülüb.*

"Artımın parametrləri və sosial-iqtisadi mahiyyəti" göstəricisi üzrə $GP_t$ sub-indeksinin (3) eyniliyi əsasında hesablanması 1-ci cədvəldə verilimirdir. Yuxarıda qeyd etdiyimiz kimi, (3) eyniliyinə $I_8$ və $I_9$ daxil edilməyib və $I_4$ və $I_6$ mənfi işarə ilə daxil edilib. Sub-indekslər üzrə zaman sırası 2005-2019-cu illəri əhatə edir.

$$GP_t = \frac{\sum_{i=1}^{10} I_i}{8} = \frac{I_1+I_2+I_3-I_4+I_5-I_6+I_7+I_{10}}{8} \qquad (4)$$

Müxtəlif səviyyəli beynəlxalq müzakirələrdə hər bir ölkənin səlahiyyətli nümayəndəsinin yaşıl iqtisadiyyat modelinin tətbiqinə müsbət yanaşmasına baxmayaraq, bu modelin tətbiqinin hələ də ləngiməsi və belə ləngimənin iqtisadi və sosial-iqtisadi təsirlərinin ölkələrarası müqayisəsinin aparılması ölkələrin qlobal istiləşmədə

məsuliyyətini üzə çıxara bilər. Bu elə bir müqayisə metodologiyası olmalıdır ki, yaşıl iqtisadiyyatın eyni ölçüdə olan determinantları üzrə hazırlansın. Təəssüf ki, hazırda iqtisadi ədəbiyyatda yaşıl iqtisadiyyatın inkişaf səviyyəsinin müqayisəli ölçmə metodları azdır. Onlardan biri Dual Citizen LLC Tədqiqat Qrupu tərəfindən hazırlanan GGEİ (Global Green Economy Index)-Qlobal Yaşıl İqtisadiyyat İndeksi metodudur.

**Cədvəl 1**

**"Artımın parametrləri və sosial-iqtisadi mahiyyəti" göstəricisi üzrə $GP_t$ sub-indeksinin dinamikası**

| | $I_1$ | $I_2$ | $I_3$ | $I_4$ | $I_5$ | $I_6$ | $I_7$ | $I_{10}$ | $GP_t$ |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2005 | 0.005977 | 0.0054 | 0.745 | 0.073 | 0.243 | 0.293 | 0.99 | 0.655 | 2.278377 |
| 2006 | 0.008833 | 0.008 | 0.731 | 0.066 | 0.201 | 0.208 | 0.976 | 0.655 | 2.305833 |
| 2007 | 0.013186 | 0.011967 | 0.72 | 0.063 | 0.232 | 0.158 | 0.976 | 0.6625 | 2.394653 |
| 2008 | 0.018415 | 0.0167 | 0.709 | 0.059 | 0.273 | 0.132 | 0.976 | 0.6675 | 2.469615 |
| 2009 | 0.016133 | 0.014633 | 0.709 | 0.057 | 0.252 | 0.109 | 0.976 | 0.66875 | 2.470516 |
| 2010 | 0.019012 | 0.0172 | 0.701 | 0.056 | 0.256 | 0.091 | 0.996 | 0.67 | 2.512212 |
| 2011 | 0.023012 | 0.0209 | 0.694 | 0.054 | 0.257 | 0.076 | 0.996 | 0.6725 | 2.533412 |
| 2012 | 0.023864 | 0.0216 | 0.701 | 0.052 | 0.235 | 0.06 | 0.996 | 0.67375 | 2.539214 |
| 2013 | 0.025033 | 0.023 | 0.705 | 0.05 | 0.247 | 0.053 | 0.996 | 0.6775 | 2.570533 |
| 2014 | 0.025072 | 0.022333 | 0.718 | 0.049 | 0.236 | 0.05 | 0.996 | 0.6775 | 2.575905 |
| 2015 | 0.022826 | 0.020333 | 0.717 | 0.05 | 0.225 | 0.049 | 0.996 | 0.69 | 2.57216 |
| 2016 | 0.025078 | 0.022 | 0.728 | 0.05 | 0.21 | 0.059 | 0.996 | 0.69 | 2.562078 |
| 2017 | 0.028904 | 0.025333 | 0.731 | 0.05 | 0.219 | 0.054 | 0.996 | 0.6925 | 2.588737 |
| 2018 | 0.032625 | 0.028333 | 0.734 | 0.049 | 0.239 | 0.051 | 0.996 | 0.6975 | 2.627458 |
| 2019 | 0.033075 | 0.028667 | 0.738 | 0.048 | 0.394 | 0.048 | 0.996 | 0.705 | 2.798742 |

**Qeyd: müəllif tərəfindən hesablanmışdır**

GGEİ indeksi kompozit indeks olaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) hazırladığı indikatorlar sisteminə əsaslanır [13]. Bu indeksin işlənməsi zamanı iqlim dəyişmələri, bərpa oluna bilən enerji mənbələri, yaşıl iqtisadiyyatın təbliğatı sahəsində görkəmli tədqiqatçılar cəlb edilib. Tədqiqat Qrupu GGEİ hazırlanması üçün dörd əsas aspekti bir-birindən fərqləndirərək prioritet kimi qəbul ediblər. Bunlar 1) siyasi liderlik; 2) siyasət; 3) investisiya; 4) turizmdir. Tədqiqat qrupu müxtəlif tədqiqat metodlarından istifadə edərək bu aspektlər üzrə sorğular əsasında ölçmələri yerinə yetiriblər. GGEİ üzrə 2011 və 2012-ci illərdə hazırlanan hesabatlarda da tədqiqat metodu kimi əsasən sorğulardan istifadə edilib.

2014-cü il üzrə hazırlanan hesabatda metodologiya bir qədər dəyişdirilib. Bu zaman turizm sektoru ilə yanaşı tikinti, nəqliyyat və enerji sektoru da tədqiqata cəlb edilib. Həmçinin GGEİ kompozit indeksinə ekoloji göstəricilər də daxil edilib. Bununla yanaşı tədqiqatın mahiyyətində ölkə həyata keçirilən iqtisadi siyasətin iqlim dəyişmələrinə nə dərəcədə təsiri kəmiyyətcə qiymətləndirilir. GGEİ kompozit indeksinin hesablanması zamanı istifadə edilən göstəricilərin bütün ölkələrdə eyni metodologiya ilə hesablanmaması və ya bu göstəricilər üzrə məlumatların eyni dövrü əhatə etməməsi müqayisəli təhlillər üçün bəzi problemlər yaradır. Bunu nəzərə alaraq, GGEİ əvvəlcə tədqiqata cəlb edilən bütün ölkələr üçün vacib olan parametrlərdən istifadə edərək

"vacib parametrlərdən daha az vacib olan parametrlərə" keçid edib.

GGEİ kompozit indeksinin hesablanması zamanı sorğulardan geniş istifadə və bəzi göstəricilər üzrə məlumatların toplanmasındakı metodoloji fərqlilik ölkələrarası müqayisəli analizin aparılmasına müəyyən çətinlik yaradır. Bunu nəzərə alaraq, mahiyyətcə yaşıl iqtisadiyyata aidiyyəti olan göstəriciləri, nə qədər mümkünsə, daha geniş spektrdə əhatə edə bilən yeni "yaşıl iqtisadi indeksin" hazırlanmasına ehtiyac var. Bu indeks GGEİ-dən fərqli olaraq, yalnız faktiki statistik göstəriciləri əhatə etməlidir. Digər tərəfdən, müqayisə edilən ölkələr üzrə bu göstəricilərin hesablanmasında metodoloji fərqlilik olmamalıdır.

**Nəticə**

"Artımın parametrləri və sosial-iqtisadi mahiyyəti" göstəricisi üzrə $GP_t$ sub-indeksinin (4) eyniliyi əsasında hesablanması göstərir ki, bu sub-indeks üzrə Azərbaycanda yaşıl iqtisadiyyat göstəricisi davamlı olaraq inkişaf edib (qrafik 4).

**ƏDƏBİYYAT SİYAHISI:**

1. IPCC, 2014. Climate Change 2014 Impacts, Adaptation, and Vulnerability Part A and B. Working Group II Contribution to the Fifth Assessment Report of the Intergo-vernmental Panel on Climate Change. Cambridge University Press, 2014
2. Stern, 2006. STERN REVIEW: The Economics of Climate Change.
3. Burkart, K. How do You Define the 'Green' Economy. MNN—Mother Nature Network. 2009. Available online: https://www.mnn.com/green-tech/research-innovations/blogs/how-do-you-define-theg-reen- economy (accessed on 18 April 2019).
4. Gurieva, M.A.; Rudneva, L.N. Evaluation of sustainable development of the region on the basis of the indicative assessment system level green economy. Her. UFU Ser. Econ. Manag. **2013**, 3, 104–116.
5. World Bank (2012). *Inclusive Green Growth: The Pathway to Sustainable Development*. Washington D.C.: The World Bank. [Retrieved 2015-11-03] Available at: http://siteresources.worldbank.org/EXTSDNET/Resources/Inclusive_Green_Growth_May_2012.pdf
6. UNESCAP (2012). *Green Growth, Resources and Resilience. Environmental Sustainability in Asia and the Pacific*. Bangkok. ISBN 978-92-1-120635-7
7. Global Green Growth Institute (GGGI) (2012). *Green Growth Planning GGGI Country Programs*. [Retrieved 2015-10-05] Available at: http://www.gggi.org/project/main
8. https://ilostat.ilo.org/topics/labour-productivity/
9. https://data.worldbank.org/indicator/SE.ADT.LITR.ZS
10. https://data.worldbank.org/indicator/SP.POP.65UP.TO.ZS
11. https://data.worldbank.org/indicator/EN.POP.DNST
12. Mehdiyeva G.Y., (2019) İqlim dəyişmələrinin qlobal sənaye siyasətinə təsirinin ümumi tendensiyası. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2019 (sentyabr-oktyabr)
13. https://www.oecd.org/sdd/42495745.pdf

**Sevil Rafig gizi Humbatova**
doctoral student of the Institute of Control Systems of ANAS
E-mail: s.humbatova@inbox.ru

## The Green Economy Composite Index approach

### Abstract

**The purpose of the study -** to develop a method of measuring the comparative quantitative assessment of development in the direction of the model of green economy for different countries.

**Research methodology -** indexation of the main factors of the model of green economy in most countries and calculation on their basis of the composite index

**The importance of the use of research -** the calculation of this method allows you to conduct comparisons between countries.

**The results of the study-** On the basis of this composite index, the author assesses some components of the current state of the green economy in Azerbaijan. Evaluations show that the policy pursued in Azerbaijan for the last 10 years in the direction of the green economy, the field results, and the indicator of the transition to a green economy "Parameters of growth and socio-economic character" is positive.

**Originality and scientific research -** to assess the current state of the model of green economy offers a composite index of green economy, which consists of five subindexes, which are completely new in economics.

**Keywords:** summary index, model of green economy, climate change, economic growth, growth parameters.

**Севиль Рафик гызы Гумбатова**
Докторант Института Систем Управления НАНА
E-mail: *s.humbatova@inbox.ru*

## Подход композит индекса зеленой экономики

### Резюме

**Цель исследования -** разработать метод измерения для сравнительной количественной оценки развития в направлении модели зеленой экономики для разных стран.

**Методология исследования -** индексация основных факторов модели зеленой экономики в большинстве стран и расчет на их основе композитного индекса

**Значение применения исследования -** расчет этого метода позволяет проводить сравнения между странами.

**Результаты исследования.** На основе этого композитного индекса автор оценивает некоторые компоненты текущего состояния зеленой экономики в Азербайджане. Оценки показывают, что политика, проводимая в Азербайджане на протяжении последних 10 лет в направлении зеленой экономики, дала результаты, а показатель перехода к зеленой экономике «Параметры роста и социально-экономический характер» положительный.

**Оригинальность и научная новизна исследования -** Для оценки текущего состояния модели зеленой экономики предлагается композитный индекс зеленой экономики, который состоит из пяти субиндексов, которые являются совершенно новыми в экономической литературе.

**Ключевые слова:** сводный индекс, модель зеленой экономики, изменение климата, экономический рост, параметры роста.

**Daxil olub:** 16.02.2022

**Arif Nail oğlu Əliyev**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

# İNKİŞAF ETMİŞ VƏ İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRDƏ İNNOVASİYALI İNKİŞAFA MÜQAYİSƏLİ BAXIŞ

**Xülasə**
Məqalədə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə innovasiyalı inkişaf müxtəlif kəmiyyət ölçüləri ilə müqayisə edilmişdir. Müəllif əvvəlcə innovasiya anlayışına müxtəlif yanaşmaları müqayisə edir. Daha sonra qlobal innovasiya indeksi və onun alt-indeksləri vasitəsilə ölkələrin innovasiyalı inkişaf səviyyəsi müqayisə edilib. Müəllif belə qənaətə gəlir ki, inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrdən digər iqtisadi göstəricilərlə yanaşı, həm də innovasiyalı inkişaf səviyyəsinə görə fərqlənir.
**Açar sözlər:** innovasiya, ixtira, ÜDM, innovasiyalı inkişaf, qlobal innovasiya indeksi

## Giriş

Qloballaşmanın dərinləşməsi və dünya təsərrüfat sistemində ölkələrarası rəqabətin güclənməsi intellektual resurslara, bilik tutumlu və informasiya texnologiyalarına əsaslanan iqtisadiyyatda keçidi zəruri edir. Artıq dövlətlərin zənginliyi xammalın zənginliyi ilə deyil, daha çox elmin və texnologiyanın inkişafına əsaslanır. Müasir dövrdə birinci qrupa daxil olan inkişaf etmiş ölkələr ictimai həyatın bütün sahələrində, o cümlədən iqtisadiyyatda, dövlət idarəetməsində, müdafiə sistemlərində, təhsil və səhiyyədə və sair sahələrdə elmi yanaşmadan və daim təkmilləşən texnoloji metodlardan istifadə etmək yolunu seçiblər.

**Cədvəl 1**

**R&D xərclərinin ÜDM-də payı 1%-dən çox olan ölkələr (2020-ci il)**

| | Ölkənin adı | R&D xərclərinin ÜDM-də payı | | | Ölkənin adı | R&D xərclərinin ÜDM-də payı | | | Ölkənin adı | R&D xərclərinin ÜDM-də payı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1** | İsrail | 5,44 | | 12 | Çin | 2,40 | | 23 | Yunanıstan | 1,50 |
| **2** | C.Koreya | 4,81 | | 13 | Fransa | 2,35 | | 24 | BƏƏ | 1,45 |
| **3** | İsveç | 3,53 | | 14 | Niderland | 2,29 | | 25 | İspaniya | 1,41 |
| **4** | Belçika | 3,48 | | 15 | Norveç | 2,28 | | 26 | Polşa | 1,39 |
| **5** | ABŞ | 3,45 | | 16 | Sloveniya | 2,15 | | 27 | Xorvatiya | 1,25 |
| **6** | Japoniya | 3,26 | | 17 | Çexiya | 1,99 | | 28 | İrlandiya | 1,23 |
| **7** | Avstriya | 3,20 | | 18 | Estoniya | 1,79 | | 29 | Litva | 1,16 |
| **8** | Almaniya | 3,14 | | 19 | Kanada | 1,70 | | 30 | Lüksemburq | 1,13 |
| **9** | Danimarka | 2,96 | | 20 | Portuqaliya | 1,62 | | 31 | Rusiya | 1,10 |
| **10** | Finlandiya | 2,94 | | 21 | Macarıstan | 1,61 | | 32 | Türkiyə | 1,09 |
| **11** | İslandiya | 2,47 | | 22 | Italiya | 1,53 | | | Azərbaycan | 0,22 |

Qeyd: Dünya Bankının (WB, 2021) məlumatları əsasında tərtib edilib

Bu yola müəyyən mənada "innovasiyalı inkişaf yolu" da demək olar. "İnnovasiyalı inkişaf" yolu iqtisadi ədəbiyyatda son onilliklərdə geniş müzakirə olunan "innova-

siya", "innovasiya prosesi", "innovasiya sistemləri" və sair anlayışlarla birbaşa əlaqəlidir. Yuxarıda qeyd etdiyimiz kimi "innovasiyalı inkişaf" yolu tutan ölkələr qrupu bu yolu tutmaq istəyən, lakin hələ tuta bilməyən ölkələr qrupundan fərqlənir. Hər bir ölkə istər ki, "innovasiyalı inkişaf" yolunda olsun.Lakin bunu etmək o qədər də asan deyil. Elə buna görə də bəzi ölkələr, yəni innovasiyalı inkişaf yolunu tutan ölkələr varlıdır, buna nail olmayan ölkələr isə kasıb. Bu mənada görkəmli iqtisadçı, Nobel mükafatı laureatı J.Stiglitz (2020) [1] qeyd edir ki, müasir dövrdə dövlətin zənginliyinin yeganə real mənbəyi innovasiyadır. Elə ona görə də inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrlə müayisədə innovasiyaya təkan verən amillərin, xüsusilə elmi tədqiqatların genişlənməsinə böyük vəsait xərcləyirlər. Məsələn, Dünya Bankının (WB, 2021) [2] 2020-ci il üzrə məlumatlarına əsasən elmi tədqiqatlara ayrılan vəsaitlərin ÜDM-də həcmində payı 1%-dən yüksək olan ölkələr əsasən yüksək gəlirli ölkələrdir. Müqayisə üçün qeyd edək ki, Azərbaycanın bu göstəricisi nəinki inkişaf etmiş ölkələrdən, hətta orta dünya göstəricisindən geri qalır. Əgər nəzərə alsaq ki, bu ölkələrdə ÜDM həcmi də yüksəkdir, onda məhz bu ölkələrdə elmi tədqiqatlara ayrılan vəsaitin mütləq həcminin də digər ölkələrlə müqayisədə xeyli yüksək olduğu qənaətinə gələ bilərik. R&D xərclərinin ÜDM-də payı ilə adambaşına ÜDM həcmi arasındakı əlaqənin xarakteri də deməyə əsas verir ki, belə xərclər artdıqca ölkənin gəlirləri də artır. Lakin bəzi ölkələrdə gəlirlərin əsas mənbəyi resurs rentasından olduğundan, bu iki göstərici arasındakı əlaqənin güclü olması ilk baxışdan hiss edilmir. Məsələn, Lüksemburqda adambaşına ÜDM həcmi (116356,16 ABŞ dolları) 2020-ci ildə yalnız Monakodan (173688,19 ABŞ dolları) geri qalıb. Lakin bu ölkədə əhalinin sayının çox az olması (630 min) səbəbindən R&D xərclərinin ÜDM-də payı yüksək deyil. Həmçinin Bermudada a.b.ÜDM həcmi 107706,04 ABŞ dolları olsa da R&D xərclərinin ÜDM-də payı 0.23%-dir. Bunun da əsas səbəbi ölkədə əhali sayının (64 min) az olmasıdır. Lakin gəlirlərin yüksək olduğu halda R&D xərclərinin ÜDM-də payının az olmasını yalnız əhali sayının azlığı ilə izah etmək əlbəttə ki, doğru deyil. Məsələn, Honq Konqda əhali sayı 7.5 milyon, adambaşına ÜDM həcmi 46 min ABŞ dolları (2020-ci il) olduğu halda R&D xərclərinin ÜDM-də payı 0.99% olub. Bu İsraillə müqayisədə 5 dəfə azdır. Ona görə də "R&D xərclərinin ÜDM-də payı" göstəricisi əvəzinə "adambaşına R&D xərcləri" göstəricisindən istifadə etmək daha informativ olar. Bu göstərici üzrə ilk 30-cu sırada olan ölkələrin sıralanması 2-ci cədvəldə verilmişdir. Beləliklə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə elmi tədqiqatlara və işləmələrə ayrılan maliyyə vəsaitlərinin müqayisəli təhlili deməyə əsas verir ki, bu vəsaitin yüksək olduğu ölkələrdə iqtisadi inkişaf səviyyəsi də yüksəkdir. Lakin bu göstəricilər arasındakı əlaqənin iki istiqamətli olması təbiidir. Belə ki, gərək ölkənin iqtisadi imkanları müəyyən səviyyədə olsun ki, ölkə belə xərcləri etməyə hazır olsun. Gəlirlər olmadığı halda elmi tədqiqatlara vəsaitin ayrılması da imkansız olur. Digər tərəfdən, gərək belə xərclər olsun ki, ölkə inkişaf edə bilsin. Bu iki mühakimədən belə nəticə çıxarmaq olar ki, bir-birini stimullaşdıran bu iki göstərici üçün müəyyən hədd var ki, bu həddi aşan ölkələr qrupu belə xərclərdən gəlir əldə edə bilir.

**Cədvəl 2**

**Adambaşına R&D xərcləri (2020-ci il)**

| | Ölkənin adı | a.b. R&D xərcləri (ABŞ dolları) | | Ölkənin adı | a.b. R&D xərcləri (ABŞ dolları) | | Ölkənin adı | a.b. R&D xərcləri (ABŞ dolları) |
|---|---|---|---|---|---|---|---|---|
| **1** | İsrail | 2401,32 | 14 | İrlandiya | 1052,69 | 27 | Çin | 249,90 |
| **2** | ABŞ | 2174,57 | 15 | Fransa | 919,30 | 28 | Bermuda | 244,42 |
| **3** | İsveç | 1844,74 | 16 | Kanada | 734,44 | 29 | Litva | 233,74 |
| **4** | Danimarka | 1808,41 | 17 | Sloveniya | 547,35 | 30 | Kipr | 227,64 |
| **5** | Belçika | 1571,32 | 18 | BƏƏ | 525,89 | 31 | Polşa | 219,14 |
| **6** | Austriya | 1555,46 | 19 | İtaliya | 488,32 | 32 | Malta | 196,80 |
| **7** | Norveç | 1532,43 | 20 | Çexiya | 456,62 | 33 | Makao | 176,91 |
| **8** | C.Korea | 1521,26 | 21 | Honk Konq | 455,32 | 34 | Xorvatiya | 176,44 |
| **9** | İslandiya | 1464,86 | 22 | Estoniya | 413,24 | 35 | Slovakiya | 175,54 |
| **10** | Almaniya | 1454,30 | 23 | İspaniya | 380,25 | 36 | Latviya | 124,90 |
| **11** | Finlandiya | 1443,09 | 24 | Portuqaliya | 358,97 | 37 | Rusiya | 111,58 |
| **12** | Japoniya | 1302,60 | 25 | Yunanıstan | 264,02 | 38 | S. Arabistanı | 105,53 |
| **13** | Niderland | 1202,09 | 26 | Macarıstan | 258,45 | | Azərbaycan | 9,49 |

Qeyd: Dünya Bankının (WB, 2021) məlumatları əsasında tərtib edilib

Başqa sözlə desək, ikinci qrup ölkələrin birinci qrup ölkələr sırasına keçmək imkanları çox məhdudur. R&D xərclərinin hər hansı səviyyədə artmasının mütləq inkişafa səbəb olmasını iddia etmək mümkün deyil. Belə ki, bu xərclərin nə dərəcədə səmərəli xərclənməsi ciddi sual doğurur. R&D xərcləri innovasiya yaratdığı halda inkişafa səbəb olması ikinci qrup ölkələrin birinci qrupla konvergensiya etməyəcəyi və ya çox çətin konvergensiya edəcəyi qənaətinə gətirir.

Yuxarıda qeyd etdiklərimizi nəzərə alaraq, biz Azərbaycanın innovasiyalı iqtisadi inkişafında sahibkarlığın rolunu müəyyən etməyə çalışacağıq. Buna nail olmaq üçün əvvəlcə müasir iqtisadi ədəbiyyatda geniş müzakirə edilən və "innovasiyalı inkişafla" birbaşa əlaqəsi olan "innovasiya", "innovasiya potensialı", "innovasiya prosesi", "innovasiya sistemləri" anlayışı ilə bağlı müxtəlif yanaşmaları müqayisəli təhlil edərək "innovasiyalı inkişaf" və "innovasiyalı iqtisadi inkişaf" anlayışlarını dəqiqləşdirməyə çalışacağıq. Qeyd edək ki, bu anlayışlar haqqında çoxlu sayda tədqiqatların, məqalələrin olmasına baxmayaraq, hələ də onlar haqqında birmənalı təriflər formalaşmayıb.

**Ədəbiyyata baxış**

Əvvəlcə yuxarıda qeyd etdiyimiz anlayışlardan birincisi ilə, yəni "innovasiya" anlayışı və onun mahiyyəti ilə tanış olaq. Merriam-Webster lüğətində "innovasiya" yeni ideya, yeni metod kimi, həmçinin yeni olan hər hansı bir şeyə giriş kimi xarakterizə olunur ) [3]. Bu lüğət "ixtira" ilə "innovasiya" anlayışlarını sinonimi kimi qəbul edir. İxtira hesab edilən cisim, proses və hadisələr də yenidir. Lakin innovasiyanı ixtira ilə eyniləşdirmək düzgün deyil. Çünki innovasiyaya xas olan bir neçə fərqləndirici cəhətlər var ki, o cəhətlər ixtiralara xas deyil. "İnnovasiya" anlayışının hələ XIX əsrdə elmi tədqiqatlarda ortaya sıxmasına baxmayaraq, XX əsrdə J.Şumpeterin (2008) ) [4] iqtisadi sistemlərin inkişafındakı dəyişikliklərlə bağlı "İqtisadi inkişaf nəzəriyyəsi"

adlı məşhur əsərlərində mühüm elmi iqtisadi kateqoriya kimi möhkəmləndi. Şumpeter "innovasiya" anlayışını ilk dəfə iqtisadi inkişafa tətbiq etdi. Onun yanaşmasına əsasən innovasiya yeni materialların və komponentlərin tətbiqi, yeni proseslərin daxil edilməsi, yeni bazarların aşılması və yeni təşkilati formaların tətbiqinə əsaslanan yeni kombinasiyaların kommersiyalaşmasıdır. İnnovasiyaya verilə bu tərifə əsasən Şumpeter (2008) innovasiyanı ixtiradan fərqləndirir. Lakin onun yanaşmasına görə ixtira da innovasiyadır, lakin bu texniki səviyyədə olan innovasiyadır ) [5]. Avropa Birliyinin Statistika Bürosunun və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının birgə hazırladığı "Oslo Bələdçisi" (2006) [6] adlanan sənəddə "innovasiya" anlayışına belə tərif verilir: " *innovasiya hər hansı yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş məhsulun (mal və ya xidmətin) və ya prosesin, yeni marketinq metodunun və ya biznes təcrübələrində, iş yerinin təşkilində və ya xarici əlaqələrdə yeni təşkilati metodun tətbiqidir*". Yuxarıda qeyd etdiyimiz kimi innovasiya təkcə texniki səviyyədə ixtira və ya yeni mal və xidmətin yaradılması və ya təkmilləşdirilməsi deyil, həm də ictimai həyatın müxtəlif sahələrini əhatə edən yeni təşkilati metoddur.

Qeyd edək ki, Şumpeter iqtisadi inkişafda innovasiyaları mühüm amil hesab edir. Lakin bir sual ortaya çıxır: niyə bəzi ölkələrdə innovasiyalar daha sürətlə inkişaf edir, bəzilərində yox? Deməli, innovasiyaların da inkişafı üçün amillər tələb edilir. Şumpeter sahibkarlığın inkişafını innovasilaların inkişafında mühüm amil hesab edir. Onun fikrincə, sahibkar öz fəaliyyətində həmişə xarici təsirlərin məhdudlaşdırıcı təsirini hiss edir. Belə məhdudlaşdırıcı təsirləri aradan qaldırmaq üçün sahibkar yeniliklərə cəhd etməlidir. Məhz belə yeniliklərin, daha doğrusu innovasiya prosesinin dəstəklənməsi iqtisadi sistemin inkişaf dərəcəsini müəyyən edir. O, sahibkarlığı Jan-Batist Seyin müəyyən etdiyi üç istehsal amillinə əlavə edərək mənfəəti sahibkarlıq amilinə aid edib. Torpağa renta, əməyə əmək haqqı, kapitala faiz, sahibkarlığa isə mənfəət verilir. Beləliklə, Şumpeter Jan Batist Seyin üç amilli modelini dörd amilli modellə əvəz edir.

Beləliklə, elmi ədəbiyyatda hansı ictimai fəaliyyət sahəsində olmasından asılı olaraq, innovasiyanın müxtəlif tiplərini fərqləndirirlər: a)texnoloji innovasiyalar; b)sosial innovasiyalar; c) məhsul innovasiyaları; d) təşkilati innovasiyalar; e)marketinq innovasiyaları. Bu tip innovasiyaların hər biri tətbiq edildiyi sahələrdə səmərəliliyi artırdığından digər ölkələrə sürətlə yayıla bilir.

İnnovasiyaların yaranması üzrə ölkələrin müqayisəsi iqtisadiyyatda Qlobal İnnovasiya İndeksi (QİI) vasitəsilə aparıla bilər. Əslində QİI innovasiyalı inkişaf üzrə ölkələri müqayisə edir. "İnnovasiyalı inkişaf" anlayışına isə iqtisadi ədəbiyyatda müxtəlif yanaşmalar var. Məsələn, Polyakova və Solodkov (2014) [7] "innovasiyalı inkişafa" sosial-iqtisadi proses kimi yanaşırlar. Onların yanaşmasına əsasən, "innovasiyalı inkişafın" əsas prinsipi innovasiya mühitinin və innovasiya sisteminin olmasıdır. Etzkowitz (2008) [8] innovasiya mühitini "Universitetlər-sənaye sektoru-dövlət" arasındakı üçqat qarşılıqlı əlaqədə olan iqtisadi şəbəkə kimi təsvir edir. Bu şəbəkədə universitetlər bilik istehsal edir, sənaye sektoru məhsul və xidmətlər istehsal edir. Dövlət isə iqtisadi fəaliyyətdə tənzimləməni yerinə yetirir. Üçtərəfli əməkdaşlığın nəticəsi kimi innovasiya mühiti-biznes inkubatorları, elm texnologiya və innovasiya parkları, texnoloji transfer və kommersialaşma ofisləri və sair formalaşır.

İqtisadi ədəbiyyatda regional və milli innovasiya sistemlərini bir-birindən fərqləndirirlər. Milli innovasiya sistemi konsepsiyası Şumpeter tərəfindən irəli sürülən ideyaya, yəni iqtisadi inkişaf üçün innovasiyaların vacibliyi məsələsinə söykənir. Freeman (1987) [9], Lundvall (1992) [10], Nelson (1993) [11], Patel və Pavıtt (1994) [12], Metcalfe (1995) [13] tərəfindən milli innovasiya sistemlərinin mahiyyəti daha da dəqiqləşdirilib. Məsələn, Freeman (1987) ictimai və özəl sektorda fəaliyyət göstərən və yeni texnologiyaların yaradılmasını, idxal edilməsini, təkmilləşdirilməsini, həmçinin diffuziya olunmasını həyata keçirən institutların şəbəkəsini milli innovasiya sistemi hesab edir. Lundvall (1992) hesab edir ki, milli innovasiya sistemi ölkənin sərhədləri daxilində bir-biri ilə qarşılıqlı əlaqədə olan elementlərdən və onların qarşılıqlı əlaqəsindən ibarətdir. Bu elementlər yeni və iqtisadi faydalı olan biliklərin də digər şeylərin istehsalı, diffuziyası və istifadəsidir. Lundvall (1992) yanaşmasında milli innovasiya sisteminə bir-biri ilə qarşılıqlı əlaqədə olan institutlar şəbəkəsi kimi yanaşılıq. Lakin bu şəbəkə daha çox fərdlərlə əlaqəlidir. Nelson (1993) da milli innovasiya sistemini qarşılıqlı əlaqədə olan və innovasiyalı fəaliyyətini müəyyən edən institutların şəbəkəsi kimi xarakterizə edir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı milli innovasiya sistemində mümkün elementləri bir-birindən fərqləndirərək onlar arasındakı qarşılıqlı əlaqəni dörd növə ayırır: 1) biznes strukturları arasındakı əlaqələr; 2) biznes strukturları, universitetlər və ictimai tədqiqat laboratoriyaları; 3)bilik və texnologiyaların firmalara diffuziyası; 4) bilik və texnologiya daşıyıcıları olan kadrların axını.

- ***Innovasiya indeksi üzrə ölkələrin sıralanması***

Beləliklə, yuxarıda qeyd etdiyimiz kimi, innovasiyalı inkişaf üçün innovasiya mühiti və innovasiya sistemi formalaşmalıdır. İnnovasiya mühiti və innovasiya sistemi nə qədər inkişaf etmiş olarsa, innovasiyalı inkişaf da bir o qədər təmin edilmiş olar. İnnovasiyalı inkişaf üzrə ölkələrin sıralanması deməyə əsas verir ki, inkişaf etmiş ölkələrdə innovasiya mühiti və innovasiya sistemi daha təkmildir. İNSEAD Beynəlxalq biznes məktəbinin, Kornel Universitetinin (Cornell University) və İntellektual mülkiyyət üzrə Beynəlxalq Təşkilatının (World Intellectual Property Organization) birgə hazırladığı və hər il dərc edilən Qlobal İnnovasiya İndeksi (The Global Innovation Index) ölkələri innovasiyalı inkişaf nöqteyinəzərindən müqayisəli qiymətləndirir. GİI kompozit indeks olaraq 80 göstərici əsasında 2007-ci ildən başlayaraq hesablanır. Bu göstəricilər iki qrupa bölünür: 1)innovasiyanın yaradılması üçün mövcud resurslar və şərait (innovasiya üçün xərclər); 2)İnnovasiyaların həyata keçirilməsi nəticəsində əldə edilən praktiki nəticələr (innovasiya üçün buraxılış). Bu iki göstəricinin nisbəti GİI-i müəyyən edir.

GİI metodologiyasına əsasən 7 dayaq (pillars) göstəricilərdən istifadə edilir: 1) institutlar; 2)insan kapitalı və tədqiqatlar; 3) İnfrastruktur; 4) bazarın mürəkkəbliyi; 5)biznesin mürəkkəbliyi; 6)bilik və texnoloji məhsullar; 7)yaradıcı məhsullar. Bunlardan ilk 5 dayaq innovasiya xərclərinə, son ikisi isə innovasiya məhsullarına aiddir. Hər bir dayaq isə sub-indekslərdən və alt-indekslərdən ibarətdir.

"İnstitutlar" dayağı a)siyasi mühit; b)tənzimləyici mühit; c)biznes mühiti kimi üç sub-indeksdən ibarətdir. a)"siyasi mühit" sub-indeksi isə öz növbəsində a1)siyasi və əməliyyat sabitliyi; a2)hökumətin səmərəliliyi alt-indekslərindən, b)"tənzimləyici

mühit" sub-indeksi b1)tənzimləmənin keyfiyyəti; b2)qanunun aliliyi;b3) ştatın ixtisarı səbəbindən işdənçıxarmanın xərcləri alt indekslərindən, c)"biznes mühiti" sub-indeksi isə c1)biznesə başlamağın asanlığı; c2)müflisləşmənin həllinin asanlığı kimi alt-indekslərdən ibarətdir.

"İnsan Kapitalı və tədqiqat" dayağı a)təhsil; b)ali təhsil; c)tədqiqat və işləmələr (R&D) kimi üç sub-indeksdən ibarətdir. "Təhsil" sub-indeksi isə öz növbəsində a1)təhsilə xərclər (ÜDM-də %-lə payı); a2)dövlətin ibtidai və orta təhsil xərcləri (adambaşına)(a.b.ÜDM-də %); a3)gözlənilən təhsil illərinin uzunluğu (il); a4) oxumaq, riyaziyyat və elm üzrə Beynəlxaql Tələbə Qiymətləndirməsi üçün Proqram (PİSA); a5)orta məktəbdə şagird/müəllim nisbəti kimi beş alt-indeksdən ibarətdir. "Ali təhsil" sub-indeksi b1)ali təhsilə cəlb edilmə %, b2)elm və mühəndislik üzrə bitirmə %; b3) ali təhsildə xarici tələbələrin payı% kimi üç alt-indeksdən ibarətdir. R&D sub-indeksi c1) hər milyon nəfərə tədqiqatçıların sayı; c2) R&D üçün xərclər (ÜDM-də %); c3)qlobal korporativ R&D investorları (mlnUSD); c4)QS universitet reytinqi kimi dörd alt-indeksdən ibarətdir.

"İnfrastruktur" dayağı a)informasiya və kommunikasiya texnologiyaları; b)ümumi infrastruktur; c)ekoloji dayanıqlılıq kimi üç sub-indeksdən ibarətdir. "İnformasiya və kommunikasiya texnologiyaları" sub-indeksi a1)İKT-yə giriş; a2)İKT-dən istifadə; a3)hökumətin online xidmətləri; a4)e-iştirak kimi dörd alt indeksdən ibarətdir. "Ümumi infrastruktur" sub-indeksi isə b1)elektrik enerjisi istehsalı GVt/mln nəfər; b2)logistikanın təşkili; b3)ümumi kapitalın formalaşması (ÜDM-də %) kimi üç alt-indeksdən ibarətdir. "Ekoloji dayanıqlılıq" sub-indeksi c1)bir vahid enerjinin yaratdığı ÜDM həcmi; c2)ətraf mühitin qorunmasının təşkili; c3)İSO 14001 ətraf mühit sertifikatı/mlrd PPP$ kimi üç alt-indeksdən ibarətdir.

"Bazarın mürəkkəbliyi" dayağı a)kredit; b)investisiya; c)ticarət, diversifikasiya və bazarın ölçüsü kimi dörd sub-indeksdən ibarətdir. "Kredit" sub indeksi a1)kreditin əlçatanlığının asanlığı; a2)özəl sektora yerli kreditlərin həcmi (ÜDM-də %); a3)ümumi mikromaliyyə kreditləri (ÜDM-də %) kimi üç alt-indeksdən ibarətdir. "İnvestisiya" sub-indeksi b1)kiçik investorların qorunmasının asanlığı; b2)bazarın kapitallaşması (ÜDM-də %); b3)vençur kapitalı investorları (müqavilə/mlrd PPP$); b4)vençur kapital qəbul edənlər (müqavilə/mlrd PPP$) kimi dörd alt-indeksdən ibarətdir. "ticarət, diversifikasiya və bazarın ölçüsü" sub-indeksi c1)tarif dərəcələri (çəkili orta %); c2) yerli sənayenin diversifikasiyası; c3)yerli bazarın ölçüsü (mlrd. PPP$) kimi üç alt-indeksdən ibarətdir.

"Biznesin mürəkkəbliyi dayağı a) bilik işçiləri; b)innovasiya əlaqələri; c)biliyin absorbsiyası kimi üç sub-indeksdən ibarətdir. "Bilik işçiləri" sub-indeksi a1)bilik tutumlu məşğulluq (%); a2)formal treninq təklif edən firmalar (%); a3) biznes tərəfindən qəbul edilən R &D üçün Ümumi Yerli Xərclər (GERD) (ÜDM-də %); a4) biznes tərəfindən maliyyələşən GERD (ÜDM-də %); a5)işə qəbul edilən ixtisaslı qadınlar (%) kimi dörd alt-indeksdən ibarətdir. "İnnovasiya əlaqələri" sub-indeksi b1) R&D üzrə universitet-sənaye əməkdaşlığı; b2)klasterin inkişaf vəziyyəti və dərinliyi; b3)xaricdən GERD maliyyələşməsi (GDP-də %); b4)birgə müəssisələr/strateji alyanslar (müqavilə/mlrd PPP$); b5)patent ailələri /mlrd PPP$ kimi beş alt-indeksdən ibarətdir. "Biliyin absorbsiyası" sub-indeksi c1)intellektual mülkiyyət ödəmələri (cəmi ticarətdə %); c2)yüksək texnologiyanın

idxalı (cəmi ticarətdə %); c3)İKT xidmətlərinin idxalı (cəmi ticarətdə %); c4) gələn investisiyalarda xarici birbaşa investisiyaların (FDİ) payı (ÜDM-də %); c5) tədqiqat talantı (biznesdə %) kimi beş alt-indeksdən ibarətdir.

Bilik və texnoloji məhsullar dayağı a)bilik yaradılması; b)biliyin təsirləri; c)biliyin diffuziyası kimi üç sub-indeksdən ibarətdir. "Bilik yaradılması" sub-indeksi a1) daxili patentlər/mlrd PPP$ GDP; a2)daxili PCT patentləri/mlrd PPP$GDP; a3)yerli faydalılıq modelləri/ mlrd PPP$ GDP; a4)elmi və texniki məqalələr/ mlrd PPP$ GDP; a5)stinad oluna bilən H-indeks kimi beş alt-indeksdən ibarətdir. "Biliyin təsirləri" sub-indeksi b1)əmək məhsuldarlığının artması %; b2)yeni biznesin yaradılması/15-64 yaşlı 1000 nəfərə; b3)proqram təminatı xərcləri (ÜDM-də %); b4)İSO 9001 keyfiyyət sertifikatı/mlrd PPP$; b5)yüksək texnologiyalı emal sənayesi % kimi beş alt-indeksdən ibarətdir. "Biliyin diffuziyası" sub-indeksi c1) intellektual mülkiyyətin alınması (cəmi ticarətdə %); c2)istehsal və ixracın mürəkkəbliyi; c3) yüksək texnologiyanın ixracı (cəmi ticarətdə %); c4) İKT xidmətlərinin ixracı (cəmi ticarətdə %) kimi dörd alt-indeksdən ibarətdir.

Yaradıcı nəticələr dayağı a) qeyri-maddi aktivlər; b) yaradıcı mal və xidmətlər; c) online yaradıcılıq kimi üç sub-indeksdən ibarət kompozit indeksdir. "Qeyri-maddi aktivlər" sub-indeksi a1)mənşə ölkəsi üzrə ticarət markası/mlrd PPP$$; a2)qlobal brend dəyəri ÜDM-də payı; a3) Mənşə üzrə sənaye dizaynı mlrd PPP$; a4) İKT və yaradıcılığın təşkilati modeli kimi dörd alt indeksdən ibarətdir. "Yaradıcı mal və xidmətlər" sub-indeksi b1) mədəni və yaradıcılıq xidmətlərinin ixracı (cəmi ticarətdə %); b2)milli bədii filmlər/15-69 yaşlı mln adama; b3) reklam və media bazarı/ 15-69 yaşlı min adama; b4) Çap və digər media (emal sənayesində %); b5) yaradıcı məhsulların ixracı (cəmi ticarətdə %) kimi beş alt-indeksdən ibarətdir. "Online yaradıcılıq" sub-indeksi c1)ümumi yüksək səviyyəli domenlər/15-69 yaşlı min adama; c2) TLD ölkə kodu/ 15-69 yaşlı min adama; c3) Vikipediya redaktorluğu/mln adama; c4)mobile tətbiqlərin yaradılması/ mlrd PPP$GDP kimi dörd alt-indeksdən ibarətdir.

**Cədvəl 3**

**Qlobal İnnovasiya İndeksi (GİI) 40 baldan yüksək olan ölkələr (2021-ci il)**

| | Ölkənin adı | GİI | | | Ölkənin adı | GİI | | | Ölkənin adı | GİI |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1** | İsveçrə | 65.5 | | 14 | Honq Konq | 53.7 | | 27 | Malta | 47.1 |
| **2** | İsveç | 63.1 | | 15 | İsrail | 53.4 | | 28 | Kipr | 46.7 |
| **3** | ABŞ | 61.3 | | 16 | Kanada | 53.1 | | 29 | İtaliya | 45.7 |
| **4** | B.Britaniya | 59.8 | | 17 | İslandiya | 51.8 | | 30 | İspaniya | 45.4 |
| **5** | C.Koreya | 59.3 | | 18 | Avstriya | 50.9 | | 31 | Portuqaliya | 44.2 |
| **6** | Niderland | 58.6 | | 19 | İrlandiya | 50.7 | | 32 | Sloveniya | 44.1 |
| **7** | Finlandiya | 58.4 | | 20 | Norveç | 50.4 | | 33 | BƏƏ | 43.0 |
| **8** | Sinqapur | 57.8 | | 21 | Estoniya | 49.9 | | 34 | Macarıstan | 42.7 |
| **9** | Danimarka | 57.3 | | 22 | Belçika | 49.2 | | 35 | Bolqariya | 42.4 |
| **10** | Almaniya | 57.3 | | 23 | Lüksemburq | 49.0 | | 36 | Malayziya | 41.9 |
| **11** | Fransa | 55.0 | | 24 | Çexiya | 49.0 | | 37 | Slovakiya | 40.2 |
| **12** | Çin | 54.8 | | 25 | Avstraliya | 48.3 | | 38 | Latviya | 40.0 |
| **13** | Yaponiya | 54.5 | | 26 | Y.Zelandiya | 47.5 | | | Azərbaycan | 28.4 |

Qeyd: GİI (2021) ) [14] məlumatları əsasında tərtib edilib

Bu dayaqlar, sub-indekslər və alt-indekslər üzrə hesablamaların əsasında kompozit indeks kimi GİI hesablanır. Hər bir sub-indeks alt-indekslərin sadə ortası, dayaqlar isə sub-indekslərin sadə ortası kimi hesablanır. Bu göstəricilər əsasında ölkələrdə innovasiya əsaslı inkişaf səviyyəsi müqayisə edilir. Qeyd edək ki, bu dayaq göstəricilər, sub-indeks və alt-indekslərin bəzilər kəmiyyət göstəricilərdir. Lakin onlar da müxtəlif etibarlı üsullarla kəmiyyət göstəricisinə gətirilib.

GİI üzrə hesablamalar göstərir ki, göstəricinin yüksək olduğu ölkələrdə iqtisadi sabitlik hökm sürür. GİI indeksi yüksək olan ilk 25 ölkənin sıralanması 3-cü cədvəldə verilmişdir.

**Nəticə**

2021-ci ildə GİI üzrə sıralamada ilk 25 yeri bölüşdürən ölkələr 2013-cü ildən 2021-ci ilədək olan dövrdə də ilk 25-likdədirlər. Bu onu deməyə əsas verir ki, ilk 25-liyə daxil olan ölkələrdə innovasiyalı inkişaf yeni investisiyaların cəlb edilməsinə, bu investisiyalar isə yenidən innovasiyalı inkişafa təkan verir. Digər qruplardan daha çox "zəka axını" baş verdiyindən bu ölkələrdə innovasiyalı inkişaf və ya bu ölkələrə innovasiya diffuziyası nisbətən zəifdir. İnnovasiya indeksi aşağı olan ölkələrdə innovasiyalı inkişaf səviyyəsi aşağıdır. Belə ölkələrin ilk 25-likdə olan ölkələrə çatması və onları ötməsi xeyli çətindir. Belə ki, yuxarıda qeyd etdiyimiz dayaqların, hətta sub-indekslərin hər biri uzun müddətli investisiyaların qoyulmasını, institusional islahatların aparılmasını və infrastrukturun yaradılmasını tələb edir. Bu isə uzunmüddətli və məqsədyönlü fəaliyyətin nəticəsində mümkün ola bilər. Təəssüflə qeyd edək ki, innovasiya indeksi üzrə Azərbaycanın göstəricisi 2013-cü ildən 2021-ci ilədək bir qədər artsa da hazırda ilk 25-likdə olan ölkələrlə müqayisədə xeyli kiçikdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Джозеф Стиглиц. Люди, власть и прибыль. Прогрессивный капитализм в эпоху массового недовольства = Joseph E. Stiglitz. People, Power, and Profits: Progressive Capitalism for an Age of Discontent (англ.) / переводчик Вячеслав Ионов; научный редактор Николай Злобин. — М.: Альпина Паблишер, 2020. — 430р.
2. https://data.worldbank.org/indicator/GB.XPD.RSDV.GD.ZS
3. https://www.merriam-webster.com/dictionary/innovation
4. Й. Шумпетер Теория экономического развития. М. — «Эксмо», 2007.
5. Феликс Янсен. Эпоха инноваций / пер. с англ.—М.:Инфра-М, 2002.-XII.— 308 с. — (Менеджмент для лидера).
6. http://www.cisstat.org/innovation/Oslo%20Manual%20Russian.pdf
7. А. П. Полякова, М. В. Солодков, 2014. Инновационное развитие региона: экономическая сущность и принципы. Региональная и отраслевая экономика, 2015. Т. 6, № 1. DOI 10.17150/2072-0904.2015.6(1).11
8. Etzkowitz H (2008) The Triple Helix: university-industry-government innovation in action. Routledge, New York. https://doi.org/10.4324/9780203929605
9. Freeman, C 1987. Technology Policy and Economic Performance: Lessons from Japan. London: Pinter.
10. Lundvall, B-A ed. 1992. National Systems of Innovation: Towards a Theory of Innovation and Interactive Learning. London: Pinter

11. Nelson, R R 1993. National Innovation Systems: a Comparative Study. New York: Oxford University Press.

12. Patel, P. and K. Pavitt (1994), "The Nature and Economic Importance of National Innovation Systems", STI Review, No. 14, OECD, Paris

13. Metcalfe, S. (1995), "The Economic Foundations of Technology Policy: Equilibrium and Evolutionary Perspectives", in P. Stoneman (ed.), Handbook of the Economics of Innovation and Technological Change, Blackwell Publishers, Oxford (UK)/Cambridge (US).

14. GİI, 2022. Electron resource: https://www.globalinnovationindex.org/analysis-indicator

**Arif Nail oglu Aliyev**
Doctoral student of Azerbaijan University of Cooperation

## A COMPARATIVE REVIEW OF INNOVATIVE DEVELOPMENT IN DEVELOPED AND DEVELOPING COUNTRIES

**Resume**

The article compares innovative development in developed and developing countries using various quantitative indicators. First, the author compares different approaches to the concept of innovation. Then the level of innovation development of countries was compared through the global innovation index and its sub-indices. The author comes to the conclusion that developed countries differ from developing countries not only in macro-economic indicators, but also in the level of innovative development.
**Key words:** *innovation, inventions, GDP, innovation development, global innovation index.*

**Ариф Наиль оглы Алиев**
Докторант Азербайджанского Университета Кооперации

## Сравнительный обзор инновационного развития в развитых и развивающихся странах

**Резюме**

В статье проводится сравнение инновационного развития в развитых и развивающихся странах с использованием различных количественных показателей. Сначала автор сравнивает разные подходы к понятию инновации. Затем уровень инновационного развития стран сравнивался через глобальный инновационный индекс и его субиндексы. Автор приходит к выводу, что развитые страны отличаются от развивающихся не только по макро экономическим показателям, также по уровню инновационного развития.
**Ключевые слова**: *инновация, изобретения, ВВП, инновационное развитие, глобальный инновационный индекс.*

**Daxil olub:** 18.02.2022

**Firudin Eldar oğlu Hətəmov**
AMEA-nın Şərqşünaslıq İnstitutunun doktorantı

# NEFT QİYMƏTLƏRİ ŞOKUNUN YAXIN ŞƏRQ ÖLKƏLƏRİNDƏ MƏCMU İSTEHLAKA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Məqalədə neftlə zəngin bir neçə Yaxın Şərq ölkəsində məcmu istehlak həcminin neft qiymətləri şokundan asılılığı ekonometrik qiymətləndirilib. Alınan nəticə təsdiq edir ki, Neft qiymətlərinin dəyişməsinin Səudiyyə Ərəbistanı, İrak, BƏƏ və Küveytdə qısamüddətli dövrdə istehlak həcminin dəyişməsinə təsirləri güclü deyil. Yalnız Küveytdə müəyyən səviyyədə əlaqə hiss edilir. BƏƏ üçün də neft qiymətlərinin artması istehlak xərclərini artırır. BƏƏ istehlak xərclərinin neft qiymətlərindən qısamüddətli dövrdə deyil, uzunmüddətli dövrdə asılılığı, böyük ehtimalla, neft rentasının ÜDM-dəki payının neftlə zəngin digər ərəb ölkələri ilə müqayisədə qədər də yüksək olmaması ilə bağlıdır. İrakda üzunmüddətli dövr üçün bu ölkədə neft qiymətlərindən asılılıq güclüdür. İrakda da neft qiymətlərinə istehlak xərcləri pozitiv cavab verir. Neft qiymətlərinin artması ilə istehlak xərcləri də artır.

**Açar sözlər:** *neft qiymətləri şoku, məcmu istehlak, ÜDM*

**UOT:** 338, 339
**JEL:** L86

## Giriş

Təbii sərvətlərlə zəngin olan və belə sərvətləri ixrac edən ölkələrin əksəriyyətinin əsas gəlirləri bu sərvətlərin rentasından yaranır. Neftlə zəngin ərəb ölkələrində də neft rentası onların gəlirlərinin mühüm hissəsini təşkil edir. Buna görə də neft qiymətlərinin dünya bazarında artması və ya azalması həm ölkənin milli gəlirinin həcmində, həm də ev təsərrüfatlarının gəlirlərinin həcmində özünü göstərir. Neft ixrac edən ölkələrdə ev təsərrüfatlarının gəlirlərinin neft qiymətlərinin volatilliyindən asılılığı ölkədə məcmu tələbin dəyişməsinə, həmçinin məcmu təklifə təsir edir. Buna görə də bu iki göstərici arasında, yəni neft qiymətləri və ya onun dəyişməsi ilə istehlak arasında əlaqələrin kəmiyyətcə qiymətləndirilməsi iqtisadi siyasətin müəyyən edilməsində mühüm əhəmiyyətə malikdir. Lakin nəzərə almaq lazımdır ki, belə təsirlər qısamüddətli və uzunmüddətli ola bilər. Əksər ölkələrdə əhalinin gəlirlərinin mühüm hissəsini neft rentası təşkil etdiyindən neft qiymətlərinin dəyişməsi qısamüddətdə ev təsərrüfatlarının gəlirlərində əkd olunur. Bəzi ölkələrdə isə belə dəyişmələr yalnız uzunmüddətli dövrdə hiss edilir. Təsirlərin qısa və ya uzunmüddətli olması ÜDM həcmində neft rentasının payından çox asılıdır.

**Tədqiqatın məqsədi və hipotez.** Tədqiqatın məqsədi neft gəlirlərinin neftlə zəngin ərəb ölkələrində istehlak həcminə qısamüddətli və uzunmüddətli dövrdə təsirinin kəmiyyətcə qiymətləndirilməsidir.

*Hitotez: Neftin dünya bazarında nominal və real qiymətinin hər hansı istiqamətdə dəyişməsi neftlə zəngin ərəb ölkələrində (məsələn, Səudiyyə Ərəbistanında, Birləşmiş Ərəb Əmirliklərində, İrakda və Küveytdə) adambaşına istehlak həcminə qısamüddətli dövrdə təsir göstərmir. Lakin uzunmüddətli dövrdə neft qiymət-*

*lərindən istehlak həcminə yönələn biristiqamətli təsirlər mövcuddur.*

**Ədəbiyyata baxış**

Müxtəlif ölkələrin timsalında neft qiymətlərinin istehlak həcminə təsirlərinə həsr edilən tədqiqatlara iqtisadi ədəbiyyatda rast gəlinir. Məsələn, *Zhang və Broadstock (2014) [1]* tərfindən aparılan tədqiqatda ASEAN və Şərqi Asiya regionunda yerləşən bəzi ölkələrin iqtisadiyyatına, o cümlədən istehlak həcminə neft qiymətlərinin təsiri araşdırılıb. Müəlliflər neft qiymətlərini istehlak nəzəriyyəsinin makroiqtisadi modellərinə daxil edərək bu qiymətlərin şok dəyişmələri zamanı istehlak həcminin dəyişməsini öyrəniblər. Əldə edilən nəticə ondan ibarətdir ki, neft qiymətləri ilə istehlak həcmi arasında əlaqə mövcuddur və bu əlaqə assimmetrikdir. Digər tərəfdən, belə təsirlərin xarakterində və həcmində ölkədən ölkəyə fərqlər var.

ABŞ timsalında Michelis və digərləri (2020) *[2]* tərfindən aparılan tədqiqatda da ABŞ və ayrı-ayrı ştatlarda istehlak həcminin neft qiymətlərindən asılı olaraq dəyişməsi kəmiyyətcə qiymətləndirilib. Məqalədə digər ölkələrlə müqayisələr də aparılıb. 1975-2018-ci illərarası dövrdə 55 ölkə üzrə 1989-2018-ci illərarası dövrdə isə ABŞ statları üzrə istehlak həcmi ilə neft qiymətləri arasındakı əlaqənin müqayisəli təhlili deməyə əsas verir ki, neft qiymətlərinin azalması neft idxal edən ölkələrdə istehlak həcminə müsbət təsir göstərir. Tədqiqat göstərir ki, neft qiymətlərinin azalması neft ixrac edən ölkələrdə istehlak həcmini də azaldır.

Yu Shan Wang, (2013) *[3]* tərəfindən aparılan tədqiqatda istehlak xərclərinin neft qiymətlərindən asılılığının qeyri-xətti və asimmetrik olması təsdiq edilir. Bu tədqiqatda da iddia edilir ki, neftin qiymətinin artması istehlak xərclərinin azalmasına səbəb olur. Hətta neft qiymətlərinin artması ilə bağlı gözləntilər də istehlak həcminə neqativ təsir edir. Lakin uzunmüddətli dövrdə neft qiymətinin artımı istehsal amillərinin də qiymətini artırır. Bu davamlı qiymət artımını və inflyasiyanı yaradır. Sonda istehlak xərcləri artmış olur. Bu tədqiqatın əsas nəticələrindən biri ondan ibarətdir ki, istehlak həcmi ilə neft qiymətləri arasındakı əlaqə ölkədən ölkəyə dəyişir. Belə fərqliliklər digər səbəblərlə yanaşı, həm də ölkədə həyata keçirilən monetar siyasətlə bağlıdır.

**Metodologiya və məlumatlar bazası**

Tədqiqat zamanı neft qiymətlərinin illik orta qiymətindən istifadə olunub. Bu məlumatlar US Energy İnformastion Administration (US EİA, 2022) *[4]* təşkilatının rəsmi internet səhifəsindən əldə edilib. Tədqiqat zamanı neft qiymətləri həm nominal ($OİLP_t$), həm də real qiymətlər ($ROİLP_t$), kimi hesablanıb. Real qiymətlərin hesablanması zamanı 1995-ci il baza ili olaraq qəbul edilib.

Adambaşına istehlak həcminin heaablanmasında da nominal ($NCONS_t$), real qiymətlərdən ($RCONS_t$), istifadə edilib. Bu məlumatlar Dünya Bankının rəsmi informasiya bazasından (WB, 2022) *[5]* əldə edilib.

**Empirik hesablamalar:**

Qeyd etdiyimiz kimi tədqiqata 4 ərəb ölkəsi daxil edilib. Bunlar Səudiyyə Ərəbistanı, BƏƏ, İraq və Küveytdir. Bu ölkələrin fərqli cəhətləri ilə yanaşı, həm də oxşar cəhətləri var. Əsas fərqlilik bu ölkələrdə həyata keçirilən iqtisadi siyasət və 1986-cı ildən sonrakı dönəmdə bu ölkələrdəki siyasi sabitliklə bağlıdır. Belə ki, keçən əsrin 90-cı illərinin əvvəllərində İraq-Küveyt müharibəsi, 2003-cü ildə İraq-ABŞ müharibəsi öz təsirini həm neft qiymətlərində. Həm də

istehlak xərclərində göstərdi. İstehlak həcminə təsir edən çoxlu sayda amillər mövcuddur ki, onların təsirləri fonunda neft qiymətlərinin təsirlərini modelləşdirmək çətinləşir. Buna baxmayaraq, biz hesab edəcəyik ki, bu ölkələrdə neft qiymətlərinin istehlak xərclərinə təsirlərini xətti reqresiya analizi ilə modelləşdirmək olar:

$$cons_t = \beta_1 + \beta_2 * oilp_t + u_t$$

Burada $cons_t$-istehlak həcminin orta illik həcmi, $oilp_t$- dübya bazarında neftin orta illik qiyməti, $\beta_1$ və $\beta_2$- əmsallardır. Bu zaman digər amillərinin təsirini təsadüfi $u_t$ qalığının üzərinə qoyacağıq.

Adambaşına istehlak xərcləri ilə neft qiymətlərinin və ya neft rentasının əlaqəsinin kəmiyyətcə qiymətləndiriməsi qərar qəbulu üçün və gələcəkdə neft qiymətləri ilə bağlı qeyri-müəyyənliyə aid gözləntilərin dəyərləndirilməsi üçün mühüm əhəmiyyətə malikdir. 3-10-cu qrafiklərə əsasən bu göstəricilər arasındakı əlaqənin müəyyən edilməsi ekonometrik modellərin tətbiqi ilə qiymətləndirilə bilər. Buna görə də bu ölkələr üzrə cüt reqresiya əlaqəsinin "aldadıcı" olmamasına əmin olmaq məqsədilə həm neft qiymətlərinin, həm də istehlak xərcləri zaman sıralarının stasionarlığının yoxlanılmasına ehtiyac var. Biz belə yoxlamanı "vahid kök" testi vasitəsilə yerinə yetirəcəyik. Belə test həm səviyyə, həm də birinci fərq üçün yerinə yetiriləcək. Bu zaman "kəsişmə və trendin olmadığı", kəsişmənin olduğu, lakin trendin olmadığı" və "həm kəsişmənin, həm də trendin olduğu" hallar yoxlanılacaq. 1-ci cədvəldə dünya bazarında nominal və real neft qiymətlərinin zaman sırasının stasionarlığı ilə bağlı əldə edilən nəticələr verilib. Cədvəldən görünür ki, hər iki zaman sırası "səviyyə" halında stasionar deyil. Lakin "1-ci fərq" halında hər iki zaman sırası stasionardır.

**Cədvəl 1**

**Dünya bazarında nominal və real neft qiymətlərinin zaman sırasının stasionarlığı**

| | kəsişmə və trend olmadan | | kəsişmə ilə və trend olmadan | | kəsişmə ilə və trend olmadan | |
|---|---|---|---|---|---|---|
| | Səviyyə | Birinci fərq | Səviyyə | Birinci fərq | Səviyyə | Birinci fərq |
| $\boldsymbol{OİLP_t}$ | | | | | | |
| *t-statistika* | -0.2967 | -6.2133 | -1.5862 | -6.1783 | 2.2013 | -6.0554 |
| *P-qiymət* | 0.5717 | 0.0000 | 0.4789 | 0.0000 | 0.4742 | 0.0001 |
| $\boldsymbol{ROİLP_t}$ | | | | | | |
| *t-statistika* | -0.7137 | -4.5677 | -1.0300 | -4.4565 | -1.2408 | -5.0529 |
| *P-qiymət* | 0.3947 | 0.0001 | 0.7215 | 0.0027 | 0.8731 | 0.0037 |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

Səudiyyə Ərəbistanı, BƏƏ, İrak və Küveyt üçün nominal istehlak həcminin zaman sıralarının stasionarlığı da yuxarıda qeyd etdiyimiz metodla yerinə yetirilmişdir. Hesablamalar göstərir ki, tədqiqata cəlb edilən bu ölkələr üçün istehlak həcmi zaman sırası "səviyyə" halında, yəni bu ölkələr üçün $cons_t$ zaman sırası stasionar deyil, lakin "1-ci fərq", yəni $\Delta cons_t$ zaman sırası "kəsişmə və trend olmadığı", həmçinin "kəsişmənin olduğu, lakin trendin olmadığı" hallar üçün stasionardır. "Kəsişmə və trendin olduğu üçüncü halda BƏƏ-nə, İraka və Küveytə aid istehlak xərcləri zaman sırasının 1-ci fərqi stasionardır. Səudiyyə ərəbistanına aid istehlak xərcləri zaman sırası isə stasionar deyil.

**Cədvəl 2.**

**Bəzi ərəb ölkələrində nominal istehlak həcminin zaman sıralarının stasionarlığı**

| | kəsişmə və trend olmadan | | kəsişmə ilə və trend olmadan | | kəsişmə ilə və trend olmadan | |
|---|---|---|---|---|---|---|
| | Səviyyə | Birinci fərq | Səviyyə | Birinci fərq | Səviyyə | Birinci fərq |
| BƏƏ | | | | | | |
| *t-statistika* | -0.2082 | 3.7568 | -1.6136 | -3.6373 | -1.8993 | -3.5143 |
| *P-qiymət* | 0.5972 | 0.0009 | 0.4556 | 0.0163 | 0.6133 | 0.0699 |
| **İrak** | | | | | | |
| *t-statistika* | -0.9233 | -7.9504 | -2.1453 | -7.9217 | -2.4209 | -7.8370 |
| *P-qiymət* | 0.3116 | 0.0000 | 0.2285 | 0.0000 | 0.3647 | 0.0000 |
| **Kuveyt** | | | | | | |
| *t-statistika* | 1.6715 | 5.3667 | -0.3411 | -5.6866 | 2.3642 | -5.6261 |
| *P-qiymət* | 0.9756 | 0.0000 | 0.9109 | 0.0000 | 0.3931 | 0.0001 |
| **S.Ərəbistanı** | | | | | | |
| *t-statistika* | 0.4132 | -2.8658 | -1.2665 | -3.1694 | -2.2883 | -3.118980 |
| *P-qiymət* | 0.7988 | 0.0050 | 0.6382 | 0.0277 | 0.4324 | 0.1130 |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

**Cədvəl 3**

**Bəzi Ərəb ölkələrində qısamüddətli dövrdə neft qiymətlərinin dəyişməsinin ($\Delta Oİ LP_t$) istehlak həcminin dəyişməsinə ($\Delta cons_t$) təsirləri**

**($\Delta cons_t = \beta_2 * \Delta Oİ LP_t + u_t$)**

| | | BƏƏ | İrak | Kuveyt | S. Ərəbistanı |
|---|---|---|---|---|---|
| $R^2$ | | 0.422419 | 0.014422 | -0.209487 | 0.005755 |
| Müşahidələrin sayı | | 18 | 33 | 30 | 35 |
| $\beta_2$ | əmsal | 96.61504 | 10.03736 | 280.1771 | 160.0798 |
| | Standart xəta | 27.39777 | 14.33766 | 17.45919 | 11.71003 |
| | t-statistika | 3.526383 | 0.700070 | 16.04755 | 13.67031 |
| | P-qiymət | 0.0026 | 0.4889 | 0.0000 | 0.0000 |
| Darbin-Uatson əmsalı | | 1.00667 | 2.36630 | 0.41787 | 0.33450 |

**($\Delta cons_t = \beta_1 + \beta_2 * \Delta Oİ LP_t + u_t$)**

| | | BƏƏ | İrak | Kuveyt | S. Ərəbistanı |
|---|---|---|---|---|---|
| $R^2$ | | 0.425454 | 0.014627 | 0.256545 | 0.071066 |
| Müşahidələrin sayı | | 18 | 33 | 30 | 34 |
| $\beta_1$ | əmsal | -144.9353 | 15.68894 | 391.6238 | 250.3596 |
| | Standart xəta | 498.5744 | 195.4474 | 216.6131 | 84.96481 |
| | t-statistika | -0.290699 | 0.080272 | 1.807942 | 2.946627 |
| | P-qiymət | 0.7750 | 0.9365 | 0.0814 | 0.0059 |
| $\beta_2$ | əmsal | 97.41966 | 9.925611 | 48.05661 | 9.839878 |
| | Standart xəta | 28.30236 | 14.63194 | 15.46037 | 6.288902 |
| | t-statistika | 3.442103 | 0.678352 | 3.108375 | 1.564642 |
| | P-qiymət | 0.0033 | 0.5026 | 0.0043 | 0.1275 |
| Darbin-Uatson əmsalı | | 1.006786 | 2.366441 | 1.409590 | 1.002331 |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

Tədqiqata cəlb edilən ərəb ölkələri üzrə istehlak həcminin ($cons_t$) və dünya bazarında neft qiymətlərinin ($Oİ LP_t$) zaman sıralarının stasionarlığı ilə bağlı 1-ci və 2-ci

cədvəldə əldə edilən nəticələri nəzərə alaraq, qeyd edə bilərik ki, qısamüddətli dövr üçün onlar arasındakı cüt reqresiya tənliklərinin analiz edilməsinə ehtiyac yoxdur. Çünki əldə edilən nəticələrin etibarlılığı şübhə doğurur. Lakin bu ölkələr üçün $\Delta cons_t$ zaman sıralarının, həmçinin dünya bazarında neft qiymətlərinin zaman sırasının ($\Delta oilp_t$) I (1) dərəcədən stasionar olduğunu nəzərə alsaq, bu göstəricilər arasındakı əlaqəni

$$\Delta cons_t = \beta_2 * \Delta OİLP_t + u_t$$

kimi cüt reqresiya tənliyi vasitəsilə qiymətləndirə bilərik. Əldə edilən nəticə 3-cü cədvəldə verilmişdir.

3-cü cədvəldə verilmiş nəticələr deməyə əsas verir ki, neft qiymətlərinin dəyişməsinin ($\Delta OİLP_t$) Səudiyyə Ərəbistanı, İrak, BƏƏ və Küveytdə qısamüddətli dövrdə istehlak həcminin dəyişməsinə ($\Delta cons_t$) təsirləri güclü deyil. Yalnız Küveytdə müəyyən səviyyədə əlaqə hiss edilir. Belə qiymətləndirmə zamanı müəyyən olunub ki, BƏƏ, Səudiyyə Ərəbistanı və Küveyt üzrə qiymətləndirmələrdə avtokorrelyasiya yüksəkdir və bu ölkələrdə hər hansı ildəki istehlak xərcləri əvvəlki illərdəki qiymətlərdən müəyyən dərəcədə asılıdır.

**Cədvəl 4**

**Uzunmüddətli dövrdə neft qiymətlərinin və onun dəyişməsinin Səudiyyə Ərəbistanında istehlak həcminə və onun dəyişməsinə təsirləri**

| | | | $OİLP_t$ | | | | $\Delta OİLP_t$ | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan |
| $cons_t$ | $R^2$ | | -0.0083 | 0.4384 | 0.806507 | $\Delta cons_t$ | -0.2257 | 0.0786 | 0.191809 |
| | $\beta_1$ | əmsal | - | 4168.130 | 2740.936 | | - | 255.9055 | -49.6393 |
| | | Standart xəta | - | 1137.487 | 847.6248 | | - | 111.3750 | 204.1963 |
| | | t-statistika | - | 3.664333 | 3.233666 | | - | 2.297694 | -0.2431 |
| | | P-qiymət | - | 0.0009 | 0.0029 | | - | 0.0285 | 0.8096 |
| | $\beta_2$ | əmsal | 169.4766 | 98.96111 | 18.00368 | | 13.40385 | 11.63449 | 15.25105 |
| | | Standart xəta | 17.33579 | 21.53927 | 20.76642 | | 10.49165 | 8.132879 | 6.973622 |
| | | t-statistika | 9.776113 | 4.594450 | 0.866962 | | 1.277573 | 1.430550 | 2.186962 |
| | | P-qiymət | 0.0000 | 0.0001 | 0.3926 | | 0.2106 | 0.1626 | 0.0367 |
| | trend | əmsal | - | - | 266.9211 | | - | - | 17.13813 |
| | | Standart xəta | - | - | 58.75724 | | - | - | 10.01968 |
| | | t-statistika | - | - | 4.542778 | | - | - | 1.710447 |
| | | P-qiymət | - | - | 0.0001 | | - | - | 0.0975 |
| | Uzunmüddətli varians | | 28496832 | 12154623 | 5523291 | | 681220.9 | 408546.1 | 295720.3 |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

Tədqiqata cəlb edilən ölkələr üçün istehlak xərclərinin neft qiymətlərindən asılılığı qəsamüddətli dövr üçün əhəmiyyətli olmasa da uzunmüddətli dövr üçün əhəmiyyətli hesab edilə bilər. Belə ki, 4-ci cədvəldə Səudiyyə Ərəbistanı üzrə həm istehlak xərclərinin, həm də belə xərclərin dəyişməsinin neft qiymətləri və onun dəyişməsi ilə kointeqrasiya analizinin nəticələri verilmişdir. Əldə edilən nəticələrə əsasən iddia edə bilərik ki, Səudiyyə Ərəbistanında istehlak xərcləri uzunmüddətli dövrdə neft qiymətlərindən asılıdır. Neft qiymətlərinin artması istehlak xərclərini artırır.

**Cədvəl 5**

**Uzunmüddətli dövrdə neft qiymətlərinin və onun dəyişməsinin BƏƏ istehlak həcminə və onun dəyişməsinə təsirləri**

| | | | $OİLP_t$ | | | | $\Delta OİLP_t$ | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan |
| $const_t$ | $R^2$ | | -4.5886 | 0.486636 | 0.223429 | $\Delta const_t$ | 0.410414 | 0.417189 | 0.476143 |
| | | əmsal | - | 27160.88 | 25667.28 | | - | -184.97 | -1320.7 |
| | $\beta_1$ | Standart xəta | - | 4557.599 | 3339.042 | | - | 694.3208 | 1603.265 |
| | | t-statistika | - | 5.959470 | 7.687019 | | - | -0.2664 | -0.8238 |
| | | P-qiymət | - | 0.0001 | 0.0000 | | - | 0.7936 | 0.4239 |
| | $\beta_2$ | əmsal | 300.7476 | 27160.88 | -21.5385 | | 78.46925 | 79.96348 | 94.79643 |
| | | Standart xəta | 43.27469 | 4557.599 | 46.70275 | | 37.20998 | 38.30387 | 38.93708 |
| | | t-statistika | 6.949735 | 5.959470 | -0.4612 | | 2.108823 | 2.087608 | 2.434606 |
| | | P-qiymət | 0.0000 | 0.0001 | 0.6513 | | 0.0511 | 0.0543 | 0.0289 |
| | trend | əmsal | - | - | -246.308 | | - | - | 112.1611 |
| | | Standart xəta | - | - | 205.4032 | | - | - | 143.3486 |
| | | t-statistika | - | - | -1.1991 | | - | - | 0.782436 |
| | | P-qiymət | - | - | 0.2491 | | - | - | 0.4470 |
| | Uzunmüddətli varians | | 1.62E+08 | 1950561 | 19073309 | | 7733977.0 | 8113459. | 7692305. |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

Səudiyyə Ərəbistanı üçün 4-cü cədvəldə əldə edilən nəticələr BƏƏ üçün 5-ci cədvəldə verilmiş nəticələrə uyğundur. Belə ki, BƏƏ üçün də neft qiymətlərinin artması istehlak xərclərini artırır. BƏƏ istehlak xərclərinin neft qiymətlərindən qısamüddətli dövrdə deyil, uzunmüddətli dövrdə asılılığı, böyük ehtimalla, neft rentasının ÜDM-dəki payının neftlə zəngin digər ərəb ölkələri ilə müqayisədə qədər də yüksək olmaması ilə bağlıdır. Belə ki, son illərdə BƏƏ –nin ÜDM həcmində neft rentasının payı 16% ətrafındadır.

**Cədvəl 6**

**Uzunmüddətli dövrdə neft qiymətlərinin və onun dəyişməsinin İrakda istehlak həcminə və onun dəyişməsinə təsirləri**

| | | | $O\dot{I}LP_t$ | | | | $\Delta O\dot{I}LP_t$ | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan |
| $const_t$ | $R^2$ | | 0.202280 | 0.252123 | 0.244426 | $\Delta const_t$ | 0.013591 | 0.013751 | 0.032855 |
| | $\beta_1$ | əmsal | - | 667.6372 | 599.8707 | | - | 7.735088 | -293.875 |
| | | Standart xəta | - | 702.8299 | 797.2847 | | - | 155.1726 | 307.5724 |
| | | t-statistika | - | 0.949927 | 0.752392 | | - | 0.049848 | -0.95547 |
| | | P-qiymət | - | 0.3495 | 0.4577 | | - | 0.9606 | 0.3472 |
| | $\beta_2$ | əmsal | 42.71035 | 31.53485 | 36.15150 | | 12.13160 | 11.98791 | 13.82448 |
| | | Standart xəta | 7.049717 | 13.21883 | 20.90760 | | 11.21288 | 11.45622 | 10.60967 |
| | | t-statistika | 6.058448 | 2.385601 | 1.729108 | | 1.081934 | 1.046411 | 1.303008 |
| | | P-qiymət | 0.0000 | 0.0233 | 0.0941 | | 0.2876 | 0.3037 | 0.2028 |
| | trend | əmsal | - | - | -17.743 | | - | - | 17.13235 |
| | | Standart xəta | - | - | 61.82712 | | - | - | 15.50499 |
| | | t-statistika | - | - | -0.2870 | | - | - | 1.104958 |
| | | P-qiymət | - | - | 0.7761 | | - | - | 0.2783 |
| | Uzunmüddətli varians | | 4636302. | 4571905. | 4843906. | | 738129.2 | 764656.4 | 653618.4 |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

İrak üçün bu iki göstərici arasındakı əlaqənin xarakteri S.Ərəbistanı və BƏƏ üçün olan əlaqədən fərqlənir. Lakin uzunmüddətli dövr üçün bu ölkədə neft qiymətlərindən asılılıq güclüdür. İrakda da neft qiymətlərinə istehlak xərcləri pozitiv cavab verir. Neft qiymətlərinin artması ilə istehlak xərcləri də artır. İrakda da neft rentasının ÜDM-də payı çox yüksəkdir. Son illərdə bu pay 30%-dən yüksəkdir. İstehlak xərclərinin həcminin neft qiymətlərindən asılılığı da bu faktdan çox asılıdır.

Küveytin neft rentasının ÜDM-də payı çox yüksəkdir. Son illərdə bu çəki 40% ətrafındadır və neftin dünya qiymətindən asılı olaraq dəyişir. Elə buna görə də neft qiymətlərinin hər hansı istiqamətdə dəyişməsi Küveytdə istehlak xərclərinin həcminə təsir edir. 7-ci cədvəldən göründüyü ki, Küveytdə istehlak xərcləri ilə neft qiymətlərinin uzunmüddətli dövrdə pozitiv əlaqəsi mövcuddur.

**Nəticə:**

Neft qiymətlərinin dəyişməsinin Səudiyyə Ərəbistanı, İrak, BƏƏ və Küveytdə qısamüddətli dövrdə istehlak həcminin dəyişməsinə təsirləri güclü deyil. Yalnız Küveytdə müəyyən səviyyədə əlaqə hiss edilir. BƏƏ üçün də neft qiymətlərinin artması istehlak xərclərini artırır. BƏƏ istehlak xərclərinin neft qiymətlərindən qısamüddətli dövrdə deyil, uzunmüddətli dövrdə

asılılığı, böyük ehtimalla, neft rentasının ÜDM-dəki payının neftlə zəngin digər ərəb ölkələri ilə müqayisədə qədər də yüksək olmaması ilə bağlıdır. İrakda üzunmüddətli dövr üçün bu ölkədə neft qiymətlərindən asılılıq güclüdür. İrakda da neft qiymətlərinə istehlak xərcləri pozitiv cavab verir. Neft qiymətlərinin artması ilə istehlak xərcləri də artır. Neft qiymətlərinin hər hansı istiqamətdə dəyişməsi Küveytdə istehlak xərclərinin həcminə təsir edir.

**Cədvəl 7**

**Uzunmüddətli dövrdə neft qiymətlərinin və onun dəyişməsinin Küveytdə istehlak həcminə və onun dəyişməsinə təsirləri**

| | | | $OİLP_t$ | | | | $\Delta OİLP_t$ | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan |
| $const_t$ | $R^2$ | | -0.3229 | 0.698891 | 0.912420 | $\Delta const_t$ | 0.166676 | 0.260709 | 0.263660 |
| | $\beta_1$ | əmsal | - | 8426.070 | 7447.438 | | - | 410.9672 | 569.0464 |
| | | Standart xəta | - | 1393.426 | 758.7191 | | - | 214.6160 | 469.9706 |
| | | t-statistika | - | 6.047016 | 9.815804 | | - | 1.914895 | 1.210813 |
| | | P-qiymət | - | 0.0000 | 0.0000 | | - | 0.0662 | 0.2369 |
| | $\beta_2$ | əmsal | 290.8695 | 154.5370 | 54.54684 | | 51.92189 | 46.93818 | 46.13230 |
| | | Standart xəta | 30.28991 | 25.13099 | 18.93021 | | 18.05319 | 15.08244 | 15.31827 |
| | | t-statistika | 9.602854 | 6.149259 | 2.881471 | | 2.876051 | 3.112108 | 3.011587 |
| | | P-qiymət | 0.0000 | 0.0000 | 0.0077 | | 0.0076 | 0.0044 | 0.0057 |
| | trend | əmsal | - | - | 367.3261 | | - | - | -9.717853 |
| | | Standart xəta | - | - | 61.68580 | | - | - | -25.94314 |
| | | t-statistika | - | - | 5.954792 | | - | - | 0.374583 |
| | | P-qiymət | - | - | 0.0000 | | - | - | 0.7110 |
| | Uzunmüddətli varians | | 84618600 | 15072266 | 3837371 | | 1913758 | 1324539 | 1356613 |

Qeyd: eViews proqram paketi vasitəsilə müəllif tərəfindən hesablanıb

## ƏDƏBİYYAT SİYAHISI:

1. Dayong Zhang David C. Broadstock, 2014. Impact of International Oil Price Shocks on Consumption Expenditures in ASEAN and East Asia. ERIA-DP-2014-24
2. Andrea De Michelis, Thiago Ferreira, and Matteo Iacoviello, 2020. Oil Prices and Consumption across Countries and U.S. States. *International Journal of Central Banking.* Vol. 16 No. 2
3. Yu Shan Wang, 2013. Oil price effects on personal consumption expenditures. Energy Economics 36 (2013) 198–204
4. US EİA, 2022. https://www.eia.gov/dnav/pet/hist/LeafHandler.ashx?n=pet&s=rwtc&f=a
5. WB, 2022. www.data.worldbank.org

**Firudin Eldar Hatamov**
Doctoral student of the Institute of Oriental Studies of NANA

## Estimation of the influence of oil price shocks on total consumption in the countries of the Middle East

### Abstract

In the article, the dependence of the total volume of consumption on the oil price shocks in some oil-rich countries of the Middle East is econometrically estimated. The obtained results confirm that in the short-run, the influence of oil price shocks on the volume of consumption in Saudi Arabia, Iraq, UAE and Kuwait is small. A certain level of impacts is felt only in Kuwait. For the UAE, the rise in oil prices increases consumer spending. The dependence of UAE consumer spending on the price of oil in the long-run, and not in the short-run, is most likely due to the fact that the share of oil rent in GDP is not as high as in other oil-rich Arab countries. In Iraq, the dependence of the volume of consumption on the price of oil is strong in the long run. In Iraq, consumer spending also responds positively to oil prices.

**Keywords**: *oil price shock, total consumption, GDP*

**Фирудин Эльдар оглы Хатамов**
Докторант Института Востоковедения НАНА

## Оценка влияния скачков цен на нефть на совокупное потребление в странах Ближнего Востока

### Резюме

В статье эконометрически оценена зависимость совокупного объема потребления от шока цен на нефть в ряде богатых нефтью стран Ближнего Востока. Полученный результат подтверждает, что в краткосрочном периоде влияние изменения цены на нефть на объем потребления в Саудовской Аравии, Ираке, ОАЭ и Кувейте невелико. Только в Кувейте ощущается определенный уровень связи. Для ОАЭ рост цен на нефть увеличивает потребительские расходы. Зависимость потребительских расходов ОАЭ от цен на нефть в долгосрочном, а не в краткосрочном периоде, скорее всего, связана с тем, что доля нефтяной ренты в ВВП не так высока, как в других богатых нефтью арабских странах. В Ираке зависимость объема потребления от цен на нефть сильна в долгосрочном периоде. В Ираке потребительские расходы также положительно реагируют на цены на нефть. С ростом цен на нефть растут и потребительские расходы.

**Ключевые слова**: *шок цен на нефть, совокупное потребление, ВВП.*

**Daxil olub:** 15.02.2022

**Emil Çingiz oğlu Gülalıyev**
Azərbaycan Dövlət İqtisad Univresitetinin (UNEC) doktorantı

# MİNİMUM ƏMƏK HAQQININ GƏLİR BƏRABƏRSİZLİYİNƏ TƏSİRİNƏ MÜXTƏLİF YANAŞMALAR VƏ VƏ QİYMƏTLƏNDİRMƏ METODLARI

**Xülasə**
Məqalədə minimum əmək haqqının gəlir bərabərsizliyinə təsirləri və belə təsirlərin qiymətləndirilməsi ilə bağlı müxtəlif yanaşmalar müqayisəli təhlil edilib. Minimum əmək haqqı ilə gəlir bərabərsizliyi arasındakı əlaqə inkişaf etməkdə olan ölkələrin timsalında tədqiq edilib. Müəllif gəlir bərabərsizliyinin əsas göstəricisi kimi Gini indeksini qəbul edib. Ekonometrik metodlardan istifadə edərək, müəllif belə nəticəyə gəlir ki, MƏH-nın gəlir bərabərsizliyinə təsirləri eyni xarakterli deyil və ölkədən ölkəyə dəyişir. Həmçinin fərz etmək olar ki, hər bir ölkə üçün onun inkişaf səviyyəsinə uyğun olaraq optimal MƏH səviyyəsi mövcuddur.
**Açar sözlər:** minimum əmək haqqı, gəlir bərabərsizliyi, Gini indeksi, məşğulluq, gəlirlər

- ***Giriş: gəlir bərabərsizliyi sosial-qitisadi problem kimi***

İnsanların təhsil səviyyəsi, bilik və bacarıqları fərqlidir. Onların malik olduqları ev təsərrüfatlarınının ölçüsü, məşğulların iqtisadi fəaliyyət sahələrindəki gəlirlər də müxtəlifdir. Ölkələrin iqlim şəraiti fərqli olduğundan yaşayış üçün zəruri olan xərclər də fərqlidir. Ayrı-ayrı insanlar və ya ev təsərrüfatlarının gəlirləri arasındakı fərqliliklər və bu fərqlikləri doğuran səbəblər müxtəlif ola bilər. Səbəbindən asılı olmayaraq, ölkə daxilində və ya ölkələrarası gəlir fərqlilikləri insanların həyat şəraitinə, həmçinin ölkələrarası iqtisadi münasibətlərə ciddi təsir edir. Mahiyyətcə gəlirlərin bərabər olmasını iddia etmək mümkün deyil. Çünki bütün insanlar eyni dərəcədə işgüzar və ya eyni dərəcədə bilik və bacarığa malik ola bilmir. Digər tərəfdən, ev təsərrüfatında istehlak həcmindən asılı olaraq, gələcək nəsillərə ötürülən miras da fərli ola bilər və belə miras fərqləri gələcək əlavə gəlirlər üçün imkan yaradır. Bu gün hələ uşaq olan hər bir nəfər üçün onun valideyni eyni həcmdə miras qoyub getmir. Təbii ki, hər bir fərd qənaətli istehlakçı ola bilmir Tədqiqatlar göstərir ki, insanların gəlirlərindəki fərqliliklər onların sağlamlığında, davranışında, doğulanda gözlənilən ömür uzunluğunda və rifah halını xarakterizə edən sair problemlərdə özünün biruzə verir. Vaxtlı-vaxtında və keyfiyyətli qidalanma, təmiz və işməli suya olan tələbatın tam ödənilməsi, davamlı enerjinin əlçatan olması, ekoloji təmiz mühitdə yaşamaq insanların sağlamlığına və ömür uzunluğuna pozitiv təsir edir. Bu amillərin hər biri isə gəlirlərin həcmindən çox asılıdır. Avropa Komissiyasının (*European Commission, 2020*) [1] qiymətləndirmələrinə əsasən Avropa İttifaqına daxil olan ölkələrin əhalisi arasında aparılan sorğularda on nəfərdən səkkizi işsizlik və miqrasiya ilə yanaşı sosial bərabərsizliyi əsas problem hesab edirlər. Sosial bərabərsizliyin isə əsasında gəlir bərabərsizliyi dayanır.

İstənilən ölkədə orta gəlirlərin orta dünya qiymətləri ilə müqayisədə aşağı olması, həmçinin ölkə daxilində gəlirlər arasındakı bərabərsizliyin kəskin olması cəmiyyətdə sağlamlıq səviyyəsi, həyat keyfiyyəti ilə

bağlı və digər sosial məsələlərlə bağlı ciddi problemlər yaradır. Birinci fenomen, yəni ölkə daxilində orta gəlirlərin orta dünya göstəricilərindən, xüsusilə inkişaf etmiş ölkələr üzrə orta gəlirlərdən aşağı olması ölkədən yüksək ixtisaslı kadrların axınına (zəka axını), əmək miqrasiyasına səbəb olmaqla yanaşı, həm də ölkənin yeni texnika vəı texnologiyalar almasına, dünya elmindən faydalanmasına çətinliklər yaradır. Çünki əhalinin və hətta dövlətin müasir texnoloji imkanlardan bəhrələnmək imkanı gəlirlərin azlığı səbəbindən mümkün olmur. Elmin, təhsilin və səhiyyənin inkişafının zəifliyi, ölkədə institusional çatışmazlığa səbəb olur. Bu isə yoxsul ölkənin inkişaf etməsinə çətinliklər yaradır.

İkinci fenomen, yəni ölkə daxilində gəlirlər arasındakı bərabərsizliklər başqa mahiyyətli problemlər yaradır. Əhali arasında gəlir kvintillərinə görə kəskin fərqlənməsi istehlak həcmində, təhsil və səhiyyə xidmətlərindən istifadə imkanlarında, nəqliyyatdan və mədəniyyət infrastrukturundan istifadədə və sair fərqlənmək deməkdir. Bu istənilən cəmiyyətin dayanıqlılığı və ölkədə insanların fiziki təhlükəsizliyi üçün ciddi təhdid yaradır. Yuxarıda qeyd etdiyimiz kimi, gəlir bərabərsizliyi istənilən ölkədə mövcuddur və onun tam aradan qaldırılması nəinki mümkün deyil, əksinə onun müəyyən həddə-optimal həddə qəbul edilməsi zəruridir. Gəlirlərdə qeyri-bərabərliyin iqtisadi inkişaf üçün əhəmiyyəti bəzi tədqiqatçılar tərəfindən iddia edilir. Məsələn, *Welch (1999)* [2] öz tədqiqatında belə nəticəyə gəlir ki, gəlir bərabərsizliyi nəinki pis deyil, əksinə inkişaf üçün zəruridir. Qeyri-bərabərliyin artması isə heç də iddia edildiyi kimi pis şey deyil. *Welch (1999)* belə hesab edir ki, əmək haqlarındakı qeyri-bərabərliyin artması təhsil səviyyəsinin artması ilə davam edir, lakin müxtəlif etnik, gender və sair səbəblərə görə qeyri-bərabərlik azalır.

Gəlir bərabərsizliyinin optimal hesab ediləbilən müəyyən səviyyəsi cəmiyyətdə rəqabətlilik üçün motiv yaradır, həm də iqtisadi artımı stimullaşdırır. Lakin belə bərabərsizliyin "optimal hədd"-dən kənarlaşması cəmiyyətdə qarşısı alınabilməyən kataklizmalar yarada bilər. İqtisadi ədəbiyyatda "gəlir bərabərsizliyinin optimal həddi" anlayışına tez-tez rast gəlmək olur (məsələn, *Charles-Coll (2010)* [3], *Syed (2018)* [4]). *Jianu və digərləri (2021)* [5] tərəfindən aparılan tədqiqatlara əsasən inkişaf etmiş Avropa İttifaqı ölkələrində gəlir bərabərsizliyi ilə iqtisadi artım arasında pozitiv əlavə var. Əksinə inkişaf etməkdə olan Avropa İttifaqı ölkələrində belə əlaqələr neqativdir. Nəzərə almaq lazımdır ki, hətta inkişaf etmiş ölkələrdə gəlir bərabərsizliyinin iqtisadi artıma pozitiv təsirləri o demək deyil ki, onun davamlı olaraq kəskinləşdirilməsinə stimul vermək lazımdır. Əksinə, inkişaf etmiş ölkələrdə ən az gəlir qrupları milli yoxsulluq həddindən xeyli yüksək həyat keyfiyyətinə malikdirlər. Yəni optimal gəlir bərabərsizliyi həddinin müəyyən edilməsində minimum hədd nəzərə alınmalıdır.

- ***Gəlir bərabərsizliyinin azaldılması yolları***

Gəlir bərabərsizliyinin iqtisadi, sosial-iqtisadi və digər təsirlərini nəzərə alaraq hər bir ölkə, xüsusilə, inkişaf etməkdə olan ölkələr onun azaldılması istiqamətində zəruri iqtisadi siyasət həyata keçirməyə cəhd edirlər. Belə tədbirlərdən ən geniş yayılanı fiskal siyasətdir. Lakin dövlətin iqtisadiyyata müdaxiləsinin, demək olar ki, bütün növləri birbaşa və ya dolayısı ilə gəlir bərabərsizliyinin azaldılmasına yönəlib. Məsələn, dövlətin iqtisadiyyata müdaxiləsi növlərindən a)dövlət sahibkarlığının inki-

şafı, b)fiskal siyasət, c) qiymətlərin tənzimlənməsi, d) xarici ticarət rejiminin tənzimlənməsi, e)lisenziyalaşma, f)minimum əmək haqqının müəyyən edilməsi, h) məşğulluğun tənzimlənməsi və sair tədbirlər əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün biznes strukturlarının fəaliyyətinin müxtəlif sahələrdə məhdudlaşdırılması məqsədi daşıyır. Lakin məhdudlaşdırıcı dövlət tənzimləmələrinin bütün hallarda gəlir bərabərsizliyini azaltması fikri iqtisadi tədqiqatlarla təsdiq edilmir. Bəzi tədqiqatlar (məsələn, *Dustin Chambers və Colin O'Reilly*, 2020) [6] göstərir ki, iqtisadiyyatın dövlət tənzimlənməsi artdıqca, əksinə gəlir bərabərsizliyi də artır.

Dövlət gəlir gətirməyən və işçilərinə vaxtlı-vaxtında yüksək əmək haqqı vermək imkanında olmayan dövlət müəssisələrinin özəlləşdirilməsini həyata keçirərək belə müəssisələrin fəaliyyətini genişləndirir. Bunun əksi də baş verə bilər. Dövlət zəif fəaliyyət göstərən, lakin çoxlu sayda insanın işlə təminatına imkan verən özəl müəssisələrin milliləşdirilməsi yolu ilə insanların sosial vəziyyətinin yaxşılaşdırılmasına çalışır. Hər iki halda məqsəd bir tərəfdən, zəif fəaliyyət göstərən müəssisənin mülkiyyətçisinin dəyişdirilməsi yolu ilə aktivləşdirilməsi, digər tərəfdən, bu müəsisələrdə çalışan işçilərin sosial müdafiəsinin təmin edilməsi nəzərdə tutulur.

Dövlətin cəmiyyətdə gəlir bərabərsizliyinin aradan qaldırılması metodlarından ən mühüm fiskal siyasətdir. Dövlət öz büdcəsi vasitəsilə gəlirlərin bölgüsünü və yenidən bölgüsünü həyata keçirir. Vergilər və dövlət sahibkarlığı vasitəsilə büdcədə toplanan ictimai vəsaitlərin büdcə xərcləri vasitəsilə yenidən bölgüsü ev təsərrüfatlarında gəlirlərin mühüm hissəsisni təşkil edir. Məsələn, ARDSK-nin məlumatlarına əsasən 2020-ci ildə Azərbaycanda iqtisadi rayonlar üzrə ev təsərrüfatlarına sosial müavinət və pensiyalar şəklində ayırmaların məbləği cəmi gəlirlərin 13.4% -dən (Naxçıvan MR) 37.3%-ə (Kəlbəcər-Laçın) qədər olub. Dövlət büdcəsindən maliyyələşən müəssisə və təşkilatlarda, məsələn, səhiyyə və təhsil sistemində, mədəniyyət və güç strukturlarında və sair sahələrdə çalışan yüz minlərlə məşğulun aylıq əmək haqqısı da gəlirlərin bölgüsü və yenidən bölgüsü vasitəsilə reallaşır.

Əhalinin gəlirlərindəki qeyri-bərabərliyə dolayısı ilə təsir edən instrumentlərdən biri də bəzi mal və xidmətlərin qiymətlərinin dövlət tərəfindən tənzimlənməsidir. Xüsusilə, kommunal xidmətlərin və dərman preparatlarının qiymətinin dövlət nəzarətində saxlanılması əhalinin az gəlirli təbəqəsinin həyat keyfiyyətinə mümkün mənfi təsirlərin azaldılması məqsədi daşıyır. Bu tədbirlər gəlir bərabərsizliyini azaltmasa da, belə bərabərsizliyin mümkün mənfi təsirlərini azaltdığından mühüm əhəmiyyətə malikdir.

- ***MƏH-nın gəlir bərabərsizliyinə təsirinə həsr edilən tədqiqatlara baxış***

Dövlətin iqtisadiyyata hər hansı səviyyədə müdaxiləsi müvafiq qanunlar və ya dövlət siyasəti vasitəsilə reallaşır. Belə müdaxilələrin iqtisadiyyata necə təsir etməsi həmişə müzakirə mövzusu olub. Dövlətin iqtisadiyyata müdaxiləsinin səmərəliliyi (efficiency) belə müdaxilələrin yaratdığı mənfəətlə xərc arasındakı fərqlərin müqayisəli ölçülməsi ilə mümkün ola bilir. Belə müdaxilələrdən biri kimi minimum əmək haqqı (MƏH) ilə bağlı dövlət siyasəti də gəlir bərabərsizliyinə təsir edir. MƏH siyasətinin mahiyyəti ondan ibarətdir ki, dövlət biznes strukturlarından tələb edir ki, öz işçilərinə müəyyən məbləğdən az əmək haqqı verməsinlər. MƏH kimi xarakterizə olunan bu hədd adətən ölkədə yaşayış mini-

mumuna uyğunlaşdırılır. Adətən əksər ölkələr MƏH-nın həcmini "insanın sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilmiş toplusu" (yəni "minimum istehlak səbəti") (*Milli Məclis, 2004*) [7] və "minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial norma" (yəni "yaşayış minimumu") [7] əsasında hesablayırlar. Müxtəlif ölkələrdə "minimum istehlak səbəti" və "yaşayış minimumu" fərqli olduğundan MƏH-nın həcmi də fərqlidir.

MƏH məbləği müəyyən olunan ölkələrdə gəlir kvintillərinin aşağı həddi dövlət tərəfindən bir qədər yuxarı "sıxışdırılmış" olur. Lakin belə "sıxışdırılmanın" gəlir bərabərsizliyinə təsirinin xarakteri müxtəlif tədqiqatlarda müxtəlifdir. MƏH ilə bağlı qanunun mahiyyətində cəmiyyətin daha həssas təbəqisinin, yəni əmək haqqı məbləği daha az olan az ixtisaslı işçilərin əmək haqqının müəyyən minimum həddən yuxarı qaldırılması olsa da real həyatda əldə edilən nəticənin fərqli olduğu ilə bağlı çoxlu sayda tədqiqatlar mövcuddur. Bu tədqiqatların əsas arqumenti ondan ibarətdir ki, MƏH ilə bağlı qanun qəbul ediləndə və daha az ixtisaslı işçilərin əmək haqqı üçün  üçün minimum hədd artırılanda məhz belə işçilərin məşğulluğu ilə problem yaranır və onların müəyyən hissəsi işsiz qalır. MƏH vasitəsilə bir qrup işçinin əmək haqqının artırılması və gəlir bərabərsizliyini azaltmaq məqsədi daşıyan qanun sonra bir qrup insanın öz işini itirməsi ilə nəticələnir və gəlir bərabərsizliyi daha da kəskinləşir.

İqtisadi nəzəriyyədə MƏH sosial müdafiə instrumenti olmaqla yanaşı, həm də gəlirlərin bülüşdürülməsi instrumenti kimi çıxış edir. Məsələn, *Freeman (1996)* [8] MƏH-nın gəlirlərin bölüşdürülməsindəki rolunu, xüsusilə aşağı gəlirli qrupların gəliləri arasındakı fərqlərin azaldılmasındakı rolunu qeyd edir. O belə hesab edir ki, bu proses üç mexanizmlə reallaşır. Birincisi, MƏH həcminin artması bu səviyyəsində əmək haqqı alan işçilərin istehsal etdiyi məhsulların dəyərini artırır. Bu zaman belə məhsulları alan istehlakçıların istehlakçı artığı (consumer surplas) azalır. Bu proses MƏH səviyyəsində əmək haqqı alan istehlakçıların tələbini artıraraq, digər qrup istehlakçıların tələbini azaldır. İkinci mexanizm MƏH-nın artması işəgötürənin gəlirlərinə mənfi təsir etdiyindən və məhsulun qiymətinin rəqabətliyini saxlamağın zəruriliyini nəzərə alaraq, işəgötürən MƏH səviyyəsində əmək haqqı alanların müəyyən hissəsinin işdən azad edilməsi yolunu tutur.

MƏH-nın sosial-iqtisadi təsirlərinin tanınmış tədqiqatçıları *Card və Krueger (1995*) [9] qeyd edirlər ki, MƏH-nın əmək gəlirlərinin bölüşdürülməsinə təsiri birbaşadır və asanlıqla ölçülə bilər. Onlar belə hesab edirlər ki, MƏH-nın artırılması əmək haqqı MƏH səviyyəsinə və ya ona yaxın olan işçi qruplarının arasındakı gəlir bərabərsizliyini xeyli azaldır. Lakin MƏH-nın ev təsərrüfatlarının gəlirlərinə təsiri o qədər də birbaşa deyil, ona görə ki, MƏH alan ev təsərrüfatlarının sayı cəmi ev təsərrüfatlarının sayında üstünlük təşkil etmir. Buna baxmayaraq, MƏH-nın 35% artırılması gəlirləri az olan ev təsərrüfatlarının 10%-ə təsir edir.

*Adams və Neumark* (2003) [10] qeyd edirlər ki, bu mexanizm yeni gəlir bərabərsizliyi yarada bilər. Lakin çoxlu sayda tədqiqatlar var ki, MƏH-nın artmasının bütün hallarda yeni işsizlik yaratması ilə bağlı iddiaları təkzib edir. MƏH-nın məşğulluğa təsiri problemləri də iqtisadi tədqiqatlarda birmənalı təsdiq edilmir.

MƏH-nın gəlir bərabərsizliyinə təsirləri empirik tədqiqatlarda geniş analiz edilib. Hələ keçən əsrin səksəninci illərində bəzi tədqiqatların nəticələri MƏH-nın gəlir bərabərsizliyi ilə pozitiv korrelyasiyanın olduğu qənaətinə gətirirdi. Yəni MƏH-nın tətbiqi və onun artırılması gəlir qeyri-bərabərsizliyini də artırır. Məsələn, *Johnson və Browning (1983*) [11], həmçinin *Burkhauser və Finegan (1989*) [12] tərəfindən aparılan tədqiqatlarda iddia edilir ki, gəlir bərabərsizliyini azaltmaq üçün MƏH-nın orta həcmini də azaltmaq lazımdır.

İnkişaf etmiş ölkələrin timsalında aparılan tədqiqatlarda MƏH-nın artmasının gəlir bərabərsizliyinin azalmasına təsir etməsi, demək olar ki, heç bir tədqiqatda təsdiq edilmir. Məsələn, *Chambers və O'Reilly (2020*) [13] ABŞ-da iqtisadiyyatın tənzimlənməsinin gəlir bərabərsizliynə təsirini öyrənərək belə nəticəyə gəlirlər ki, tənzimlənmənin gəlirlərin paylanmasına təsiri kanalı əsasən məhsulun dəyərinə birbaşa və ya dolayısı ilə olan təsirlərlə bağlıdır. Məhsulun dəyərinin dəyişməsi isə əmək haqqına təsir edir. Dövlətin iqtisadiyyata müdaxiləsi əmək haqqının və istehlak qiymətlərinin artması ilə reqressiv təsirə malikdir. *Autor və digərləri (2010)* [14] ABŞ timsalında MƏH-nın bərabərsizliyiə təsirini tədqiq edərək iddi edirlər ki, MƏH-nın artımı gəlir bərabərsizliyinin aşağı həddində dəyişikliklərə səbəb olur və bərabərsizliyi azaldır.

*Ben Litwin (2015)* MƏH-nın gəlir bərabərsizliyinə təsirlərini İqtisadi Əməkdaşlıq və İnkişaf (OECD) təşkilatına daxil olan bir neçə ölkənin timsalında qiymətləndirərək belə nəticəyə gəlib ki, bəzi ölkələrdə MƏH-nın müəyyən səviyyəyə qədər artması gəlir bərabərsizliyini azaldır, lakin müəyyən həddən sonra, əksinə, gəlir bərabərsizliyini artırır. Bu nəticə MƏH-nın ikili mahiyyətə, yəni həm biznes mühitinə, həm də sosial sahəyə təsiri ilə bağlı yanaşmaya (Gülalıyev, 2018) [15] tamamilə uyğundur. Əgər MƏH-nın cari səviyyəsi optimal səviyyədən azdırsa, onun artırılması iqtisadi inkişafa, həmçinin gəlir bərabərsizliyinin azalmasına pozitiv təsir edəcək. Əks halda təsirlər neqativ olacaq.

Burada əsas problem iki əlaqənin bir-birindən fərqləndirilməsi ilə bağlıdır. Belə ki, 1)ölkədə adambaşına gəlirlərin səviyyəsi ilə gəlir bərabərsizliyi arasındakı əlaqə və 2) MƏH ilə bağlı dövlət müdaxiləsinin gəlir bərabərsizliyi ilə əlaqəsi bir-birindən fərqləndirilməlidir. Çünki birinci əlaqə ölkənin bütünlükdə iqtisadi inkişafı ilə bağlı olduğu halda, ikinci dövlətin iqtisadiyyata müdaxiləsi ilə bağlıdır. Məsələn, hələ *Kuznets (1955)* [16] iddia edirdi ki, iqtisadi inkişafla gəlir bərabərsizliyi arasında çevrilmiş "U" formalı əlaqə var. İqtisadi inkişaf səviyyəsi aşağı olan ölkələrdə sonrakı inkişaf gəlir bərabərsizliyini artırır, lakin müəyyən həddə bu bərabərsizlik maksimum olur. İnkişafın sonrakı dövlərində bərabərsizlik azalmağa başlayır. Əlbəttə empirik səviyyədə aparılan tədqiqatlar *Kuznets (1955)* [16] tərəfindən alınan bu nəticələri təsdiq etmir. Belə ki, qeyri-bərabərliyə təsir edən çoxlu sayda determinantlar var. Məsələn, *Herzer və Vollmer (2012)* [17] tərəfindən aparılan panel analiz sübut edir ki, adambaşına gəlirlər ilə qeyri-bərabərlik arasında uzunmüddət üçün əks əlaqə mövcuddur.

*Carl Lin və Myeong-Su Yun (2016)* [18] bu problemi panel metod tədbiq edərək Çinin timsalında tədqiq ediblər. Əldə edilən nəticə inkişaf etmiş ölkələr üzrə aparılan tədqiqatların nəticələrindən fərqlənir. Belə ki, alınan nəticələrə əsasən, MƏH-nın tətbiqi və mütəmadi olaraq onun həcminin artırılmaslı gəlir səviyyəsinə görə orta və aşağı

decillərdə yerləşən işçilərin əmək haqqı arasındakı fərqlərin azalmasına və beləliklə, gəlir bərabərsizliyinin azalmasına nail olunur.

Rumuniyanın timsalında bu problem *Militaru və digərləri (2019)* [19] tərəfindən tədqiq edilib. Bu tədqiqatda MƏH-nın ölkədə gəlir bərabərsizliyinə müsbət təsiri təsdiq edilir. Tədqiqatda MƏH-nın ev təsərrüfatlarının gəlirlərinə və əmək haqlarındakı fərqlərə təsirlərinin kəmiyyətcə qiymətləndirilməsi üçün iki metodoloji yanaşmadan istifadə edilib. Hər iki metodoloji yanaşmada isə mikrosimulyasiya metodu tətbiq edilib.

*Militaru və digərləri (2019)* [19] qeyd edirlər ki, onların tətbiq etdiyi metodoloji yanaşmada əsas çətinlik ondan ibarət olub ki, MƏH-nın 2013-2014-cü illərdə dəyişməsi ev təsərrüfatlarının gəlirlərinə və məşğulların əmək haqqına müxtəlif kanallarda təsir edir və bu kanalların hər birinin modeldə nəzərə alınması məsələni xeyli mürəkkəbləşdirir. Məsələn, ölkədə az təminatlı ailələrin sosial yardım alması və ya sosial xarakterli hər hansı ödənişlər MƏH-nın miqdarına əsaslanırsa, onda MƏH-nın dəyişməsi bu ödəmələrin həcminə də təsir göstərəcək. Məsələn, Azərbaycanda bəzi dövlət rüsumları MƏH-nın həcminə uyğunlaşdırılıb. MƏH-nın dəyişməsi dərhal həmin rüsumların da dəyişməsinə səbəb olur. Tədqiqatda birinci metodoloji yanaşma əksfaklara əsaslanır. Yəni sual qoyulur ki, əgər MƏH 2014-cü ildə dəyişməsəydi əmək haqları səviyyəsi və ev təsərrüfatlarının gəlirləri 2013-cü illə müqayisədə necə dəyişəcəkdir. Belə bir əksfaktlardan ona görə istifadə edilir ki, başqa amillərin gəlir bərabərsizliyinə və əmək haqlarındakı bərabərsizliyə təsirləri MƏH-nın təsirlərindən fərqləndirilsin.

***MƏH-nın gəlir bərabərsizliyinə təsirlərinin qiymətləndirilməsi metodları (ədəbiyyata baxış)***

MƏH ilə bağlı məhdudiyyətlərin gəlir bərabərsizliyinə təsirlərinin qiymətləndirilməsi üçün iqtisadi ədəbiyyatda müxtəlif metodlara rast gəlinir. Məsələn, *Neumark və digərləri (2005)* [20] MƏH ilə bağlı məhdudiyyətlərin gəlir bərabərsizliyinə təsirlərinin qiymətləndirilməsi üçün qeyri-parametrik metoddan, yaxud "fərqlilikdə fərqlər" metodundan (differences-in difference) istifadə ediblər. Gəlir bərabərsizliyinin ölçüsü kimi isə Gini indeksindən, Atkinson indeksindən, standart sapmalardan, varıasiya əmsalından və sair istifadə ediblər. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, MƏH səviyyəsi artdıqca gəlir bərabərsizliyi də artır.

*Militaru və digərləri (2019)* [19] tərəfindən aparılan tədqiqatda ikinci metodoloji yanaşma 2013 və 2014-cü ildə Gini indeksinin dəyişməsi və bu dəyişmədə MƏH-nın payı əsas götürülüb. Bunun üçün ev təsərrüfatlarının gəlirləri iki qrupa ayrılıb: əmək haqqından olan gəlirlər və digər mənbələrdən olan gəlirlər. Beləliklə, ev təsərrüfatlarının adambaşına gəlirlərini

$$y_H = y_L + y_{NL} \qquad (1)$$

kimi göstərmək olar. Burada $y_H$-ev təsərrüfatlarının adambaşına gəlirləri, $y_L$- ev təsərrüfatlarına əmək haqqı kimi gələn gəlirlərin adambaşına həcmi, $y_{NL}$- ev təsərrüfatlarına digər mənbələrdən gələn gəlirlərin adambaşına həcmidir. Birinci komponenti $y_L = p_{MW} * MW + y_{LNMW}$ kimi iki hissəyə ayırmaq olar. Birinci hissəsində MƏH səviyyəsində əmək haqqı alan ev təsərrüfatlarının cəmi ev təsərrüfatlarında payıdır ($p_{MW}$). İkinci hissə MƏH səviyyəsindən daha yüksək əmək haqqı alan ev təsərrüfatlarında adambaşına əmək haq-

qından gələn gəlirləri ($y_{LNMW}$) göstərir. Onda (1) eyniliyini

$$y_H = p_{MW} * MW + y_{LNMW} + y_{NL} \quad (2)$$

yazmaq olar.

Qeyd edək ki, (1) bərabərliyinin sağ tərəfindəki komponentlərin hər birinə MƏH-nın təsiri mümkündür. Belə ki, bəzi ölkələrdə ev təsərrüfatlarının gəlirlərində mühüm yer tutan pensiya ödənişlərinin həcmi, sosial müavinətlər və sair MƏH həcminə uyğunlaşdırılır. Lakin bəzi ölkələrdə belə əlaqə yoxdur. Odur ki, *Militaru və digərləri (2019)* [19] Rumuniya timsalında MƏH qanununun yalnız əmək haqqı səviyyəsinə təsirini nəzərə alıblar və ona görə də ev təsərrüfatlarının gəlirlərini funksiya olaraq

$$y_H = f(p_{MW}, MW, y_{NMW}) \quad (3)$$

kimi ifadə edir. Təklif edilən metoda əsasən ev təsərrüfatlarının gəlirlərinin t-zamanında paylanması $F(y_H^t)$ funksiyasıdır və bu funksiya t-zamanında həm MƏH alan ev təsərrüfatlarının cəmi ev təsərrüfatlarında payından ($p_{MW}^t$), MƏH həcmindən $MW^t$ və ev təsərrüfatlarının MƏH-dan başqa adambaşına olan gəlirlərindən ($y_{NMW}^t$) asılıdır. Bu halda Gini əmsalını da bu göstəricilərdən asılı funksiya kimi ifadə edə bilərik.

$$G^t = g(F(y(p_{MW}^t, MW^t, y_{NMW}^t))) \quad (4)$$

Beləliklə, hər hansı (t)-zamanından (bunu "0" ilə işarə edək) hər hansı (t+τ) zamanına keçəndə (bunu "1" ilə işarə edək) həm ev təsərrüfatlarının adambaşına gəlirlərinin F paylanma funksiyası, həm də Gini əmsalı dəyişə bilər. Bu dəyişmələrin müqayisəsi bizə imkan verə bilər ki, biz gəlir bərabərsizliyinə MƏH-nın təsirlərini müəyyən edə biləк. Əlbəttə nəzərə almaq lazımdır ki, bu müddət ərzində Gini əmsalının dəyişməsi təkcə MƏH-nın dəyişməsi nəticəsində deyil, həm də digər iki səbəbdən, yəni 1) MƏH alan ev təsərrüfatlarının cəmi ev təsərrüfatlarındakı payının və 2) ev təsərrüfatlarının əmək haqqından başqa digər gəlirlərinin dəyişməsi hesabına ola bilər. Ona görə də

$$\begin{aligned}G^1 - G^0 = {} & g(F(y(p_{MW}^1, MW^1, y_{NMW}^1)))- g(F(y(p_{MW}^0, MW^0, y_{NMW}^0)))= \\ & g(F(y(p_{MW}^0, MW^1, y_{NMW}^0))) - g(F(y(p_{MW}^0, MW^0, y_{NMW}^0))) + \\ & g(F(y(p_{MW}^1, MW^1, y_{NMW}^0)))- g(F(y(p_{MW}^0, MW^1, y_{NMW}^0))) \\ & + g(F(y(p_{MW}^1, MW^1, y_{NMW}^1)))- g(F(y(p_{MW}^1, MW^1, y_{NMW}^0)))\end{aligned} \quad (5)$$

Beləliklə, *Militaru və digərləri (2019)* [19] tərəfindən təklif edilən metoda əsaslanaraq (5) eyniliyi ilə MƏH-nın və əmək haqqından başqa digər gəlirlərin Gini əmsalına təsirlərini qiymətləndirərək, MƏH ilə gəlir bərabərsizliyi arasındakı əlaqəni müəyyən edə bilərik.

- ***MƏH-nın gəlir bərabərsizliyinə təsirlərinin inkişaf etməkdə olan ölkələr timsalında qiymətləndirilməsi***

Biz öz tədqiqatımızda əvvəlcə birinci yaxınlaşmada MƏH-nın hər hansı dövrdə dəyişməsinin həmin ildə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə Gini indeksinin dəyişməsinə təsirlərini "ölkələrarası" məlumatlar əsasında analiz edəcəyik. Bunu "birinci yaxınlaşma" ona görə adlandırırıq ki, Gini əmsalına MƏH-dan başqa digər göstıricilər də təsir edir və biz hələki, yalnız MƏH-nın təsirlərini nəzərə alacağıq. Gini əmsalı ilə bağlı zəruri məlumatlar Dünya Bankının rəsmi məlumatlar bazasından (WB, 2021) [21] əldə edilib. MƏH ilə bağlı məlumatlar isə Beynəlxalq Əmək Təşkilatının rəsmi məlumatlar bazasından (İLO, 2021) [22] əldə edilmişdir.

**Cədvəl 1**

**Bəzi inkişaf etməkdə olan ölkələrdə MƏH-nın və Gini indeksinin dəyişməsi**

| Ölkələr | Müqayisə edilən illər | MƏH (cari ABŞ dolları) | Gini indeksi | MƏH2-MƏH1 | Gini(2)-Gini(1) |
|---|---|---|---|---|---|
| **Albaniya** | 2012 | 194 | 29 | 7.40 | 4.20 |
| | 2017 | 202 | 33.2 | | |
| **Argentina** | 2010 | 447 | 43.6 | -96.10 | -0.70 |
| | 2019 | 350 | 42.9 | | |
| **Ermənistan** | 2010 | 80 | 30 | 34 | -0.10 |
| | 2019 | 114 | 29.9 | | |
| **Bangladeş** | 2010 | 43 | 32.1 | -24.42 | 0.30 |
| | 2017 | 19 | 32.4 | | |
| **Belarus** | 2010 | 134 | 28.6 | 23 | -3.3 |
| | 2019 | 158 | 25.3 | | |
| **Bolqariya** | 2010 | 162 | 35.7 | 145 | 5.6 |
| | 2018 | 308 | 41.3 | | |
| **Kolombiya** | 2014 | 308 | - | -55 | 51.3 |
| | 2019 | 252 | 51.3 | | |
| **Kosta Rika** | 2018 | 520 | 48 | 6 | 0.2 |
| | 2019 | 526 | 48.2 | | |
| **Xorvatiya** | 2012 | 481 | 41.1 | 67 | -11.4 |
| | 2018 | 548 | 29.7 | | |

Qeyd: müəllif tərəfindən hesablanaraq tərtib edilib

Cədvəl 1-ci cədvəldə müxtəlif regionlarda yerləşən doqquz inkişaf etməkdə olan ölkə üzrə MƏH-nın və Gini indelsinin müxtəlif dövrlərdə dəyişməsi verilib. Cədvəldən görünür ki, bu dəyişmələr müxtəlif xarakterlidir. Bəzi ölkələrdə, məsələn, Albaniya, Bolqariya və Kosta Rika üzrə MƏH-nın artması həm də Gini indeksinin artması ilə müşahidə edilib və Argentinada MƏH-nın azalması Gini indeksinin azalması ilə müşahidə edilib. Lakin tədqiqata cəlb edilən digər ölkələrdə- Ermənistan, Banqladeş və Kolumbiyada MƏH-nın azalması Gini indeksinin artması ilə, Ermənistan, Belarusiya və Xorvatiyada MƏH-nın artması Gini indeksinin azalması ilə müşahidə edilib. Tədqiqata az sayda ölkənin daxil edilməsi bu göstəricilər arasında hansı səviyyədə reqresiyanın olmasını deməyə tam əsas verməsə də bəzi nəticələri çıxarmağa imkan verir.

**Nəticə**

MƏH-nın gəlir bərabərsizliyinə təsirləri eyni xarakterli deyil və ölkədən ölkəyə dəyişir. Həmçinin fərz etmək olar ki, hər bir ölkə üçün onun inkişaf səviyyəsinə uyğun olaraq optimal MƏH səviyyəsi mövcuddur.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. European Commission. Reflection Paper on the Deepening of the Economic and Monetary Union; European Commission: Brussels, Belgium, 2017. Available online: https://ec.europa.eu/commission/publications/reflection-paper-deepening-economic-andmonetary-union_en (accessed on 10 December 2020).

2. Welch, F. In defense of inequality. Am. Econ. Rev. 1999, 89, 1–17. DOI: 10.1257/aer.89.2.1

3. Charles-Coll, Jorge A. (2010). The optimal rate of inequality: A framework for the relationship between income inequality and economic growth. MPRA Paper No. 28921, posted 15 Feb 2011 22:33 UTC. https://mpra.ub.uni-muenchen.de/28921/1/MPRA_paper_28921.pdf

*4.* Syed Yusuf Saadat. (2018). The Optimum Level of Income Inequality: Evidence from Panel Data. *Journal of Business and Policy Research. Vol. 13. No. 1. July 2018, Pp.78-89*

5. Jianu, I.; Dinu, M.; Huru, D.; Bodislav, A. Examining the Relationship between Income Inequality and Growth from the Perspective of EU Member States' Stage of Development. Sustainability 2021, 13, 5204. https://doi.org/ 10.3390/su13095204

6. Dustin Chambers and Colin O'Reilly. "Regulation and Income Inequality in the United States." Mercatus Working Paper, Mercatus Center at George Mason University, Arlington, VA, May 2020

7. Milli Məclis, 2004. Yaşayış minimumu haqqında Azərbaycan Respub-likasinin qanunu, http://www.e-qanun.az/framework/5518

8. Freeman, Richard. 1996. "The Minimum Wage as a Redistributive Tool." *The Economic Journal* 106 (May): 640.

9. Card, David and Alan B. Krueger. 1995. "How the Minimum Wage Affects the Distribution of Wages, the Distribution of Family Earnings, and Poverty." Chap. 9, In Myth and Measurement, 276-312. Princeton, NJ: Princeton University Press.

*10.* Adams, Scott and David Neumark, 2003, "Living Wage Effects: New and Improved Evidence," *NBER Working Papers* no. 9702: 2.

11. Johnson, William R., and Edgar K. Browning. 1983. The Distributional and Efficiency Effects of Increasing the Minimum Wage: A Simulation. In American Economic Review

12. Burkhauser, Richard V., and T. Aldrich Finegan. 1989. "The Minimum Wage and the Poor: The End of a Relationship." Journal of Policy Analysis and Management 8 (1):53-71

13. Dustin Chambers and Colin O'Reilly. (2020). "Regulation and Income Inequality in the United States." Mercatus Working Paper, Mercatus Center at George Mason University, Arlington, VA, May 2020.

14. David H. Autor, Alan Manning Christopher, L. Smith, (2010). The contribution of the minimum wage to U.S. wage inequality over three decades: a reassessment. National Bureau of economic research 1050. Massachusetts Avenue Cambridge, MA 02138 November 2010 Working Paper 16533 http://www.nber.org/papers/w16533

15. Gülalıyev Mayıs (2018). Xarici iqtisadi fəaliyyət: tənzimləmə ilə liberallığın tarazlığı. Monoqrafiya. Bakı, "Elm və Bilik" nəşriyyatı. 2018, 360 səh

16. Kuznets, S. Economic Growth and Income Inequality. Am. Econ. Rev. 1955, 45, 1–28.

17. Herzer, D.; Vollmer, S. Inequality and growth: Evidence from panel cointegration. J. Econ. Inequal. 2012, 10, 489–503.

18. Carl Lin, Myeong-Su Yun, (2016). The Effects of the Minimum Wage on Earnings Inequality: Evidence from China. İZA. Discussion Paper No. 9715 February 2016

19. Eva Militaru, Madalina Ecaterina Popescu, Amalia Cristescu and Maria Denisa Vasilescu, 2019. Assessing Minimum

Wage Policy Implications upon Income Inequalities. The Case of Romania. Sustainability 2019, 11, 2542; doi:10.3390/su11092542

20. Neumark, David, Mark Schweitzer, and William Wascher. 2005. "The Effects of Minimum Wages on the Distribution of Family Incomes: A Nonparametric Analysis." *Journal of Human Resources* 40 (4):867-94.

21. WB, 2021. https://data.worldbank.org/indicator/SI.POV.GINI

22. İLO, 2021. https://ilostat.ilo.org/topics/wages/

**Emil Cingiz oglu Gulaliyev**
Doctoral student of Azerbaijan State University of Economics (UNEC)

## DIFFERENT APPROACHES ON THE IMPACT OF THE MINIMUM WAGE ON INCOME INEQUALITY AND ESTIMATION METHODS

**Summary**

The article comparatively analyzes the effects of the minimum wage on income inequality and various approaches to assessing such effects. The relationship between the minimum wage and income inequality has been studied in case of developing countries. The author adopted the Gini index as the main indicator of income inequality. Using econometric methods, the author concludes that the impacts of minimum wage on income inequality are not the same and vary from country to country. It can also be assumed that for each country there is an optimal level of minimum wage in accordance with its level of economic development.

**Keywords**: *minimum wage, income inequality, Gini index, employment, income*

**Эмиль Чингиз оглы Гюльалиев**
Докторант Азербайджанского государственного
экономического университета (UNEC)

## РАЗЛИЧНЫЕ ПОДХОДЫ К ВЛИЯНИЮ МИНИМАЛЬНОЙ ЗАРАБОТНОЙ ПЛАТЫ НА НЕРАВЕНСТВО ДОХОДОВ И МЕТОДЫ ОЦЕНКИ

**Резюме**

В статье проводится сравнительный анализ влияния минимальной заработной платы на неравенство доходов и различные подходы к оценке такого воздействия. Взаимосвязь между минимальной заработной платой и неравенством доходов изучалась на примере развивающихся стран. В качестве основного индикатора неравенства доходов автор принял индекс Джини. Используя эконометрические методы, автор приходит к выводу, что влияние минимальной заработной платы на неравенство доходов неодинаково и варьируется от страны к стране. Также можно предположить, что для каждой страны существует оптимальный уровень минимальной заработной платы в соответствии с уровнем ее экономического развития.

**Ключевые слова**: *минимальная заработная плата, неравенство доходов, индекс Джини, занятость, доход.*

**Daxil olub:** 17.02.2022

**Ayşən Rövşən qızı Vəlibəyli**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
Bakı Dövlət Universitetinin müəllimi
E-mail: velibeyli.aysen.va@gmail.com

**Fizuli Əziz oğlu Məmmədov İqtisad elmləri doktoru, Professor**
Azərbaycan Texnologiya Universiteti
E-mail: fizuli.ekonomist@gmail.com

# İQTİSADİYYATIN İNFORMASİYA SEKTORUNUN TƏŞKİLATİ-İQTİSADİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

***Tədqiqatın məqsədi:*** Elmi işin məqsədi iqtisadiyyatın informasiya sektorunun təşkilati-iqtisadi xüsusiyyətlərini araşdırmaq və bu istiqamətdə olan innovasiyaları aşkar edərək onların əhəmiyyətini qiymətləndirməkdən ibarətdir.

***Tədqiqatın metodu*:** tədqiq olunan mövzuya konseptual yanaşmalar, həmçinin, iqtisadiyyatın informasiya sektorunun iqtisadi inkişafda rolu və əhəmiyyətinin qiymətləndirilməsi, müxtəlif aspektlərdən və mövqelərdən  məsələyə yanaşmaların ümumiləşməsi və dəyərləndirilməsi ilə bağlı təhlilli metodlardan istifadə olunur.

***Tədqiqatın nəticələri:*** iqtisadiyyatdakı tendensiyalar və ölkədə iqtisadiyyatın müasir inkişaf səviyyəsi nəzərə alınmaqla iqtisadiyyatın informasiya sektorunun təşkilatı-iqtisadi xüsusiyyətlərinin formalaşması və inkişaf etməsi üzrə təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

**Açar sözlər:** informasiya sektoru, innovasiya infrastrukturu, informasiya xidmətləri biznesi, informasiya resursları, elmi-texniki inkişaf.

**UOT:** 33.2964
**JEL:** L86

## Giriş

İnformasiya və innovativ texnologiyalar milli iqtisadiyyatın bütün sahələrinə və infrastrukturuna mühüm təsir göstərir. Həmçinin gələcək informasiya cəmiyyətinin bazar mexanizminin fəaliyyətində bu cəmiyyəti sənaye dövrünün bazarlarından fərqləndirən yeni xüsusiyyətlər də meydana çıxır. Bütün dünyada olduğu kimi ölkəmizdə də iqtisadiyyatın məhz bu istiqaməti xüsusi nəzərə çarpır.

İnkişaf etmiş ölkələrdə  yeni post-sənaye mərhələsinin əlamətləri artıq kifayət qədər aydın görünür. Bununla belə, müvafiq ədəbiyyatda və Azərbaycan tədqiqatçılarının praktiki tədqiqatlarında informasiyanın müasir cəmiyyətdə iqtisadi artımının ən mühüm amilə çevrilməsinə baxmayaraq, bu yeni tendensiyalar hələ də geniş əksini tapmamışdır. Bu baxımdan, iqtisadiyyatın informasiya sektorunun təşkilati-iqtisadi xüsusiyyətlərini araşdırmaq məqsədəuyğun hesab edilə bilər.

## İnnovasiyalı infrastruktur informasiya sektorunun əsası kimi

Ənənəvi resursların xüsusiyyətlərinə oxşar bir sıra informasiya xüsusiyyətlərinin mövcudluğu bir çox iqtisadi göstəricilərin (qiymət, dəyər, xərclər, mənfəət və s.) informasiya istehsalının təhlili zamanı istifadə olunmasına əsas vermişdir. İqtisadi resurs kimi (daima məhdud sayda olan) informasi-

ya mübadilə üçün nəzərdə tutulub, bununla belə ona ödəniş qabiliyyətli tələb yaranır. Bazar mühitində, demək olar ki, bütün informasiya növləri mövcuddur, lakin ən aktual olanlar aşağıdakılardır:

- kommersiya informasiyası – müəyyən məhsul və xidmətlərə tələb və təklif nisbəti (marketinq informasiyası, təklif olunan məhsul və xidmətlər, onların keyfiyyəti, rəqiblər, daxili bazarda rəqabət qabiliyyəti və s.) barədə məlumat məcmusudur;
- maliyyə informasiyası – tərəf müqabillərinin və rəqiblərin maliyyə dayanıqlığı, ödəniş və kredit qabiliyyəti barədə məlumat;
- xarici iqtisadi informasiya – idxal-ixrac həcmləri, qiymətlər, keyfiyyət, xarici bazarda rəqabət qabiliyyəti, onun daxili bazara təsiri və s. barədə məlumat;
- elmi-texniki informasiya – elm və texnika nailiyyətləri, ixtiralar, elmi tədqiqatlar və onların nəticələri, nou-haular, patentlər, lisenziyalar və s. barədə məlumat;
- statistik informasiya - iqtisadiyyatda (əsasən milli təsərrüfat, sahə, bölgə səviyyəsində) kəmiyyət və keyfiyyət dəyişikliklərinin dinamikası barədə məlumat;
- hüquqi informasiya – hüquq sistemi və mənbələri, hüquqi faktlar, hüquqi münasibətlər, hüquq nizamı, hüquq pozuntuları və onlarla mübarizə barədə məlumat;
- arayış-ensiklopedik informasiya – luğətlər, sorğu kitabçaları, ensiklopediyalar və s.;
- külləvi informasiya – qəzetlər, jurnallar, radio, televiziya, kino, video və s.

İnformasiyanın əhəmiyyəti və faydalılığı istehlakçıya əlavə hərəkət sərbəstliyi vermə imkanından ibarətdir..

İnformasiya mümkün alternativlər dəstini genişləndirir və onların nəticələrini düzgün qiymətləndirməyə kömək edir. İqtisadiyyatın informasiyalaşdırılması informasiyanın ən mühüm əhəmiyyət kəsb edən iqtisadi resursa çevrilməsidir. Bu isə iqtisadi inkişaf, əmək məhsuldarlığının dəfələrlə artması, sosial və iqtisadi problemlərin həll olunması, yeni növ iqtisadi münasibətlərin təşəkkül tapması üçün prinsipial olaraq yeni imkanları təmin edən kompüterləşdirmə və telekommunikasiya əsasında baş verir. İnformasiya resursları informasiya emalı və ötürülməsinin texniki vasitələri ilə qarşılıqlı əlaqədə olaraq iqtisadiyyatın yeni sahəsini– informatika sənayesini yaradıblar və ənənəvi istehsal sahələrinə (sənaye, nəqliyyat, rabitə, ticarət, maliyyə-kredit sistemi) inqilablaşdırıcı təsir göstərirlər.

Yeri gəlmişkən qeyd etməliyik ki, iqtisadiyyatın informasiya sektorunun təşkilatı amillərindən biri də - innovasiya infrastrukturudur.

İnnovasiya proseslərinin idarə olunması mexanizmlərinin mənimsənilməsi üçün təsərrüfat, siyasi və bütünlükdə cəmiyyətin hər bir sahəsində köklü dəyişikliklər həyata keçirilməlidir. Müvafiq olaraq bütün innovasiya infrastrukturunun formalaşması mexanizmi, mülkiyyət hüquqları və risklərin sığortası, intellektual innovasiya məhsulları da daxil olmaqla xidmətlərin kommersiyalaşdırılmasına, milli innovasiya fəaliyyətinin maliyyə, informasiya və kadrlarla dəstəklənməsinə ehtiyac vardır.

İnnovasiya fəaliyyətinin inkişaf etməsi və stimullaşdırılmasının əsas istiqaməti elə bir innovasiya infrastrukturunun yaradılmasıdır ki, burada resursların, elmin, texnikanın , sahibkarlıq biznesinin inteqrasiyası baş verir.

İnnovasiya fəaliyyətinin səmərəliliyi innovasiya infrastrukturu ilə müəyyən olunur. Beləliklə, innovasiya infrastrukturu innovasiya iqtisadiyyatının, cəmiyyətin innovasiya potensialının əsasını təşkil edir. O, eyni zamanda innovasiya iqtisadiyyatının əsas aləti və mexanizmidir və ölkənin inkişaf səviyyəsini yüksəldir.

Ölkə müəssisələri sosial iqtisadi inkişafın müasir mərhələsində innovasiya fəaliyyətini həyata keçirərkən innovasiya layihələrinin maliyyələşdirilməsi, yüksək ixtisaslı personal, keyfiyyətli və ucuz konsaltinq ilə təmin edilməsi, innovasiya məhsullarının beynəlxalq bazarlara təqdim edilməsi ilə bağlı problemlər ilə üzləşirlər.

Səmərəli fəaliyyət göstərən innovasiya sisteminin formalaşması innovasiya tipli milli iqtisadiyyatın formalaşmasında mühüm addımlardan biridir. İnnovasiya infrastrukturunun mahiyyəti və spesifikasının araşdırılması prosesində innovasiya infrastrukturunu mürəkkəb, çox faktorlu kateqoriya kimi nəzərdən keçiririk.

İnfrastruktur termininin linqvistik məzmunu latın sözlərindən "infra"- "aşağı" (təməl, özül) və "struktura"- "qurğu" söz birləşməsindən yaranaraq fundament, təməl mənasını daşıyır. XX əsrdə bu terminlə hərbi qüvvələrə xidmət edən arxa sıralarda (maddi vəsaitlərin anbarları, hərbi bazalar, poliqonlar) yerləşən qurğular adlandırılırdı.

Bəzi mənbələrdə termini tikinti ilə, tikilməkdə olan qurğunun təməli, özülü ilə əlaqələndirirdilər. Struktur hər hansı bir qurğu və ya quruluşun bir-biri ilə qarşılıqlı əlaqədə olan tərkib hissəsi kimi nəzərdən keçirilir, həmçinin hər hansı bir qurğunun quruluşuna da aid edilir.

İnfrastruktur sənaye və kənd təsərrüfatına xidmət edən iqtisadiyyatın sahələr kompleksidir (maddi və qeyri maddi istehsal sahələri).

Beləliklə, XX əsrdə ilk dəfə olaraq hərbi təyinatlı obyekt və qurğuların ifadə olunması üçün Qərbdə 40-cı illərdə sülh zamanı maddi istehsala xidmət edən bir çox sahələrin məcmusu kimi infrastruktur termini işlədilir. Sözün etimoloji şərhi ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. İqtisadiyyata aid edildikdə isə iqtisadi sistemin təməli, özülü, daxili quruluşu kimi təqdim olunurdu. İnfrastrukturun mahiyyətinə həsr edilən məsələlərin araşdırılması ilə məşğul olan qərb iqtisadçı-alimlərin əsərlərinin araşdırılması belə qənaətə gəlməyə əsas verir ki, həmin tədqiqatçıların əsərlərində infrastruktur iqtisadi sahələr üzrə özəl sahibkarlığın inkişaf etdirilməsi üçün ümumi şəraitlər kompleksidir və əhalinin əsas tələbatlarını təmin edir.

Elm tutumlu və xüsusən də informasiya texnologiyaları sahəsində, yüksək texnoloji sahibkarlığın həyata keçirilməsi üçün daima innovasiya infrastrukturunun inkişaf etdirilməsi tələb olunur. Müvafiq olaraq milli innovasiya sisteminin dinamika və artım tempinə bilavasitə təsir göstərən əsas amillərdan biri ölkədə innovasiya infrastrukturunun inkişaf səviyyəsidir.

Qərbdə istehsalın ona xidmət sahələri ilə qarşılıqlı əlaqəsi problemi "infrastruktur" termini yaranandan öncə meydana çıxmışdır. Təbiidir ki, "infrastruktur" termini ilk dəfə qərb iqtisadçıları tərəfindən işlədilmişdir. Keçmiş SSRİ-nin iqtisadi ədəbiyyatlarında infrastruktur ilə bağlı problemlərin araşdırılmasına XX əsrin 70-ci illərindən başlanılmışdır. Tədqiqatçılar xüsusi olaraq qeyd edirlər ki, infrastruktur istənilən iqtisadi sistemin mühüm və vacib komponentidir, onlar eyni zamanda, onun innovasiya prosesinin müxtəlif səviyyələrində həyata keçirdiyi xidmətlərin çox planlılığına və təməl xidmətlərin geniş spektrinə diqqət yönəldirlər.

İnnovasiya infrastrukturu bazar infrastrukturunun yarımsistemidir. Müstəqil yarımsistem kimi infrastruktur- əmtəə və xidmətlərin hərəkətinə, alqı-satqı aktlarına təsir göstərən təşkilati-hüquqi formaların, yaxud institutların, sistemlərin, xidmətlərin, müəssisələrin məcmusudur, bazara xidmət

edir, onun normal rejimdə fəaliyyətini təmin edir.

Özünün ümumi anlamında infrastruktur maddi sahələrin, cəmiyyətin normal fəaliyyət göstərməsi üçün zəruri olan qurğuların, binaların, sistem və xidmətlərin məcmusudur. Bəzən infrastruktur dedikdə iqtisadiyyatın infrastruktur sahələrinin kompleksi (nəqliyyat, rabitə, təhsil, səhiyyə və s.) də başa düşülür. İnfrastruktur istehsal və qeyri istehsal (sosial) tərkib hissələrinə bölünür.

İstehsal infrastrukturunun tərkibinə aşağıdakılar daxildir:

- Şose yollarının, kanalların, körpülərin, limanların, aerodromların tikintisi;
- Nəqliyyatın bütün növləri (avtomobil, su, hava, dəmir yolu);
- Rabitə, enerji təchizatı, sanitar texniki xidmət və s.

Sosial infrastruktura aşağıdakılar aiddir:

- Mənzil və kommunal təsərrüfat;
- Məişət xidməti müəssisələri;
- Su təchizatı və su anbarı;
- Sosial təyinatlı energetika obyektləri;
- Ticarət müəssisələri;
- Təhsil (ümumi və peşə);
- Səhiyyə;
- Kurort-turist zonaları.

Sovet dövründə belə bir fikir hökm sürürdü ki, infrastruktur sahəsinin müəssisələri adətən mənfəət gətirmir, bu isə öz növbəsində qalıq prinsipinə əsasən istehsal və sosial infrastrukturun yaranmasına səbəb olmuşdur.

Bazar iqtisadiyyatında infrastruktur birbiri ilə qarşılıqlı əlaqədə olan institutların, məqsədli funksiyaların spesifik sistemidir ki, başlıca təyinatları iqtisadi subyektlərin müxtəlif bazarlarda fəaliyyət göstərməsi üçün ümumi şəraitin yaradılmasıdır.

İnfrastrukturun belə dərk olunması institusional, innovasiya, maliyyə-kredit, istehsal, kommersiya, ekoloji və sosial infrastruktur tədbirlərinin həyata keçirilməsini tələb edir. İnfrastrukturun mahiyyəti və məzmununun müəyyən edilməsinə olan mövcud yanaşmaları ümumiləşdirərək belə bir qənaətə gəlmişik ki, iqtisadi kateqoriya kimi infrastrukturun məzmunu geniş və dar mənada şərh olunur. Göstərilən üsullar innovasiya infrastrukturuna da aiddir.

Elmi-texniki inqilab şəraitində sənayenin və kənd təsərrüfatının inkişaf templəri, onların səmərəliliyi iqtisadi və sosial infrastrukturun inkişafından birbaşa asılıdır. Öz növbəsində, infrastruktura daxil olan sahələrin səmərəliliyi onların optimal proporsionallığı və planauyğun inkişafından asılıdır. Bu səbəbdən də bir sıra qərb ölkələrində bu sahələrin uzun müddətli inkişaf planları (25 ilə qədər) hazırlanır.

XX əsrin 90-cı illərində Azərbaycanda iqtisadi və sosial infrastruktur sferaları dərin böhran vəziyyətində idi. Böhranın aradan qaldırılması üçün sənaye və kənd təsərrüfatında radikal iqtisadi dəyişikliklərin həyata keçirilməsi, zəruri vəsaitlərin yığımı və saxlanması üçün sosial normaların, infrastruktur sahələrinin texniki təchizatının bərpası tələb olunur.

İnfrastruktur kompleksi subyektlərinin müasir inkişaf səviyyəsinə çatmasına ciddi əngəllər törədən səbəblər qismində erməni təcavüzü ilə bağlı hərbi gərginlikləri, müvafiq olaraq ölkədə yaranmış ağır iqtisadi şəraiti də göstərmək olar.

Elmi mənbələrin araşdırılması [1, s.156; 2,s.248; 3,s.578] göstərdi ki, innovasiya infrastruktur termini ancaq son onillikdə istifadə olunmağa başlamışdır. Burada əsas diqqət iqtisadiyyatın inkişaf etdirilməsi ilə bağlı innovasiya infrastrukturunun inkişaf etdirilməsinə, ayrı-ayrı sahələrdə innovasiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə yönəldilmişdir. Lakin eyni zamanda qeyd

etmək lazımdır ki, innovasiya infrastrukturunun iqtisadi kateqoriya kimi mahiyyəti və spesifikası az araşdırılmışdır.

Milli iqtisadiyyatın infrastruktur təminatı ikili (dualist) şərh olunur: birincisi proses kimi, ikincisi, sistem kimi. İnnovasiya infrastrukturunun şərhi ilə bağlı belə yanaşmanın müxtəlif iqtisadi məzmunu vardır. İnnovasiya infrastrukturunun iqtisadi mahiyyətini xarakterizə edərək qeyd etmək lazımdır ki, müasir ədəbiyyatlarda bu termin bəzən səhv və ya dar anlamda şərh olunur. İnnovasiya infrastrukturu-iqtisadi sistemlərdə innovasiyaların reallaşdırılmasına birbaşa aid olmayan, fəaliyyətdə olan binaların, qurğuların, şəbəkələrin, sistemlərin uzlaşmasıdır, lakin belə bir uzlaşma innovasiya prosesinin təmin olunması üçün tələb olunur.

Hesab edirik ki, innovasiya müəssisəsinə xidmət göstərən istənilən müəssisə, təşkilat, hər hansı bir insan, patent və nao-hau sahibi infrastruktur subyektinə aid edilə bilər. Məhz bu səbəbdən də innovasiya infrastrukturu – süni yaradılmış mühitin şəraitidir, həmin şəraitdə innovasiya fəaliyyəti üçün əlverişli şərait yaradılmış və innovasiya fəaliyyəti maddi, informasiya və psixoloji baxımdan dəstəklənərək stimullaşdırılır, burada innovasiya prosesinin bütün mərhələlərində innovasiyaların yaradılması və reallaşdırılmasına yardım edilir.

İnnovasiya infrastrukturu adı altında innovasiya prosesinin bütün mərhələlərində inkişafı dəstəkləyən dövlət və özəl strukturların spektri nəzərdə tutulur. Məhz innovasiya infrastrukturunun inkişafı müəssisələrə mütləq dərəcədə qısa müddət ərzində innovasiya texnologiylarının hazırlanması və sistemli axtarışını həyata keçirməyə imkan yaradan mühitdir.

İnnovasiya elementlərinin dəstəyi ilə innovasiya fəaliyyətinin həyata keçirilməsinə imkan yaradan aşağıdakı mühüm vəzifələr həll edilir: informasiya təminatı innovasiya fəaliyyətinin istehsal-texnoloji dəstəyi, innovasiya məhsullarının sertifikatlaşdırılması və standartlaşdırılması, səmərəli işlərin rəğbət qazanmasına kömək etmək, innovasiya layihələri və məhsullarının sərgisinin təşkili, məsləhətlərin, innovasiya fəaliyyəti üçün kadr hazırlığı və onların ixtisas hazırlığı səviyyəsinin yüksəldilməsi, yeni ixtisaslara yiyələnməsinin təşkili və s.

Nəqliyyat infrastrukturuna analoji olaraq innovasiya infrastrukturu –bütün informasiya, təşkilati, marketinq təhsil və şəbəkələrdən ibarətdir, sözügedən şəbəkələr yeni ideyaların və yeni məhsulların xidmətlərin öz istehlakçısını tapmağa kömək edir.

Geniş məzmunda innovasiya məhsulunun bazarda təklifinin artması innovasiya infrastrukturu qarşısında kifayət qədər mühüm məsələlər qaldırır - innovasiya fəaliyyətinin kommersiyalaşdırılması, onlara əmtəə formasının verilməsi, bazara çıxışının təmin edilməsi və uğurla reallaşdırılması, yəni bir sözlə innovasiyların praktiki fəaliyyətdə reallaşdırılması.

İnnovasiya fəaliyyətinin əsas struktur elementləri innovasiya layihələri, proqramları və onları reallaşdıran təşkilatlardır. İnnovasiya fəaliyyətinin strukturunda mühüm yarımsistemlərdən biri kimi-innovasiya fəaliyyətinin dəstəklənməsi yarımsistemi göstərilə bilər. İnnovasiya infrastrukturunun elementləri bir-biri ilə sıx bağlıdır, bir-birinə təsir göstərir, belə bir əlaqə innovasiya fəaliyyəti ilə bağlı digər struktur elementlərində də vardır.

**İnformasiya xidmətləri və iqtisadi inkişaf.**

Sivilizasiyanın inkişafının postsənaye, informasiya mərhələsinə daxil olma, ilk növbədə, sənaye cəhətdən inkişaf etmiş ölkələrin makroiqtisadi göstəriciləri ilə təsdiq olunur – ümumi milli məhsulda informasiya sektoru-

nun payı, həmçinin məşğul olanların ümumi sayında informasiya emalı və ötürülməsi ilə məşğul olan işçilərin payı artıb. Belə ki, 1958-ci ildə informasiya istehsalının milli sərvətə töhfəsinin kəmiyyət baxımından qiymətləndirilməsi barədə məsələ ortaya qoyulduğu və bilik istehsal edən otuz sahə seçildiyi zaman ABŞ-ın iqtisadiyyatında informasiya sektorunun həcmi 28,6% kimi qiymətləndirilmişdir. Müasir qiymətləndirmələrə əsasən, bu göstərici artıq 50% təşkil edir [4, s.255 ].

İnformasiya xidmətləri sahəsi (informasiya biznesi) sənaye cəhətdən inkişaf etmiş ölkələrin strukturunda gözə çarpan yer tutur. İnformasiya emalı sahəsində ixtisaslaşan müəssisələrə müxtəlif tədqiqat institutları, elmi-texniki informasiya institutları, konsaltinq firmaları, agentliklər, hesablama mərkəzləri və s. aiddir. İnformasiya kompleksi müəssisələrində istehsal bir sıra xüsusiyyətlərə malikdir. Məsələn, bu sahədə əmək əşyaları kimi ilkin informasiya, əmək vasitələri kimi isə bütün mümkün olan informasiya dəyişmə, saxlama, ötürmə üsulları çıxış edir. Bununla bağlı əməyi, hazır məhsulu və informasiya fəaliyyətinin səmərəliliyini qiymətləndirmə (hazırda hələ tam həll olunmamış) problemləri ortaya çıxır.

Əvvəllər informasiya-hesablama xidmətləri şəxsi ehtiyacları üçün iri hesablama gücünə malik müəssisələr (aviasiya, elektrotexnika müəssisələri) tərəfindən kommersiya əsasları ilə göstərilirdi. Fərdi kompüterlər yayıldıqdan sonra informasiya biznesinin bu seqmenti əvvəlki əhəmiyyətini itirmişdir.

Qeyd etmək lazımdır ki, kompüter meydana gələndən şirkətlər idarəetmə fəaliyyətinin optimallaşdırılması və yaxşılaşdırılması üçün informasiya sistemlərini mühüm və güclü alət kimi tətbiq etməyə başladılar. Şirkətlərdə informasiya sistemlərinin ilk tətbiqi 1960-cı illərdə mühasibat menecmenti sahəsində həyata keçirilmişdir. Mühasibat uçotu hər bir şirkətin onun xarakterindən və aid olduğu sektordan asılı olmayaraq riayət etməli olduğu qanunlarla və qayda ilə müəyyənləşdirilib. Məhz buna görə mühasibat uçotunun idarə edilməsi üçün proqram təminatının layihələndirilməsi və tətbiqi şirkətlərdəki digər sahələrlə müqayisədə daha asandır. Beləliklə, şirkətin idarə olunması üçün ilk informasiya sistemləri (əsasən mühasibat proqram təminatları) yaradılmışdır. Buna görə də, məhz bunun üçün hesabları, ödənişləri, inkasso və s. idarə edə biləcək bir neçə informasiya sistemi işlənib hazırlanmışdır. Şirkətlər üçün proqram təminatı yaradıldıqdan sonra səylər Ehtiyat İdarəetmə Sistemi kimi müxtəlif sistemlər yaratmaqla ehtiyat idarəetmə sahəsində tədqiqatların və yeniliklərin üzərində cəmləşmişdir. Bu sistemlər hər məhsulun anbarda mövcudluğunu izləməyə imkan verir, onun müxtəlif dövrlərdə istifadə dərəcəsini və əlbəttə ki, qiymətini göstərir, bu isə şirkətlər üçün həqiqətən də çox vacibdir. Son onilliyə aid elmi işlərdə göstərildiyi kimi, XX əsrin 60-cı və 70-ci illərində ilk MEP (Material Ehtiyaclarının Planlaşdırılması) sistemləri yaradılmışdır [5, s. 245]. Bu sistemlər İCS təkamülü kimi yaradılır. MEP böyük uğurlar əldə etməyə imkan verir, məsələn, istehsal vaxtının azaldılması, təchizat səmərəliliyinin artırılması. Lakin bu üstünlüklərə nail olmaq üçün həqiqətən də MEP-də yüksək dəqiqlik olmalıdır.

**Nəticə**

Tədqiqatımız göstərdi ki, bu gün informasiya sahəsi kapital qoyuluşu üçün ən səmərəli sahədir. Cəmiyyətin qlobal informasiyalaşdırılması, informasiya texnikası vasitələrinin və yeni informasiya texnologiyalarının sürətli inkişafı, cəmiyyətin müxtəlif informasiya xidmətlərinə tələbatının artması, son onilliklər ərzində milli və qlobal

informasiya-telekommunikasiya sistemlərinin formalaşması iqtisadiyyatın yeni sektorunun – informasiya iqtisadiyyatının yaranmasına gətirib çıxarmışdır.

İnformasiya iqtisadiyyatı bir sıra prinsipial xüsusiyyətlərə malikdir. Ən mühüm olanları isə aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

-İnformasiya istehsalı, informasiya məhsulları və xidmətləri həddindən artıq elmtutumludur. Bu səbəbdən onların keyfiyyəti və daxili və xarici bazarlarda rəqabət qabiliyyəti bu və ya digər ölkənin texnoloji inkişaf səviyyəsindən və ilk növbədə, yeni informasiya texnologiyalarının inkişaf və istifadə səviyyəsindən mühüm dərəcədə asılıdır. Bu isə, öz növbəsində, elm, təhsil, mədəniyyət və istehsalın inkişaf səviyyəsi ilə müəyyən edilir.

-İnformasiya iqtisadiyyatının məhsulları bu gün milli iqtisadiyyatın digər sahələrinin (sənaye, tikinti, nəqliyyat, çıxarma sahələri) sürətli inkişafı üçün mühüm amildir. Onlar həmçinin bu inkişafı daima yeni vasitələrlə stimullaşdıraraq və dəstəkləyərək elm və təhsilin katalizatoru və əsas inkişaf aləti kimi çıxış edir.

-İnformasiya iqtisadiyyatı məhsullarının model və hətta bütöv bir nəsil dəyişiminin yüksək dinamikliyi ilə seçilir və bu hissədə iqtisadiyyatın bütün digər inkişaf sektorlarını qabaqlayır. Bu da istehsalın təşkilinin yüksək mobilliyinin, istehsalı yeni məhsul modellərinin buraxılışına operativ şəkildə sazlama imkanının təmin edilməsi zərurətinin yaranmasına gətirib çıxarır, bu da yalnız ən yeni informasiya texnikasının, layihələndirmənin avtomatlaşdırılmasının, çevik avtomatlaşdırılmış istehsalatların geniş tətbiqi əsasında mümkündür.

**Tədqiqat işinin elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi aşağıdakılarla xarakterizə olunur:

✓ Iqtisadiyyatın informasiya sektorunun inkişafında xüsusi meyllərinin müəyyən edilməsi;

✓ İnformasiya məhsulları təchizatçılarının şəbəkə strukturunun tərtib edilməsi;

✓ Səmərəli fəaliyyət göstərən innovasiya prosesinin təşkilinin əsas əlamətlərinin müəyyən edilməsi və formalaşması.

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** Bu əsasən onunla izah olunur ki, aparılan ümumiləşmələr və konseptual yanaşmalar informasiya xidmətləri iqtisadi inkişafın səmərəliliyinin artmasına dəstək olur və müəsisələrin maliyyə-iqtisadi fəaliyyətini, rəqabət qabiliyyətliliyini, maliyyə dayanaqlılığını möhkəmlətməyə və yüksəltməyə imkan verə bilir. Beləliklə, sahibkarlar bu üsuldan öz müəssisələrinin və ya biznes obyektlərinin maliyyə-iqtisadi vəziyyətini hərtərəfli qiymətləndirmək və proqnozlaşdırmaq üçün istifadə edə bilərlər.

**Tədqiqatın iqtisadi səmərəsi:** İqtisadiyyatın informasiyalaşdırılması informasiyanın ən mühüm əhəmiyyət kəsb edən iqtisadi resursa çevrilməsidir. Bu isə iqtisadi inkişaf, əmək məhsuldarlığının dəfələrlə artması, sosial və iqtisadi problemlərin həll olunması, yeni növ iqtisadi münasibətlərin təşəkkül tapması üçün prinsipial olaraq yeni imkanları təmin edən kompüterləşdirmə və telekommunikasiya əsasında baş verir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev T.N., Babayev L.B. Regional innovasiya sisteminin təşkili və idarəedilməsi, Bakı, "Elm və təhsil", 2013.-272 s.,

2. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili / A. D. Hüseynova; elmi red. F. H. Qasımov. - Bakı : Elm və Təhsil, 2013. - 385 s,

3. Белл Д. Грядущее постиндустриальное общество. Опыт социального прогнозирования [пер. с англ.] / Д. Белл. –

Под ред. В. Л. Иноземцева. – Изд. 2-ое, испр. и доп. – М.: Academia, 2014. – 940 с.

4. Информационная экономика [Текст] : учебник / [Л. Г. Матвеева, А. Ю. Никитаева, О. А. Чернова, Е. В. Маслюкова]; Таганрог : Изд-во Южного федерального университета, 2018. - 355 с

5. Bell, Steve. ERP, CRM, PLM working together // Lean Enterprise Systems. — N. Y.: McGraw-Hill, 2016. — 436 p.

**Айшан Ровшан кызы Валибейли**
Докторант Азербайджанского Университета Кооперации

**Физули Азиз оглы Мамедов д. э. н., проф.**
Азербайджанский Технологический Үниверситет

## Организационно-экономические особенности информационного сектора экономики

### Резюме

***Цель исследования:*** изучение организационно-экономических особенностей информационного сектора экономики и оценка их значимости путем выявления инноваций в этой сфере.

***Метод исследования:*** используются концептуальные подходы к теме исследования, а также аналитические методы оценки роли и значения информационного сектора экономики в экономическом развитии, обобщение и оценка подходов к вопросу с разных точек зрения и позиций.

***Результаты исследования*** являются разработка предложений и рекомендаций по формированию и развитию организационно-экономических особенностей информационного сектора экономики с учетом тенденций развития экономики и современного уровня экономического развития страны.

**Ключевые слова:** информационная сфера, инновационная инфраструктура, бизнес информационных услуг, информационные ресурсы, научно-технические разработки.

**Ayshan Rovshan gizi Valibeyli**
Doctoral student of Azerbaijan Cooperation University

**Fizuli Aziz oglu Mammadov Doctor of Economic Sciences, Professor**
Azerbaijan Technology University

## Organizational and economic features of the information sector of the economy.

### Abstract

***The purpose of the research:*** The purpose of the research is to study the organizational and economic features of the information sector of the economy and to assess their importance by identifying innovations in this area.

***Research method:*** conceptual approaches to the research topic are used, as well as analytical methods to assess the role and importance of the information sector of the economy in economic deve-

lopment, generalization and evaluation of approaches to the issue from different perspectives and positions.

***The results of the study*** are the development of proposals and recommendations for the formation and development of organizational and economic features of the information sector of the economy, taking into account trends in the economy and the current level of economic development in the country.

***Keywords:*** information sector, innovation infrastructure, information services business, information resources, scientific and technical development.

**Daxil olub:** 18.02.2022

**Fariz Rafiq oğlu Salahov**
**AMEA-nın İqtisadiyyat İnstitutunun doktorantı**

# VERGİLƏRİN İQTİSADİ ARTIMA TƏSİRLƏRİNƏ NƏZƏRİ YANAŞMALAR

**Xülasə**
Məqalədə vergilərin iqtisadi artıma təsirlərinə həsr edilən müxtəlif nəzəri yanaşmaların müqayisəli təhlili aparılıb. Müəllif belə nəticəyə gəlir ki, iqtisadi nəzəriyyədə geniş istifadə edilən ekzogen və endogen modellərin vergitutmanın iqtisadi artıma təsirləri ilə bağlı belə fərqli yanaşması heç də bu modellərin etibarlılığına kölgə salmır. Belə tədqiqatlarda istifadə edilən metodologiyaların müqayisəsi ayrı-ayrı iqtisadi fəaliyyət sahələrində, xüsusilə qeyri-neft sənaye sektorunda vergitutma ilə bağlı səmərəli siyasətin qurulmasına mühüm töhvə verə bilər.
**Açar sözlər:** *vegilər, vergi yükü, iqtisadi artım, ekzogen dəyişənlər, endogen dəyişənlər, neoklassik nəzəittə, Solou modeli.*

**UOT:** 336
**JEL:** H24

## Giriş

Dövlətin iqtisadiyyata müdaxiləsinin araşdırılması tarixi iqtisadi nəzəriyyənin, demək olar ki, tarixi ilə üst-üstə düşür. Hələ XVIII əsrdən belə müdaxilənin zəruriliyi və ya zərəri ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Lakin iqtisadi inkişafın trendindən asılı olaraq bu problemin araşdırılması və əldə edilən nəticələr fərqli olub. Məsələn, merkantilistlər müxtəlif metodlarla ixracın təşviqi və idxalın məhdudlaşdırılması tədbirləri formasında dövlətin iqtisadiyyata müdaxiləsini vacib hesab edirdilər. A.Smit və digər klassiklər isə dövlətin iqtisadiyyata müdaxiləsini iqtisadi inkişaf üçün zəzərli hesab edirdilər. Marksistlər isə dövlətin iqtisadi fəaliyyət üzərində total müdaxiləsinin vacibliyini, hətta istehsal vasitələri üzərində xüsusi mülkiyyətin olmamasını əsaslandırırdılar. Dövlətin iqtisadiyyata müdaxiləsi probleminə hər hansı dövrdə qayıdış həmin dövrdə iqtisadiyyatda mövcud problemlərlə bağlı olub. Elə bunun nəticəsidir ki, keçən əsrin 30-cu illərində baş verən iqtisadi böhran dövlətin iqtisadiyyata müdaxiləsinin müzakirəsini bir daha aktuallaşdırdı. C.Keyns dövlətin iqtisadiyyata in müəyyən hədlərdə müdaxiləsin vacibliyini əsaslandırdı. Keyns nəzəriyyəsinin yeni iqtisadi siyasətin formalaşmasında tətbiqi müxtəlif ölkələrdə, xüsusilə, inkişaf etmiş ölkələrdə sürətli inkişafı təmin etsə də XX axırlarında yenidən dövlətin iqtisadiyyata müdaxiləsinin zəzərli olması tendensiyası neoklassiklər tərəfindən möhkəmləndirildi. Lakin 2008-ci il maliyyə böhranı dövlətin iqtisadiyyata müəyyən səviyyədə müdaxiləsinin araşdırılmasını aktuallaşdırdı.

İqtisadiyyata dövlət müdaxiləsi ətrafında aparılan çoxlu sayda tədqiqatların analizi deməyə əsas verir ki, əslində heç bir iqtisadçı dövlətin iqtisadiyyatdan mütləq kənarda dayanmasını israr etmir. Məsələn, heç bir iqtisadçı iddia etmir ki, dövlət vergi yığımı olmadan öz funksiyalarını yerinə yetirə bilər. Hətta dövlətin funksiyalarını mümkün ola bilən münimuma endirmək mümkün olsa belə, müəyyən həddə vergi yığımı tələb olunur. Yaxud heç bir tədqiqatçı iddia etmir ki, pul emissiyası olmadan iqtisadi fəaliyyəti həyata keçirmək

mümkün olar. İqtisadiyyata dövlətin müdaxiləsinin olmamasını iddia edən klassiklər də iqtisadi fəaliyyətdə pulun mövcudluğunu şübhə altına almırdılar. Lakin dövlət tərəfindən pul çap olunursa, dövlət artıq müəyyən həddə iqtisadiyyata müdaxilə etmiş olur. Bütün bunları ümumiləşdirirək deyə bilərik ki, dövlətin iqtisadiyyata müdaxilə "etməsinin" və ya "etməməsinin" müzakirəsi yox, "nə qədər" müdaxilə etməsinin və "hansı formalarda" müdaxilə etməsinin araşdırılması daha aktualdır. Yəni vergilər vasitəsilə müdaxilə, yoxsa, dövlət sahibkarlığı səviyyəsinin artırılması, dövlət satınalmaları, dövlət investisiyaları, qiymətlərin tənzimlənməsi, lisenziyalaşma məhdudiyyətləri və sair formalarda müdaxilə daha səmərəlidir? Oxşar sualları xeyli artırmaq mümkündür.

Dövlətin iqtisadiyyata müdaxiləsinin vergilər vasitəsilə müdaxiləsi öz tarixi etibarı ilə ən qədimdir. Hətta müxtəlif dəyərli metal pul buraxılışından tutmuş kağız pul çapına qədər vergilər dövlətin iqtisadi fəaliyyətə müdaxiləsində mövcud idi. Demək olar ki, bütün ölkələrin tarixdə vergilərin natura formasında tutulmasına dair məlumatlar kifayət qədərdir. Lakin vergilərin növləri və həcmi ölkədən ölkəyə həmişə fərqli olub. Hər bir dövlət özünün vergi siyasətinin mütəmadi olaraq dəyişib. İqtisad elmi formalaşandan sonra da vergilərin növü və həcmi ilə bağlı müzakirələr həmişə ciddi elmi araşdırma predmeti olub. Vergilərin tədqiqat obyekti kimi, həmişə diqqət mərkəzində olması, yuxarıda qeyd etdiyimiz kimi, onun dövlətin əsas gəlir mənbəyi olması ilə bağlıdır. Toplanan vergilər imkan verir ki, dövlət öz funksiyalarını, məsələn, müdafiə funksiyasını yerinə yetirsin, təhsili, səhiyyəni inkişaf etdirsin, yaşlı əhalinin, əmək qabiliyyətini itirmiş insanların yaşamasını təmin etsin və sair.

Vergilərdən toplanan gəlirlərin dövlət xərclərində əsas paya malik olması, ilk baxışda, deməyə əsas verir ki, belə gəlirlər nə qədər çox olarsa, dövlətin öz funksiyalarını yerinə yetirməyə maliyyə imkanları da bir o qədər çox olar. Lakin nəzərə alanda ki, vergi gəlirləri iqtisadi fəaliyyətlə məşğul olan fərdlərdən və ya biznes subyektlərindən daxil olur və subyektlərin sayının artırılmaması şərti ilə belə gəlirlərin artırılması iqtisadi subyektlərin öz mənfəətlərini azaltmış olur. Bu, dolayısı ilə bu sonradan iqtisadiyyatın inkişafına yeni problemlər yarada bilər. Vergilərin belə ikili xarakteri iqtisadi nəzəriyyədə  və empirik tədqiqatlarda geniş tədqiq edilir.

**Ədəbiyyata baxış**

Vergitutma ilə iqtisadi artım arasındakı əlaqələrin ölkələrarası müqayisəli analizini aparan tədqiqatlar, o cümlədən, *Arnold (2011) [1]; Macek (2014) [2]; Stoilova (2017) [3]; Safi və digərləri (2017) [4]; Durusu-Ciftci (2018) [5]* tərəfindən aparılan tədqiqatlar belə nəticəyə gəlməyə imkan verir ki,  gəlir və korporativ vergilər ölkənin iqtisadi inkişafında mühüm instrumentlərdir.

- ***Solou modelində vergilərin iqtisadi artıma təsirləri***

Həm iqtisadi nəzəriyyədə, həm də problemlə bağlı empirik tədqiqatlarda vergilərin makroiqtisadi təsirləri, xüsusilə iqtisadi artıma təsirləri fərqli nəticələr verir. Belə ki, vergilərin iqtisadi artıma təsirlərinin mexanizmi və nəticəsi ekzogen və endogen artım nəzəriyyəsində fərqlidir. Müxtəlif ölkələrin timsalında yerinə yetirilən empirik tədqiqatların nəticələri isə ölkədən ölkəyə dəyişir.

Ekzogen artım nəzəriyyəsinin əsas modeli olan Solou-Svan modelinə əsasən vergilər iqtisadiyyatın tarazlıq səviyyəsinə təsir göstərmir. Uzunmüddətli dövr üçün vergilərin iqtisadi artıma təsirləri

neytraldır. Bu modelə əsasən bir iqtisadi agent (L=1) t zamanında $K_t$ kapitalı ilə $Y_t$ məhsulu istehsal edir

$$Y_t = A * K_t^{\alpha} \quad (1)$$

Burada $0 < \alpha < 1$, (1) bərabərliyinə əsasən kapitalın marjinal verimi (gəlir norması) azalandır və

$$\frac{dY_t}{dK_t} = \alpha * A * K_t^{\alpha-1} = R_t \quad (2)$$

Bərabərdir. Fərz edtsək ki, iqtisadi agent (bu halda biz L=1 hesab etmişik) t müddətində $S_t$ qədər yığım edir və bu yığımı t+1 dövründə kapital həcminə əlavə etmək istəyir. Solou modelinə əsasən

$$S_t = S(R_t - R_t^*) \quad (3)$$

Əgər hər hansı dövrdə $R_t > R_t^*$ olarsa $S_t > 0$ olur. $R_t = R_t^*$ halında isə $S_t = 0$. Yəni kapitalın marjinal veriminin (və ya gəlir nomasının) elə həddi var ki, bu həddə agentin yığımı sıfıra bərabər olur və bu həddə qədər agent yığım edə bilir. Əgər dövlət hər hansı həcmdə (məsələn, $\tau$ dərəcəsində) vergi tətbiq edərsə, onda gəlirin həcmi $\tau * A * K_t^{\alpha}$ qədər azalır. Bu halda gəlirin həcmi

$$Y_t - \tau = (1-\tau)^* A * K_t^{\alpha} \quad (4)$$

Və vergidən sonra kapitalın marjinal verimi

$$R_t^{\tau} = (1-\tau)^* \alpha * A * K_t^{\alpha-1} \quad (5)$$

Vergilərin tətbiq edilməsindən sonra isə yığım marjinal verimin $R_t^{\tau} = R_t^*$ qiymətində dayanır. Beləliklə, vergilərin tətbiq edilməsi həm istehsal funksiyasını, həm də yığım funksiyasını sola doğru sürüşdürür (qrafik 1). Lakin hər iki halda, yəni həm verginin olmadığı, həm də tətbiq edildiyi hallarda marjinal verim $R_t^*$ nöqtəsinə çatanda yığım dayanır.




Qrafik 1. Solou modelində vergilərin iqtisadi artıma təsiri




Qrafik 2. Solou modelində texnoloji dəyişikliklər və vergi

Solou modelində belə fərz edilir ki, texnologiya hər hansı μ dərəcəsində ilbəil dəyişir, yəni

$$A_{t+1} = \mu * A_t \quad (6)$$

Bu şərt daxilində hətta kapital yığımı dəyişməsə də $K_t^{\alpha} = constant$ texnoloji dəyişmələrin hesabına iqtisadi artımı təmin etmək olar. Fərz etsək ki, dövlət $\tau$ dərəcəsində vergi tətbiq edib, onda t-zamanında marjinal verim (5) bərabərliyindəki kimi, yəni

$$R_t^{\tau} = (1-\tau)^* \alpha * A_t * K_t^{\alpha-1}$$

Olacaq. t+1 zamanında isə

$$R_{t+1}^{\tau} = (1-\tau)^* \alpha * A_{t+1} * K_{t+1}^{\alpha-1} = (1-\tau) * \alpha * \mu * A_t * K_{t+1}^{\alpha-1} \quad (7)$$

Olacaq. (6) bərabərliyini və kapital yığımının sabitliyini nəzərə alsaq ki, onda (7) bərabərliyini

$$R_{t+1}^{\tau} = (1-\tau) * \alpha * \mu * A_t * K_t^{\alpha-1} \quad (8)$$

Kimi ifadə edə bilərik. (5) və (8) bərabərliklərinin müqayisəsi deməyə əsas verir ki, texnoloji inkişaf zamanı vergilərin tətbiqi gəlirlər və yığım funksiyasını sola sürüşdürür. Lakin bu halda da kapital yığımının $R_t^*$ həddi var ki, bu həddə yığım dayanır.

Solou modelində iqtisadi artımın əsas determinantı texnoloji inkişafdır və vergilər artıma təsir göstərmir. Lakin istehsal həcminin səviyyəsinə isə vergilərin təsiri var. Beləliklə, Solou modelinə əsasən vergilər istehsal artımı effektinə deyil, istehsal səviyyəsi effektinə malikdir. Solou iqtisadi artım modelinin bu problemlə bağlı ən geniş yayılan model olduğunu nəzərə alsaq, qeyd edə bilərik ki, iqtisadi nəzəriyyə vergilərin iqtisadiyyata təsiri ilə bağlı iki qütblüyü nəzərə almır. Hər hansı iqtisadi göstəricinin mahiyyətindəki ikiqütblük iqtisadi artım və ya rifah halı üçün bu göstəricinin optimal qiymətinin olduğunu bildirir. Çünki bir-birinə zidd iki qütb üçün elə optimal qiymət seçilməlidir ki, bu göstəricinin ikili xarakterindən ən səmərəli şəkildə istifadə edilə bilsin. Vergilərlə bağlı makroiqtisadi modellərin hələ də real iqtisadiyyatı tam əhatə edə bilməməsi bir daha təsdiq edir ki, iqtisadi sistem olduqca mürəkkəbdir və hər hansı model bu mürəkkəb sistemin yalnız məhdud sayda elementlərini əhatə edə bilir. Əlbəttə bu sahədə tədqiqatlar davamlı olaraq aparılır və əldə edilən nəticələr inkişaf etdirilir. Bəzi tədqiqatçıların, məsələn, *Judd (1985) [6], Chamley (1986) [7], Barro (1999) [8], King və Rebelo (1990) [9]* və başqalarının yanaşmasına əsasən, vergilər fərdlərin və biznes subyektlərinin sərəncamlarında olan gəlirləri azaltdığından iqtisadiyyata mənfi təsir edə bilər. *Engen və Skinner (1996) [10]* vergilərin iqtisadi artıma nəinki təsirinin olduğunu iddia edir, həmçinin belə təsirlərin reallaşdığı beş mexanizmi fərqləndirir: 1) investisiyaya meyilin azalması; 2) işçi qüvvəsinin təklifini azaltmaq; 3) artım məhsuldarlığının azalması; 4)kapitalın marjinal məhsuldarlığının azalması; 5) insan kapitalından istifadənin səmərəliliyinin azalması.

Yuxarıda qeyd etdiyimiz kimi, vergilər bəzi dövlət müdaxiləsi formalarında fərqli olaraq, ikili xarakterə malikdir. Onun artması dövlətin öz funksiyalarını yerinə yetirmək üçün zəruri olan maliyyənin əldə edilməsinə imkan verir. Digər tərəfdən isə, vergilərin artması fərqlərin və biznesin gəlirlərini azaldır və digər mənfi təsirlər yaradır. Bəzi tədqiqatçılar belə hesab edir ki, vergilərin müsbət təsirləri, o cümlədən, vergi gəlirlərindən dövlətin infrastruktur layihələrini reallaşdırması, təhsil və səhiyyənin inkişafı üçün belə gəlirlərdən istifadənin genişlənməsi və sair məsələlər də dolayısı ilə iqtisadiyyatda pozitiv təsir yaradır. Məsələn, dövlətin reallaşdırdığı infrastruktur layihələri, həmçinin dövlət büdcəsi vasitəsilə gəlirlərin yenidən bölgüsü ilə investisiya imkanlarının artması da biznesin inkişafına pozitiv təsir edə bilər.

Endogen artım nəzəriyyəsinin əsas modellərindən biri hesab edilən Romer modelinə əsasən isə uzunmüddətli dövrdə vergilər iqtisadi artıma təsir edə bilər. *Romer və Romer (2010) [11]* belə iddia edirlər ki, vergilər 1) iqtisadi artımın davamlılığını və iqtisadiyyatın qlobal rəqabətliliyini gücləndirir; 2)fiskal sabitliyi təmin edir və sosial, həmçinin fiziki infrastruktur üçün vacib olan maliyyənin toplanmasına imkan verir; 3) uzunmüddətli dövr üçün yardımlardan asılılığı azaldır; 4) hökumətin hesabatlılığını gücləndirərək yaxşı idarəetmənin yaranmasına stimul verir.

Vergitutmanın iqtisadi artıma və məhsul istehsalı həcminə təsirlərinin nəzəri məsələləri *Myles (2000) [12]* tərəfindən də tədqiq edilib. Bu tədqiqatda əsas nəticə

ondan ibarətdir ki, vergitutma iqtisadi artıma təsir etmir. Endogen artım nəzəriyyəsinə əsasən vergitutmanın iqtisadi artıma təsirləri *Barro (1990) [13], King və Rebello (1990) [14]*, həmçinin *Jones və digərləri (1993) [15]* tərəfindən də tədqiq edilib. Bu tədqiqatların da nəticələri ondan ibarətdir ki, vergitutma əsasən ev təsərrüfatlarının yığım səviyyəsinə və insan kapitalına investisiyalara təsir edir və bu mexanizmlərlə məhsul istehsalına təsir edir. Johansson və digərlərinin (2008) *[16]* tədqiqatları göstərir ki, vergitutma biznes strukturlarının investisiya və innovasiya ilə bağlı qərarlarına ciddi təsir göstərir. Ölkələr arasında vergitutma siyasətləri ndəki fərqliliklər bu ölkələrə aid olan firmalarda fiziki və insan kapitalına qoyulan investisiyalar arasındakı fərqlərə müəyyən qədər təsir edir.

Müxtəlif ölkələrin timsalında vergilərin iqtisadi artıma təsirlərinə həsr edilən çoxlu sayda empirik tədqiqatların müqayisəli analizi də təsdiq edir ki, bu göstəricilər arasındakı əlaqənin xarakteri ölkədən ölkəyə dəyişir. Bəzi ölkələrdə vergilərin artmasının iqtisadi artıma pozitiv, bəzi ölkələrdə neqativ təsir etməsi, həmçinin eyni ölkədə vergilərin müəyyən həddən sonra iqtisadi artıma təsirlərinin müxtəlifliyi hər ölkə üçün optimal vergihəddinin mümkünlüyü qənaətinə gətirir. Hətta vergilərin müxtəlif iqtisadi sektorlarda məhsul istehsalı səviyyəsinə və bu sektorda yaranan əlavə dəyərin artım tempinə təsirləri də müxtəlif ola bilər.

- *Vergitutmanın iqtisadi artıma təsirləri endogen artım modellərində*

Solou modeli iqtisadi artımın əsasında texnoloji amili mühüm hesab edir. Bu modeldə texnoloji cəhətdən ölkələrin inkişaf fərqlərinin izah edilməsi kölgədə qalır.

Son dövrlərdə diqqəti cəlb edən yeni artım modelləri inkişaf etməkdədir. Bunların əksəriyyətini endogen artın nəzəriyyəsi qrupunda təsnifləşdirmək olar. Endogen artım modellərinin Solou modelindən əsas fərqi həm də ondadır ki, bu modeldə istehsal funksiyası

$$Y=A*K \qquad (9)$$

kimi ifadə edilir. Bu modeldə kapitalın marjinal verimi (gəlir norması) azalan deyil. Kapital yığımının dəyişməsi

Известно, что система учета постоянно меняется и совершенствуется в соответствии с практическими требованиями прикладной среды. Однако глобализация экономики является и светской чертой деловых отношений. В основном это связано с глобализацией финансовой информации в крупных компаниях. Финансовая информация, содержащая эту информацию, также должна быть изменена и приведена в соответствие с принятыми мировыми стандартами.

Область кассового учета требует от бухгалтера не только знаний, внимательности, аккуратности, но и врожденных черт характера - внимательности и педантичности.

**Ключевые слова:** денежные средства, регулирование, коммерческие, обязательства, бухгалтерский учет.

**Khatira Vali gizi Gurbanova PhD.**
**Huseyn Hasan oglu Jafarov Master**
**Bahram Galib oglu Gluzade Master**
**Vali Tofig oglu Humbatov Master**

## Normative regulation of cash accounting in enterprises

**Summary**

The entry of the Republic of Azerbaijan into the world market is an ambiguous and complex process. In today's world of economic relations between enterprises, the lack of trust between partners often dramatically increases the need for reliable information.

It is known that the accounting system is constantly changing and improving in accordance with the practical requirements of the application environment. However, the globalization of the economy is also a secular feature of business relations. This is mainly due to the globalization of financial information in large companies. Financial information containing this information should also be modified and brought into line with accepted world standards.

The field of cash accounting requires from the accountant not only knowledge, attentiveness, accuracy, but also innate character traits - attentiveness and pedantry.

**Keywords:** cash, regulation, commercial, liabilities, accounting.

**Daxil olub:** 17.02.2022

**Nihad İlham oğlu Tağızadə**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Beynəlxalq Magistratura və Doktorantura mərkəzinin Magistrantı
E-mail: nihadtagizad@gmail.com
Elmı rəhbər: **Niyazi Əlikram oğlu Həsənov**

# QARABAĞIN İŞĞALDAN AZAD OLAN RAYONLARINDA BİZNES STRATEGİYASININ SƏMƏRƏLİ QİYMƏTLƏNDİRİLMƏSİ MEYARLARI

**Xülasə**
Məqalədə, Qarabağın işğaldan azad olunan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarları, ərazidə fəaliyyət göstərəcək təşkilatlar tərəfindən hazırlanacaq strategiyaların müvafiq tələblər əsasında seçilməsi və həyata keçirilməsi məsələləri təhlil edilmişdir.
**Açar sözlər:** Strategiyanın qiymətləndirilməsi, Biznes strategiyası, Demoqrafik struktur, Strateji ittifaqlar.

**UOT:** 33
**JEL:** R22

## Giriş

İdarəetmə aparatının əsas vəzifəsi onun fəaliyyət göstəricilərini yaxşılaşdırmaq üçün idarə olunan obyektə fəal təsir göstərməsidir. Sistemin məqsədindən və onun fəaliyyət şəraitindən asılı olaraq müxtəlif göstəricilər səmərəlilik meyarı kimi çıxış edə bilər.

Bu məqamda fəaliyyətin qiymətləndirilməsi meyarları, əsasən bütün iqtisadi ədəbiyyatlarda qeyd edildiyi kimi, menecerin effektivliyi onun idarəetmə fəaliyyətinin nəticələri və ilk növbədə, konkret idarəetmə şəraitində qarşıya qoyulmuş strateji məqsədlərə nail olunması ilə xarakterizə olunur. Müəyyən bir idarəetmə vəziyyətində menecerin fəaliyyətinin nəticəsi belə meyarlara görə qiymətləndirilir [1. s. 436].

Qarabağın işğaldan azad olan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarları əsasən, idarəetmənin nəticəsinə əsaslanan bir təcrübə olduğu üçün maraqlı sual yaranır ki, hər bir strategiya işğaldan azad olunmuş ərazilərdə uğurun əldə edilməsinə necə təsir edə bilər? Məhz bu baxımdan mövcud sual günün əsas tələbi hesab edilə bilər.

Qarabağın işğaldan azad olunan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarlarına əsasən, ərazidə fəaliyyət göstərəcək təşkilatların rəhbərlərinin strategiyanın hazırlanmasında, seçilməsində və həyata keçirilməsində birbaşa iştirak etmələləri və məsuliyyət daşımaları daxildir. Məhz strategiya yeni məhsulların aqibətini, yeni bazarlara çıxışın taleyini müəyyən edir, digər təşkilatlarla birləşmə və ya onların biznes fəaliyyətinin mənimsənilməsi yollarını müəyyənləşdirir, qanunla qadağan olmayan, strateji ittifaqlar yaradır və digər istiqamətlərdə fəliyyət göstərir.

## Qarabağın işğaldan azad olan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi

Qarabağın azad olunan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi əsasən orada fəaliyyət göstərəcək təşkilatların uğuruna təsir edən strategiya-

nın səmərəliliyi aşağıdakı amillərlə müəyyən edilməlidir:

- xarici mühitə uyğunluq;
- zamanın təsiri;
- xarici və daxili fəaliyyətə diqqət yetirmək;
- sürət və qətiyyətli hərəkət.

Qarabağın işğaldan azad olunan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi əsasən müvəffəqiyyətli hesab edilən firma və ya şirkətlər, təşkilatlar tərəfindən istehsal edilən məhsulun, istehlakçılar tərəfindən verilən müvafiq fikrə əsaslanaraq, ehtiyacları ən səmərəli şəkildə ödəyən, yəni təklifi rəqabət üstünlüyü olan firma və ya şirkətlərə vermək daha çox məntiqə uyğundur. Öz növbəsində bazarın tələbatı xarici mühitlə və əhalinin demoqrafik strukturunda dəyişikliklərlə, iqtisadi rifah səviyyəsi ilə, texnologiya, siyasət, eləcə də mədəniyyət və dəyərlərdəki dəyişikliklərin formalaşması ilə bağlıdır.

Uğurdan daha tez dəyişən müvafiq bir amil yoxdur. Biznes də təbiət kimi darvinizm qanunlarına görə inkişaf edir. “Təşkilati darvinizm” anlayışına görə, ətraf mühit yalnız xarici amillərdəki dəyişikliklərə ən yaxşı şəkildə uyğunlaşa bilən firma və ya şirkətlərin sağ qalmasını müəyyən edir. Müvafiq olaraq, müvəffəqiyyət firma və ya şirkətin bazara uyğunlaşma qabiliyyəti ilə və onun rəhbərliyinin ətraf mühitdəki dəyişikliklərə adekvat strategiya hazırlamaq bacarığı ilə müəyyən edilir [2. S. 332].

Səmərəlilik və mənfəət hər hansı bir strategiyanın əsaslandığı iki anlayış ilə bağlıdır. Uğurlu olmalı və uzunmüddətli perspektivdə məqsədlərinə çatmaq üçün firma və ya şirkət həm səmərəli, həm də təsirli olmalıdır [3. S. 193].

Qarabağın işğaldan azad olunan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarlarını müəyyən etmək üçün, səmərəlilik (məhsuldarlıq) kriteriyası firma və ya şirkətin iqtisadi fəaliyyətinin xarici göstəricisidir ki, bu da idarəetmə sahəsində məşhur amerikalı mütəxəssis P. Drukerin obrazlı ifadəsində “lazımi, zəruri işlərin görülməsinin nəticəsidir". Təşkilatın fəaliyyət göstərməsi onun yaşaması və uğur qazanması üçün vacibdir.

Müvəffəqiyyətli şirkətlər ətraf mühitdə bəzi vacib ehtiyacların ödənilməsinə diqqət yetirirlər və əlbəttə bu məsələ işğaldan azad olunan rayonlarda biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarlarını müəyyən etmək üçün vacib amil hesab edilir. Çünki, nəzərdən keçirilən göstəricinin mahiyyəti, istehlakçıların tələbatının öyrənilməsi, müvafiq tələbatlarda ola bilən dəyişikliklərə reaksiya vermək qabiliyyətinin olması, habelə istehlakçıların ehtiyaclarını ödəmək üçün yeni mənbələr və vasitələrin axtarışı ilə əlaqəli innovasiyalar burada mühüm əhəmiyyət kəsb edir. Unutmaq olmaz ki, performansı ölçü kimi və əsasən kəmiyyətcə qiymətləndirmək çox çətindir, xüsusən də firma, şirkət və ya təşkilat daxili göstəricilərinə əsasən səmərəsizdirsə.

Səmərəlilik (daxili məhsuldarlıq) firmanın, şirkətin və ya dövlət təşkilatının təsərrüfat fəaliyyətinin daxili göstəricisidir ki, bu da “lazımlı və zəruri şeylərin düzgün yaradılmasının” nəticəsidir. Bu göstərici fəaliyyətin nəticələrini (istehsalın həcmi, mənfəət və s.) məsrəflərlə (işçi qüvvəsi və ya aktivlər) əlaqələndirir. Buna görə də, işğaldan azad olunan rayonlarda biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarlarının faydalılığını ölçmək, ehtiyac olduqda modernləşdirmək lazımdır və prosesi bu mərhələdə etmək daha asandır [4. S. 346].

Təşkilatın uğurunun iki komponenti – nəticələrin qoyulan məqsədlərə uyğun və

səmərəli olması, firmanın, şirkətin və ya dövlət təşkilatının müvafiq strategiyasının səmərəli olub-olmamasını qiymətləndirmək üçün zəruri meyarlardan biri kimi "ümumi fəaliyyət" anlayışını mahiyyətcə müəyyən etmək vacibdir. . Qlobal dünyada bu konsepsiyanın mahiyyətini açmaq üçün ümumi şərti düsturdan istifadə etmək lazımdır:

$$ÜP = Bi \times Di$$

Burada:

ÜP - ümumi performans səviyyəsi;

Bi - bazar imkanlarından istifadə dərəcəsini müəyyən edən fəaliyyət səviyyəsi;

Di - daxili imkanlardan istifadə dərəcəsini təyin edən səmərəlilik səviyyəsidir.

Bu günün dinamik bazarlarında mövcud olan şiddətli rəqabət mühiti sürətli və qətiyyətli strategiyaların hazırlanması uğrunda mövcud olan mühüm amillərin və meyllərin öyrənilməsini tələb edir. Bu baxımdan biz zamanın rəqabətdə əsas silaha çevrildiyinin şahidi oluruq.

Ən qısa müddətdə malların dizaynını, istehsalını və paylamasını bilən, istehlakçı tələblərinə anında cavab verən firma və ya şirkətlər, özlərinə nisbətdə "ləng" hərəkət edən rəqiblərindən daha böyük bazar payına sahib ola bilir və bu baxımdan, orta hesabla böyük gəlirlər əldə etməyi bacarırlar. . Sürətli hərəkət etmək uğur üçün zəruri olsa da, qənaətbəxşedici şərt deyil. Strateji vəzifələrin icrası üçün ehtiyatların səmərəli cəlb edilməsi qətiyyət tələb edir və bu mühüm addımdır.

Unutmaq olmaz ki, firma və ya şirkətin uğur qazanması yaxşı düşünülmüş strategiyadan və onun həyata keçirilmə prosesini yüksək keyfiyyətlə icra etməkdən çox asılıdır. Bu məqamda bir önəmli məsələni də unutmaq olmaz ki, təkcə işlənmiş strategiya uğura zəmanət vermir [5. S. 449].

Mükəmməl mühərrik konstruksiyası olan bir təyyarə keyfiyyətsiz yanacaqla doldurulduqda uça bilmədiyi kimi, inkişaf strategiyasını hazırlayan firma və ya şirkət də müvafiq tədbirlər həyata keçirməsə digər idarəetmə funksiyalarında (təşkilatı, motivasiya, nəzarət və s.) səhvlər və ya səmərəsizliyə görə uğursuzluğa düçar ola bilər. Yaxşı strategiya, onun səmərəli fəaliyyət vasitəsi ilə icra edilən, məharətlə həyata keçirilməsi nəzərdə tutulan, üfüqdə qoyulmuş nəticələrə nail olmaq üçün çox lazımlı hesab edilir.

Güclü strategiya hazırlana bilər, lakin həyata keçirilə bilməz və ya orta səviyyəli strategiya uğurla həyata keçirilə bilər. Hər iki hal firma və ya şirkətin bütün mövcud imkanlardan istifadə etmədiyinə bir işarədir.

Qarabağın işğaldan azad olunan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarlarının strateji səmərəlilik baxımından firma və ya şirkətlərdə yüksək performansa nail olması vacib məsələdir. Bu anlayışlar müxtəlif üsullarla həyata keçirildiyi üçün onları ayırd etməyi bacarmaq lazımdır.

Bu ərazilərdə aparılacaq əməliyyatların səmərəliliyi oxşar fəaliyyətləri rəqiblərdən daha yaxşı yerinə yetirməklə bağlıdır. İndiki vəziyyətdə firma və ya şirkətlər üçün bazarda lider mövqe tutmaq getdikcə çətinləşir. Ən yüksək gəlirliliyə nail olmaq üçün bazarda fəaliyyətin səmərəliliyini daim təkmilləşdirmək belə kifayət deyil [6. S. 130].

Strateji mövqeləşdirmə rəqiblərdən fərqli fəaliyyətlərin həyata keçirilməsi və ya oxşar fəaliyyətlərin həyata keçirilməsidir, lakin burada müxtəlif yollardan istifadə edilməlidir. Səmərəli fəaliyyəti təmin etməklə ən yaxşı nəticələrə nail olmaq üçün menecerlər strategiyasının məqsədəuyğun

qiymətləndirilməsi meyarlarını müəyyən etməli və keyfiyyətli idarə etmə proqramlarından müsbət istifadə etməklə səmərəliliyi artırmalıdırlar. Əsas rəqiblərlə performansın müqayisəsini aparmaqla, idarəetmədə ən son müasir texnologiyaları və yanaşmaları tətbiq etməklə, fəaliyyət göstərəcək firma və ya şirkətlər təşkilatı formanı inkişaf etdirməlidirlər.

Səmərəli olan potensial strategiyanın aşağıdakı əsas xüsusiyyətlərini vurğulamaq bu məqamda yerinə düşər:

- seçilmiş strategiyanın məntiqi əsasdan düzgün olması və bura səmərəli strategiyanın qütblərini bilmək və anlamaq bacarığı daxildir;
- situasiya nəzərə alınmaqla, yanaşma nöqteyi-nəzərindən səmərəli strategiya həmişə müəyyən bir konkret vəziyyətin xüsusiyyətlərini müəyyən etməklə firma və ya şirkətin gələcək strateji uğurunun əsas amillərinə inteqrasiya edir;
- strategiyanın unikallığı isə müvafiq biznesin uğurlu olması üçün təşkilatın taktikası onu əsas rəqiblərdən fərqləndirəcək güclü məzmuna malik olan müvafiq amillərə sahib olması mühüm məsələ hesab edilir;
- strateji fürsət kimi gələcəkdə qeyri-müəyyənlik baxımından firma və ya şirkətin xarici mühiti daha sürətli və gözlənilməz şəkildə dəyişir və bu baxımdan, üstəlik, hər bir dəyişiklik gələcək uğura nail olmaq üçün həm təhlükələr, həm də yeni əlavə imkanları özündə daşıyır;
- çevik adekvatlıq göstərməklə, xarici mühitin verdiyi imkanları həyata keçirməsi üçün onun öz strateji dəyişikliklərinin xarici dəyişikliklərə adekvat olmasını unutmaq olmaz.

**Azad edilmiş ərazilərdə strateji cəhətdən səmərəli fəaliyyət göstərən firma və ya şirkətlərin uğuruna təsir edən amillər**

Unutmaq olmaz ki, Qarabağın işğaldan azad olunan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarlarının öyrənilməsində uğura aparan yol parlaq şəkildə həyata keçirilən strategiyalarla sıx bağlıdır. Strateji istiqamətdə fəaliyyət göstərən firma və ya şirkətlərin uğuruna təsir edən amillər müasir mərhələdə əsaslı təhlil tələb edir.

Bazarda məhsulun inkişafı modeli eyni vaxtda bir neçə strategiyadan istifadə etməyə imkan verir. Bu, güclü satış artımı üçün ən uyğun strategiyanın mövcud və ya yeni bazarlarda mövcud və ya yeni məhsulların satılması qərarı ilə müəyyən edilə bilər [7. S. 519].

Bu baxımdan menecerlərə bir strategiya haqqında qərar verməkdə kömək etmək üçün hazırlanmış bir çərçivə mövcud olmalıdır və eyni zamanda bu çərçivə diaqnostika vasitəsi kimi xidmət etməlidir. Matrisi böyüyən bazarda bir firma və ya şirkətin mümkün strategiyalarını təsvir etmək üçün nəzərdə tutulmalıdır.

Aşağıda strategiya seçmək üçün tövsiyələr bunlardan ibarətdir:

1. Fəaliyyətin yaxşılaşdırılması strategiyası (yəni bazara daxil olmaq). Bu strategiyanı seçərkən firma və ya şirkətə mövcud bazarlarda mövcud mallar üçün marketinq tədbirlərinə diqqət yetirmək tövsiyə olunur və bunlarda:

a) firma və ya şirkətin hədəf bazarını öyrənmək;

b) məhsulların təşviqi və mövcud bazarda fəaliyyətin səmərəliliyini artırmaq üçün tədbirlər hazırlamaq.

2. Əmtəənin Genişlənməsi (Məhsulların İnkişafı). Bu satışları artırmaq üçün yeni məhsulların hazırlanması və ya mövcud məhsulların təkmilləşdirilməsi strategi-

yasıdır. Firma və ya şirkət bazar boşluqlarını tapmaq və doldurmaqla artıq məlum olan bazarda belə bir strategiya həyata keçirə bilər. Unutmaq olmaz ki, bu halda gəlir gələcəkdə bazar payını saxlamaqla təmin edilə bilər. Firma və ya şirkətlər tanış bazarlarda fəaliyyət göstərdiyi üçün bu strategiya riski minimuma endirmək baxımından ən üstün hesab edilir.

3. Bazarın inkişafı strategiyası. Bu strategiya artıq mənimsənilmiş mallar üçün yeni bazar və ya yeni bazar seqmentinin tapılmasına yönəldilməlidir. Bu məqamda və bu əsaslarla gəlir coğrafi bölgə daxilində və xaricində satış bazarını genişləndirməklə əldə edilir. Belə bir strategiya əhəmiyyətli xərclərlə əlaqələndirilir və hər ikisi əvvəlkindən daha risklidir, lakin daha sərfəlidir. Bununla belə, yeni coğrafi bazarlara birbaşa daxil olmaq çətindir, çünki onlar başqa şirkətlər tərəfindən artıq zəbt edilib.

4. Şaxələndirmə strategiyası. Bu strategiya yeni bazarların inkişafı ilə eyni vaxtda yeni məhsul növlərinin hazırlanmasını nəzərdə tutur. Unutmaq olmaz ki, bu halda, əmtəənin hədəfi bazarda fəaliyyət göstərən bütün firma və ya şirkətlər üçün yalnız müəyyən təsərrüfat subyekti kimi yeni ola bilər. Belə bir strategiya uzaq gələcəkdə firma və ya şirkətin mənfəətini, inkişafını və sabitliyini təmin edir, lakin bu, ən riskli və bahalı strategiya hesab edilir.

Müvafiq matris ilə planlaşdırmadan istifadənin üstünlükləri aydınlıq üçün çox lazımdır və istifadəni asan edir. Tərtib edilmiş hər hansı matrisə uyğun olaraq planlaşdırmadan istifadənin çatışmazlıqları iki xüsusiyyət (məhsul - bazar) kontekstində böyüyə bilər bunlar isə, birtərəfli istiqamətləndirmə və məhdudiyyətlərdir [8. S. 206].

Əslində biznes sahəsini üç ölçüdə müəyyən etmək məntiqə daha çox uyğundur və aşağıdakı şəkildə təklif edilə bilər:

- xidmət göstərilən alıcı qrupları;
- alıcıların ehtiyacları;
- məhsulun hazırlanması və istehsalında istifadə olunan texnologiyalar.

Ümumi məhsuldarlığın iki komponentinin nisbəti matrisdə aydın şəkildə əks olunmuşdur və bunlar Qarabağın işğaldan azad olaunan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarlarını müəyyən edərkən istifadə oluna bilər. Aşağıda tərtib etdiyimiz matrisdə bu məsələ aydın şəkildə öz əksini tapmışdır (Matris-1).

İşğaldan azad olunan rayonlarda biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarlarını müəyyən etmək üçün əsasən, bazarda açıq şəkildə tələb olunmayan məhsulların istehsalı, xidmətlərin göstərilməsi və müvafiq olaraq bu istehsalın və səmərəliliyin səviyyəsini artırmaq üçün hər hansı lazımsız səylər mənasızdır. Digər tərəfdən, tələb olunan malların aşağı səmərəliliyi ilə istehsalı (yüksək xərclər, yüksək qiymətlər) rəqabət qabiliyyətinin aşağı düşməsinə və nəticədə bazar payının həmin firma və ya şirkət üçün azalmasına gətirib çıxara bilər.

Unutmaq olmaz ki, mədəniyyət sektorunda sərfəlilik meyarları mühüm əhəmiyyət kəsb edir və bu gün bu məsələ çox aktualdır. XX əsrin son üçdə birində baş verən mədəniyyətin instrumental rolunun tədricən artması ilə bir şəhər, rayon, ölkə səviyyəsində mədəniyyətin iqtisadi səmərəliliyinin qiymətləndirilməsində yanaşma və meyarların dairəsi genişlənməkdədir [9. S. 132].

Hesablamalar göstərir ki, mədəniyyət sahəsində təşkilatların kompleks ölçmə sxemlərinə xərclər getdikcə artmaqdadır. Bu isə mədəniyyət və incəsənət sahəsində idarəetməni daha aktual edir. Bu istiqamətdə tanınmış alimlərin fikirlərinə istinad etsək görərik ki, səmərəli strategiyanın ha-

zırlanması artıq günün ən aktual problemlərindən biri hesab edilir.

**Ümumi performans matrisi**

**(Matrisa-1)**

| XARİCİ MƏHSULDARLIQ | | |
|---|---|---|
| Müsbət nəticəli | Lazımı əmtəələrin düzgün istehsalı | Lazımı əmtəələrin düzgün olmayan istehsalı |
| Mənfi nəticəli | Lazımı əmtəələrin düzgün istehsalı | Lazımı əmtəələrin düzgün olmayan istehsalı |
| | Səmərəli | Qeyri səmərəli |

**DAXİLİ MƏHSULDARLIQ**

Bir növ portfel istiqamətində tərtib edilmiş matrislər, böyüyən bazarda müvafiq olaraq bir firma və ya şirkətin ən səmərəli mümkün strategiyalarını təsvir etmək üçün, strateji idarəetmə mütəxəssisləri tərəfindən hazırlanmış matrislər ola bilər. Hesab edirik ki, böyümə istiqamətlərini seçərkən bir firma və ya şirkət üçün bu məsələlər mühüm əhəmiyyət kəsb edir.

Təklif edilən matrisi qiymətləndirmək üçün ilk vacib meyar texnologiya və marketinqdə sinergik səmərədən istifadə etməklə nəzərdən keçirilən sənayenin, kənd təsərrüfatının, firmanın və ya şirkətin ümumi istiqamətinə uyğunluğunun nəzərə alınmasıdır. Digər seçim meyarları sənayenin cəlbediciliyi və biznesin rəqabətdə gücüdür [10. S. 533].

Qarabağın işğaldan azad olunan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarlarının müəyyən edilməsində bençmarkinqdən istifadə etməklə təşkilatın ölçüsündən, biznes sahəsindən və coğrafi mövqeyindən asılı olmayaraq ən yaxşı nümunələri tapmaq, qiymətləndirmək və onlardan öyrənməyə yönəlmiş sistemli fəaliyyətdən də istifadə etmək olar [11. S. 9].

Bençmarkinqin məqsədi tədqiqat əsasında sahibkarlıq uğurunun ehtimalını etibarlı şəkildə müəyyən etməkdir. Bençmarkinqin tətbiqi logistika, marketinq, kadrların idarə edilməsi, maliyyə menecmentində geniş yayılmışdır, yəni müəssisəyə münasibətdə müqayisə onun fəaliyyətinin demək olar ki, bütün sahələrini əhatə edir. Bu mənada, müqayisə başqalarının bizdən daha yaxşı nə etdiyini kəşf etmək sənəti olaraq qalır. Hal-hazırda, bir çox fərqli müqayisə növləri var, bunlar arasında aşağıdakılar ən çox istifadə olunanlardır:

- proses bençmarkinqi - oxşar proseslərdə xüsusiyyətləri mükəmməl olan müəssisələrlə müqayisə etmək üçün müəyyən göstəricilərin və funksionallığın dəyişdirilməsi üzrə fəaliyyətlər;
- performans müqayisəsi - məhsul və xidmətlərin qiymətləndirilməsi vasitəsi ilə rəqib firmaların rəqabətli mövqelərini müqayisə edir;
- strateji müqayisə - bazarda mövcud olan rəqabət proseslərinin öyrənilməsinə

yönəlir və müxtəlif sənaye sahələrində fəaliyyət göstərən biznes firmaları və ya şirkətləri adətən təhlil edilir.

Bununla belə, praktikada həyata keçirilmə üsullarını nəzərə alaraq tətbiq edirlər və bu kimi müqayisə növləri tətbiq edilir:

- ➢ daxili müqayisə - biznes proseslərində oxşar olan istehsal bölmələrinin xüsusiyyətlərini müqayisə etməklə təşkilat daxilində aparılan müqayisə;
- ➢ rəqabət qabiliyyətinin müqayisəsi - müəssisənin xüsusiyyətlərinin ölçülməsi və onların müqayisəsi.

**Nəticə**

Qarabağın işğaldan azad olunan rayonlarında biznes strategiyasının səmərəli qiymətləndirilməsi meyarlarını müəyyən etmək üçün yazdığımız bu məqalədə apardığımız təhlillərin ümumi **nəticəsini** aşağıdakı kimi ümumiləşdirmək olar:

- ➢ firma və ya şirkətlərin mümkün olan ən yüksək nəticələrə nail olması üçün bazar imkanlarını tam şəkildə həyata keçirmək lazımdır;
- ➢ daxili səmərəliliyin ən yüksək səviyyəsini təmin etmək lazımdır;
- ➢ hər iki göstəriciyə diqqət yetirməklə müvafiq əhəmiyyətli idarəetməyə strateji yanaşma nöqteyi-nəzərindən firma və ya şirkət ilk növbədə strateji baxımdan müsbət nəticəli olmalı və yalnız bundan sonra səmərəli olması əsas kimi götürülməlidir.
- ➢ müvafiq uyğun strategiyalar seçmək üçün elmi tövsiyələrə əsaslanmaq lazımdır;
- ➢ fəaliyyətin yaxşılaşdırılması strategiyasından istifadə etməklə firma və ya şirkətlərin mövcud bazarlarda mövcud mallar üçün marketinq tədbirlərinə daha yaxşı diqqət yetirmək mühüm məsələdir;
- ➢ firma və ya şirkətlər tərəfindən müvafiq işlərə başlamamışdan öncə hədəf bazarını dərindən öyrənmək lazımdır;
- ➢ məhsulların təşviqi və mövcud bazarda fəaliyyətin səmərəliliyini artırmaq üçün öncədən lazımlı tədbirlər planı hazırlamaq lazımdır;
- ➢ əmtəənin genişlənməsi üçün yeni məhsulların hazırlanması və ya mövcud məhsulların təkmilləşdirilməsi lazımdır;
- ➢ firma və ya şirkətlərin müvafiq bazarda fəaliyyət göstərən münasib strategiyalarda riskini minimuma endirmək lazımdır;
- ➢ bazarın inkişafı strategiyasını təmin etməklə yeni bazar və ya yeni bazar seqmentinin tapılmasına yönəldilməli olan tədbirləri həyata keçirmək lazımdır;
- ➢ coğrafi bölgə daxilində və xaricində satış bazarını genişləndirmək, müvafiq strategiyaya xərclər cəlb etməklə fəaliyyəti əlaqələndirmək və sərfəli mühiti işğaldan azad edilmiş ərazilərdə təmin etmək lazımdır;
- ➢ yeni coğrafi bazarlara birbaşa daxil olmaq problemini həll etmək lazımdır;
- ➢ şaxələndirmə strategiyasından istifadə etməklə yeni məhsul növlərinin hazırlanmasını təmin etmək lazımdır;
- ➢ gələcəkdə firma və ya şirkətlərin mənfəətini, inkişafını və sabitliyini təmin etməklə yeni və daha mütərəqqi strategiyalar tətbiq etmək lazımdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Həsənov N.Ə. Biznesin strateji idarə edilməsi. Dərslik. Bakı. 2019. S. 436.
2. Azərbaycanın xarici iqtisadi əlaqələri: nailiyyətlər və perspektivlər (A.K.Ələsgərovanın ümumi redaktəsi ilə). Bakı, «Avropa» nəşriyyatı, 2015. S. 332.
3. Gənciyev G.Ə. və başqaları. Transmilli korporasiyalar. Bakı, «Elm», 2017. S. 193.
4. Əliyev T.N., Babayev M.T. Sahənin aktual iqtisadi problemləri (neft emalı və

neft-kimya). Dərs vəsaiti. Bakı, «Elm və təhsil», 2011 S. 346.

5. Kərimov X.Z. Strateji menecment. Bakı, «Təhsil» NPM, 2013. S. 449 s.

6. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Dərslik. Bakı, «Təhsil EİM», 2011.S. 130.

7. Ансофф И. Стратегическое управление: пер с англ/Научн ред.Л.И. Евенко.-М:, Экономика, 2013. С. 519.

8. Акмаева Р.И. Стратегическая планирование и стратегический менеджмент. Учебное пособие. М.: Финансы и статистика, 2013. С. 206.

9. И.Н.Маврина. Стратегический менеджмент. Учебное пособие. Екатеринбург: УрФУ, 2014. С. 132. (Высшие образование).

10. Bülent Kobu. “Üretim Yönetimi”. İstanbul, 2016. – 533 c.

11. http://senaye.gov.az/

**Nihad Ilham oglu Tagizade**
Azerbaijan State University of Economics (UNEC)
International Master's and Doctoral Center Master
E-mail: nihadtagizad@gmail.com

**Effective evaluation criteria of business strategy in the liberated regions of Karabakh**

Abstract
The article analyzes the criteria for effective assessment of business strategy in the liberated regions of Karabakh, the selection and implementation of strategies to be developed by organizations operating in the area on the basis of relevant requirements.
**Keywords:** Strategy evaluation, Business strategy, Demographic structure, Strategic alliances.

**Нихад Ильхам оглы Тагизаде**
Азербайджанский государственный экономический университет (UNEC)
Международный магистерский и докторский центр Мастер
E-mail:: nihadtagizad@gmail.com

**Эффективные критерии оценки бизнес-стратегии в освобожденных районах Карабаха**

**Резюме**
В статье анализируются критерии эффективной оценки бизнес-стратегии в освобожденных районах Карабаха, выбор и реализация стратегий, которые должны быть разработаны организациями, действующими в этом районе, на основе соответствующих требований.
**Ключевые слова**: оценка стратегии, бизнес-стратегия, демографическая структура, стратегические альянсы.

**Daxil olub:** 12.02.2022

**Sahib Raiq oğlu Rəhimli**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının doktorantı
E-mail: rahimlis175@gmail.com

# SƏNAYENİN KLASTERLƏŞMƏSİNƏ DÜNYA ALİMLƏRİNİN VƏ ÖLKƏLƏRİNİN YANAŞMALARI

**Xülasə**

Məqalədə dünya alimlərinin sənayenin klasterləşməsinə yanaşmalarının təkamülü və müxtəlif ölkələrin klasterlərin inkişaf etdirilməsi sahəsində təcrübəsi qısa şəkildə təhlil edilir, inkişaf ənənələrinin spesifikası baxımından xarici ölkələrdə sənaye qruplarının formalaşmasının modelləri nəzərdən keçirilir, Aİ-də rəqəmsallaşma, beynəlmiləlləşmə və yaşıl keçidin klaster qrupları üçün üç əsas prioritet olduğu vurğulanır.

**Açar sözlər:** klaster, klaster siyasəti, beynəlxalq klaster strukturları, innovasiya, rəqabət, klasterləşmə.

**UOT:** 691.1
**JEL:** A11

## Giriş

Ərazinin iqtisadi məkanının təşkilinin səmərəliliyinin artırılması qloballaşma şəraitində dünya ölkələri iqtisadiyyatlarının müasir inkişafının ən mühüm problemlərindən biridir. Əmtəə və xidmətlərin yeni satış bazarları, əraziyə ixtisaslı kadrların və investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi uğrunda rəqabət daim güclənir. Bu problemin həlli istiqamətlərindən biri müəyyən ərazidə istehsalın təmərküzləşməsinin müxtəlif formalarının inkişaf etdirilməsidir ki, bu da təkcə regionun özünün deyil, həm də öz inkişafında aqlomerasiya effektindən istehsalda istifadə edən ayrı-ayrı müəssisələrin müəyyən rəqabət üstünlüklərini formalaşdırmağa imkan verir. Bu baxımdan son onilliklərdə klaster modeli dünyanın əksər ölkələrində prioritet mövqeləri tutmaqdadır. Sənayenin klasterləşməsi nəticəsində istehsal münasibətlərinin konfiqurasiyasında baş vermiş dəyişikliklərlə əlaqədar əldə olunmuş nailiyyətlər sayəsində rəqabətqabiliyyətlilik köklü şəkildə dəyişmişdir. Bu, əsasən məhsuldarlıq və innovasiyalar; müəssisə miqyaslı problemlərin həlli; zəngin ərazilərin nümayiş effektləri; müasir tip müəssisələrin yaradılması kimi məsələlərin həlli imkanları ilə bağlıdır. Buna görə də, sənayenin klasterləşməsinə böyük elmi və siyasi maraq göstərilməsi təsadüfi deyildir. Müvafiq olaraq bu məqalədə vəzifə klasterlərin müasir iqtisadi nəzəriyyədə və dünya ölkələrinin iqtisadi siyasətində dəyərini və rolunu müəyyən etməkdir.

## Materiallar və müzakirələr

"Klaster" ingilis dilindən tərcümədə "qrup", "yığılma", “təmərküzləşmə” mənalarını verir. İqtisadi leksikonda geniş yayılmazdan əvvəl, bu anlayış uzun müddət dəqiq və təbiət elmlərində istifadə edilmişdir. Məsələn: riyaziyyat (çoxölçülü məlumatların klaster analizi), kibernetika (dispetçer sistemi ilə birləşdirilmiş eyni tip kompüterlərin hesablama qrupları), fizika, kimya və biologiya kimi elm sahələrində istifadə edilir.

Sənaye və ya regional klasterlərin öyrənilməsi uzun bir tarixə malikdir. Klaster müəyyən bir ərazidə bir-biri ilə qarşılıqlı əlaqəli olan müəssisələrin iqtisadi aqlomerasiya obyekti kimi sənətkarlıq istehsalı döv-

ründən məlum olsa da, iqtisadiyyatda klaster nəzəriyyəsi iqtisadi coğrafiya məcrasında inkişaf etmişdir.

Mütəxəssislər hesab edirlər ki, "klaster konsepsiyası boş yerdə yaranmayıb, onun XIX əsrin əvvəllərində D.Rikardo tərəfindən işlənib hazırlanmış müqayisəli üstünlüklər nəzəriyyəsindən qaynaqlandığı aydın görünür"

Lakin o da qeyd edilməlidir ki, hələ 1776-cı ildə A.Smit ixtisaslaşmanın, yəni bircins məhsulların istehsalının xüsusi texnoloji proses, xüsusi avadanlıq və kadrı olan müstəqil sənaye sahələrində cəmləşdirilməsini və daha sonra onlar arasında məhsulların mübadiləsindən faydaların əldə edilməsini kəşf etmişdir. A.Smit "Xalqların sərvətinin mahiyyəti və səbəbləri haqqında tədqiqatlar"da qeyd edir ki, ixtisaslaşma əmək bölgüsü ilə yanaşı, məhsuldarlığın yüksəldilməsinin əsas amili, maliyyə rifahı naminə insanlar arasında təsərrüfat əməkdaşlığının ən ümumi formasıdır.

Klaster yanaşmasının meydana gəlməsi ortaq əmək ehtiyatları, sənaye resursları ilə yerli təminatı, bilik və məlumatların yayılmasını təmin etmək üçün eyni sahədə fəaliyyət göstərən firmaların lokallaşmasını tədqiq edən və bu fenomeni başa düşmək üçün aqlomerasiya yanaşmasını populyarlaşdıran Alfred Marşallın adı ilə əlaqələndirilir. A.Marşall klasterləri lokallaşdırılmış sənaye (localized industry) adlandırırdı [5]. Bir çox tədqiqatçılar hesab edirlərki, klaster yanaşmasının "sələfi" elə məhz A.Marşallın lokallaşdırılmış sənayesidir [12]. Bu, çox vaxt klasterin sinonimi kimi istifadə olunan ən məşhur və bəlkə də məna baxımından ən yaxın anlayışdır. Bu tədqiqatçıların fikirlərinə görə, məhz A. Marşall ilk dəfə özünün «İqtisad elminin prinsipləri» adlı əsərində firmaların məhsuldarlığının və onların fəaliyyətinin nəticələrinin bilavasitə onların yerləşdiyi yerdən və iqtisadi subyektlərinin coğrafi yaxınlığından asılı olduğunu empirik şəkildə sübut etmişdir. Marşall qeyd edilən kitabında oxşar sənaye müəssisələrinin məkanda lokallaşması mənasını verən "sənaye rayonları" terminindən istifadə edir. Kiçik müəssisələrin aqlomerasiyasının davamlılığını izah etmək üçün iqtisadçı xarici qənaətlər və ya eksternalilər, yəni müəssisələrin coğrafi təmərküzləşməsindən əldə edilən aşağıdakı müsbət effektlər anlayışını daxil etdi: bilik və innovasiya mübadiləsindən əldə edilən effekt, əmək resurslarından birgə istifadədən əldə edilən effekt, tədarükçülərə sərbəst çıxış imkanının olmasından əldə edilən effekt ("satıcı -alıcı" zənciri).

A.Marşallın konsepsiyasına görə, istehsalın təmərküzləşməsi müxtəlif mürəkkəblik dərəcəsinə malik məhsulların istehsalında ixtisaslaşmış xeyli sayda şirkətlər arasında yekcins məhsulun istehsalının müxtəlif mərhələlərində formalaşan münasibətlərin xüsusi rolu ilə şərtlənir [6]. Müəllif sənaye rayonunun qarşılıqlı təsirlər mexanizmini alqı-satqı prosesindən çox, "konstruktiv kooperasiya" ilə müəyyən etmiş, onun əhəmiyyətini və hətta bu təşkilatlar üçün xidmət şəbəkələrinin qurulması imkanlarını qeyd etmişdir. Eyni zamanda, A.Marşallın fikrincə, sənaye rayonu çərçivəsində kiçik ölçülü bu prosesdən əldə edilən iqtisadi səmərə iri şirkətlərin miqyasında qənaətlə müqayisə oluna bilər.

Sonradan bir çox tədqiqatçılar Marşallın sənaye rayonları konsepsiyasını modernləşdirmiş və dəyişdirmişlər (M.Piore, C.Sabel, C.Bekattini və başqaları). XX əsrin 1970-ci illərində Q.Bekattini İtaliyanın timsalında sənaye dairələri nəzəriyyəsini işləyib hazırlamış, onu "sosial-ərazi fenomeni, təbiət baxımından və tarixən məhdud sahədə insanlar birliyinin və firmalar populyasiyasının eyni vaxtda fəal iştirakı" kimi səciyyələndirmişdir [13].

Sonralar (1890-1950) ədəbiyyatda "sənaye məhəllələri" (industrial districts) ifadəsi geniş yayıldı. Hal-hazırda daha populyar olan "klaster" termini xeyli sonra ortaya çıxmış və

klaster konsepsiyasının əsasını Marşallın təlimi təşkil etmişdir. Hesab edilir ki, "klaster" anlayışı iqtisadi münasibətlər nəzəriyyəsinə M.Porter tərəfindən daxil edilmişdir [15]. O, sahə və təşkilatlarda təsərrüfat əlaqələrinin strukturunu və səmərəliliyini təhlil etmək üçün "klaster" terminindən istifadə etmişdir. Klaster yanaşmasının banisi kimi M.Porter klasteri "müəyyən ərazidə fəaliyyət göstərən, rəqabət aparan, fəaliyyət ortaqlığı ilə səciyyələnən, bir-birini qarşılıqlı şəkildə tamamlayan coğrafi baxımdan qonşu olan və bir-biri ilə qarşılıqlı bağlı olan şirkətlər (istehsalçılar, təchizatçılar və s.) və onların fəaliyyəti ilə bağlı olan təşkilatlar qrupu (təhsil müəssisələri, dövlət orqanları, infrastrukturu inkişaf etdirən şirkətlər)" kimi müəyyən edir [8].Yuxarıdakı tərif iqtisadi-coğrafi vahid kimi klasterin mahiyyətini tam əks etdirir. Eyni zamanda, diqqət, bir qayda olaraq, klasterin təcrid olunmuş bir şey deyil, vahid sistemin bir hissəsi olduğuna yönəldilir. Burada öz növbəsində sistem çərçivəsində klasterlərin uğurlu fəaliyyətini şərtləndirən qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq mövcuddur.

M.Porter qeyd edir ki, ən rəqabət qabiliyyətli klasterlər o regionlarda formalaşır ki, burada təkcə firmalar arasında deyil, həm də özəl firmalar və dövlət sektorunun xidmət tədarükçüləri (rəqabət üstünlüyünün vacib yerli mənbələri - məktəblər, universitetlər, elmi-tədqiqat mərkəzləri, vençur kapital və tənzimləyici orqanlar) arasında möhkəm əlaqələr qurulur [17].

Porter klaster nəzəriyyəsi məktəbi qısa müddətdə yalnız tədqiqatçı alimlər deyil, həm də planlaşdırıcılar, praktiklər və siyasətçilər arasında populyarlıq qazandı. Porterin təklif etdiyi nəzəriyyəi nsan kapitalı, infrastruktur və intellektual mülkiyyətin qorunması kimi ənənəvi siyasət alətlərinə baxmayaraq meydana gəldi.

Məkan iqtisadi inkişafı sahəsində müxtəlif tədqiqat istiqamətləri M.Porterin milli rəqabət üstünlükləri haqqında kitabının nəşrindən sonra ümumi olaraq "klaster yanaşması" adlandırılan bir hadisəyə çevrilməyə başladı. Porterin böyük töhfəsi ondan ibarət idi ki, o, əvvəllər toplanmış geniş nəzəri və empirik materialı sistemləşdirə bildi.

Neoklassik ənənədə nəqliyyat xərclərinin və miqyas effektinin sənayenin yerləşməsinin formalaşmasına təsiri vurğulanır (Hoover 1937; Isard 1951; Krugman 1991). İnkişaf etmiş dünyada Fordist kapitalizmin post-Fordist kapitalizmə iqtisadi transformasiyasından sonra, son otuz ildə aqlomerasiya və klasterlərə yenidən diqqət yetirilməyə başlanılmışdır.

Hooverin əsərlərində (1937, 1948) aqlomerasiya daxili genişlənmə, lokallaşma və şəhərləşmə iqtisadiyyatından ibarət olaraq təsnif edilmişdir. Burada daxili genişlənmə bir miqyas iqtisadiyyatını təmsil edir; lokallaşma iqtisadiyyatları eyni sektora aid olan müəssisələrin məkan konsentrasiyası nəticəsində xərclərin azaldılmasını həll edir; urbanizasiya iqtisadiyyatları sektorlardan asılı olmayaraq müəssisələrin aqlomerasiya faydalarını nəzərə alır.

Müasir dövrdə dünyanın əksər regionlarında istehsal və biznes şəbəkələrinin fəaliyyəti və inkişafı üzrə qabaqcıl təcrübə və bilgilər mühüm əhəmiyyət daşıyır. Xüsusilə Avropa İttifaqı, ABŞ, Çin, digər inkişaf etmiş və eləcə də yeni sənaye ölkələrinin bir sıra aparıcı istehsal şirkətləri klaster əməkdaşlığı formalarını genişləndirmişlər.

Günümüzdə klaster qrupları dünyanın bir çox yerində regional inkişaf və innovasiya strategiyalarının vacib bir tərkib hissəsinə çevrilmişdir və bir sıra kritik qiymətləndirmələrə baxmayaraq (bax, məsələn, Martin & Sunley, 2003; Frenken et al., 2014), klaster anlayışı iqtisadi coğrafiyada, innovasiya tədqiqatlarında və əlaqəli fənlərdə geniş istifadə olunur.

Qərb ədəbiyyatında klasterlə bağlı mənbələrə geniş nəzər yetirməklə qeyd edə bilərik ki, bu günə qədər klasterlərin təkamülü ilə bağlı ədəbiyyat ən azı iki səbəbə görə kifayət deyil.

Birincisi, Haifeng Qianın(2014) qeyd etdiyi kimi, klasterlər 1980-ci illərə qədər elmi tədqiqatçıların diqqətini cəlb etməmişdir. Bu günə qədər aparılan ən güclü tədqiqatlar post-Fordizm kontekstində tipoloji məsələlərlə bağlıdır və ümumiyyətlə, klasterləri əsasən statik hesab edirlər (məsələn, Markusen, 1996).

İkincisi, fərqli klaster qrupları (və hətta eyni tip içərisində olanlar) müxtəlif təkamül yolları nümayiş etdirə bilər ki, bu da ümumi cəhətlərin axtarışını çətinləşdirir.

Markusen (1996, s.296) sənaye bölgəsinin özünəməxsus bir tipologiyasını təqdim edir və onu "fərqli iqtisadi ixtisaslaşmaya malik ticarət yönümlü fəaliyyətin geniş və məkanla ayrılmış sahəsi" olaraq təyin edir. E.Markusen qeyd edir ki, sənaye dairələrinin cəlbedicilik amilini qloballaşmanın çağırışlarına baxmayaraq, ərazinin rəqabət qabiliyyətini yüksəldən dairə idarəetmə sisteminə daxil edilmiş kiçik innovativ firmaların fəaliyyəti təşkil edir [14].

Scott'un yeni sənaye yerlərinin kənarında davamlılıq nümayiş etdirən digər "yapışqan" sənaye bölgələrinin olduğunu müdafiə edir və dörd növ sənaye bölgəsini təklif edir [1, s.296].

"*Marşal sənaye bölgələri*" adlandırılan birinci tip, kiçik və yerli şirkətlərin üstünlük təşkil etdiyi bir biznes quruluşuna sahibdir. Bu bölgələrdə, ümumiyyətlə uzunmüddətli müqavilələrlə təmin edilən yerli təchizatçılar və alıcılar arasında əhəmiyyətli həcmdə ticarət mövcuddur və hər hansı bir xüsusi firma əvəzinə rayonun daxilində olan çevik əmək resursları (laborpool) mövcuddur. Klassik Marşalsənaye bölgəsi ilə müqayisədə, İtaliya bölgələri daha innovativ, kooperativ, yerləşmiş olmaqla yanaşı, həm də hökumət rəhbərliyi mövcuddur.

İkinci tip sənaye bölgəsi olan "*mərkəzli və təchizatçılarla əhatə olunmuş* " ("hub-and-spoke)" bir və ya bir neçə böyük firma qərargahının yerli biznesdə həlledici rol oynadığı ərazidir. Bu firmalar şaquli şəkildə inteqrasiya olunur, yerli təchizatçılarla əhatə olunur və qeyri-lokal struktura malikdir. Bunlar, məhsul, xidmətlər və investisiya qərarları vermə baxımından da qlobal yönlüdür.

Üçüncü tip "*köməkçi sənaye platformaları*" ("satellite industrial platforms") kimi adlandırılmışdır ki, bu da xarici mülkiyyətdə və mərkəzi qərargahı olan böyük filial müəssisələrinin üstünlük təşkil etdiyi bir biznes quruluşuna malikdir. Bu sahələr, "avtonom işləmək" bacarıqları olduğu təqdirdə, standart montaj fabriklərindən tədqiqat müəssisələrinə qədər genişlənə bilər. Müəssisə uzaq qərargahı tərəfindən idarə olunduğundan, digər yerli müəssisələrlə iş birliyi ümumiyyətlə zəifdir.

Dördüncü tip "*Dövlətə bağlı sənaye bölgələri*" adlanır. Bu, əyalət və ya paytaxtların, böyük dövlət qurumlarının və ya böyük dövlət universitetlərinin iştirakının üstünlük təşkil etdiyi biznes ssenarisini əhatə edir.

Bəzi konkret hallarda sənaye klasterlərinin təkamülünü izah etmək üçün əhəmiyyətli səylər göstərilmişdir (məsələn, Feldman, Francis və Bercovitz 2005; Huggins 2008). Ümumiləşdirmənin çətinliyinə baxmayaraq, bir neçə tədqiqatçı alimlər klaster təkamülünü müzakirə etmişlər və nəticədə ortaya çıxan ədəbiyyatlar dörd istiqamətə bölünə bilər [11, s.69-94]: 1) hər bir klaster özünün əsas sənayesinin istehsal dövrü ilə inkişaf edir, 2) texniki dəyişikliklər klasterin yeni sənaye strukturuna səbəb olur, 3) sənaye klasteri bir növdən digərinə transformasiya oluna bilər və 4) mövcud klaster və ya hətta mövcud şirkət yeni bir klasteri inkubasiya edə bilər.

Son iyirmi ildə və ya daha çoxmüddətdə regional sənaye qruplarına və klasterlərə böyük bir elmi və siyasi maraq yaranmışdır. Günümüzdə klaster qrupları dünyanın bir çox yerində regional inkişaf və innovasiya strategiyalarının vacib bir tərkib hissəsinə çevrilmiş və bir sıra kritik qiymətləndirmələrə baxmayaraq (bax, məsələn, Martin

& Sunley, 2003; Frenken et al., 2014), klaster anlayışı iqtisadi coğrafiyada, innovasiya tədqiqatlarında və əlaqəli fənlərdə geniş istifadə olunur.

Geniş həcmli əsərlərdə klasterlərin niyə mövcud olduğuna, "fəaliyyətdə olan" və ya tam inkişaf etmiş klasterlərin əsas xüsusiyyətlərinin izahına diqqət ayrılmışdır. Bu statik yanaşmalarla müqayisədə uzunmüddətli klaster təkamülü ilə bağlı dinamikaya daha az diqqət yetirilmişdir.

Ölkələrin istehsal klasterləri şəbəkələrinin xüsusiyyətləri və fəaliyyəti təhlil edildikdə, ayrılıqda hər bir ölkənin bu sahədə öz xüsusiyyətlərinin olduğu məlum olur.

Hazırda dünyanın aparıcı iqtisadiyyatları yarımklasterləşib, 100-dən çox ölkə və regionda isə klaster siyasətinin bu və ya digər variantı mövcuddur [4]. 2008-ci ildə Avropa ölkələri klaster siyasəti haqqında memorandum qəbul etmiş və bu memorandumda öz klasterlərini dünya texnoloji liderləri sırasına çıxarmaq niyyətlərini bildirmişlər.

Klaster və biznes şəbəkəsinin artımının yüksək tempi XX əsrin sonlarından qlobal bir tendensiyaya çevrildi, bu səbəbdən bütün qitələrdə mal və xidmətlərin genişlənməsi formaları və səbəbləri ümumiyyətlə yayğındır.

Kaliforniyadakı Silikon Vadisi qrupu, Hindistandakı Bangalore informasiya texnologiyaları klasteri və ya Avstraliya və Çili şərab klasterləri kimi beynəlxalq miqyasda tanınan qrupların nümunələri müəssisələrin rəqabət qabiliyyətli və qlobal bir üstünlük əldə edə biləcək bir mühit olduğunu nümayiş etdirir. Bununla birlikdə, ayrılıqda hər bir ölkənin bu sahədə öz xüsusiyyətləri var. OECD, UNCTAD və UNİDO-nun mövcud rəsmi məlumatlarına əsaslanaraq, ölkələrin istehsal klasterləri şəbəkələrinin xüsusiyyətləri və fəaliyyəti təhlil edildikdə bir sıra oxşar və fərqli cəhətləri müəyyən etmək mümkündür. Müasir beynəlxalq klaster strukturlarının bütün əsas üstünlüklərinin öyrənilməsi Azərbaycan sənayesi üçün də xüsusi əhəmiyyət kəsb edir.

Müasir mərhələdə Avropa İttifaqının 27 üzv dövlətlərinin əksəriyyəti klaster siyasətini daha yüksək səviyyədə inkişaf etdirir və bütün üzv ölkələrdə klasterlər fəaliyyət göstərir. Avropa Klaster İşbirliyi Platforması (ECCP), Avropadakı (və xaricində) klaster təşkilatlarının xəritəsini hazırlamaqla klaster təşkilatları baxımından Avropanın əhatə dairəsini aydın bir şəkildə təqdim edir. Ümumilikdə, bütün Avropa İttifaqı üzv dövlətlərindən (və kənarda) 460 klaster təşkilatı (2017 -ci ilin yanvar ayından etibarən) bu platformada profillənmişdir.

Klasterlər sayəsində bir çox Avropa bölgəsi müəyyən sahələrdə rəqabət üstünlüyünü inkişaf etdirə bilmişdir: Londonda maliyyə mərkəzi, Antverpendə neft-kimya klasteri, Hollandiyada çiçəkçilik klasteri, Danimarka və İsveç sərhəddində bio-əczaçılıq klasterlərini buna misal göstərmək olar.

Uğurlu klasterlər ixtisaslaşmalarının əsas məqsədində - mütəxəssislərin, texnologiyaların və investisiyaların cəlb edilməsində, qabaqcıl bazarlara və qlobal dəyər zəncirləri yaratmaq üçün regional əməkdaşlığa diqqət yetirməkdə əhəmiyyətli irəliləyiş əldə etdilər. Eyni zamanda, klaster qruplarındakı iqtisadi fəaliyyət ixtisaslaşma sahələrində təmərküzləşmə səviyyəsini artırmağa meyllidir.

İnkişaf ənənələrinin spesifikası baxımından sənaye qruplarının formalaşmasının aşağıdakı altı modelinə qısa nəzər yetirmək olar [18, s.25].

İtalyan modeli: rəqabət qabiliyyətini artırmaq üçün müxtəlif klaster qruplarında birləşmiş çoxlu sayda kiçik firmaların fəaliyyətinə əsaslanır. Model yüksək dərəcədə fərqlənmə və tələb dəyişkənliyi olan aşağı texnologiyalı məhsullara tətbiq olunur.

Yapon modeli zəncirin müxtəlif mərhələlərində bir çox tədarükçünü birləşdirən böyük istehsala malik aparıcı şirkət ətrafında formalaşır; texnoloji baxımdan mürəkkəb

məhsulların istehsalı üçün istifadə olunur. Məhsulun işlənməsi yüksək, sabit tələbə əsaslanır və yalnız böyük satış həcmi ilə qarşılana bilən xərclərlə bağlıdır.

Biznesin beynəlmiləlləşməsi prosesini özündə ehtiva edən fin modeli güclü tədqiqat və inkişaf sektoru və qabaqcıl təhsil sistemi tərəfindən dəstəklənən yüksək səviyyəli innovasiya ilə səciyyələnir. Bu, nisbətən məhdud təbii ehtiyatlara və ixrac yönümlü kiçik, kompakt ölkələrə aiddir.

Nəticə etibarilə, daha əlverişli investisiya mühiti investorlara daha məqsədəuyğun biznes təklifinin edilməsi üçün şərait yaradır. İnvestisiya güzəştləri əlverişli biznes mühitini əvəz edə bilməz; onları mövcud əlverişli investisiya mühitinə əlavə kimi nəzərdən keçirmək lazımdır [1, s.111].

Türkiyədə klasterləşmə fəaliyyəti ilk olaraq 9-cu Beş illik İnkişaf Planında, müəssisələrin birgə tədqiqat, təchizat və marketinq fəaliyyətlərinə əhəmiyyət vermək, fiziki infrastruktur ehtiyaclarını ödəmək, şəbəkələr qurmaq və qruplaşma təşəbbüslərini dəstəkləmək məqsədi daşıyır. Təyin olunmuş sənaye bölgələrindəki müəssisələr və mövcud olanlar bu bölgələrə köçürülməyə təşviq edildi. Türkiyədə klasterləşmənin inkişafı ölkə ərazisinin böyük hissəsini təşkil etmişdir.

T.R. Sənaye və Ticarət Nazirliyinin koordinasiyası altında; Dövlət Planlama Təşkilatı, Xarici Ticarət və Xəzinə Müsteşarlığı, TOBB, OSBÜK, TESK, T.C. Sənaye və Ticarət Nazirliyi və KOSGEB -in müvafiq Ümumi Müdirliklərinin iştirakı ilə yaradılan işçi qrupu, keçirdiyi görüşlərdə razılığa gəldi və 03.07.2009 -cu il tarixində Türkiyə üçün klasterləşmə konsepsiyasını təyin etdi. Buna görə klaster qrupu:

- Bir -biri ilə əməkdaşlıq etmiş və eyni zamanda rəqabət aparmış ,
- Qlobal uzantılara malik olsalar da coğrafi olaraq bir və ya bir neçə bölgədə cəmlənmiş,
- Ümumi texnologiya və qabiliyyətlərlə bir -birinə bağlı olan müəyyən bir sahədə ixtisaslaşmış,
- Ya elmi əsaslı, ya da ənənəvi formada,
- Müstəqil firma qrupları ilə bir -birinə bağlı olan təşkilatlardır.

Son on ildə klaster siyasətinin həyata keçirilməsi Rusiya hökumətinin gündəmində də mühüm yer tutmuşdur. Mövcud klaster təşəbbüslərinin yarısı müxtəlif dövlət proqramları çərçivəsində dəstəklənir [3]. Bu gün Rusiya Federasiyasında federal səviyyədə klasterlərin yaradılması və inkişafı üçün vahid bir mexanizm mövcuddur [7]: Rusiya Sənaye və Ticarət Nazirliyinin sənaye qruplarına dəstək proqramı mövcuddur. Dəstəklənən sənaye qruplarından bəziləri regionlararasıdır ki, bu da bir neçə bölgədən sənaye müəssisələrinin iştirakı ilə yeni əməkdaşlıq şəbəkələrini yaratmağa və genişləndirməyə, istehsal olunan məhsulların satış bazarlarını böyütməyə, həmçinin mövcud bölgələrarası əməkdaşlıq əlaqələrini nəzərə almağa imkan verir.

Beynəlxalq klaster strategiyalarının nəticələrini ümumiləşdirərək qeyd edə bilərik ki, onların tətbiq olunduğu ölkələrdə bölgələrinin inkişafına əhəmiyyətli bir təkan olmuşdur.

Avropa Klaster Abservatoriyası hesabat və tədqiqatlarında ənənəvi sənayelərin qovuşmasında yaranan on inkişaf etməkdə olan sənaye sahələrini müəyyən etmiş və onların fəaliyyətini xarakterizə etmişdir. Bu sahələrə aşağıdakılar aiddir:

- Müasir qablaşdırma və örtüklər;
- Bio-əczaçılıq;
- Su ehtiyatlarından istifadə;
- Kreativ sənayenin alt sahələri;
- Rəqəmsal texnologiyalar;
- Ətraf mühitin mühafizəsi texnologiyaları;
- "Yeni bilik və təcrübə" alt sektoru;
- Logistika xidmətləri;
- Tibbi avadanlıqlar;

- Mobil texnologiyalar.

Avropada inkişaf edən sənayelərin əsas fəaliyyət sahələrini ümumilikdə üç kateqoriyaya bölmək olar [2,c.120 ]:

- Almaniyanın cənubundan Benilüks vasitəsilə İngiltərənin cənubuna qədər dar bir zolaqda yerləşən Avropanın ənənəvi iqtisadi mərkəzi;
- Danimarkadan tutmuş İsveçin qərbinə və Stokholmdan Finlandiyanın cənubuna və Helsinkiyə qədər qərb və mərkəzi Baltikyanı bölgədə Avropa innovasiya liderləri;
- Əhalinin sıxlığının faydalarının daha yüksək olduğu digər Avropa şəhər mərkəzləri.

Avropa ölkələri və bölgələri klaster fəaliyyətini necə dəstəkləyir? Klaster proqramlarının əsas məqsədləri, tədbirləri və hədəf qrupları hansılardır? Dünyanın digər yerlərində klaster siyasəti nəyə diqqət yetirir? Bu kimi suallara 'Avropada və ondan kənarda klaster proqramları' adlı hesabatla cavab verilir. Bu sənəd - klaster dəstəyi  29 Avropa ölkəsində, Avropanın 49 bölgəsində və Avropanın xaricində olan 10 ölkədə (Braziliya, Kanada, Çin, İsrail, Yaponiya, Meksika, Sinqapur, Cənubi Koreya, Tayvan və ABŞ) araşdırılır. Avropada və xaricdə geniş bir klaster proqramının dərin təhlilləri dünyanın müxtəlif yerlərində klaster proqramlarının hansı hədəfləri həyata keçirdiyini və necə yerinə yetirildiyini göstərir. Ümumilikdə, hesabat klaster siyasətinin geniş yayıldığını və klaster dəstəyinin Avropada və dünyada iqtisadi inkişaf üçün çox əhəmiyyətli bir vasitə olduğunu ortaya qoyur.

COVİD-19 qlobal pandemiyası 2020-ci ildə sənaye qruplarının fəaliyyət göstərdiyi mühiti əsaslı şəkildə dəyişdi. 2020-ci ilin fevral ayında Avropa İttifaqının İqtisadi İcmalı tələbə əsaslanan yavaş, lakin sabit bir iqtisadi artım proqnozlaşdırdı. Bununla birlikdə, COVID-19 və bunun nəticəsində meydana gələn sağlamlıq böhranı, bənzərsiz ictimai və iqtisadi çətinliklər törətdi. Bir neçə həftə ərzində İttifaq daxilindəki ölkələr kilidlənməyə başladı. Hökumətlər, infeksiyaların sayını azaltmağa kömək edən, milli sağlamlıq sistemlərinin dağılmasının qarşısını alan və bir çox insanların həyatını xilas edən sosial uzaqlaşdırma qaydaları tətbiq etdilər. Eyni zamanda, bu tədbirlər iqtisadiyyatlara böyük xərclər hesabına başa gəldi, Avropa İttifaqının rəsmi proqnozuna əsasən, 2020-ci ildə real ÜDM-in 7,4% azalacağı təxmin edildi. İstehsal və dəyər zəncirləri, beynəlxalq və hətta Aİ regionunda xarici səyahətlər və s. əlaqələr pozularaq, demək olar ki, bütün sahələrdə milyonlarla müəssisə iqtisadiyyatı üçün ciddi şəkildə qeyri-müəyyənlik yaratdı.

COVID-19 ötən və cari ilin müəyyənedici mövzusu olsa da, digər tendensiyalar və inkişaflar da davam etməkdədir. İqtisadi dayanıqlıq və bərpa 2021-ci ildə klasterlər üçün ən çox araşdırılan əsas problemlər olaraq təyin edilmişdir. Avropada aparılan araşdırma sorğusuna verilən cavablar, problemləri həll etmək üçün aşağıdakı strateji prioritetləri ortaya qoyur. "2021-ci ildə klasteriniz üçün əsas strateji prioritetlər nələrdir?" çoxsaylı seçim sualına Avropa İttifaqında cavablar göstərir ki, rəqəmsallaşma, beynəlmiləlləşmə və yaşıl keçid hazırda və yaxın gələcəkdə klaster qrupları üçün üç əsas prioritetdir.

**Nəticə.**

Beləliklə, aparılmış tədqiqat aydın şəkildə nümayiş etdirir ki, “klaster” anlayışı müasir iqtisad elmində möhkəm yer tutur. Sənayenin klasterləşməsinin problem sahəsini rəqabətqabiliyyətlilik məsələlərinin (ölkənin, regionun, sahənin), milli sənaye siyasətinin və ərazi inkişafı siyasətinin təhlili və işlənib hazırlanması, habelə təsərrüfat subyektlərinin və biznesin, elmin, dövlətin, maliyyə institutlarının, vasitəçi təşkilatların qarşılıqlı fəaliyyətinin innovativ aspektlərinin öyrənilməsi təşkil edir. Sənayenin klasterləşməsinə dünya alimlərinin yanaşmalarının müxtəlifliyi onun praktiki olaraq həyata keçirilməsinə yeganə vahid yanaşmanın olmadığnı

göstərir. Dünya ölkələrinin sənaye klasteri qruplarının formalaşması və inkişafı təcrübəsi də kifayət qədər fərqli xüsusiyyətlərə malikdir. Buna baxmayaraq, bu ölkələrin təcrübəsi göstərir ki, milli iqtisadiyyatın inkişafı pərakəndə müəssisələrlə deyil, onların birləşmələri, qrupları, klasterləri, şəbəkələri ilə baş verir. Avropa İttifaqı, ABŞ, Çin, digər inkişaf etmiş və eləcə də yeni sənaye ölkələrinin bir sıra aparıcı istehsal şirkətləri klaster əməkdaşlığı formalarını genişləndirmişlər. Bu təcrübə Azərbaycan Respublikasının sənaye inkişafı üçün xüsusilə aktualdır, çünki ölkəmiz klaster inkişafının köməyi ilə dünyanın öndə gedən rəqabətqabiliyyətli ölkələri sırasına daxil olmalıdır. Eyni zamanda dünya alimlərinin baxışlarının müxtəlifliyi, dünya ölkələrinin sənaye klasteri qruplarının formalaşması və inkişafı təcrübəsinin rəngarəngliyi ölkəmizin sənayesinin klaster yanaşmasına əsaslanan inkişaf strategiyası və proqramlarının işlənib hazırlanmasında nəzərə alınmalıdır. Bundan başqa, həm daxili amillərin, həm də xarici qlobal çağırışların təsiri altında klasterin səmərəli fəaliyyətini təmin edən idarəetmə üzrə təşkilati strukturların formalaşdırılması və onların təşkilati-hüquqi təsərrüfatçılıq formalarının əsaslandırılmasına dair təkliflərin işlənib hazırlanması baxımından tədqiqatların aparılmasına ehtiyac var.

**Tədqiqat işinin yeniliyi** aşağıdakılardan ibarətdir: investisiya layihələrinin həyata kecirilməsinin labüdlüyü; bir-biri ilə əməkdaşlıq etməkvə eyni zamanda rəqabət aparmaq; qlobal uzantılara malik ola bilsələr də, cografi olaraq bir və ya bir necə bölqədə cəmlənmək; ümumi texnoloqiya və qabiliyyətlərlə bir-birinə bağlı olan müəyyən bir sahədə ixtisaslaşmaq.

## ƏDƏBİYYAT SİYAHƏSİ:

1. Biznes və investisiya mühiti – OSCE, https://www.osce.org/files/f/documents/0/7/19772.pdf

2. Белоусова Е. А., Тенденции развития европейских инновационных кластеров, Экономические науки, 4(137), 2016.

3. Кластерная политика: достижение глобальной конкурентоспособности. Выпуск 2 / В.Л. Абашкин, С.В. Артемов, А.Н. Гусев и др.; Минэкономразвития России, АО «РВК», Нац. исслед. ун-т «Высшая школа экономики». – М.: НИУ ВШЭ, с.8,2018, cluster_policy_v2

4. Ленчук Е.Б., Власкин Г.А. Кластерный подход в стратегии инновационного развития зарубежных стран // Проблемы прогнозирования. 2010. № 5.

5. Маршалл А. Принципы экономической науки. Т. 3. М.: Прогресс, 1993. 351 с.

6. Михальцов С.А. Генезис понятия индустриального района и его современная интерпретация. [Электронныйресурс]. // Современные проблемы науки и образования. – 2014 – № 4 –

7. О кластерах, Ассоциация развития кластеров и технопарков России,

8. Портер М. Конкуренция. М.: Изд. дом «Вильямс», 2005. 495 с.

9. European Cluster Panorama (2014) European Cluster Observatory report
10.Hrvatska Kostajnica, Dina Ionescu, What are clusters?,«CEI WORKSHOP ON CLUSTERS»,OECD LEED Programme, 17942708.pdf

10. Innovation Clusters in Europe: A statistical analysis and overview of current policy support. EuropeanCommission. Available from: http://www.central2013.eu/

11. Becattini G. The Marshallian industrial district as a socio-economic notion / G. Becattini // Pyke F, Becattini G, Sengenberger W (eds) Industrial Districts and Inter-firm Cooperation in Italy. International Institute for Labour Studies, Geneva, 1990 P. 37-51; Becattini Giacomo. Industrial Districts: A New Approach To Industrial. Change by

G.Becattini, Giàcomo Becattini. Hardcover, 2004 199 p.

12. MarkusenФ. Sticky places in slippery space: Ф typology of industrial districts / The New Industrial Geography: Regions? Regulation and Institutions/ Edited by T.Barnes, M.S. Gertler/ Routledge: London, 2002 P. 106-124.

13. Michaela Trippl, Markus Grillitsch, Arne Isaksen and Tanja Sinozic, July 2014, Perspectives on Cluster Evolution: Critical Review and Future Research Issues, Lund University,

14. Porter M.E. The Competitive Advantage of Nations. New York: Free Press, 1990.

15. Porter M. Harvard Business School. Location, Competition, and Economic Development; Local Clusters in a Global Economy; "Economic Development Quarterly"; February 2000 –Available at: http://www.ecgroup.com/methodology/cluster.htm

16. Prokhorova V. V., Anopchenko T. U., Chernikova V. E., Goloshchapova L.V., Kulikova N. N.Formation and development of industrial clusters in the socioeconomic regional system, Revista ESPACIOS. ISSN 0798 1015Vol. 39 (№ 31) , 2018, p.25

*17.* The UNIDO approach to cluster development, key principles and project experiences for inclusive growth, cluster_approach_print UNIDO

18. Demet Erol, Kübra Yildirim, Türkiye’de kümelenme yaşam döngüsü: ostim medikal sanayi kümelenmesi örneği,

**Сахиб Райг Рагимли**
Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики

## ПОДХОДЫ МИРОВЫХ УЧЕНЫХ И СТРАН К ПРОМЫШЛЕННОЙ КЛАСТЕРИЗАЦИИ

### Резюме

**Резюме:** В статье кратко анализируется эволюция подходов мировых ученых к промышленной кластеризации и опыт разных стран кластерного развития, модели формирования промышленных групп с точки зрения специфики традиций развития, цифровизации, интернационализации и зеленого перехода в ЕС.

**Ключевые слова:** кластер, кластерная политика, международные кластерные структуры, инновации, конкуренция, кластеризация.

**Sahib Raig Ragimli**
Doctoral student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan

## APPROACHES OF WORLD SCIENTISTS AND COUNTRIES TO INDUSTRIAL CLUSTERING

### Abstract

The article briefly analyzes the evolution of the approaches of world scientists to industrial clustering and the experience of different countries of cluster development, models for the formation of industrial groups in terms of the specifics of development traditions, digitalization, internationalization and green transition in the EU.

**Key words:** cluster, cluster policy, international cluster structures, innovations, competition, clustering.

**Daxil olub:** 14.02.2022

**Nazim Talıb oğlu Verdiyev, dos.**
Azərbaycan Texnologiya Universiteti

**Cəlali İbadət oğlu Məmmədov**
Magistrant, Azərbaycan Texnologiya Universiteti
E-mail: calali99@mail.ru

# COVID-19 PANDEMİYASININ DÜNYA VƏ MİLLİ TURİZMƏ TƏSİRİ, POST-PANDEMİYA DÖVRÜNDƏ TURİZM SEKTORUNUN VƏZİYYƏTİ

## XÜLASƏ

Məqalədə COVID-19 pandemiyasının turizmə təsiri beynəlxalq və milli səviyyədə təhlil edilib. Beynəlxalq təşkilatların hesabatlarında əks olunan statistik göstəricilərə əsasən, pandemiyadan sonrakı dövrdə turizm sektorunun müasir çağırışlar əsasında inkişafının vacibliyi vurğulanıb. Pandemiyadan sonrakı dövrdə turizm sektoruna təsir edə biləcək halların qarşısının alınmasının və bu istiqamətdə çevik idarəetmə mexanizminin yaradılmasının vacibliyi nəzərə çatdırılıb.

**Açar sözlər:** turizm sektoru, COVID-19 pandemiyası, milli turizm, dünya turizmi, post-pandemiya dövrü.

**UOT:** 338.48
**JEL:** L83

### Giriş

Turizm bir sıra ölkələrdə iqtisadiyyatın idarəedici mexanizmi olmaqla özündə mühüm iqtisadi əhəmiyyət daşıyır. Turizm sektorundan alınan valyuta dövlət xərclərinin maliyyələşdirilməsi, habelə zərurət duyulan sektorlara sərmayə yönəldilməsinə xidmət edən mənbə rolunda çıxış edir.

COVID-19 pandemiyası vüsət almazdan öncə turizm dünya iqtisadiyyatının ən qazanclı və rifahlı sektorlarından birinə çevrilmiş, qlobal ÜDM-in 10 %-i və dünyada 320 milyondan çox iş yeri məhz bu sahənin payına düşmüşdür. [4,s.97]

### COVID-19 pandemiyasının dünya və milli turizmə təsirinin qiymətləndirilməsi

Ümumdünya Turizm Təşkilatının verdiyi məlumata əsasən, pandemiyadan öncə beynəlxalq turizm, o cümlədən onun bilavasitə və dolayı təsirləri dünyada 334 milyon dollar olmaqla hər dördüncü yeni iş yerini və bütün iş yerlərinin 10,6 %-ni təşkil edirdi. Statistik məlumatlara görə, 2019-cu ildə səyahətlər zamanı turistlər 1,7 trilyon ABŞ dolları xərcləyiblər, bu da, öz növbəsində, beynəlxalq ixracatın təxminən 7%-ni və xidmət ixracatının 27,4 %-ni təşkil edir. 2020-ci ilin məlumatlarına müvafiq olaraq, turistlərin öz ölkələri ərazisində səyahət xərclərində 45%, xarici səyahət üzrə xərclərində isə təqribən 70% azalma müşahidə olunmuşdur.

Bölgələr üzrə ən böyük eniş Asiya və Sakit Okean ölkələrində qeydə alınmışdır: 2019-cu ilin eyni dövrü ilə müqayisədə, 2021-ci ilin ilk 5 ayında beynəlxalq turist sayında 95% azalma müşahidə olunmuşdur. Göstəricilər Yaxın Şərq regionunda 83%, Afrika regionunda isə 81% təşkil etmişdir. [3,s.4]. Amerika regionunda isə 72% göstərici ilə nisbətən daha kiçik bir azalma qeydə alınmışdır.

Turizm baxımından beynəlxalq səyahətçilər üçün əsas səyahət marşrutlarından biri olan Avropa regionu da pandemiyanın mənfi təsirlərindən qurtula bilməmişdir. Avropa qitəsi ölkələrinin iqtisadiyyatında səyahət və turizm sənayesi olduqca vacib rol oynayır. Avropa İttifaqı Ümumdünya Turizm Təşkilatı tərəfindən dünyanın əsas regional turizm destinasiyası kimi qiymətləndirilir. Turizm sektorunun Avropa İttifaqının iqtisadiyyatına birbaşa bəxş etdiyi töhfə 2018-ci ildə təxminən 782 milyard avro təşkil etmişdir. Dünya üzrə turizmdən əldə edilən gəlirlərin 40%-ni Avropa qitəsi qarşılayır. Pandemiyadan öncə dünya üzrə turistlərin 50%-dən çoxu və turizm fəaliyyətlərinin təqribən 48%-i Avropa qitəsinin payına düşmüşdür. Ümumdünya Turizm Təşkilatının hesablamalarına müvafiq olaraq, dünyanın ən çox ziyarət edilən regionu statusunu da məhz Avropa qazanmışdır. [4,s.99]

Pandemiya Avropa İttifaqının (Aİ) iqtisadiyyatına da dərin neqativ təsir göstərmişdir. COVID-19 pandemiyasının ilkin dönəmində, demək olar ki, bütün üzv ölkələr tərəfindən vacib olmayan səyahətlərdə məhdudiyyət tədbirləri tətbiq edilməyə başlandı. Sərhədlərin bağlanması və Şengen bölgəsinə aid sərhədlərdə nəzarətin bərpa edilməsi nəticəsində milyonlarla Avropa vətəndaşının səyahətinin qarşısı alınmış oldu.

COVID-19 pandemiyasının təsiri nəticəsində yaranmış vəziyyət başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da turizm sektorundan yan keçməmiş, 2020-ci ilin mart ayından etibarən bu sahədə də durğunluq geniş vüsət almışdır. Pandemiyanın yayılmasının qarşısını almaq məqsədilə Azərbaycanla qonşu ölkələr arasında dövlət sərhəddində məhdudlaşdırıcı rejimin, həmçinin dünyanın bir çox ölkələrində vətəndaşların səfərlərinə müvəqqəti məhdudiyyətlərin qoyulması nəticəsində turizm sektorunda da tənəzzül labüd olmuşdur. Əgər ölkəmizin sərhəd-buraxılış məntəqələrindən keçən şəxslərin sayı 2019-cu ildə 17464,3 min nəfər təşkil etmişdisə, 2020-ci ildə bu göstərici 4028,3 min nəfərə qədər azalmışdır. Azərbaycana təşrif edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə üzrə sayı 2019-cu ildə 3170373 nəfər olmuş, pandemiyanın təsirinin nəticəsi olaraq 2020-ci ildə bu göstərici azalaraq 795722 nəfər təşkil etmişdir. Koronavirus infeksiyası ilə bağlı qapanmalar turizm yollayışlarının sayında kəskin azalmalara gətirib çıxarmışdır. Səyahət agentlikləri və turoperatorların qrup və fərdi halda satmış olduğu turizm yollayışlarının sayı 2019-cu ildə 63885 ədəd təşkil etmişdisə, 2020-ci ildə bu göstərici azalaraq 5342 ədədə çatmışdır. [4,s.99]

Pandemiya dövrünün iqtisadi sfera üzrə olan təsiri, ilk öncə, nağdsız pul hesablaşmaları və ödənişlərin həcminin artmasında özünü göstərir. Pandemiya dövründə İnternet üzərindən sifarişlər, onlayn alış-veriş artmışdır, vətəndaşlar da bu tip sifarişlərə və alqı-satqıya alışmağa başlayıblar.

2019-cu ilə nisbətən 2021-ci ildə onlayn ödənişlərdə az qala ikiqat artım müşahidə olunub. Düzdür, ümumi ticarət dövriyyəsində belə ödənişlərin həcmi hələ də kiçik olaraq qalır. Əlalxüsus, qonşu Türkiyə, Gürcüstan və Rusiyaya nisbətən biz çox geri qalırıq. Qonşu ölkələrdə nağdsız ödənişlərin çəkisi bəzən 50%-dən çox təşkil edir. Azərbaycanda bu göstərici, təxminən 20%-ə yaxınlaşıb, pandemiyadan öncə isə 10% civarında idi.

Dünyanın hər yerində olduğu kimi, pandemiya Azərbaycanın turizm sektoruna da böyük ziyan vurub. Ölkədə ilk yoluxma halı 2020-ci ilin fevralında qeydə alınıb. Virusa ilk yoluxanlar İrandan gələn ölkə vətəndaşları olub və yoluxma halları təsdiqləndikdən sonra ölkənin İranla sərhəddinin bağlanması razılaşdırılıb. Təbii ki, o zaman virusun nə

qədər təhlükəli və yoluxucu olduğu hələ bəlli deyildi və bu vəziyyətin nə qədər davam edəcəyini heç kim proqnozlaşdıra bilməzdi. Martın əvvəlində ölkəyə İran məhsullarının idxalına qadağa qoyulub və ölkədə yerləşən bütün təhsil müəssisələrində əhalinin təhlükəsizliyini təmin etmək, virusun yayılmasının qarşısını almaq məqsədilə bir həftəlik məzuniyyət elan edilib, daha sonra isə bu müddət martın 27-dək uzadılıb. Martın 12-də ölkəmizdə yeni koronavirusdan ilk ölüm faktı təsdiqlənib. Martın 14-dən ölkəmizdə sosial izolyasiya tədbirləri qüvvəyə minməyə başladı, kütləvi tədbirlər qadağan edildi, insanlara "Evdə qal" şüarı ilə müraciətlər edildi, ölkənin quru və hava sərhədləri müvəqqəti olaraq bağlandı. Həmçinin qeyd edək ki, Azərbaycanda yoluxanların sayı ilə bağlı ilk məlumat Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) saytında 24 mart 2020-ci ildə 15 nəfər kimi dərc olunub. [6]

Yoluxanların sayı oktyabr ayından artmağa başlayıb və dekabrda pik həddə çatıb. 21 noyabr 2021-ci il tarixində ölkədə COVID-19 pandemiyasına yoluxanların sayı 573974 nəfər təşkil edib. Ümumiyyətlə, ölkəmizdə gündəlik yoluxma sayının qrafikinə nəzər salsaq, prosesin dalğavari (tsiklik) xarakter daşıdığını müşahidə etmək olar. [6]

Turizm ölkə iqtisadiyyatında əsas rol oynayır. COVID-19 pandemiyası turizm sektoruna əhəmiyyətli dərəcədə təsir göstərmiş və 2020-ci ilin martından bu sahədə ciddi tənəzzülə səbəb olmuşdur. Statistikaya əsasən, 2020-ci ilin yanvar-sentyabr aylarında Azərbaycana 155 ölkədən 686,3 min nəfər (2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,5 dəfə az) səfər edib. Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının dövlət sərhəddində məhdudlaşdırıcı rejimin tətbiqi, eləcə də dünyanın əksər ölkələrində vətəndaşların gediş-gəlişinə müvəqqəti məhdudiyyətlərin qoyulması nəticəsində 2020-ci ilin aprel-sentyabr aylarında ölkəmizə gələnlərin sayında kəskin azalma olub və səfərlər əsasən qeyri-turizm məqsədləri üçün həyata keçirilib.

Təhlil üçün Azərbaycan Respublikasının Turizm üzrə Dövlət Agentliyinin 2020-ci il üçün təqdim etdiyi məlumatları nəzərdən keçirək. 2020-ci ilin yanvar ayı turizm üçün uğurlu olub, 2019-cu ilin müvafiq göstəricisi ilə müqayisədə Azərbaycana gələn turistlərin sayı 18,1% artaraq 226,2 min nəfər olub və ölkəmizə ən çox turist Rusiyadan (+20,5%), Gürcüstandan (+20,5%) gəlib. Yaxın Şərq (+20,8%), Türkiyə (+12,1%) və İran (+26,5%) həcmində olmuşdur. Turist axınındakı artım fevral ayında da davam edib ki, bu da səyahət üçün o qədər də əlverişli deyil. Bu ay ölkəyə gələn turistlərin sayı 15,8% artıb, onların əksəriyyəti Gürcüstandan 59 min nəfər (+11,4%) və Rusiyadan 55 min nəfər (+23,3%) olub. Türkiyədən gələn turistlərin sayı 23600 nəfər (+5,9%), Yaxın Şərqdən 16900 nəfər (+11,2%), İrandan 13400 nəfər (+22,9%) olub. Ən yüksək artım Rusiya və İrandan gələn turistlərin sayında müşahidə olunur.

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin məlumatına görə, turizm göstəricilərində kəskin azalma mart ayından başlayır. Qeyd edək ki, mart ayı Azərbaycanda turizm üçün ən əlverişli vaxtdır və Novruz bayramını qeyd etmək üçün ölkəmizə çoxlu turistlər gəlir. Martda Azərbaycana 93 min nəfər səfər edib ki, bu da 2019-cu ilin müvafiq göstəricisindən 153 min nəfər (62,2%) azdır. Rusiyadan 35 min nəfər (47%), Gürcüstandan 24,6 min nəfər (60%), Türkiyədən 13,2 min nəfər (47%), İrandan 4100 nəfər (88,5%) ölkəmizə səfər edib. Aprel ayında turizm böhranı davam edib və dərinləşib, çünki bu ay ölkəmizə cəmi 20 min turist gəlib ki, bu da 2019-cu illə müqayisədə 218 min nəfər və ya 91,7% azdır. Rusiyadan gələn

turistlərin sayı 90,3%, Türkiyədən gələnlərin sayı 79% azalıb, Gürcüstandan 94,6%, İrandan 78,5% kimi dəyərləndirilmişdir.

İyun ayında ölkəmizə 26 min turist gəlib ki, bu da 2019-cu illə müqayisədə 91,7 % azdır. Türkiyədən gələn turistlərin sayı 59,9%, Rusiyadan 94,8%, İrandan 82,7%, Gürcüstandan 93,7% azalıb. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin saytında yer alan məlumata görə, 2020-ci ilin yanvar-sentyabr aylarında ölkəmizə gələn turistlərin əksəriyyəti Rusiyadan (28,1%), Gürcüstandan (24,9%), Türkiyədən (18,1%) və İrandandır (8,3%). Ölkəmizə səfər edənlərin əksəriyyətini (78,7 %) kişilər, 21,3 % isə qadınlar təşkil edib. Statistik məlumatlara görə, Azərbaycana gələn turistlərin nəqliyyat vasitələrindən istifadəsində dəyişiklik olub. Əgər 2019-cu ildə turistlərin 52,9%-i avtomobil və dəmir yolu nəqliyyatını seçibsə, 2020-ci ildə bu göstərici 16,1 % artaraq 69%-ə çatıb. [7]. Burada, hava nəqliyyatından istifadə edənlərin sayı 11,8% (40,5%-dən 28,7%-ə) azalıb. Ölkəmizdə dəniz nəqliyyatı inkişaf etmədiyindən bu göstərici çox aşağı olmaqla 2019-cu ildə 0,8 %, 2020-ci ildə isə dəniz nəqliyyatı ilə səyahət edənlərin sayı 1,5% artaraq 2,3% təşkil edib. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 3,9 dəfə azalaraq 1073,4 min nəfər olub. Gedənlərin 69,9 %-i kişi, 30,1%-i isə qadınlardır. Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 4,6 dəfə, Türkiyəyə 3,5 dəfə, Gürcüstana 4,1 dəfə, Rusiya Federasiyasına gedənlərin sayı isə 3,5 dəfə azalıb. Azərbaycandan xaricə səyahət edən turistlərin nəqliyyat vasitələrindən istifadəsini təhlil etməli olsaq, görə bilərik ki, 2019-cu ildə sərnişinlərimizin 75,9%-i avtomobil və dəmir yolu nəqliyyatını seçibsə, 2020-ci ildə bu rəqəm 0,7 % artaraq 76,7 %-ə çatıb, hava nəqliyyatından istifadə edənlərin sayı isə 76,7 % olub. Yəni, orta hesabla bu miqdar 4,1% artıb. Ölkəmizdə dəniz nəqliyyatı inkişaf etmədiyindən bu rəqəm çox aşağı olmaqla 2019-cu ildə 0,8 %, 2020-ci ildə isə dəniz nəqliyyatı ilə səyahət edənlərin sayı 1,8 % artaraq 2,5 % təşkil edib. Daxili turizmin statistikasına nəzər salsaq, 2020-ci ildə turist səfərləri edənlərin sayı 2019-cu illə müqayisədə 3,4 dəfə (4352,9 min nəfər, o cümlədən 56,5% kişi, 43,5% qadınlar) 1268,7 min nəfər (57,6% kişi, 42,4% qadınlar) daxili turizmin statistikasına nəzər salsaq, 2020-ci ildə turist səfərləri edən turistlərin sayı 2019-cu illə müqayisədə 3,4 dəfə (57,6 % kişi, 42,4 % qadın) (4352,9 min nəfər, onun 56,5 % kişi, 43,5 % qadınlar) və 1268,7 min nəfər təşkil etmişdir. Səfərlərin əksəriyyətinin məqsədi qohumları, dostları ziyarət etmək, və tətillə bağlı olub. İstifadə olunan nəqliyyat vasitələrinə gəlincə, daha çox şəhərlərarası avtobus və minik avtomobillərindən istifadə olunub. İstifadə olunan nəqliyyat vasitələri baxımından şəhərlərarası avtobuslara və minik avtomobillərinə üstünlük verilib. Beləliklə, təhlillər göstərir ki, COVID-19 pandemiyası Azərbaycanda turizmin inkişafına mənfi təsir göstərib, 2019-cu illə müqayisədə ölkəyə gəliş və çıxış turizminin göstəriciləri 3,5-4 dəfə, daxili turizm göstəriciləri isə 3,4 dəfə azalıb. [7]

Turizm sosial-iqtisadi fəaliyyətin mühüm sahəsi olmaqla bir çox ölkələrin dövlət büdcəsinin gəlirlərinə mühüm töhfə verir. Beynəlxalq turizm sənayesini təmsil edən Dünya Səyahət və Turizm Şurasının (WTTC) məlumatlarına görə, 2019-cu ildə turizmin qlobal iqtisadiyyata töhfəsi 9,1 trilyon dollar olub və ya dünya ÜDM-nin 10,4%-ni təşkil edib. Şuranın hesablamalarına görə, səyahət və turizm sənayesi dünya üzrə 330 milyon iş yerini (dünyada hər 10 iş yerindən biri) təşkil edir.

2020-ci ilin əvvəlində bütün ölkələr Ümumdünya Səhiyyə Təşkilatının elan etdiyi yeni növ koronavirus - COVID-19 pandemiyası ilə əhatə olundu. Ənənəvi olaraq, turizm və rekreasiya sənayesi xarici şoklardan təsirlənir - məsələn, konkret ev sahibi ölkələrdə baş verən hadisələr digər kurort bölgələrinə səfərlərin geniş miqyaslı yenidən bölüşdürülməsinə səbəb ola bilər. Bununla belə, COVID-19 pandemiyası kimi güclü sarsıntılar dünya turizm bazarını qeyri-müəyyən müddətə iflic edə bilər. Viral və yoluxucu xəstəliklərin epidemiyaları ilə yanaşı, qlobal qonaqpərvərlik sənayesini çökdürən ekzogen amillərə hərbi münaqişələr və terror təhlükələri, iqlim dəyişikliyi, təbii fəlakətlər, neft və neft məhsullarının kəskin qiymət dəyişiklikləri, valyuta məzənnələrinin dəyişməsi, maliyyə və iqtisadi böhranlar da aid edilə bilər.

UNWTO koronavirus pandemiyasından sonra beynəlxalq turizmin azalması və bərpası üçün üç ssenari nəzərdən keçirib ki, bu ssenarilərə əsasən, 2020-ci ilə qədər beynəlxalq turist gəlişlərinin sayının 58%-dən 80%-ə qədər azalması diqqət mərkəzində olub. Birinci ssenari, sərhədlərin tədricən açılması və səyahətə qoyulan məhdudiyyətlərin yumşaldılması iyulun əvvəlində başlasa, beynəlxalq turist axınının 58% azalacağını nəzərdə tuturdu, ikinci ssenari, bərpa prosesinin sentyabrda başlaması şərti ilə dünya turizm göstəricilərinin 70%-ə enməsini nəzərdə tuturdu, üçüncü, mümkün olan ən pis ssenari isə beynəlxalq turizm dekabrdan əvvəl bərpa olunmasa, göstəricilərin 78%-ə enməsini nəzərdə tuturdu. Təəssüf ki, 2020-ci ilin nəticələri (73%) inkişafın üçüncü ssenari üzrə davam edəcəyini göstərdi. Bir sıra ekspertlər qeyd edirlər ki, sənayenin bərpası və 2019-cu ilin nəticələrinə nail olunmasını 2023-cü ildən tez gözləmək olar. Elmi araşdırma müəllifləri pandemiyanın turistlərə yüksək psixoloji təsir göstərdiyini və panikaya səbəb olduğunu, bunun da qonaqpərvərlik və turizm sektorunun xidmətlərinə tələbatın kəskin azalmasına səbəb olduğunu qeyd edirlər. Agent əsaslı modeldən istifadə edərək turizm mərkəzlərində yoluxmuş insanların dinamikası araşdırılır və virusa yoluxmuş insanların sayını azaltmağa yönəlmiş sosial məhdudiyyətlər təhlil edilir. Pandemiyanın turizmə sosial-iqtisadi təsirini qeyd edir, turizm xidmətlərinə tələbin azalması ilə ifadə edilir, gəlirin azalması, iş yerlərinin itirilməsi və işsizliyin artması, sektor işçilərinin sosial dəstəyə ehtiyacı və bunun nəticəsində sosial xərclərin artması, ictimai təhlükəsizlik və sağlamlıq üçün artan tələblər bu kimi amillərə daxildir.

COVID-19-un otel sektoruna təsirini öyrənir və pandemiyanın antiböhran idarəçiliyinin altı mərhələsini müəyyən edirik ki, buraya öz növbəsində aşağıdakılar daxildir:

- böhrandan əvvəlki mərhələ;
- xəbərdarlıq faktorunun monitorinq mərhələsi;
- aralıq mərhələ;
- bərpa mərhələsi və konkret qərarların qəbulu mərhələsi.

Sərnişin hava səyahətləri, turizm, restoran, otel biznesi və əyləncə ən çox təsirlənən sektorlar olub. Problemlərin həlli üçün bütün ölkələrin konsolidasiyası təklif edilir. Buraya, pandemiya ilə müstəqil şəkildə mübarizə apara bilməyən az inkişaf etmiş ölkələrə qarşılıqlı iqtisadi yardıma ehtiyac, daha yaxşı peyvəndin hazırlanmasına artan investisiya və sanitar-gigiyenik şərait sahəsində qoruyucu tədbirlərin görülməsi aid olunur. Bir sıra ölkələrin timsalında koronavirus pandemiyasının makro (qlobal istehsal və ticarətin, həmçinin ixrac və idxalın təsiri) və mikro səviyyədə (istehlakçı davranış modellərindəki dəyişikliklər) təsirini öyrənir. COVID-19-un aviasiya sektoruna və turizmə

görünməmiş təsirinə diqqət çəkərək, müxtəlif inkişaf ssenarilərinin modelləşdirilməsinə əsasən məhdudiyyətlər və hava sərhədlərinin bağlanması müddətindən asılı olaraq beynəlxalq turistlərin gəlişinin azalacağını vurğulayırlar. Bu təhlilin həcmi, 58%-dən 78%-ə qədər, sənayenin gələcək inkişaf perspektivləri isə son dərəcə qeyri-müəyyən olaraq qalır. Qeyd edilir ki, iqtisadi inkişafın bütün sahələrinə təsir edən qlobal pandemiya kontekstində sosial cəhətdən məsuliyyətli turizmi - dayanıqlı inkişafa, yəni iqtisadi artıma, ətraf mühitə yönəlmiş - inkişaf etdirmək lazımdır. COVID-19-un Gürcüstanın turizm sektoruna təsirini təhlil edərək, real vəziyyətə uyğunlaşmaq və otellər üçün yeni strategiyalar hazırlamaq zərurətini qeyd edirlər. Uyğunlaşdırılmış strategiyalar daxili turizmin inkişafına, daha stimullaşdırıcı qiymət mexanizminin tətbiqinə, eləcə də göstərilən turist xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və mühafizə tədbirlərinin gücləndirilməsinə yönəldilməlidir. Pandemiyanın Azərbaycanın turizm sektoruna təsirini təhlil edərək, milli turizm şirkətlərində zəruri dəyişikliklər, o cümlədən ilkin mərhələdə daxili turizmin və xüsusilə ekoloji turizmin inkişafı lazım gəlir. Burada, rəqəmsal texnologiyaların tətbiqi (şəhərlərə və muzeylərə virtual ekskursiyaların hazırlanması, yeni onlayn platformaların işə salınması), yeni hərəkət qaydalarının tətbiqi (peyvəndlər, maskanın məcburi taxılması, fiziki məsafəyə riayət edilməsi, viza qaydalarına dəyişiklik) və s. nəzərdə tutulur. Dünya Səyahət və Turizm Şurası (WTTC) turizm sənayesinin bərpası üçün öz tövsiyələrini verib. Tövsiyələr aşağıdakılardır:

1) Səyahət tövsiyələrinin ləğvi və səyahətçi sığortasının qarşısını alan qeyri-vacib beynəlxalq səfərlərə qadağalar;

2) Qlobal sağlamlıq və təhlükəsizlik protokollarının qəbulu, səyahət edənlərə səyahət təhlükəsizliyi təminatlarının verilməsi;

3) Virusun yayılmasının qarşısını almağa kömək edən sürətli test və izləmə strategiyasının qəbulu;

4) Böhrana standart və qlobal yanaşmanı təmin etmək üçün dövlət və özəl sektor arasında daha sıx əməkdaşlıq;

5) Vergi güzəştləri və likvidlik stimulları, habelə işçilərin müdafiəsi tədbirləri baxımından sektora dövlət dəstəyinin davam etdirilməsi.

**Nəticə**

Mövcud vəziyyətin qiymətləndirilməsi göstərir ki, bütün gələcək səfərlər yeni ssenariyə və yeni tələblərin tətbiqinə ehtiyac duyur. Bir çox Avropa ölkələri artıq səyahət edənlərdən peyvənd sertifikatının olmasını tələb edir (həmçinin Avropada qəbul edilən peyvəndlər, məsələn, Alman şirkəti tərəfindən istehsal olunan BioNTech və ya Amerika peyvəndi Pfizer). Sağlamlıq üçün riskləri minimuma endirmək və gələcək infeksiyaların qarşısını almaq üçün yeni qaydalara riayət etmək dünya ölkələrinin diqqət mərkəzində olacaq. Yeni "etik qaydalar"ın hazırlanması və onlara riayət edilməsi (turistlər, sakinlər və şirkətlər üçün) bizneslər, icmalar və turistlər üçün "məsuliyyətli davranış" və hesabatlılığı təmin etmək üçün ilkin şərt ola bilər. Səyahət şirkətləri bu gün öz fəaliyyətlərini ətraf mühitdəki dəyişikliklərə uyğun tənzimləməli və yeni şəraitə çevik uyğunlaşma siyasəti aparmalıdırlar. Nəzərə almaq lazımdır ki, bazarda bugünkü məhdudiyyətlər nəticəsində təxirə salınmış tələb var və bu tələbin həcmi kifayət qədər böyükdür. Belə şəraitdə daha çevik siyasət tətbiq edən turizm şirkətləri faydalana bilər. Vəziyyətdən daha sərfəli təkliflər hazırlamaq, daha yaxşı infrastruktur yaratmaq üçün istifadə etmək lazımdır. Rəqabət etmək üçün bu

sektordakı şirkətlər dəyişən tələblərə tez uyğunlaşmalı, həmçinin turizm sektorunda texnoloji layıhələr və rəqəmsallaşma inkişaf etdirməlidirlər. Onlayn platformalara tələbat günü-gündən artır və rəqəmsallaşma turizm sektoruna güclü təsir edir. . Bu məzmunda aşağıdakı təklifləri edə bilərik:

- Sosial-iqtisadi nəticələrin azaldılması üçün bir sıra tədbirlərin həyata keçirilməsi (iş yerlərinin qorunması, inamın və təhlükəsizliyin gücləndirilməsi, yeni sanitar qaydaların tətbiqi);
- İlk növbədə, daxili turizm bazarının inkişafı strategiyasının hazırlanması;
- Rəqabət qabiliyyətinin və davamlılığın gücləndirilməsi (turizm infrastrukturunun inkişafı, xidmətlərin keyfiyyətinin yüksəldilməsi, təkliflərin və bazarların şaxələndirilməsi, daxili turizmin inkişafına diqqətin yönəldilməsi);
- Rəqəmsallaşdırmanın tətbiqi (QR kodların, mobil proqramların, yeni texnologiyaların istifadəsi, sosial şəbəkələrdə onlayn ekskursiyaların təşkili və s.);
- Sosial məsuliyyətli turizmin inkişafı (yaşıl turizmin inkişafı üçün zəruri məhsulların və infrastrukturun yaradılması);
- Kütləvi turizmdən fərdi və kiçik turların təşkilinə keçid;
- Turizm sektorunun davamlı inkişafı və transformasiyası məqsədlərinə nail olmaq üçün bütün tərəflərin əlaqələndirilməsi və əməkdaşlığı.

Dünya Turizm Təşkilatının (UNWTO) verdiyi son məlumatlara əsasən, vaksinasiyanın qloballaşması və təhlükəsiz səyahət üçün imkanların genişlənməsi qarşıdakı aylarda və illərdə beynəlxalq hərəkətliliyin əhəmiyyətli artımına təsir göstərəcək. Lakin virusun ortaya çıxan yeni ştammları səyahət məhdudiyyətlərinin asanlaşdırılması və aradan qaldırılmasına mane olur. Bundan əlavə, ayrı-ayrı ölkələrdə test xərcləri, təyinat yerlərində mövcud qaydalar üzərində əlaqələndirilmə və aydınlığın olmaması, məhdud beynəlxalq əməkdaşlıq, virusun mutasiyası və yeni ştammlarının meydana çıxması ilə bağlı qeyri-müəyyənlik, vaksinlərin bölüşdürülməsində ədalətsizlik kimi problemlər bərpa prosesinin uzanmasına gətirib çıxarır. Digər bir problem isə, krizis keçirən turizm sektorunun postpandemiya dövründə turist axınını hansı səviyyədə qarşılaya biləcəyindən ibarətdir. Hazırda, ölkələrin qarşısında duran əsas məsələlərdən biri turizm sektorunun mövcud böhrandan "sağ çıxmasını" təmin etmək üçün müasir çağırışlar fonunda öhdəliklərinin yerinə yetirilməsidir.

### Ədəbiyyat siyahısı

1. Bayramov V.İ. Turizm sektorunun inkişafı prioritet istiqamətdir [Elektron resurs] // Xalq qəzeti, 2021, 20 iyun URL: https://www.xalqqazeti.com
2. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) rəsmi saytı: https://unctad.org
3. Mehmanxana və mehmanxana tipli müəssisələrin fəaliyyəti haqqında [Elektron resurs] // Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi saytı, 2021, 30 iyul. URL: https://www.economy.gov.az. https://www.stat.gov.az
4. "COVID-19 pandemiyası dövründə turizm sahəsinin inkişaf problemləri və ilkin iqtisadi nəticələri". Mingəçevir Dövlət Universiteti. Dayanıqlı inkişaf, cild 1, № 2, 2021.https://www.mdu.edu.az/images/pdf/JURNAL/2/16%20Memmedov%20S%20-%20VV.pdf
5. Exploring the impact of COVID-19 on tourism: transformational potential and implications for a sustainable recovery of the travel and leisure industry / Abbas J., Mubeen R., Iorember P.T. [et al.] [Elektron resurs] //

Current Research in Behavioral Sciences, 2021, v.2. URL: https://www.sciencedirect.com/science/article/pii/S2666518221000206
6. https://www.worldometers.info
7. http://stat.gov.az

**Verdiyev N. docent**
Azerbaijan Technology University

**Mammadov Jalali Ibadat oglu**
Master, Azerbaijan Technology University

## THE IMPACT OF THE COVID-19 PANDEMIC ON WORLD AND NATIONAL TOURISM, THE STATE OF THE TOURISM SECTOR IN THE POST-PANDEMIC PERIOD

### Abstract
The impact of the COVID-19 pandemic on tourism has been analyzed internationally and nationally in the article. Based on the statistical indicators reflected in the reports of international organizations, the importance of developing the tourism sector in the post-pandemic period on the basis of modern challenges was noted. The importance of preventing situations that could affect the tourism sector in the post-pandemic period and creating a flexible management mechanism in this direction was stressed.
**Keywords:** tourism sector, COVID-19 pandemic, national tourism, world tourism, postpandemic period.

**Вердиев Н. доц.**
Азербайджанский Технологический Университет
**Мамедов Джалали Ибадат оглы**
Магистр, Азербайджанский Технологический Университет

## ВЛИЯНИЕ ПАНДЕМИИ COVID-19 НА МИРОВОЙ И НАЦИОНАЛЬНЫЙ ТУРИЗМ, ПОЛОЖЕНИЕ СЕКТОРА ТУРИЗМА В ПОСТПАНДЕМИЧЕСКИЙ ПЕРИОД

### РЕЗЮМЕ
В статье проанализировано влияние пандемии COVID-19 на туризм на международном и национальном уровнях. На основе статистических показателей, отраженных в отчетах международных организаций, отмечена важность развития сферы туризма в постпандемический период на основе современных вызовов. Подчеркнута важность предотвращения ситуаций, которые могут повлиять на туристическую сферу в постпандемический период, и создания гибкого механизма управления в этом направлении.
**Ключевые слова:** туристическая сфера, пандемия COVID-19, национальный туризм, мировой туризм, постпандемический период.

**Daxil olub:** 15.02.2022

**Şəlalə Knyaz qızı Həsənova**
*Doktorant müəl.GDU*
*E-mail: qurbanova.shelale@mail.ru*

# TORPAQ, SU VƏ ƏMƏK RESURSLARINDAN AQRAR İSTEHSALDA SƏMƏRƏLİ İSTİFADƏ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə müasir şəraitdə ən aktual məsələlərdən hesab edilən aqrar sahədə istehsal resurslarından istifadənin səmərəliliyinin artırılması və resurs potensialı məsələləri tədqiq edilir. Aqrar sahədə istehsal resursları kimi torpaq, su və əmək resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi prioritetlərinin müəyyənləşdirilməsi resurs bazarının fəaliyyət istiqamətlərinin əsaslandırılması baxımından xüsusi aktuallıq kəsb edir. Deməli, torpaq, su və əmək resurslarından səmərəli istifadə aqrar iqtisadiyyatın inkişafının əsas şərtidir. Kənd təsərrüfatında istehsal strukturunun təkmilləşməsi və şaxələndirmə tədbirləri resurslardan daha səmərəli istifadəyə təşviq etməklə özünü istehsalın nəticələrinin səmərəliliyində büruzə verir. Belə ki, istehsal resurslarının istismarının genişlənməsi, iqtisadi inkişaf strategiyasında, o cümlədən kənd təsərrüfatının inkişafı meylləri baxımından müsbət tendensiyalara səbəb olmuşdur. Bu baxımdan sosial-iqtisadi potensialın qiymətləndirilməsi onun strukturunun təhlili, mövcud istehsal resurs potensiallarının müəyyən edilməsi, iqtisadi əlaqələrin qiymətləndirilməsi baxımından vacib məsələlərdəndir.

İstehsal resurslarından istifadənin səmərəliliyi isə kənd təsərrüfatının xüsusiyyətləri ilə yanaşı resursların spesifikliyindən bilavasitə asılı olduğundan bu məsələlərin kompleks şəkildə araşdırılmasına ehtiyac var.

**Açar sözlər:** istehsal potensialı, resurs, səmərə, intensiv inkişaf, rəqabət, sahibkarlıq, stimullaşdırma.

**UOT:** 338.224.222
**JEL:** Q18

**Giriş**

Son illər ölkəmizin iqtisadi inkişaf strategiyasında dünya iqtisadi modelinə inteqrasiya, regionların sürətli inkişafına nail olunması, ölkənin iqtisadi təhlükəsizliyinin təminatı və əhalinin maddi rifah halının yaxşılaşdırılması tədbirləri xüsusi yer tutur. Belə ki, ölkədə makroiqtisadi vəziyyətin sabitləşdirilməsi, beynəlxalq səviyyədə baş verən böhran hallarının təsirinin azaldılması, xarici iqtisadi əlaqələrin tənzimlənməsi, aqrar iqtisadiyyatın fəaliyyətinin yaxşılaşdırılması sahəsində əhəmiyyətli imkanlar mövcuddur.

Qloballaşma şəraitində ölkəmizdə son illər aqrar sahədə formalaşan yüksək dinamik mühit iqtisadiyyatın bu mühüm sferasında iqtisadi inkişaf mexanizminə daha yeni yanaşmalar tələb edir. Belə ki, iqtisadiyyatın inkişafının və əhalinin maddi rifahının yaxşılaşdırılmasının əsasını ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi təşkil edir. Bu baxımdan aqrar sahədə də iqtisadi inkişafın başlıca istiqaməti resurslardan səmərəli istifadə mühitinin formalaşdırılması hesab edilir.

**Mövzunun aktuallığı**

Aqrar sahədə resurslardan istifadənin iqtisadi səmərəliliyini müəyyən etmək olduqca zəruri məsələlərdən hesab edilir. İqtisadi artımla bağlı daxili potensialın müəyyənləşdirilməsi və mövcud resurslardan səmərəli istifadə etmək imkanı verən ehtiyatların aşkara çıxarılması xüsusilə vacibdir. Bu məsələlərin həlli resurslardan istifadə səviyyəsi ilə bilavasitə bağlıdır.

Təbiətin yaratdığı resurslardan səmərəli şəkildə istifadə etməyə çalışmaqla cəmiyyət özünün tələbatını ödəməyə səy göstərmişdir. İstehsal vasitələri təkmilləşdikcə, insanların resurslara təsir dairəsi intensivləşmiş, təbii ehti-

yatların istismarı genişlənmiş, nəticədə bir çox sahələrdə resurs çatışmazlığı problemləri yaranmışdır. Belə ki, istehsal resurslarından səmərəli istifadə etmək dövrümüzün ən aktual məsələlərindən birinə çevrilmişdir. Bu baxımdan aqrar sferanın inkişaf prioritetləri çərçivəsində istehsal potensialından səmərəli istifadənin stimullaşdırılması əhəmiyyətli rola malikdir.

Qloballaşan müasir dövrdə ölkəmizdə bazar münasibətlərinin formalaşması istehsal resurslarının düzgün və səmərəli istifadəsinə, nəticədə mövcud resurslardan daha məqsədyönlü istifadə olunmasına perspektivlər yaratdı.

Təbii ki, nəticə etibarilə bu məsələlərin həlli resurslardan istifadə səviyyəsinə görə , sosial-iqtisadi inkişafla bilavasitə bağlıdır. Sosial-iqtisadi inkişaf baxımından mövcud vəziyyətin qiymətləndirilməsi isə onun struktur təhlili, istehsal resurs potensiallarının müəyyən edilməsi, iqtisadi əlaqələrdə mövcud reallıqlar, perspektiv keyfiyyət dəyişikliklərinə nail olunmasının həlli məsələlərini önə çəkir.

**Araşdırmanın məqsədi a**qrar sahədə istehsal potensialından səmərəli istifadənin stimullaşdırılmasının iqtisadi inkişaf baxımından yüksəldilməsi ilə yanaşı, bu istiqamətdə nəzərdə tutulan tədbirlərin keyfiyyətindən və iqtisadi əsaslılığından əhəmiyyətli dərəcədə asılıdır.

İstehsal resurslarından istifadənin səmərəliliyinin artırılması, iqtisadi vəziyyətin yaxşılaşdırılması və mövcud imkanlardan daha təkmil istifadə yollarının müəyyən edilməsi ilə birbaşa bağlıdır.

Aqrar sahədə aparılan islahatların əsas xəttini mövcud istehsal resursları potensialının tam nəzərə alınması, istehsal resurslarının yerləşdirilməsi və istifadəsində onun xüsusiyyətlərinin qiymətləndirilməsi, struktur və mexanizmlərin iqtisadi və sosial inkişafın dünya standartlarına uyğun təkmilləşdirmələr yolu ilə inkişafının təmin edilməsi təşkil edir. Belə ki, son illərdə iqtisadiyyatın strukturunda sahibkarlıq və təşəbbüskarlıq zəminində rəqabətqabiliyyətli, qloballaşan dünyəvi iqtisadi sistem yaratmaq məqsədi əsas inkişaf istiqaməti kimi müəyyən edilmişdir [3].

**Tədqiqatın obyekti** olaraq kənd təsərrüfatında torpaq su və əmək resursları potensialından istifadə səviyyəsinin yaxşılaşdırılması və iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün elmi-metodiki müddəaların məlumat bazası öyrənilmiş və praktiki tövsiyələrdən istifadə edilmişdir.

**Kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi intensiv inkişaf amilləri ilə** bilavasitə bağlıdır. Hazırkı şəraitdə kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətini istehsalın intensivləşdirilməsi təşkil edir. Belə ki, intensiv inkişaf sahə vahidinə kapital qoyuluşlarının həcminin yüksəldilməsi ilə mütərəqqi texnologiyalar tətbiqi hesabına əldə edilir. Məlum həqiqətdir ki, aqrar sahədə inkişafın başlıca istiqaməti intensivləşmə və bu əsasda resurslardan səmərəli istifadə mühitinin formalaşdırılması hesab edilir.

Kənd təsərrüfatında istehsal resursları kimi torpaq, su və əmək resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi prioritetlərinin müəyyənləşdirilməsi resurs bazarının tənzimlənməsi istiqamətlərinin əsaslandırılması baxımından xüsusi aktuallıq kəsb edir. İlk növbədə kənd təsərrüfatında su və torpaq ehtiyatlarından istifadənin səmərəli həlli etibarlı məlumat sisteminin tətbiqi əsasında mümkündür.

Məhsul istehsalının artırılması ətraf mühitin mühafizəsi tələbləri ilə intensiv inkişaf amillərinin dəstəklənməsi hesabına müəyyən qədər məhdudlaşsa da son nəticədə bu, ölkənin resurs potensialından daha səmərəli istifadə üçün əlverişli mühit formalaşdırır.

**Araşdırmalar** Dövlət Statistika Komitəsinin rəsmi məlumatları, yerli və xarici iqtisadçı-alimlərin bu sahədə apardıqları elmi araşdırmalar, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin materialları həmçinin internet resurslarının məlumatları əsasında aparılıb.

**Kənd təsərrüfatında mühüm istehsal resursu olan torpaq resurslarından səmərəli istifadə**

İstehsal resurslarının mühüm tərkib hissəsi olan torpaq resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi, bir sıra istiqamətləri özündə birləşdirir. Bu baxımdan münbitliyin

bərpası irriqasiya və meliorasiya tədbirlərinin hərtərəfli əsaslandırılmasını, ən yeni texnoloji bazada zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutur ki, bu da öz növbəsində digər prioritet torpaq və su resurslarından səmərəli istifadəyə yönəlmiş bütün parametrlərin birgə reallaşdırılmasını özündə ehtiva edir [5].

Aqrotexniki tələblərə riayət olunması, mineral gübrələrdən istifadə rejiminin optimallaşdırılması, şoranlaşmış torpaqların yuyulması, əkin dövriyyəsinin elmi təşkili kimi torpaqların münbitliyinin bərpasına yönəlmiş tədbirlər, bilavasitə su resurslarından istifadənin səmərəliliyindən asılıdır.

Aqrar istehsal bir-bir ilə əlaqəli, bir-birindən asılı olan zəncirvari proseslərin təşkilinin keyfiyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Belə ki, istehsal prosesinin bir həlqəsində baş verən dəyişikliklər sonrakı mərhələlərə ciddi təsir edir.

Azərbaycanda suvarmanın kənd təsərrüfatı istehsalındakı rolu əhəmiyyətli olduğu üçün əkin sahələrinin etibarlı su təminatı iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi baxımından aktualdır. Ölkədə əhalinin artımı, torpaqların münbitliyinin azalması, kənd təsərrüfatı məhsullarının enerji tutumunun yüksəlməsi və bir sıra resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi prioritetlərini əsaslandırmaqla yanaşı iqtisadi və ekoloji meyarların birgə nəzərdən keçirilməsini zəruri şərt kimi qarşıya qoyur.

Bu baxımdan son illərdə ölkədə ərazinin eroziyası və torpaqların suvarılması ilə əlaqədar olaraq bir çox ekoloji problemlər meydana gəlib. Bu problemlərin inkişafı nəinki torpaqların qorunmasında və su ehtiyatlarından səmərəli istifadə edilməsində , hətta ətraf mühit üçün də təhlükə törədir. Belə ki, torpağın fiziki kimyəvi xassələrinin – su, duz, hava və s. rejimlərinin – yaxşılaşması üçün meliorasiya tədbirlərinin aparılması, eroziyadan qorunması, habelə digər tədbirlərin hər biri torpaqların münbitliyinin artması və mühafizəsinə xidmət etməlidir.

**Kənd təsərrüfatı istehsalında torpaq eroziyasının qarşısının alınması** baxımından texniki vasitələrdən istifadə edilməsi daha ciddi yanaşma tələb edir. İntensiv suvarma texnologiyasından istifadə dik yamaclarda humusun yuyulub getməsinə, ağır texnikanın əkin sahələrində gedişlərinin məhdudlaşdırılmaması torpağın üst qatının bərkiməsinə səbəb olur.

Belə ki, aktual problemə çevrilmiş hər nəfərə görə kənd təsərrüfatına yararlı torpaq sahələrinin azalmasına qarşı görülən tədbirlər kontekstində aşağıdakılara prioritetlik verilməlidir:

- ✓ *kənd təsərrüfatı istehsalçılarının mənafeyinin ön plana çəkilməsi. Belə olan halda kənd təsərrüfatına yararlı kiçik ölçülü torpaqlardan istifadəni çətinləşdirən səbəblər aradan qaldırılmalı.* Bu zaman suvarma üçün uzun illər yaradılmış yararlı sistem sənaye müdaxilələri nəticəsində pozulur, mövcud su hövzələrinin çirklənməsi istifadəni qeyri-mümkün edir. Ona görə də, hər iki problemə diqqət yetirilməsi zəruri məsələlərdən biri kimi özünü göstərir;
- ✓ *sudan istifadə texnologiyalarının təkmilləşdirilməsi zamanı torpaq örtüyünün mühafizəsi və keyfiyyətinin yüksəldilməsi, su ehtiyatlarından qənaətlə istifadə və yaxın su hövzələrinin çirkləndirilməməsi meyarları diqqət mərkəzində olmalı.*

Beləliklə, həm kənd təsərrüfatı istehsalı şəraitinin dəyişməsi, həm də ekoloji tələblərin sərtləşdirilməsi zərurəti əhali artımı və ehtiyatların məhdud olması baxımından suvarma əkinçiliyinin bu dəyişikliklərə uyğunlaşdırılmasını və səmərəli şəkildə idarə edilməsini şərtləndirən əsas məsələlərdəndir.

**Aqrar sahədə su təminatının yaxşılaşdırılması baxımından su resurslarından səmərəli istifadə**

Digər istehsal sahələri kimi aqrar sahədə istehsalın səmərəliliyi mövcud ehtiyatlardan düzgün və optimal istifadəyə əsaslanmalıdır. Ölkəmizdə bu yanaşmanın metodoloji əsası onunla şərtlənir ki, hansı yerdə ki su ehtiyatları məhduddur, məhz orada aqrar istehsalın səmərəliliyi vahid məhsul istehsalına sərf edilən su həcmi ilə qiymətləndirilməlidir. Torpaq ehtiyatlarının məhdud olduğu ərazilərdə suvarma əkinçiliyinin səmərəliliyi vahid becərilən

torpaq sahəsindən əldə edilən məhsul həcminin miqdarına görə qəbul edilir.

**Məhsuldarlığın yüksəldilməsi aqrar sahədə su təminatının yaxşılaşdırılması və su resurslarının səmərəli istifadəsi** ilə bilavasitə bağlıdır. Belə ki, suvarma sistemlərinin təkmilləşdirilməsi, habelə mövcud suvarma və kollektor drenaj şəbəkələrinin indiki təsərrüfat strukturuna uyğunlaşdırılması bu problemin həllinin strateji istiqamətlərindən biri kimi qəbul olunur.

**Mütərəqqi suvarma texnologiyaları** nəinki prosesin bütünlükdə avtomatlaşdırılmasını, həmçinin suvarma prosesinə nəzarətin avtomatlaşdırılmasını nəzərdə tutur. Müvafiq texnologiyaların qurulması və tətbiqi rejiminin optimallığının təmin edilməsi böyük miqdarda maliyyə vəsaiti tələb edir. Bu zaman, su resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsinin əsas şərti mütərəqqi suvarma texnologiyalarının tətbiqinin maliyyələşməsinin məqsədəuyğun mexanizminin işlənib hazırlanmasıdır.

Son illər kənd təsərrüfatına suvarma baxımından antropogen təsirlər nəticə etibarilə su mənbələrində suyun keyfiyyətinin pisləşməsinə səbəb olur. Bununla əlaqədar olaraq dünyada bir çox ölkələrdə olduğu kimi bizim ölkədə də suyun keyfiyyətinin yaxşılaşdırılması üzərində ardıcıl olaraq elmi-tədqiqat işləri aparılır. Əldə edilmiş nəticələrə əsasən suvarma suyunda duzların yol verilə bilən miqdarı torpağın mexaniki tərkibindən, fiziki-kimyəvi xassələrindən, bitkilərin duza davamlılığından, ərazinin drenləşmə dərəcəsindən və s. şərtlərdən asılı olaraq dəyişir.

Respublikanın kənd təsərrüfatının suvarma və içməli suya tələbatını ödəmək və onun səviyyəsini artırmaq üçün kanallar çəkilməsi, kanalların və sututarların təmizlənməsi, çay, dəniz və kanalizasiya sularından təmizləmə aparmaqla istifadə olunması diqqət mərkəzində olmalıdır.[4]

Respublikanın kənd təsərrüfatının intensivləşdirilməsi və inkişafı su təsərrüfatı tədbirlərinin ardıcıl, sistemli həyata keçirilməsindən asılıdır. Hazırda ölkənin suvarılan sahələrinin su ilə təmin edilməsi və torpaqları yuyaraq onların duzlardan təmizlənməsi üçün 55 min kilometrdən çox daimi suvarma kanallarından, 25 min kilometrdən çox hidrotexniki qurğulardan, 16 min km kollektor- drenaj şəbəkələrindən istifadə olunur.

Respublikanın ərazisində becərilən bitkilərin suvarılması 1) çay suları, 2) artezian quyuları, 3) damcılarla suvarma, 4) təbii yolla-yağış suları ilə həyata keçirilir. 1424,4 min hektar cəmi suvarılan torpaqların 1421 min hektarı kənd təsərrüfatına yararlı sahədir.[4]

Bir neçə ölkənin təcrübəsinin araşdırmaları göstərir ki, sudan istifadənin səmərəliliyi üzrə müqayisəli qiymətləndirmə məqsədi ilə, suvarmada suyun istehlakı ölkənin yerləşdiyi regiondan [quraqlıq dərəcəsindən], su ehtiyatlarının mövcud olmasından, torpağın xüsusiyyətindən, tətbiq edilən əkin strukturundan və suvarma texnologiyalarından əhəmiyyətli dərəcədə asılıdır.

Torpaq və su resursları bazarının formalaşdığı şəraitdə real və cari qiymətlər arasında fərqlər alqı-satqı münasibətlərinin inkişafını ləngidir. Problemin həlli bank-maliyyə sistemində sağlamlaşdırıcı tədbirlərin kompleksliyini, kənd təsərrüfatının obyektiv xüsusiyyətləri nəzərə alınmaqla girov mexanizminin təkmilləşdirilməsini, torpaq və qiymətli kağızlar bazarının bir-birinə qarşılıqlı nüfuz etməsinin fəal surətdə dəstəklənməsini tələb edir. Beləliklə resursların real qiyməti onların istifadəsi prosesində şəffaflığın artırılması üçün zəruri ilkin şərtdir. Araşdırmalara əsasən bu tədbirlərin həyata keçirilməsi imkanlarının qiymətləndirilməsi və reallaşdırılması prioritetlik verilməsini tələb edir.

Respublikanın ərazisində becərilən bitkilərin ölkənin təbii-təsərrüfat şəraitinə uyğunlaşdırılması , o cümlədən iri taxılçılıq təsərrüfatlarının və yeni aqroparkların yaradılması növbəti illərdə suvarılan torpaq sahələrinin artımına səbəb olacaqdır.

Beləliklə, ölkədə aqrar sahədə dayanıqlı inkişaf suvarılan torpaqların münbitliyinin qorunması, məhsuldarlığın yüksəldilməsi, sahələrin su ilə təminatının yaxşılaşdırılması məqsədi

ilə suvarma və meliorasiya sistemlərinin iş fəaliyyətinin təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsini tələb edir.

**Aqrar sahədə sahibkarlıq üçün əlverişli mühitin yaradılması resursların səmərəli istifadəsi,** mövcud potensialın reallaşdırılması baxımından geniş imkanlar açır. Sahibkarlığın inkişafı şəraitində kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyi baxımından ən mühüm istiqamətlərdən biri istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsidir. Bazar münasibətlərinin formalaşmasının hazırkı mərhələsində sahibkarlıq amili aqrar sahədə resurs bazarının iştirakçılarının səfərbər edilməsində də mühüm rol oynayır [2].

İstehsal resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi aqrar resurs bazarının təşəkkülündə həlledici istiqamətlərdən biridir. İnnovasiyaların stimullaşdırılması nəticə etibarilə **innovasiyalı inkişaf potensialının** reallaşdırılmasında mühüm rol oynayır.

Kənd təsərrüfatında istehsalın texniki vasitələrlə təminatı, maşın və avadanlıqların optimal kompleksləşdirilməsi, avtomatlaşdırılmış aqroemal xətlərinin təşkili və istismarı, məhsul satışının ən qabaqcıl üsullarının mənimsənilməsi və digər bu kimi böyük maliyyə tutumlu layihələrin həyata keçirilməsi kəskinləşən rəqabət şəraitinə uyğun təsərrüfatçılığın zəruri şərtləridir

**Resurslardan səmərəli istifadənin innovasiyalı istiqaməti** intensiv aqrotexnologiyaların, mütərəqqi təsərrüfatçılıq formalarının, resursqoruyucu üsulların geniş tətbiqini nəzərdə tutur.

Resursqoruma müasir aqrar sahənin əsas inkişaf xətti olmaqla kənd təsərrüfatı məhsulunun istehsaldan son istehlakçıya qədər çatdırılmasının bütün mərhələlərində innovasiyalı yanaşma sayəsində mümkündür.

**Aqrar sahədə resursqoruma baxımından geniş imkanlar mövcuddur ki, bunlara aşağdakıları aid edə bilərik:**

- resursların çoxtəyinatlı istifadəsi barədə zəruri informasiyaya malik olan aqrar istehsalçı və emalçı bazarın konyunkturuna uyğun daha çevik hərəkət etmək imkanı qazanması;
- aqromarketinq tədqiqatları sayəsində əmtəəlik kənd təsərrüfatı istehsalını genişləndirmək və tələb-təklif nisbətinə vaxtında reaksiya vermək üçün ilkin şərait yaradılması;
- risklərin qiymətləndirilməsi və aradan qaldırılması üçün aqrar istehsalçının profilaktik tədbirlər görmək imkanlarının artırılması və i.a.

İstehsal resurslarından səmərəli istifadə kənd təsərrüfatı istehsalçısı, emalçısı, təchizatçısı və lizinq verən tərəfindən risklərin elmi əsaslandırılmış menecmenti şəraitində mümkündür. Əks halda aqrar resurslar bazarında dayanıqlı tarazlığın əldə edilməsi və müasir bazar texnologiyalarının inkişafı ciddi problemlərlə üzləşir. Bu baxımdan resurs bazarında etibarlı tərəfdaşlar kimi iştirak edən kənd təsərrüfatı texnikası istehsalçıları və aqroemal müəssisələri arasında qarşılıqlı maraqlar baxımından iqtisadi münasibətlərə üstünlük verilməlidir [6].

**Əmək resurslarından səmərəli istifadə prioritetləri**

Aqrar sahədə inkişafın başlıca istehsal resursu kimi iş qüvvəsindən istifadənin səmərəliliyi makro və mikromühitin amillər kompleksindən asılıdır. Əmək resurslarından səmərəli istifadə prioritetlərini müəyyənləşdirmək üçün həmin resursların kəmiyyət və keyfiyyətində baş vermiş dəyişiklikləri nəzərdən keçirməyə ehtiyac vardır. Bu baxımdan, tədqiqatlar göstərir ki, əmək resurslarından istifadə və istehsalın intensivləşməsi, rəqabət qabiliyyətli məhsul istehsalının genişlənməsi və aqrar sahədə çalışanların gəlirlərinin artması imkanlarının reallaşması məsələlərinin sistemli araşdırılması zərurəti ortaya çıxarılmış, iqtisadi fəallığın yüksəldilməsi barədə bəzi müddəa və tövsiyələr əsaslandırılmışdır [4].

Əmək resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsinin vacib şərti ixtisaslı kadrlar hazırlığı sistemini təkmilləşdirməkdir. Aqrar islahat dövründə kənd təsərrüfatının intensiv inkişafı baxımından istehsalın və əməyin təşkilində aparıcı mövqe tutan yeni kadrların rolu həlledicidir. Belə ki, kənd təsərrüfatının intensiv inkişafında kadrlar müasir iş üsullarını dərindən mənimsəməli, intensiv aqrotexnologiyaların tətbiqində, riskli və qeyri-standart şəraitlərdə əsaslandırılmış qərarlar

qəbul etməli, eyni zamanda çevik manevr etmək qabiliyyətinə malik olmalıdırlar.

Aqrar sahədə mövcud olan bir sıra problemləri (istehsal vasitələrindən istifadənin, idarəetmə səviyyəsinin aşağı səviyyədə olması, maliyyə vəsaitlərinin, ixtisaslaşmış kadrların çatışmazlığı və s.) də nəzərə alsaq ölkənin iqtisadi mənafeyinə uyğun sahələrin müəyyənləşdirilməsi zəruri məsələlərdən birinə çevrilir.

Aqrar istehsalın artımı baxımından dinamikliyin davamlı saxlanılması üçün əmək resurslarının inkişafı və bu əsasda innovativ texnologiyalarla işləmək, aqrotexniki qaydalara düzgün əməl etmək, istehsal resurslarından səmərəli istifadə etmək sahəsində bilik və bacarıqların yüksəldilməsi probleminin həlli xüsusi əhəmiyyət kəsb edir.

Aqrar istehsalın innovativ inkişafı baxımından yüksək ixtisaslı mütəxəssislər hazırlığının genişləndirilməsi bu sahədə təhsilin keyfiyyətinin yüksəldilməsini, habelə mütəxəssislərin bilavasitə qazandıqları ixtisas üzrə kənd yerlərində uzun müddət işləmələrinin stimullaşdırılması yönümündə təsirli tədbirlərin həyata keçirilməsini tələb edir.

**Nəticə**

Deməli, istehsal resurslardan səmərəli istifadəyə istiqamətlənmiş tədbirlərin məqsədlərindən biri məhz prioritet istehsal sahələrinin yaradılmasını və inkişaf etdirilməsini təmin edən, ən qabaqcıl beynəlxalq təcrübəni nəzərə alan dövlətlərarası standartların nəzərə alınması olmasıdır.

Qeyd edilənlər göstərir ki, aqrar sferada istehsal resurslarından istifadənin səmərəliliyinə nail olmaq üçün konkret istehsal ərazisinin resurs imkanlarını, həmin ərazinin iqtisadiyyatının hər bir sahəsinin inkişaf xüsusiyyətlərini nəzərə almaq vacibdir. Bu, bütövlükdə aqrar iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsinin başlıca şərtlərindən olmaqla istehsal olunan məhsula daxili və xarici tələbi formalaşdıran güclü alət kimi özünü göstərir.

Aqrar sahənin inkişafı və istehsalın artımı daxili resurslardan daha səmərəli istifadə hesabına mümkündür. Bu siyasətin səmərəli şəkildə reallaşdırılması üçün isə dövlət tərəfindən alıcılıq qabiliyyətli tələb yaratmaq və kənd təsərrüfatı müəssisələrinin kifayət qədər maliyyələşdirilməsi məsələsinin davamlığını təmin etmək, bütövlükdə stimullaşdırma tədbirlərini genişləndirmək ən mühüm prioritetlərdən olmalıdır.

Beləliklə, araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, aqrar sahədə torpaq, su və əmək resurslarından səmərəli istifadə iqtisadiyyatın bu mühüm sferasının inkişafının əsas şərtidir. Belə ki, torpaq, su və əmək resurslarından istifadənin səmərəliliyi kənd təsərrüfatının xüsusiyyətləri ilə yanaşı resursların hər birinin spesifikliyi ilə bilavasitə bağlı olduğundan bu məsələlərə paralel olaraq diqqət yetirilməlidir.

Bu istiqamətlərdə irəliləyişlərin sürətləndirilməsi məqsədilə:

- istifadəsiz torpaqlarda texniki imkanlardan istifadə etməklə düzgün planlaşdırma, meliorasiya, rekultivasiya işləri aparılarsa, torpaqlar sanitar-gigiyenik tələblərə cavab verər və beləliklə, biz torpaq ehtiyatlarımızı qorumuş olarıq.
- Ölkədə torpaqların təbii-təsərrüfat göstəricilərindən, təsərrüfatların maliyyə və texniki təminatından asılı olaraq meliorativ vəziyyətin tənzimlənməsi baxımından ekoloji vəziyyətin yaxşılaşdırılması və qorunması ilə bağlı məsələlərin həllinin sürətləndirilməsi
- suvarma suyunda duzların yol verilə bilən miqdarı torpağın mexaniki tərkibindən, onun fiziki-kimyəvi xassələrindən, bitkilərin duza davamlılığından, ərazinin drenləşmə dərəcəsindən və s. şərtlərdən asılı olaraq keyfiyyətinin yaxşılaşdırılması ilə əlaqədar elmi-tədqiqat işlərinin aparılması
- kənd təsərrüfatında suvarmada sudan istifadənin əsas problemlərinin həlli kompleks yanaşma tələb etməklə idarəetmə, investisiya ehtiyaclarının müəyyənləşdirilməsində institusional potensialın möhkəmləndirilməsi tədbirləri, fermerlər arasında əkinçilik mədəniyyətinin yüksəldilməsi və bir sıra stimullaşdırma alətlərinin tətbiqinin zəruri olması
- kənd təsərrüfatında yüksək ixtisaslı mütəxəssislərlə təminatın əsaslı yaxşılaşdırılması

mexanizminin inkişaf etdirilməsi, habelə istehsalçıların bilik və bacarıqlarının yüksəldilməsinin tam əhatəli və fasiləsiz prosesə çevrilməsini əhatə edən sistemin qurulması;

### İstifadə edilmiş ədəbiyyat:

1. Alıyev İ.H, Soltanlı İ.Q. Aqrar sahənin modernləşməsi və rəqabətqabiliyyətliliyin təmin olunması. Bakı: Avropa – 2017. 428 s.
2. Abbasov V.H. Aqrar iqtisadiyyat. "Ecopint nəşriyyatı". Bakı 2017. 468 s.
3. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı 2006, 380 s.
4. İbrahimov İ.H.Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya. Bakı 2016. 655 s.
5. Попов Н.А. Основы рыночной агроэкономики и сельского предпринимательства. Москва-2001, 352 с.
6. Романов А.П., Губанова М.Н. Экономический потенциал предприятия и его связи с ресурсным и производственным потенциалами. Вопросы современной науки и практики– 2010. – № 7-9. – С. 223-229.
7. http://www.agro.gov.az., Kənd Təsərrüfatı Nazirliyi
8. http://www.azstat.gov.az.,Azərbaycan Respublikasının *Dövlət Statistika* Komitəsi.

***Shalale Knyaz gizi Hasanova***
GDU's doktorant,

## Efficient use of production resources as a main condition for the development of agricultural economy

### Abstract

The article examines the issues of increasing the efficiency of the use of production resources and resource potential in the agricultural sector, which is considered one of the most pressing issues in modern conditions. Determining the priorities for improving the efficiency of land, water, labor and resource use as productive resources in the agricultural sector is particularly relevant in terms of justifying the activities of the resource market. Thus, the efficient use of land, water and labor resources is a key condition for the development of the agrarian economy. Improving the structure of production in agriculture and diversification measures are reflected in the efficiency of production results by promoting more efficient use of resources. Thus, the expansion of the use of production resources has led to positive trends in economic development strategy, including in terms of agricultural development trends. From this point of view, the assessment of socio-economic potential is one of the important issues in terms of analysis of its structure, identification of existing production resource potentials, assessment of economic relations.

Since the efficiency of the use of production resources depends not only on the specifics of agriculture, but also on the specifics of the resources, there is a need for a comprehensive study of these issues.

***Key words:*** production potential, resource, efficiency, intensive development, competition, entrepreneurship, stimulus.

**Шалала Князь кызы Гасанова**
Докторант ГГУ,

## Эффективное использование производственных ресурсов как основное условие развития сельскохозяйственной экономики

**Резюме**

В статье рассматриваются вопросы повышения эффективности использования производственных ресурсов и ресурсного потенциала в агропромышленном комплексе, что считается одним из наиболее актуальных вопросов в современных условиях. Определение приоритетов повышения эффективности использования земли, воды, труда и ресурсов как производственных ресурсов в агропромышленном комплексе особенно актуально с точки зрения обоснования деятельности рынка ресурсов. Таким образом, эффективное использование земельных, водных и трудовых ресурсов является ключевым условием развития аграрной экономики. Улучшение структуры производства в сельском хозяйстве и меры по диверсификации отражаются на эффективности результатов производства, способствуя более эффективному использованию ресурсов. Таким образом, расширение использования производственных ресурсов привело к положительным тенденциям в стратегии развития экономики, в том числе с точки зрения направлений развития сельского хозяйства. С этой точки зрения оценка социально-экономического потенциала является одним из важных вопросов с точки зрения анализа его структуры, выявления существующих производственных ресурсных потенциалов, оценки экономических отношений.

Поскольку эффективность использования производственных ресурсов зависит не только от специфики сельского хозяйства, но и от специфики ресурсов, возникает необходимость комплексного изучения этих вопросов.

***Ключевые слова:*** производственный потенциал, ресурс, польза, интенсивное развитие, конкуренция, предпринимательства, стимул

**Daxil olub:** 02.03.2021

**Məlahət Firqət qızı Rəhimova**
Mingəçevir Dövlət Universiteti,
E mail: rehimova77@list.ru

# AQRAR SAHƏDƏ İNNOVASİYA STRATEGİYASININ REALLAŞDIRILMASI MEXANİZMİ

**Xülasə**

Aqrar sahədə innovasiya strategiyasının həyata keçirilməsi bu strategiyanın formalaşdırılması və reallaşdırılması ilə bağlı zəruri fəaliyyətlərin əlaqələndirilməsini, prosesə sistemli yanaşılmasını nəzərdə tutur. İnnovasiya strategiyasının reallaşdırılmasına sistemli yanaşmanın məzmunu innovasiya fəaliyyətinin kompleks şəkildə dərk edilməsindən, əsas məqsəd və vəzifələrin müəyyən edilməsindən və strukturlaşdırılmasından, qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi mexanizmindən ibarətdir. Bu prosesdə innovasiya strategiyasının effektivliyinin qiymətləndirilməsi xüsusi önəm kəsb edir.

**Açar sözlər:** innovasiya strategiyası, effektivlik, qiymətləndirmə, infrastruktur, modernləşdirmə, səmərə.

**UOT:** 332.145
**JEL:** J 75

**Giriş**

Aqrar sahədə innovasiya strategiyasının həyata keçirilməsi bu strategiyanın formalaşdırılması və reallaşdırılması ilə bağlı səlahiyyətlərin, vəzifələrin bölüşdürülməsi, zəruri fəaliyyətlərin əlaqələndirilməsini nəzərdə tutan tədbirlər kompleksini əhatə edir. İnnovasiya strategiyasının həyata keçirilməsi aqrar sahənin innovativ inkişaf perspektivlərinin qiymətləndirilməsinin əsas üsullarını ehtiva edir. İqtisadi ədəbiyyatda həmin üsullara aşağıdakılar daxil edilir: texnoloji audit, biznes planlaması; büdcə sistemi; iqtisadi təhlilə əsaslanan idarəetmə sistemi; kənarlaşmaların təhlili; balanslaşdırılmış üsullar və s. İnnovativ inkişaf perspektivlərinin qiymətləndirilməsinin texnoloji auditi aqrar subyektlərdə həyata keçirilən proseslərin və istifadə olunan prosedurların səmərəlilik meyarları baxımından yoxlanılması və nəzarət edilməsini ehtiva edir. İnnovativ inkişaf strategiyasının həyata keçirilməsinin tərkib hissəsi kimi, bu metodoloji yanaşma innovativ audit də adlandırılır. Aqrar sahənin innovativ inkişafı bir-biri ilə əlaqəli və bir-birindən asılı elementlər toplusuna malik komponentlərdən asılı olduğundan, innovativ inkişaf strategiyasının həyata keçirilməsi prosesinə sistem yanaşması nöqteyi-nəzərindən baxmaq daha məqsədəuyğundur.

Aqrar sahədə innovasiya strategiyasının həyata keçirilməsi prosesinə sistemli yanaşmanın məzmunu innovasiyanın sistemli şəkildə dərk edilməsindən, innovasiyanın əsas məqsəd və vəzifələrinin müəyyən edilməsindən və strukturlaşdırılmasından, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün göstəricilərin işlənib hazırlanmasından, habelə onun həyata keçirilməsinə nəzarət mexanizmindən ibarətdir. Bu prosesdə innovasiya strategiyasının effektivliyinin qiymətləndirilməsi xüsusilə zəruridir. İnnovasiya strategiyasının həyata keçirilməsi

müvafiq strategiyada nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün taktiki və operativ tədbirlər kompleksinin işlənib hazırlanmasını nəzərdə tutur. Araşdırmalar göstərir ki, kənd təsərrüfatında innovasiyaların tətbiqinin səmərəliliyinə müxtəlif amillər mənfi təsir göstərir. Bu baxımdan inkişaf strategiyalarında bir çox büdcə göstəriciləri yenidən hesablama və düzəlişlərə məruz qalır, maliyyə göstəricilərində dalğalanmalar baş verir və s. Ona görə də, əlavə dəyər əldə etməyə yönəlmiş innovasiya strategiyasında iqtisadi effektivlik başlıca meyar olaraq qəbul edilir. Bununla belə, innovasiya strategiyasında qısamüddətli faydalara yönəlmiş qərarlar da qəbul oluna bilər. Bu zaman, uzunmüddətli uğurun amilləri deyil, yalnız maliyyə göstəriciləri əsas kimi nəzərə alınır. Qeyd edilənlər aqrar sahədə innovasiya strategiyasının formalaşdırılması və reallaşdırılması ilə bağlı problemlərin aktuallığını təsdiq edir.

Tədqiqatın məqsədi aqrar sahədə innovasiya strategiyasının reallaşdırılması mexanizmini araşdırmaqla innovasiya potensialından və ondan istifadə istifadə imkanlarının müəyyən edilməsindən ibarətdir.

**Ədəbiyyata baxış**

**Aqrar sahədə** innovasiya strategiyasının formalaşdırılması və həyata keçirilməsi adekvat innovativ idarəetmə sisteminin formalaşdırılması ilə bilavasitə bağlı olan məsələdir. İqtisadi ədəbiyyatda bu prosesdə ən böyük uğur məhz innovativ strategiyaya söykənən yeni idarəetmə sisteminin tətbiqi ilə əlaqələndirilir. Araşdırmalar göstərir ki, daha təkmil idarəetmə sisteminə nə qədər çevik inteqrasiya edilərsə, innovasiya fəaliyyətində uğurlu nəticələr əldə etmək ehtimalı da bir o qədər yüksələr. Fikrimizcə, innovativ inkişaf strategiyasını həyata keçirmək üçün bu, ən təsirli üsuldur, çünki belə sistemi tətbiq etməklə idarəetmənin bütün səviyyələrində innovasiya strategiyasına uyğun mexanizm əldə etmək mümkün olur. Belə vəziyyət özünü maliyyə göstəricilərinin perspektivlərini və potensialını qiymətləndirmək sistemi ilə tamamlayır.

Qeyd edilənlərlə bağlı iqtisadi ədəbiyyatlarda müxtəlif elmi yanaşmalara rast gəlmək mümkündür. İnnovasiya nəzəriyyəsinin banisi İ.A.Schumpeter hesab olunur. Yeniliyin ilk tam təsvirini verən məhz Schumpeter olmuşdur. İnnovasiyaların mövcud material və əmək ehtiyatlarını birləşdirmək üçün vasitələr istehsal etmək, yəni müxtəlif istehsal üsulları hesabına həmin mənbələrin müəyyən bir qaydada birləşməsini təmin etmək məqsədi daşıması bu konsepsiyanın mahiyyətini təşkil edir [6, s.62]. Beləliklə, müəllif yenilikləri həm də istehsal amili hesab edərək , həmin yeniliklərin tətbiqinin aşağıdakı vəziyyətlərini müəyyənləşdirir:

- istehlakçılara məlum olmayan yeni bir məhsulun və ya keyfiyyətli bir məhsulun yaradılması. Bu yenilik, təkcə tamamilə yeni bir məhsulun yaranmasını deyil, həm də mövcud məhsula yeni xüsusiyyətlərin verilməsini, o cümlədən köhnə məhsulun modernləşdirilməsini ifadə edir;
- elmi kəşflər yeni istehsal üsulunun yaradılmasından, yeni metod məhsulların kommersiya məqsədli istifadəsini təmin etməkdən ibarət ola bilər. Bu, yeni istehsal üsulunun köhnə biliklərə söykənə biləcəyi vəziyyətə bənzəyir. Bununla birlikdə yenilik anlayışının məhdudiyyətlərini yalnız yeni bir məhsul yaratmaq kimi qiymətləndirmək olar.

İnnovasiya siyasəti özünün strategiyasından, məqsədlərindən və maliyyə imkanlarından asılı olaraq mövcud istehsal amillərinin mənbələrini, satış bazarlarını və istehsal üsullarını yeniliyə uyğunlaşdırmaqdan və ya tamamilə yeni elmi ideyaları tətbiq etmək-

dən, yeni bazarların açılmasından, həmçinin məhsul istehsalından ibarət ola bilər. Belə yanaşma innovasiyanın texniki, iqtisadi və təşkilati mahiyyətini müəyyənləşdirir.

Yeni texnologiyaların tətbiqi bir-biri ilə əlaqəli istehsal sahələrinin inkişafını və hərtərəfli keyfiyyət dəyişikliyini xarakterizə edən başlıca amilə çevrilməkdədir. Ona görə də, texnologiya anlayışı daha geniş olmaqla istehsal fəaliyyətinin təşkilati və idarəetmə aspektlərini də əhatə edir. V.Tribuşnaya qeyd edilənləri nəzərə alaraq, innovativ prosesləri elmi və texnoloji potensialın, maddi, maliyyə və informasiya resurslarının, eləcə də elmi tədqiqatların təşkilati, ərazi və idarəetmə strukturlarının məcmusu kimi qiymətləndirir [4, s.26].

Azərbaycanın iqtisadçı alimlərindən F.Qasımov innovasiyanı texnologiyaların keyfiyyətinin təkmilləşdirilmə tədbirləri hesabına yaxşılaşdırılması prosesi kimi şərh edir. [3, s.17]. İnnovasiyaları elmi-texniki yenilik kimi qiymətləndirən A.H.Tagıyev onu xüsusilə elmi tutumlu layihələrin reallaşdırılmasında əhəmiyyətli vasitələrdən biri hesab edir [2, s.21].

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, aqrar sahədə innovativ inkişaf strategiyasının həyata keçirilməsi mexanizmi, bu strategiyanı bir-biri ilə əlaqəli göstəricilər şəklində təqdim olunan məqsədlərə nail olunmasına davamlı olaraq nəzarət etmək imkanını təmin edən taktikalarla əlaqələndirməyə imkan verir. İnnovativ məqsədlər və onlara nail olmaq yolları, strateji (uzunmüddətli) və taktiki (qısamüddətli) məqsədlər arasında əlaqəni aydın şəkildə əks etdirir. İnnovasiya strategiyasının daha dəqiq formalaşdırılması üçün tənzimləyici sistem onun qiymətləndirilməsi və həyata keçirilməsi üçün effektiv mexanizmdir. Bu mexanizm innovasiya strategiyasının sadə və ardıcıl şəkildə həyata keçirilmə mərhələlərini təqdim edir. Təsadüfi deyil ki, dövlət tərəfindən "innovativ inkişaf sahəsində effektivliyin artırılması və koordinasiyanın təmin edilməsi məqsədi ilə" zəruri tədbirlər görülməkdədir [1].

**Tədqiqatın metodologiyası.**

Tədqiqat zamanı təhlil metodundan istifadə edilərək mövcud problemin hərtərəfli şəkildə öyrənilməsi üçün materiallar sistemləşdirilmişdir. Bundan sonra analiz və sintez metodları ilə problemin elementləri qarşılıqlı şəkildə tədqiq edilmişdir. Beləliklə, qeyd edilən metodlar qarşıya qoyulmuş vəzifənin yerinə yetirilməsinə imkan vermişdir.

**Nəzəri və ya Empirik tədqiqatın nəticəsi.**

Aqrar sahədə innovativ inkişaf strategiyasının həyata keçirilməsi mexanizmi və elementləri, strateji məqsədlərin reallaşdırılmasına yönəlmiş vahid kompleksdə birləşdirilir. İnnovasiyasının hər bir istiqaməti üçün strateji məqsədləri aralarındakı səbəb-nəticə əlaqələri əsasında qarşılıqlı əlaqə və asılılıqla rəsmiləşdirilmiş formada əks etdirən strateji xəritələr təşkil edir. İnnovasiyanın əhəmiyyəti xüsusilə aqrar sahə üçün xarakterik olan qeyri-sabit və dəyişə bilən xarici mühitlə bağlıdır. Belə şəraitdə innovasiyalar iqtisadi proseslərə daha effektiv təsir göstərir: əhalinin həyat səviyyəsinin dəyişməsinə səbəb olur; xarici mühitdəki dəyişikliklərlə bağlı mövcud və yarana biləcək ehtiyaclara cavab verən yeni işgüzar münasibətlərin istiqamətini müəyyənləşdirir; elmi və texnoloji nailiyyətlərdən istifadəyə və böyük həcmdə informasiyaları idarə etməyə imkan verir; istehlakçıların tələbatına uyğun daha effektiv məhsul və xidmətlər yaratmaq və çatdırmaq üçün imkanlar yaradır; yeni biliklər təkcə məhsul və xidmətləri təkmilləşdirməyə deyil, həm də məhsulların maya dəyərini aşağı salmağa və

keyfiyyətini yaxşılaşdırmağa imkan verir və s.

Aqrar sahədə innovativ inkişaf strategiyasının həyata keçirilməsi mexanizmi, uzunmüddətli, ortamüddətli və taktiki məqsədlər arasında əlaqə qurmağa imkan verir. İnnovasiya strategiyasının həyata keçirilməsi prosesinin bütün səviyyələrində məqsədlər konkret strateji hədəflərə çevrilir, strateji məqsədlər və göstəricilər arasında uyğunluq yaradılır, beləliklə məqsəd və vəzifələrin uzlaşdırılmasına nail olunur. İnnovasiya strategiyası motivasiya sistemi vasitəsilə fəaliyyətlərin daha səmərəli nəticələrinə nail olunmasını stimullaşdırır və eyni zamanda strateji məqsədlərin həyata keçirilməsi üçün güclü stimul yaradır. Bu baxımdan nəzərdə tutulan tədbirlər strateji idarəetməni vahid davamlı prosesə inteqrasiya edərək strateji məqsədlərin həyata keçirilməsini təmin edir. Strategiyanı fəaliyyətə çevirmək, yəni gündəlik fəaliyyətlərə innovativ strategiyanın tətbiqi başlıca vəzifələrdəndir. Bundan əlavə, müvafiq strategiya qarşıya çıxan problemlərin səbəblərini müəyyən etməyə və onların aradan qaldırılması üçün tədbirlər hazırlamağa kömək edir.

Araşdırmalar göstərir ki, innovasiya strategiyasının həyata keçirilməsi strategiyanın özünün həyat qabiliyyəti və effektivliyi haqqında məlumat almaq, ehtiyac yarandıqda strategiyanın reallaşdırılması mexanizmini tənzimləmək imkanlarını müəyyənləşdirir. Qeyd edilənlər maraqlı tərəflərin məqsədlərinin innovasiya strategiyasına inteqrasiyasını təmin edir. Aqrar sahədə innovativ strategiyanın həyata keçirilməsi prosesində ən vacib və texniki cəhətdən mürəkkəb məsələ bu prosesdə bir-biri ilə əlaqəli komponenlərin əsas meyarlarının nəzərə alınmasıdır. Bu meyarlar aşağıdakı komponentlərdən ibarətdir: maliyyə, marketinq və inkişaf. Qeyd edilən komponentlərin seçimi iki əsas meyara cavab verməlidir:

1. Məqsədlərin qoyulması aydın və konkret olmalı, nəzarət oluna bilən kəmiyyət göstəriciləri ilə xarakterizə olunmalıdır.

2. Kəmiyyət göstəricilərinin mövqeyi və strateji rəqiblərin mövqeyi ilə əlaqəyə əsaslanmalıdır.

Komponentlərin məqsədlərini formalaşdırmaq ardıcıllığı hərəkətlərin ardıcıllığından və onların nəticələrindən asılıdır. Bu zaman əsas diqqət maliyyə kapitalına yönəlir. Maliyyə kapitalının artırılması əsas məqsəddir və maliyyə komponenti, müvafiq olaraq, iyerarxik şəkildə təşkil edilmiş ən yüksək səviyyədir. Növbəti mərhələdə marketinq komponenti ilə bağlı məqsədlər formalaşdırılır - yeni bazarlara daxil olmaq, müştəri etibarının arzu olunan səviyyəsi, xərclər və s. Aşağı səviyyə inkişaf komponentini təmsil edir ki, bu da ümumi strategiyanın əsasını təşkil edir. İnnovasiya strategiyasını formalaşdırarkən, strateji məqsədlərə nail olmaq üçün zəruri olan göstəricilərin hədəf və ya nəzarət dəyərləri müəyyən edilir. Eyni zamanda innovasiya strategiyasının həyata keçirilməsi prosesində göstəricilərin faktiki dəyərlərinə nəzarət edilir. Hər bir komponent üçün məqsəd və fəaliyyət göstəriciləri, həmçinin həyata keçirmə xərcləri və layihənin vaxtı müəyyən edilir. Göstəricilər innovasiyanın bütün sahələri (komponentləri) üçün müəyyən edilir. Sonrakı mərhələdə, göstəricilər üçün məlumatların toplanmasının necə təşkil ediləcəyi müəyyən edilir. Bunun üçün komponentlər üzrə yuxarıdan aşağıya doğru hərəkət edərək hər bir göstərici üzrə əks əlaqə prosesi qurulur və planlaşdırma meyarları formalaşdırılır.

Qeyd etmək lazımdır ki, aqrar sahədə innovasiya strategiyasının effektivliyinin qiymətləndirilməsi məqsədilə meyarların

əsaslandırılması və müəyyən edilməsində bir sıra çətinliklər də mövcuddur. İnnovasiyaların iqtisadi istifadəsi çətin olan tətbiqin nəticələrinin ölçülməsini nəzərdə tutduğundan, innovasiyanın faydalı təsiri müxtəlif formalarda özünü göstərir. Eyni zamanda, innovativ layihələrin seçilməsi üçün strateji qərarların qəbulu məntiqinə əsaslanaraq, innovasiyaların effektivliyini qiymətləndirmək üçün meyarlar sisteminin yaradılmasının əsas mərhələlərini müəyyən etmək olar ki, bu da innovasiyaların uğurunu təhlil etməyə imkan verir. Düzgün tərtib edilmiş innovasiya strategiyası resursları səmərəli şəkildə bölüşdürməyə də imkan verir. Bu zaman əldə edilmiş nəticələrin effektivliyi bir qayda olaraq yenilik səviyyəsi, innovasiyaların praktiki həyata keçirilməsi imkanları, onların mümkün tətbiq dairəsi və perspektivləri ilə müəyyən edilir.

İnnovasiya strategiyasının həyata keçirilməsi fəaliyyətin ümumi effektivliyini müəyyən etməklə məqsədlərlə birbaşa əlaqəli olmayan innovasiya sahələrini nəzərə almağa imkan verir. Eyni zamanda səmərəliliyə çoxmeyarlı yanaşma müxtəlif sahələrdə məqsədlərə nail olmağın müxtəlif mərhələlərində fəaliyyət nəticələrinin fərqini nəzərdə tutur. Əslində, strategiyada komponentlərin seçilməsi idarəetmənin vəzifəsidir və hər bir komponent üçün məqsədlərin, göstəricilərin və perspektivlərin strategiyası ilə əlaqəli şərtlərə riayət etməyi tələb edir: İnkişaf etmiş innovativ fəaliyyət göstəriciləri əsasında innovativ inkişaf strategiyasının həyata keçirilməsini təmin etmək məqsədilə strateji idarəetmə sistemində hər bir fərdi komponent üçün vəzifələrin yerinə yetirilməsi ilə bağlı məsuliyyət sahəsinin yaradılması tələb edilir. Beləliklə, nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsinə nəzarət etmək üçün zəruri olan göstəricilər müəyyən edilir.

İnnovasiya strategiyalarının effektivliyi, eyni zamanda iqtisadi subyektlərin əməyə, vaxta, resurslara qənaət etmək qabiliyyəti ilə müəyyən edilir. Bu baxımdan innovativ inkişafın effektivliyi çoxölçülü kateqoriyadır və bu kateqoriyaya aşağıdakı təsirlər daxildir: innovasiyanın iqtisadi effekti resurslardan rasional istifadəni, müəssisənin iqtisadi dəyərinin artırılmasını, artım dinamikasının yüksəldilməsini nəzərdə tutur; mütərəqqi texnoloji proseslərin yaradılmasına, istehsalın avtomatlaşdırılması və mexanikləşdirilməsi səviyyəsinin yüksəldilməsinə yönəlmiş elmi-texniki yeniliklərin tətbiqini şərtləndirir. Bu halda, aşağıdakı istiqamətlərdə effektiv nəticələr əldə etmək mümkün olur: məhsuldarlığın və ümumi məhsulun artması; əlavə mənfəət əldə etməyə imkan verən maya dəyərinin aşağı salınması. Qeyd etmək lazımdır ki, istifadə olunan innovasiyaların səmərəliliyinin iqtisadi qiymətləndirilməsi innovativ layihələrin ilkin qiymətləndirilməsi ilə eyni göstəricilərə əsasən həyata keçirilir. Eləcə də, innovasiyaların tətbiqinin proqnozlaşdırılan və faktiki nəticələri arasında müqayisə aparılır. Bundan əlavə, innovasiyaların effektivliyinin təhlili gəlirlilik, likvidlik və ödəmə qabiliyyəti baxımından aparılır. Yeniliklərin yekun iqtisadi qiymətləndirilməsi müəssisənin innovativ fəaliyyətinin gələcək layihələndirilməsi və proqnozlaşdırılması üçün müəyyənləşdirililən strategiyada istifadə olunur.

İnnovasiya strategiyasının həyata keçirilməsinin ümumi istiqaməti bir komponentdən digər komponentə “yuxarıdan aşağıya” keçir, aşağı səviyyələrin göstəricilərinə çatmaqla yuxarı səviyyələrin göstəricilərinə nail olunur. Strateji nəticələr və onların əldə edilməsinin əsas amilləri əlaqələndirilir, onlar arasında səbəb-nəticə əlaqəsi qurulur və izlənilir. İnnovativ məqsədlərə nail olmaq

üçün bir çox amillər ənənəvi yollarla müəyyən edilməyən qeyri-maliyyə göstəriciləri vasitəsilə təsvir edilir və maliyyə nəticələri ilə əlaqələndirilmir. Beləliklə, innovasiya strategiyasının kimponentləri aşağıdakı üstünlüklərə malikdir: innovasiya sahələri ilə əlaqəli olan bir neçə göstəricilər cəmləşdirilir; innovativ inkişaf məqsədlərinə nail olmaq üçün innovasiya fəaliyyəti korporativ səviyyədə təkmilləşdirilir; hər bir komponentdə məqsədlər, göstəricilərin hədəf dəyərləri və bu dəyərlərə nail olmağa imkan verəcək konkret vəzifələr müəyyən olunur.

Araşdırmalar göstərir ki, innovasiya sektorunun fəaliyyətində müəyyən problemlərə rast gəlinir: innovativ inkişaf tempi iqtisadi təhlükəsizlik sisteminin tələblərinə tam cavab vermir və innovativ iqtisadiyyata keçidlə bağlı çatışmazlıqlar yaranır; aqrar sahənin innovasiyalara qarşı həssaslığı aşağı səviyyədədir və bu səbəbdən elmi-tədqiqatların nəticələri istehsalatda geniş şəkildə reallaşmır və s. Bu baxımdan elmi və innovativ fəaliyyətin nəticələrinin praktikada tətbiqi ideyası və konsepsiyasının yarandığı ilkin mərhələdə istehlakçıdan təcrid olunur. Buna görə də innovasiya prosesi, eləcə də texnologiya transferi prosesləri buna uyğun olaraq baş verir. Nəticədə, elmi tədqiqatların göstəricilərinə əsaslanan məhsulların uğurlu inkişafı və rəqabət qabiliyyəti kölgədə qalır. Ona görə də, innovativ inkişaf istiqamətinə keçidin üç əsas mərhələsini fərqləndirmək olar: aqrar sahənin modernləşdirilməsinin həyata keçirilməsi; innovativ institutların inkişafına əsaslanan modernləşdirilmiş sahələrin inkişafı və kompleks innovativ inkişaf.

Beləliklə, innovativ inkişaf strategiyasının həyata keçirilməsi mexanizminin ümumi fəaliyyətə iqtisadi təsirində əsas məqsəd strateji qərarların qəbulu üçün müddətin azaldılmasını təmin etmək, habelə onların etibarlılığını və səmərəliliyini artırmaqdır ki, bu da əsasən həmin göstəricilərin nə dərəcədə aydın və obyektiv müəyyənləşdirilməsindən asılıdır.

Araşdırmalar göstərir ki, aqrar sahədə innovativ inkişaf strategiyasının həyata keçirilməsi mexanizmi, innovativ inkişaf və təşkilati tədbirlərin effektivliyi üçün alternativ strateji həlləri qiymətləndirmək imkanı yaradır. Belə mexanizm ilk növbədə aşağıdakı daxili proseslərə yaxından nəzarət etməyə imkan verir: faktiki və gələcək büdcə gəlirini müqayisə etmək; müqayisəni təşkil etmək; az inkişaf edən sahələri müəyyənləşdirmək və mövcud vəziyyətin yaxşılaşdırılması yollarını təklif etmək. Həyata keçirilən tədbirlərin effektivliyi qiymətləndirmək üçün təcrübədə, eyni anda bir neçə müstəqil meyar istifadə edilir. Bu meyarlar qeyri-maddi aktivlərin təsirini, innovativ layihələrdən gözlənilən gəliri, həyata keçirilmə mexanizmi baxımından fərqləri nəzərə alır. İnnovasiya strategiyasının unikallığı rəqabət üstünlükləri təmin etdiyindən, strateji məqsədlər və həmin məqsədlərin həyata keçirilməsi üçün fəaliyyətlər, yəni iqtisadi göstəricilər sistemi unikal olmalıdır. Təbii ki, həmin göstəricilər strateji idarəetmə sisteminin bazar dəyişikliklərinə cavab vermək çevikliyini əhəmiyyətli dərəcədə artıra bilər. Belə şəraitdə innovasiyaların tətbiqi ilə mənfəətin artırılması, habelə proseslərin təkmilləşdirilməsi ən vacib istiqamətlər olaraq qəbul edilir.

**Yekun nəticələr**

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- aqrar sahədə **innovasiya strategiyasının reallaşdırılması mexanizminin və** innovasiya potensialının inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır;

- innovasiya strategiyasının reallaşdırılmasına sistemli yanaşmanın əhəmiyyəti əsaslandırılmışdır;

- aqrar sahədə innovasiya fəaliyyətinin strukturlaşdırılmasında innovasiyalardan daha səmərəli istifadə imkanları müəyyən edilmişdir;

- innovasiya fəaliyyətinin səmərəli təşkili ilə bağlı əsaslandırılmalar aparılmışdır;

- aqrar sahədə innovasiya **strategiyasının reallaşdırılması** istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqat işinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, aparılan araşdırmalar və ümumiləşdirmələr innovasiya fəaliyyətinin təşkili və innovasiya strategiyasının inkişaf etdirilməsi istiqamətlərinin müəyyən edilməsində əhəmiyyətli rol oynaya bilər.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Müasir iqtisadi şəraitdə daha təkmil innovasiya strategiyasının həyata keçirilməsi aqrar sahənin dayanıqlı inkişafına və istehsalın iqtisadi səmərəliliyini yüksəltməyə imkan verə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. “Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2019-cu il tarixli sərəncamı.

2. Tağıyev A. H., Əmirov İ.B. “İnnovasiya menecmenti”, Bakı: “Təknur”, 2010, 192 s.

3. Qasımov F.H. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı: Elm, 2009, 416 s.

4. Трибушная В.Х. Инновационная инфраструктура как необходимость поддержки наукоемкого предпринимательства. Технопарки и стратегическое управление. - Ижевск: Ижевский государственный технический университет, 2011. - 240 с.

5. Шумпетер Й. Предисловие В. С. Автономова "Несвоевременные" мысли Йозефа Шумпетера // Капитализм, социализм и демократия / Предисл. и общ. ред. В. С. Автономова. М.: Экономика, 1995. 540 с.

**Рахимова Малахат Фиргат кызы**
Мингечевирский Государственный Университет

## Механизм реализации инновационной стратегии в агропромышленном комплексе

Резюме

Реализация инновационной стратегии в агропромышленном комплексе предполагает координацию необходимых мероприятий, связанных с формированием и реализацией этой стратегии, системный подход к процессу. Содержание системного подхода к реализации инновационной стратегии состоит из комплексного понимания инновационной деятельности, определения и структурирования ключевых целей и задач, механизма достижения поставленных целей. В этом процессе особое значение имеет оценка эффективности инновационной стратегии.

**Ключевые слова:** инновационная стратегия, эффективность, оценка, инфраструктура, модернизация, эффективность

**Rahimova Malahat Firqat kızı**
Mingechevir State University

## The mechanism for implementing the innovation strategy in the agro-industrial complex

Abstract

Implementation of innovative strategies in the agro-industrial complex involves the coordination of necessary activities associated with the formation and implementation of this strategy, a systematic approach to the process. The content of the system approach to the implementation of innovation strategies consists of a comprehensive understanding of innovation activities, the definition and structuring of key goals and objectives, the mechanism for achieving the goals set. In this process, a special value is the assessment of the effectiveness of the innovation strategy.

Keywords: innovation strategy, efficiency, assessment, infrastructure, modernization, efficiency.

**Daxil olub:** 21.02.2022

**Səfər Məzahir oğlu Hüseynov**
İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu
E-mail: safarguseynov96@mail.ru

# VENÇUR FONDLARI: KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN MALİYYƏLƏŞMƏSİNDƏ VENÇUR KAPİTALININ ƏHƏMİYYƏTİ

**Xülasə**

***Tədqiqatın məqsədi:*** Vençur fondlarının iqtisadi əhəmiyyətinin öyrənilməsi, onların Kiçik və Orta Sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi və maliyyələşməsinə təsiri araşdırılmış və qiymətləndirilmişdir. Vençur fondlarının mühüm aspektləri araşdırılmış və bu sahədə olan mexanizmlərin səmərəliliyi məsələləri təhlil olunmuşdur.

***Tədqiqatın metodologiyası:*** təhlil və sintez, ümumiləşdirmə metodları

***Tədqiqatın tətbiqi əhəmiyyəti:*** alınmış elmi-praktiki nəticələrdən və elmi-iqtisadi müddəalardan, verilmiş təkliflərdən KOS-un inkişaf etdirilməsində , ölkədə iqtisadi inkişafa təkan verilməsində istifadə oluna bilər.

***Tədqiqatın nəticələri:*** Ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsi məqsədilə Vençur fondlarının yaradılması, sahibkarlara maliyyə yardımlarının ayrılması bu sahədə atılacaq ən önəmli amillərdəndir.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Vençur Fondlarının yaradılmasının əhəmiyyəti, KOS-un inkişafına və iqtisadiyyata təsiri dünya təcrübəsi əsasında araşdırılmışdır. Vençur kapitalının verə biləcəyi faydalar araşdırılmış, bu prosesdə qarşıya çıxan problemlər və onların həlli yolları analiz edilmişdir.

**Açar sözlər:** kiçik və orta sahibkar, iqtisadi inkişaf, vençur kapitalı, maliyyələşmə, investisiya, problem, sosial rifah.

**UOT:** 338.1, 338.2, 338.001.36, 338.14
**JEL:** O18, O19, O31, O32, O50

## Giriş

Müasir maliyyə idarəçiliyi anlayışı ilə müəssisələr balans hesabatlarının passiv hissələrinin fərqinə varmış, resurslarla yanaşı aktivləri də səmərəli və effektiv şəkildə idarə etmək zərurətini başa düşmüşlər və bu da maliyyə metodlarından tez tez istifadə zərurətini ortaya çıxarmışdır.

Kapital və investisiyaların yaradılması ciddi maliyyə yükü tələb edir. Bu, yaradıcı ideyaları olan, lakin onu investisiyaya çevirmək üçün maliyyə gücü olmayan sahibkarlar üçün böyük maneədir. Müasir iş həyatında bir ehtiyac olaraq ortaya çıxan texnoloji inkişafın sürətlənməsi və buna görə də sürətli həllər, ixtiralar, yaradıcı ideyalar klassik kapital-istehsal münasibətindən fərqli bir kapital növü doğurdu: Bu tip vençur kapitalı, xüsusən də kiçik və orta müəssisələr və kreativ ideyaları , ixtiraları olan, lakin kapital tapmaqda çətinlik çəkən kiçik sahibkarlar üçün ideal həll yolu kimi iş həyatına daxil olmuşdur.

Vençur kapitalının maliyyələşdirilməsi metodu digər maliyyələşdirmə üsulları kimi müəssisələrə resurslardan səmərəli istifadə etməyə imkan verən vasitədir. Digər üsullarda olduğu kimi, ehtiyacların düzgün müəyyən edilməsi, gələcək üçün əsaslı planlamaların aparılması və hədəflərin müəyyən edilməsində realist olması metodun uğurunu artıran amillərdir. Uzun müddətdir ki bütün inkişaf etmiş ölkələrdə uğurla tətbiq edilən vençur kapitalı maliyyə gücü kifayət olmayan hər mərhələdə dinamik, yaradıcı və yenilikçi sahibkarlara investisiya ideyalarını

reallaşdırmağa imkan verir. Lazım gəldikdə biznes və idarəetmə dəstəyi verən müasir maliyyə üsulu olaraq , səhmlər müqabilində kapital transferini təmin edir. Onun əsas xüsusiyyətlərinə banklar tərəfindən dəstək verilməyən sahibkarlara dəstək olmaq, səhmlər müqabilində investisiya etmək, uzunmüddətli olmaq, şirkət müəyyən inkişaf səviyyəsinə çatdıqdan sonra səhmləri satmaq daxildir.

Kiçik və orta sahibkarlıq (KOS) dünya iqtisadiyyatı kimi Azərbaycan iqtisadiyyatının da dinamik elementlərindən biridir və ölkəmizin sosial-iqtisadi inkişafında çox mühüm yer tutur. Kiçik və orta sahibkarlıq iqtisadiyyatda rəqabət mühitinin inkişafı və iqtisadi həyatın sağlam fəaliyyəti üçün əvəzedilməz qurumlardır. Bu gün kütləvi istehsalın çevik istehsalla əvəzlənməsi nəticəsində ağır sənaye sahələri və iri müəssisələr kiçildi, kiçik və orta sahibkarlıq siyasəti hazırlanmağa başladı. İctimai quruluşun sabitliyinə və bu sabit quruluşun davamlılığına töhfə verən KOS-lar günügündən əhəmiyyət qazanmağa başlayıb. Bu araşdırmanın əsas məqsədi "Kiçik və orta sənaye müəssisələri" ifadəsi ilə tərtib edilmiş konseptual çərçivəni müəyyən etmək və KOS-un maliyyələşməsində vençur kapitalının əhəmiyyətini vurğulamaqdır.

KOS-lar bütün dünya ölkələrində iqtisadiyyatın əsas tikinti bloklarından biridir və inkişaf, məşğulluq, iqtisadiyyat baxımından çox mühüm rol oynayır. KOS-ların iqtisadi və sosial quruluşda belə mühüm mövqeyə malik olmasına baxmayaraq, hələ də beynəlxalq səviyyədə etibarlı KOS tərifi verilməyib. Ortaq bir KOS tərifinin verilə bilməməsinin əsas səbəbi ölkə daxilindəki bölgələrin və ya regionların sənaye strukturlarının, texnoloji imkanlarının və inkişaf səviyyələrinin fərqli olmasıdır. Bu səbəbdən də KOS-un tərifi ilə bağlı ölkələr və hətta eyni ölkədəki qurumlar arasında konsensus əldə olunmayıbdır..

**Kiçik və orta sahibkarlıq**. KOS-larla əlaqəli olan ədəbiyyatı incələdiyimiz zaman bu günə qədər qəbul edilmiş ortaq bir KOS tərifinin olmadığı görünür. Ölkələr arasında və hətta eyni ölkədəki qurumlar arasında KOS-ın tərifi ilə bağlı konsensus yoxdur. "Bütün dünyada qəbul edilmiş heç bir tərif olmasa da, ölkə daxilində bölgədən bölgəyə və qurumdan quruma dəyişən KOS-ların çoxlu tərifləri var. Bu təriflərin verilməsində iki əsas meyardan istifadə olunur. Bunlar keyfiyyət və kəmiyyət meyarlarıdır". "Bu kriteriyalar tərif verərkən yalnız bir modeli deyil, , həm də tərifdə istifadə olunacaq standartları təmin edir. Tərifdə əsas götürüləcək kriteriyalar da şəxsə, təşkilata, ölkəyə və zamana görə dəyişir. Bəzi hallarda, yalnız kəmiyyət tərifi meyarlarından istifadə edildiyi halda, hər iki meyarın birlikdə istifadə edilməli olduğu vaxtlar və yerlər də var. Tərifdə istifadə olunan kəmiyyət meyarları bizneslə əlaqəli olan və rəqəmlə ifadə edilə bilən dəyərlərə əsaslanır. Keyfiyyət meyarları isə biznes sahiblərinin özləri və biznesin xüsusiyyətləri ilə formalaşır". Kəmiyyət meyarları daha asan ölçülə bilən və iş yerində çalışan işçilərin sayı, maşın parkı, illik satış məbləği, mənfəət, sektorda bazar payı və faktiki tutum kimi obyektiv dəyərləri göstərən meyarlardır.

**KOS-ların ümumi problemləri**. KOS-ların funksiyalarında yarana biləcək hər cür problemlərinin mənbəyinin maliyyə problemi olduğunu söyləsək, heç də səhv olmaz. KOS-ların üzləşdiyi maliyyə problemlərinin əsas səbəblərini aşağıdakı kimi sadalamaq olar [1]:

- Müəssisə sahiblərinin maliyyə idarəçiliyi baxımından kifayət qədər biliyə malik olmaması,

- KOS-larda əlavə xərc elementi kimi görüldüyü üçün maliyyə vahidlərinin olmaması və bu səbəbdən maliyyə prosesinin inzibati, maliyyə işləri, mühasibat işçiləri və/və ya şirkət tərəfdaşları tərəfindən həyata keçirilməyə çalışılması,
- Müəssisə yaranma mərhələsində öz resurslarını istehlak edir və sonrakı prosesdə kapitalın kifayət qədər olmaması səbəbindən yüksək xərcli xarici resurslara müraciət etməli olur;
- Həm qeydiyyatsız satışlar, həm də maliyyə hesabatlarının düzgün aparılmaması səbəbindən bank kreditlərinə çıxışda çətinliklər;
- Xərc baxımından səmərəli, uzunmüddətli maliyyələşdirmənin və buna görə də potensialın məhdud olması
- artım üçün investisiyaların edilməməsi
- Ehtiyac olan nağd pul çatışmazlığını ödəmək üçün bankların tətbiq etdiyi rəsmiyyətlər və prosedurlar;
- Kredit verilməsi üçün banklar tərəfindən tələb olunan girovun yaradıla bilməməsi;
- KOS-ların zəruri maliyyələşdirmə ehtiyaclarını ödəmək üçün bank kreditlərindən və bazar kreditlərindən başqa maliyyə alətlərindən istifadə edilə bilməməsi .

**Kiçik və orta sahibkarlığın inkişafına və potensialına mane olan amillər**

Qeyri-kafi və aşağı kapital səviyyəsi: Aşağı kapital resurs strukturunun məhdud olması deməkdir ki, bu da  firmanın maliyyə cəhətdən sahib ola biləcəyi aktiv və ya aktivlərin müəyyən hədləri keçə bilməyəcəyi və ya artım tempinin dar olacağı anlamına gəlir..

İstehsal gücü və texnologiya infrastrukturunun qeyri-adekvatlığı: Kiçik və orta müəssisələrdə kifayət qədər kapitala malik olmayan istehsalat və ya istehsal xətlərində istehsal iri şirkətlərlə müqayisə oluna bilməyən aşağı güclə həyata keçirilir. Böyük istehsal xətləri və kütləvi paylama şəbəkələri olan iri şirkətlərin təchizat gücü kiçik və orta müəssisələrə nisbətən əhəmiyyətli üstünlük təmin edir. Yeni istehsal modelində sürətli və kütləvi istehsal qabiliyyəti müəssisələrin rəqabətqabiliyyətliliyinin müəyyən edilməsində və sərbəst bazar şəraitində böyük şirkətlərlə rəqabətdə mühüm amildir. İstehsal və istehsal prosesində kiçik müəssisələrin məhdud çevik istehsal imkanları da müştəri üçün mənfi bir məsələ kimi mövcuddur. Müştərilərin tələb və ehtiyaclarının sürətlə dəyişdiyi müasir dünyada çevik istehsal edəcək istehsal modelinin qurulması ciddi kapital və "know-how" tələb etdiyindən kiçik müəssisələr bu tələblərə cavab verə bilmir. Texnologiya bugünkü sənaye və istehsal sektorlarının ən mühüm istehsal daxil olmalarından birinə çevrilmiş və rəqabətqabiliyyətliliyi müəyyən edən əsas amilə çevrilmişdir. Yüksək texnologiya və ya texnologiyaya əsaslanan istehsal modeli, xərc və rəqabət üstünlüyü təmin edərək şirkətlərin gəlirlilik və böyümə strategiyalarını birbaşa dəstəkləyir. Texnoloji inkişafın dinamik xarakteri davamlı texnologiya sərmayəsini tələb edir. Kiçik müəssisələr məhdud kapitalları ilə bu investisiyanın davamlılığını təmin edəcək mənbə tapa bilmirlər.

*Qeyri-kafi rəqabət qabiliyyəti:* KOM-ların qısa ömür sürməsi və yaranma mərhələsində çox yüksək dərəcədə ləğvetmə ilə nəticələnməsi ən mühüm amillərdən biridir. Rəqabət qabiliyyəti həm də bazarda mövcud olmaq və ya mövcud olanlar arasında üstünlük verilməsinə səbəb olmaq deməkdir. Rəqabət bazar iqtisadiyyatının ən mühüm dinamıkalarından biri kimi daim təşviq edilən və nəzərə alınan elementdir. Demək olar ki, iri müəssisələr və ya transmilli şirkətlər yüksək texnoloji infrastruktura

əsaslanan yüksək istehsal gücü və kapital gücü ilə dağıdıcı rəqabət gücünə malikdirlər.

*İnzibati problemlər və institusionallaşmanın olmaması:* Kiçik və orta şirkətlərin əksəriyyəti ailə biznesi və məhdud tərəfdaşlıq strukturları kimi fəaliyyət göstərir. Ailə şirkətlərində idarəetmə və inzibatçılıq təbii olaraq nəzarət səhmdarı və ya onun ailə üzvləri tərəfindən həyata keçirilir. Ailə üzvləri isə şəxsən öz bacarıq və biliklərini dəyişir, inkişaf etdirirlər. İnkişaf etməyən, dəyişməyə açıq olmayan idarəetmə profilinə malik olan şirkətlər bazar şəraitində reaktiv və ya proaktiv olaraq yaranmış və ya ortaya çıxacaq problemlərə qarşı tədbirlər görmək və həll yollarını tapmaqda çətinliklərlə üzləşə bilərlər. Ailə şirkətlərində şirkət üzvlərinin ixtisasından və ya ixtisaslarından asılı olmayaraq, idarəetmə təbii mülkiyyət qaydası ilə həyata keçirilir, bu halda ailə şirkətlərində yeni nəsil menecerlərin üslub və bacarıqları birbaşa şirkətin gələcəyinə təsir göstərir. Ölkəmizdə daha çox görülən bu problemdə şirkətlərin öz idarəetmə və funksiyalarını peşəkar menecerlərlə bölüşmək əvəzinə yeni nəsil ailə üzvlərinə ötürmələri və ya onlara üstünlük vermələri nəticəsində mənfi hallar ola bilər. Ciddi idarəetmə problemlərindən sonra şirkətlərin iflas hekayələrinə gətirib çıxarar. . İnstitusionalizm bazar şəraitində axtarılan və müəyyən miqyasda ixtisas meyarı kimi görülən bir məsələdir. Banklar və kredit təşkilatları bunu adekvat institusional struktura malik olmayan şirkət və ya təşkilatlarda çatışmazlıqlar və kredit reytinqinin aşağı salınması kimi qiymətləndirirlər. [2]

**Vençur kapitalı.** Vençur kapitalına qoyulan investisiyalar uzunmüddətli investisiyalar olduğundan, onlar qısa müddətdə qeyri-likviddirlər və investisiyaların gəlirliliyi beş illə on il arasında dəyişir. Qeyri-ictimai şirkətlərin səhmlərinin satıldığı bazarların olmadığı ölkələrdə bu vəziyyət özünü daha qabarıq göstərir. Vençur kapitalı texnoloji yeniliklərlə bağlı investisiyalar olduğundan, investisiya xüsusiyyətlərindən asılı olaraq, lazım gəldikdə çox böyük məbləğdə nağd pula çata bilir. Vençur kapitalı sərmayələri təbiətcə kiçik və orta müəssisələrə qoyulur. Bu səbəbdən, vençur kapitalist şirkəti ilə sərmayə qoyulan şirkət arasında kredit və maliyyə əlaqəsi olan digər müəssisələrə nisbətən daha sıx əlaqə qurulur. Müəssisə kapitalı şirkətləri qeyri-müəyyən müddətə sərmayə qoyduqları biznesin səhmlərinə sahib deyillər. Müəssisələr müəyyən bir yetkinliyə və ya bazar payına çatdıqdan sonra bu səhmləri birjada sataraq nağd pula çevirməyə üstünlük verirlər.

Vençur kapitalının maliyyələşdirilməsi mahiyyət etibarilə investisiya ideyası olan və ya inkişaf şansı olduğu düşünülən yeni qurulmuş bizneslə sahibkara qarşı böyük riskə tab gətirərək yüksək gəlir əldə etmək məqsədi ilə vençur kapitalı ortaqlığı vasitəsilə qurulan ortaqlıqdır. Bu yolla sahibkara həm kapital, həm də idarəetmə dəstəyi təmin edilir. Bu, biznesin istənilən inkişaf səviyyəsinə çatdıqda səhmlərin satıldığı və yatırılan vəsaitlərin əhəmiyyətli dərəcədə genişlənmiş şəkildə geri alındığı bir maliyyə modelidir.

Vençur kapitalı, investisiya prinsiplərinə uyğun gələn şirkətlərə və sahibkarlara, tərəfdaşlıq modeli ilə, müstəqil peşəkar fond menecerləri tərəfindən sərmayə qoymaqla mənfəət əldə etməyi hədəfləyən fond sahiblərinin üstünlük verdiyi kollektiv investisiya vasitəsidir. İngilis dilində "Venture capital" olaraq ifadə edilən 'Vençur Kapitalı' anlayışı iqtisadi ideyalara edilən investisiyaları, hələ başlanğıc mərhələsində olan yeni qurulan şirkətləri, satın almaları, yenidən strukturlaşdırma və böyümə hədəfləri olan şirkətlərə genişlənmə investisiyalarını əhatə edir.

**Qrafik 1**

**Vençur Kapitalının iş sistemi**




***Mənbə:*** *The National Venture Capital Association (NVCA) https://nvca.org/*

**Qrafik 2.**

**Vençur Kapitalının üstünlükləri**




***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

Bu kontekstdə vençur kapitalı fondları izafi fondları olan investorlar və yüksək böyümə potensialına malik kiçik və orta müəssisələrin həm fəaliyyətə başlaması həm də yaradılması üçün alternativ orta və uzunmüddətli investisiya üsuludur.

Vençur kapitalı modelinin ən əhəmiyyətli xüsusiyyəti orta və uzunmüddətli tərəfdaşlıq yanaşması ilə investisiya texnikası olmasıdır. Ənənəvi kreditləşdirmə metodundan başqa, onun uzunmüddətli tərəfdaşlığı sistemin əsas dayaqlarını təşkil edir. Ənənəvi borclanma üsulları ilə fondu təmin edən fond sahibi ilə fonddan istifadə edən ehtiyacı olan şəxs arasında heç bir bağ və ya pay yoxdur. Ənənəvi borc məhsulları qısamüddətli sürətli geri ödəmə performansı və sabit ödənişlərlə risksiz fond köçürmələrinə diqqət yetirir. Kredit sistemində borc verən təşkilat və ya fond sahibi borc verdiyi sərvəti istənilən şəraitdə vaxtında toplamaq və faiz gəlirinin əvvəldən müəyyən edilməsini istəyir.

**Qrafik 3**

**Vençur Kapitalı Fondunun strukturu**




**Mənbə:** *C. P. M. &. W. B. Zeisberger, "Mastering Private Equity," United Kingdom: Wiley, 2017.*

Qrafikə vençur kapitalı fondunun strukturu və fəaliyyəti daxildir. Qrafikdə göründüyü kimi, fond strukturunun əsas hərəkəti vençur kapitalı şirkəti tərəfindən idarə olunur. İnvestorun və ya məhdud tərəfdaşların sahib olduğu kapitalı müəyyən şirkətlərə sərmayə qoymaq üçün yaradılmış kapitalın fondunda toplayır. Ümumi olaraq məsələni ələ alarsaq, müştərək fondun əsas idarəetmə və siyasətini müəyyən edir. İnvestisiya məsləhətçiləri və şirkət portfeli mütəxəssisləri investisiyanın bütün mərhələlərində investisiya tərəfdaşlığının idarə edilməsinə cavabdehdirlər. Yaradılan fond vençur kapitalı fondundan seçilmiş vençur kapitalı şirkətlərinə sərmayə köçürməklə və ortaq olmaqla fond investisiyalarını həyata keçirir.

Vençur kapitalı xüsusi sövdələşmə prosesləri vasitəsilə özəl şirkətlərə qoyulan investisiyaları əhatə edir. Tipik aktiv investisiyalardan başqa, bu investisiyalar qeyri-likvid, təhlili çətin və standartları olmayan aktiv obyektidir. Ani pula çevrilə bilən , çox sürətlə hərəkət edən və maliyyə bazarlarına mənfi təsir göstərən spekulyativ hərəkətlərdən azad investisiya axını var. Fond menecerləri **(portfolio mütəxəssisləri)** aktiv və birbaşa iştirak etdikləri sərmayədə sahib olduqları bacarıq və təcrübə ilə investisiyanın nəticəsinə birbaşa təsir göstərirlər. Sahibkar menecerlərinin belə mühüm və kritik rol

oynadığı investisiyalarda onların seçimi də böyük əhəmiyyət kəsb edir. Vençur kapitalı investisiyaları ilə investorlar hədəf sektora və açıq şəkildə satılan şirkətlərin olmadığı ixtisaslı şirkətlərə investisiya qoymağı hədəfləyirlər. [4]

**Qrafik 4.**

**Müəssisə kapitalının illər üzrə inkişafı (Sayı)**




***Mənbə:*** *Pregin Global, "Private Equity & Venture Capital Report," 06 Jan 2018.*

Yuxarıdakı Qrafik 2-dən də göründüyü kimi, vençur kapitalı fondlarının artım qrafiki 1970-ci illərdən bəri davamlı artım istiqamətində olsa da, kəskin dalğalanmalar və dəyişikliklər də göstərmişdir. Xüsusilə qlobal iqtisadiyyatda baş verən maliyyə böhranı dövrlərində əməliyyatların və aktivlərinin həcminin azalması fondların sayında da özünü göstərir. Bununla belə, xüsusilə son beş ildə vəsaitlər konsolidasiya edilib və sektorda vəsaitlər birləşdirilib. Birləşmə və birləşmələrin sayında azalma müşahidə olunur. Fondlar və vençur kapitalı ortaqlıqları real iqtisadiyyatla paralel hərəkəti izlədikləri üçün iqtisadiyyatın daralma və genişlənmə dövrlərində oxşar portfel reaksiyaları verirlər. Genişlənmə dövrlərində investisiya trestlərinin sayı həm kəmiyyət, həm də həcm baxımından artdığı halda, iqtisadi sıxlıq dövründə sayların azalması və fondların birləşməsində artım müşahidə olunur. Maliyyə bazarlarından konsolidasiya metodu xüsusilə böhran və tənəzzül dövrlərində üstünlük verilən yanaşma ola bilər.

**NƏTİCƏ:** Ölkədə məşğulluğun, investisiyaların və istehsalın əsas mənbəyini təşkil edən bu müəssisələr həm də rifahın regionlara homojen şəkildə yayılmasında mühüm rol oynayır. İqtisadiyyatdakı əhəmiyyətinə və çəkisinə baxmayaraq, bir çox ölkələrdə yeni müəssisələrin yaradılması və kiçik müəssisələrin investisiyalarının reallaşdırılması qarşısında mühüm maneələr mövcuddur.

İnstitusionallaşmış şirkətlərin əhəmiyyətli bir hissəsi həm kredit imkanlarından, həm də kapital bazarlarından maksimum formada və aşağı maliyyə xərcləri ilə faydalanır. KOS-lar isə məhdud maliyyə məhsullarından istifadə edə bilirlər və bu maliyyə məhsullarının əksəriyyəti ağır girov şərtləri və yüksək xərclər ehtiva edir. Dövriyyə kapitalına ehtiyacı ödəmək üçün qısamüddətli kredit imkanları mümkün olsa da, uzunmüddətli maliyyələşdirmə imkanları çox məhduddur. Danılmaz faktdır ki, KOS-ların iqtisadi sistemdə mövcudluğunu davam etdirmək və investisiyalar etməklə fəal aktivlərini artırmaq üçün alternativ maliyyə

üsullarına ehtiyac var. Kiçik müəssisələrin və yeni sahibkarların, xüsusən də yarandıqları ilk illərdə borc götürmək əvəzinə ortaqlıq və kapital axınına əsaslanan fonda çata bilmələri uzunmüddətli perspektivdə maliyyə problemlərinin həlli üçün ən ağlabatan yanaşmalardan biri hesab oluna bilər. Riskin birlikdə paylaşıldığı orta və uzunmüddətli ortaqlıq yanaşması və vençur kapitalı yanaşmasının KOB-ların ehtiyac duyduğu maliyyə modeli olmaq xüsusiyyətinə malik olduğu ifadə edilə bilər.

Model real iqtisadi və kommersiya fəaliyyətlərinə əsaslandığına görə sistemin mövcud olması üçün ən mühüm amil ölkə iqtisadiyyatının sabit və etibarlı səviyyədə fəaliyyət göstərməsidir. Dəyişikliklərin və böhran dövrlərinin tez-tez baş verdiyi ölkələrdə orta və uzunmüddətli perspektivdə qarşılıqlı fondların hərəkətini gözləmək olmaz. Bu səbəbdən də ölkəmiz iqtisadiyyatının son illərdə bəxş etdiyi iqtisadi inam və sabitlik mühitinin qorunub saxlanılması və gücləndirilməsi sisteminin qurulmasına və böyüməsinə mühüm töhfə verəcəkdir. Sahibkarlar sabit iqtisadi mühitdə düzgün təhlil edilmiş investisiya qərarı ilə ehtiyac duyduqları kapital boşluğunu bağlayacaqlar. Sistemin orta və uzunmüddətli olması sahibkarlara investisiya və böyümə planlarını düzgün qurmağa kömək edəcək, onlar kredit məhsullarının ödəmə və ödəmə ilə bağlı təzyiqlərindən azad olacaqlar. Korporativ fond tərəfdaşının müəssisəyə verdiyi töhfə və məsləhət xidməti ilə şirkət təkcə maliyyə qaynaqlarını deyil, həm də mühüm institusionallaşma inkişafını göstərə biləcək. Sahibkarlar qapalı müddətli investisiyanın sonunda təhvil verilmiş səhmləri geri almaqla şirkətin məqsədlərinə uyğun fəaliyyət göstərə biləcəklər.

İştirak bankları tərəfindən aktivləşdirilərək iqtisadiyyata birbaşa dəstək verəcək vençur kapitalı fondları həm fond sahiblərinə, həm sahibkarlara, həm də iştirak banklarına əhəmiyyətli töhfələr verəcək. Bu xüsusiyyəti ilə bütün tərəflərin qalib gəlməsi prinsipinə əsaslanan üsul digər maliyyələşdirmə üsullarından fərqlənir. İştirak bankları tərəfindən uğurla həyata keçirilmək potensialına malik olan bu model cəmiyyətin rifahına və ölkə iqtisadiyyatının inkişafına bilavasitə töhfə verməklə yanaşı, KOB-ların kapital ehtiyaclarının əhəmiyyətli dərəcədə həllinə də xidmət edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHƏSİ

1. Akademiktisat, "Türkiye'de Küçük ve Orta Ölçekli İşletme (KOBİ)'lerin Finansal Sorunları; İşletme İçinden ve Dışından Kaynaklanan Sorunlar," İstanbul, 2017.
2. -TOBB, "Kobi Tanımları," 2018. [Onlayn]. Available: http://www.kobi.org.tr/index.php/tanimi/layout.
3. -C. P. M. &. W. B. Zeisberger, "Mastering Private Equity," United Kingdom: Wiley, 2017.
4. -D. Cyril, "Introduction to Private Equity," West Sussex, England: A John Wiley and Sons, Ltd.,Publication, UK, 2010.
5. -Preqin Global, "Private Equity & Venture Capital Report," 06 Jan 2018. [Onlayn]. Available: http://www.preqin.com/samples/2018-Preqin-Global-Private-Equity-and-Venture-Capital-Report-Sample-Pages.pdf.
6. -European Commission, "European Business Facts and Figures: Data 1995-2005," EC, Luxembourg, 2006.
7. -European Commission, "The European Observatory for SMEs Report," KPMG, Netherlands, 2017.
8. -P. &. L. J. Gompers, "The Venture Capital Revolution," *The Journal of Economic Perspectives*, pp. 15(2):145-168., 2001.

9. [9] -Invest Europe, “Invest Europe,” 30 May 2016. [Onlayn]. Available: https://www.investeurope.eu/media/651727/invest-europe-2016-european-private-equity-activity-final.pdf.

10. -M. Türkoğlu, “KOBİ'lerin Bölgesel Kalkınma Etkileri ve Bölgesel Kalkınmada Kobi Temelli Stratejiler,” *Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergis,* pp. 7(1):277-300, 2002.

11. -A. a. G. M. Zacharakis, “The venture capitalist decision: understanding process versus outcome,” *Frontiers of Entrepreneurship Research,* p. 465, 1995.

12. -J. R. M. G. &. P. B. C. Brown, “Stock Markets, Credit Markets, and Technology-Led Growth, Swedish House of Finance Research Paper,” -, -, 2016.

13. Copenhagen Economics , “THE ROLE OF VENTURE CAPITAL FOR ECONOMIC GROWTH IN THE NORDIC REGION,” Copenhagen Economics A/S, Copenhagen, February 2019.

**Сафар Мазахир оглы Гусейнов**
Экономический научно-исследовательский институт Министерства экономики АР
E-mail: safarguseynov96@mail.ru

## ВЕНЧУРНЫЕ ФОНДЫ: ЗНАЧЕНИЕ ВЕНЧУРНОГО КАПИТАЛА В ФИНАНСИРОВАНИИ МАЛЫХ И СРЕДНИХ ПРЕДПРИЯТИЙ

### Резюме

***Цель исследования:*** изучить экономическое значение венчурных фондов, их влияние на развитие и финансирование малых и средних предприятий. Изучены важные аспекты венчурных фондов и проанализирована эффективность механизмов в этой сфере.

***Методология исследования:*** анализ и синтез, методы обобщения

***Значимость применения исследования:*** полученные научно-практические результаты и научно-экономические положения, предложения могут быть использованы в развитии малого и среднего бизнеса, для стимулирования экономического развития в стране.

***Результаты исследования:*** Создание венчурных фондов и оказание финансовой помощи предпринимателям в целях обеспечения устойчивого экономического развития страны являются одними из важнейших факторов в данной сфере.

***Оригинальность и научная новизна исследования:*** На основе мирового опыта изучена важность создания венчурных фондов, их влияние на развитие МСП и экономики. Исследованы преимущества венчурного капитала, проанализированы проблемы, возникающие в этом процессе, и пути их решения.

**Ключевые слова:** малое и среднее предпринимательство, экономическое развитие, венчурный капитал, финансирование, инвестиции, проблема, социальное обеспечение.

**Safar Mazahir Huseynov**
Institute for Scientific Research on Economic Reforms (ISRER) under the Ministry of Economy of the Republic of Azerbaijan
E-mail: safarguseynov96@mail.ru

# VENTURE FUNDS: THE IMPORTANCE OF VENTURE CAPITAL IN FINANCING SMALL AND MEDIUM ENTERPRISES

## Abstract

***The purpose of the study:*** To study the economic importance of venture funds, their impact on the development and financing of small and medium enterprises. Important aspects of venture funds have been studied and the effectiveness of mechanisms in this area has been analyzed.
***Research methodology:*** analysis and synthesis, generalization methods
***Significance of the application of the research:*** the obtained scientific-practical results and scientific-economic provisions, proposals can be used in the development of SMEs, to stimulate economic development in the country.
***Results of the study:*** The establishment of venture funds and the provision of financial assistance to entrepreneurs in order to ensure sustainable economic development in the country are among the most important factors in this area.
***Originality and scientific novelty of the research:*** The importance of establishing Venture Funds, their impact on the development of SMEs and the economy has been studied on the basis of world experience. The benefits of venture capital have been explored, the problems encountered in this process and ways to solve them have been analyzed.
**Keywords:** small and medium enterprise, economic development, venture capital, financing, investment, problem, social welfare.

**Daxil olub:** 18.02.2021

**Elvin Əzizağa oğlu Babayev**
Xəzər Universiteti
"Avrora Qrup" İctimaiyyətlə Əlaqələr şöbəsinin rəhbəri
Bakı şəhəri, Biləcəri qəsəbəsi Ərdəbil küçəsi ev 14
E-mail: elvinazizoglu@gmail.com

# BİZNESDƏ BAŞ VERƏN BÖHRANLARIN YARANMA SƏBƏBLƏRİ VƏ BU BÖHRANLARIN BİZNES MÜHİTİNƏ TƏSİRİ

**Xülasə**
Məqalədə dünyada və Azərbaycanda biznes sferasında baş verən böhranları və bu böhranları yaradan səbəbləri araşdıracağıq. Azərbaycanda sahibkarlığa dövlət tərəfindən göstərilən diqqət və qayğı fonunda bəzi müəssisələrin baş verən böhrandan dolayı kiçilməsi, bağlanması və ya zərərlə işləməsi müşahidə olunur. Məqalədə böhranın mərhələləri və atılması vacib olan addımları qeyd edəcəyik. Yekunda təhlildən əldə olunan nəticələr öz əksini tapmışdır.
**Açar sözlər:** İctimaiyyətlə əlaqələr, böhran, böhranın idarə edilməsi, kriz

**UOT:** 659.3
**JEL:** A-13

## Giriş

Tarixən olduğu kimi müasir dövrümüzdə də hər bir dövlət və qeyri hökumət təşkilatları, o cümlədən sahibkarlıq subyektləri canlı orqanizm kimidir. Burada fəaliyyətin yaradılması, inkişaf edib pik həddə çatması, kulminasiya nöqtəsi, böhran yaşaması, durğunluq dövru və s. yaşayır. Bugün böhran (kriz) anlayışı ilə tez tez qarşılaşırıq. Böhran dedikdə qeyd etdiyimiz dövlət və özəl təşkilatların çətinliyə düşməsi, ictimaiyyət qarşısında nüfuzdan düşmə, qəfil meydana gələn problemlər, kommunikasiya qopuqluğu, müştəri və maliyyə itirmə və s. başa düşülür. İnsan həyatında olduğu kimi təşkilatlar da gec-tez problemlərlə qarşılaşır, kritik böhranlı dövrlər yaşayır. Buna görə də, böhran idarəçilərinin təbiri ilə desək heç kim, heç bir təşkilat, müəssisə, sahibkarlıq subyekti böhranlı vəziyyətdən sığortalanmayıb və hər bir an böhranla qarşılaşa bilər.

Təkamül nəzəriyyəsinin banisi Çarlz Darvinə görə, müasir dövrümüzədək çatan canlı orqanizmlərin həyatda olmasının başlıca səbəbi təkmilləşməyi və mühitə uyğun dəyişikliklərə, yeniliklərə cavab verməyi bacarmalarıdır [1]. Buna görə də fəaliyyəti davamlı təşkil etmək, bu tip problemlərlə və böhranlarla qarşılaşdıqda daha az zərərlə çıxmaq üçün əvvəlcədən planlaşdırılmış mexanizm lazımdır. Dünyada, əsasən də Avropa və ABŞ-da son dönəmlərdə böhran anına və prosesinə yanaşma tamamilə dəyişilib. Risk menecerlərinin riskləri analiz etdikdən sonra böhran idarəçilərini məlumatlandırmasından sonra həmin risklərin – məsələn istehsalat yerlərində qəzalar, dünyada baş verə biləcək təbii fəlakətlər, müharibə təhlükələri, məxfi və gizli saxlanılan məlumatların sızdırılması, ictimaiyyətdə qəzəb və nifrət yarada biləcək bütün hadisələr buraya daxildir – simulyasiyası ilə təhlillər aparılır. Bundan sonra planlı, strateji və həyata keçirilmə prosesi real ola biləcək böhran kommunikasiyası planı yazılır. Bu planda böhran anında böhran qrupunda olacaq şəxslərin adları və vəzifələri, onların kommunikasiya quracağı şəxslər və təşkilatlar, media sözçüləri, maliyyə vəsaiti və

s. hazır vəziyyətdə saxlanmalı və lazım gələrsə istifadə edilməlidir.

Bütün bunların fonunda deyə bilərik ki, böhrandan heç kəs sığortalanmayıb. Odur ki, böhranın idarə edilməsi strategiyası və planı daim əlimizdə hazır olmalıdır.

**Tədqiqatın metodikası:** Tədqiqatın metodikasını sistemli və müqayisəli təhlil, analiz, sintez, praktikada baş verən hadisələrin qarşılaşdırılması, istehlakçı davranışlarının analizi, dünya təcrübəsindən istifadə və s. təşkil edir.

**Tədqiqatın məqsədi:** Biznes mühitində baş verən böhranın peşəkarlıqla idarə edilməsinin əhəmiyyətini üzə çıxarmaq, kommunikasiya mütəxəssislərinin çətinliklərini araşdırmaq və həll yollarını təqdim etməkdir. Təqdiqatın sonunda kommunikasiya menecerlərinin və biznes sahiblərinin böhran zamanı atmalı olduqları addımları sistemli şəkildə müəyyənləşdirəcəyik.

**Tədqiqatın praktiki əhəmiyyəti:**

Biznes münasibətlərində müəssisə və istehlakçı arasında baş verən münaqişə, anlaşılmazlıq, boykota kütləvi çağırış, işçi və sahibkar arasında yaranan fikir ayrılıqları, istehsalat qəzaları və s. zamanı sahibkarlar və idarəçilər üçün yol xəritəsi müəyyən edəcəyik. Azərbaycanda böhran idarəçiliyi üzrə ixtisaslaşmış kadrlar çox azdır. Kommunikasiya menecerləri bu tədqiqat ilə böhranın idarə edilməsinin fəlsəfəsini mənimsəyəcək və nəzəri biliklərə sahib olacaqlar.

**MATERİALLAR VƏ MÜZAKİRƏLƏR**

Qloballaşmanın sürətlə getdiyi bir dövrdə dövlət və özəl təşkilatlarda idarəetmə zamanı və yeni qərarların qəbulunda lokalda və təsir dairəsinə girən digər ərazilərdə yaşayan insanların fikrini nəzərə almaq zəruriyyəti yaranıb. Çünki yaşlı insanlar müasir generasiyanı zet və alfa dövründə dünyaya gələnləri idarə etməkdə çətinlik çəkir, onların hadisələrə reaksiyalarını əvvəlcədən görə bilmirlər. Bu zaman kommunikasiyada və əsas da biznesin özündə böhran – kriz yaşanır. Krizlər şirkət əməkdaşları, istehlakçılar, təchizatçılar, daşımaçılar və ümumi cəmiyyətdə baş verə bilir. Böhrandan ən az zərərlə çıxmaq və təşkilatın böhrandan əvvəlki imicini bərpa etmək üçün menecerlər ilk növbədə böhrana səbəb olan əsas problemləri müəyyən etməli, digər tərəfdən də vaxt itirmədən ictimaiyyətlə əlaqələr fəaliyyətinə başlamalıdırlar. Böhran dövründə ictimaiyyətlə əlaqələr işi adi vaxtlardan daha çox əhəmiyyət kəsb edən və daha çox ehtiyac duyulan bir fəaliyyətə çevrilir. Kernisky böhranı təşkilatın gözləntiləri ilə onun ətrafında baş verənlər arasında böyük uyğunsuzluq kimi təsvir edir [2]. Böhranın – krizin yaranmasında, inkişaf etməsində bir çox amillər var. Böhranın idarəedilməsində menecerlər dörd fərqli mərhələnin olduğunu düşünürlər. Bu mərhələlər tibbi terminlə adlandırılır, çünki mütəxəssislər böhranın xəstəlik kimi ciddi xüsusiyyətlərinin olduğu qənaətindədirlər. Böhranın dörd mərhələsini sadalasaq:

- İlkin əlamətlərin əmələ gəldiyi mərhələ (Prodromal dövr)
- Kəskinləşmə dövrü – kəskin böhran mərhələsi
- Xroniki böhran mərhələsi
- Böhranın səngiməsi və həll edilməsi mərhələsi

Böhranın birinci mərhələsi böhranın formalaşması və ya prodromal dövrdür. Bu dövrdə potensial böhranla bağlı mühüm əlamətlər ortaya çıxmağa başlayır. Bu xəbərdarlıq mesajları müəyyənləşdikdə və ilkin olaraq görüldükdə, böhranın qarşısını ala biləcək və ya böhranın təhlükəli təsirlərini azaltmağa kömək edəcək məlumatlar da ortaya çıxır ki, bu məlumatları emal edib kommunikasiyada istifadə etmək vacibdir. Ətrafında baş verən bütün tendensiyalara və hadisələrə həssas olan təşkilatlar böhranı aşkar

etməkdə və onun yaranmasının qarşısını almaqda daha operativ və məsuliyyətli olurlar.

İkinci mərhələ böhranın yaranması və ya kəskin böhran dövrüdür. Bu mərhələdə bəzi amillər böhranın zərərli reallığa çevrilməsinə səbəb olur. Müxtəlif təşkilatların üzləşdiyi fiziki, maliyyə və mənəvi sarsıntının nəticələri ölümcül ola bilər. Bu mərhələdə təşkilatın üst rəhbərliyi (CEO-su) ən ciddi sınaqla üzləşəcək və atılacaq kiçik bir yanlış addım, yanlış təcrübə təşkilatın ömrünü bitirə bilər.

Böhranın davam etməsi üçüncü mərhələni təşkil edir. Bu mərhələ "xroniki böhran mərhələsi" də adlanır. Bu mərhələnin təsiri uzun illər davam edə bilər. İttihamlar, əks ittihamlar, sübutlar, dindirilmələr, qanuni hərəkətlər və media təzyiqləri böhranın təsirini uzadır [3].

Kommunikasiya – ictimaiyyətlə əlaqələrin əsas funksiyalarından biri qeyd etdiyimiz kimi böhran (kriz) anının idarə edilməsi, cəmiyyətə lazımi informasiyanın çatdırılması, böhrandan əvvəl və sonrakı fəaliyyətlərdir. Hər kəs böhran anına uyğun və böhrandan çıxma strategiyaları barədə düşünür. Halbuki, ən əsas məsələ bu böhranın baş verməsinə kimi yaşanan hadisələr, baş verən proseslər və bu proseslər çəmbərində böhrana göz yumulmasıdır. Əsində böhran hər zaman "gəlirəm" deyir. Böhran uzun müddət bizə siqnallar ötürür, öz varlığı barədə bizi xəbərdar edir. Lakin düzgün idarəetmənin olmaması, işçilər və rəhbərlər arasında kommunikasiya qopuqluğu böhranın baş verməsini qaçınılmaz edir.

Biz ölkəmizdə baş verən böhranları araşdıran zaman görürük ki, böhran gəlirəm deyir. Böhranın gəldiyini aşağıdakılarla bilmək və qarşısını almaq mümkündür:

1. Dövlət və özəl təşkilatların çalışanların təşkilat barədə ötürmək istədikləri informasiyaları düzgün analiz etmək;
2. SƏTƏM qaydaları barədə pozuntuların tez-tez təkrarlanması;
3. İstehsal sahəsində nasaz avadanlıqlar;
4. Rəhbər heyət tərəfindən düzgün idarəetmə sisteminin qurulmaması;
5. Baş vermiş hadisələri gizlətməyə çalışmaq;
6. Cəmiyyətə qəsdən yalan məlumat vermək, istehlakçıları yalan məlumatla çaşdırmaq;
7. Maliyyə mənbələrinin gizlədilməsi, vergidən yayınma;
8. Təşkilat çalışanları ilə şirkət arasında korporativ bağın olmaması;
9. Daxili nəzarət sisteminin düzgün işləməməsi;
10. Böhran vəziyyətləri üçün düzgün simulyasiyaların aparılmaması və s.

Böhran zamanı ən vacib nüans – böhranın hər bir mərhələsində nə edəcəyimizi, hansı addımları atacağımızı bilməyimizdir. Öncədən planlaşdırma prosesi üçün təşkilatın və ya müəssisənin fəaliyyətini dərindən analiz etməli, müvafiq qeydlər aparmalıyıq. Bu istiqamətdə təhlillərin aparılması risk qruplarını və risk artıran faktorları, eləcə də qarşımıza çıxa biləcək real və mümkün təhlükələri müəyyən edə bilərik. Təbii ki, kommunikasiya meneceri öngörücü deyil və gələcəyi əvvəlcədən xəbər verə bilməz. Lakin baş verə biləcək böhranı idarə etmək üçün bütün informasiyanı emal etdikdən sonra düzgün nəticə çıxarmaq şərtdir. Burada risk menecerləri də sizinlə paralel işləməlidir. Qəbul edəcəyimiz qərarlar və quracağımız kommunikasiyanın nəticələrini də düşünməliyik. Böhran zamanı doğru təhlil və məqsədyönlü kommunikasiya addımlarının atılması bizi paralel böhrandan qoruyur. Yəni böhran içində böhran yaranmasının qarşısını alır. Bu təhlil və araşdırma zamanı biz böhrana səbəb olan problemli yerlərin siyahısını əldə edə bilirik. Təbii ki, ikinci mərhələdə biz

bu böhran yaradan səbəbləri də qruplaşdırmalıyıq. Səbəblər əhəmiyyətlilik dərəcəsinə görə sıralanmalıdır. Bundan sonra biz ən vacib səbəblər üçün strategiya və plan hazırlamalıyıq. Gecikmək böhranın dərinləşməsinə səbəb olduğu üçün biz bunu ilkin strategiya adlandıraraq tətbiqinə başlamalıyıq. Paralel olaraq isə digər səbəblər üçün də həllər tapmalı,strategiya və plana əlavə etməliyik. Bundan sonra biz böhran idarəçiliyini tamamlamış hesab edə bilərik. Yuxarıda qeyd etdiyimiz kimi paralel böhranın yaşanmaması üçün qırmızı xətlər əvvəlcədən müəyyənləşdirilməli, ictimaiyyətin psixologiyası, hadisələr fonunda davranış tərzi, mental dəyərləri və demoqrafik vəziyyəti də nəzərə alınmalıdır. Böhran menecerləri nəyə qəti şəkildə "yox" və ya "hə" deyəcəklərini bilməlidirlər. Araşdırma və təhlillər zamanı strategiya və planın hazırlanmasını uzunmüddətli proses kimi görənlər və böhran anında hadisəyə uyğun planların hazırlanmasında çətinlik çəkənlər olduğu məlumdur. Bunun üçün standartlarımız və böhran idarəçiliyi sxemi olmalıdır. Əgər bu olmasa bizim hazırladığımız planda həyata keçirilməyəcək nüanslar çox olacaq. Böhran səngiyən kimi CEO-lar digər bəndlərdən yayınmağa çalışacaq və ya gözardı edəcəklər. Buna görə də, bəzən növbəti daha ciddi böhranlar yaranır. Bunun qarşısını almaq üçün dövrü olaraq böhran idarəetmə strategiyamıza baxmalı və tələblərə uyğun dəyişikliklər etməliyik. Strategiyada məsul böhran idarəçiləri simulyasiyalardan xəbərdar olmalı, informasiya ötürmək prosesini bilməlidirlər. Əslində yazdığımız strategiyada böhran idarəetmə komandası şəxslərlə yox vəzifələrlə yazılmalıdır. Çünki hər bir müəssisədə vaxtaşırı işçi dəyişikliyi, vəzifə yüksəlişi, fərqli profilə keçmə  və s. müşahidə edilir. Buna görə də, vəzifələr üzrə bir neçə məsul şəxsin böhran qrupunda olması məqsədəuyğundur. Məsələn, istehsal müəssisəsində qəza baş verməsi və ölüm halının olması böhranın baş verməsi deməkdir. İstehsal prosesində adətən növbəli şəkildə bir neçə menecer çalışdığı üçün onların hər biri böhran qrupunda olmalı və bu hadisələr zamanı böhranın idarə edilməsi üçün hansı addımların atılacağını bilməlidirlər - kimlərlə kommunikasiya quracaq, hadisə ilə bağlı məlumatı paralel kimlərə ötürəcək. Böhran yaradan hadisələr 365 gün və hər saat ola bilər. Buna görə də, informasiyanı hadisə baş verən anda kommunikasiya menecerinə də anında ötürmək lazımdır. Çəkilmiş foto və video, qeydiyyata alınmış səs yazıları və s. böhran qrupunun üzvlərinə anında ötürülməlidir. Qrup üzvləri və hadisə ilə bağlı olan mütəxəssislər öz fikirlərini bildirdikdən sonra məlumat komplektləşdirilməli, ictimaiyyətə təqdim edilməsi üçün hazır şəkilə - press reliz, video müraciət, foto hesabat və s. – salınmalıdır. Bu informasiya ilə sonda idarə heyəti və təsisçilər məlumatlandırılmalı, onun ictimaiyyətə ötürülməsi üçün təsdiq verməlidirlər. Çünki bütün hallarda komandanın da bilmədiyi gizli nüanslar ola bilər.

Müasir dövrdə sosial şəbəkə istifadəçiləri, o cümlədən onlayn media birincilik üçün mübarizə aparır. İnformasiyanı birinci kimin verməsi prioritet məsələyə çevrilib. Buna görə də ictimaiyyətə informasiyanı ötürən zaman bütün vasitələrdə - qəzet və jurnal, sosial şəbəkələr, televiziya, onlayn media və s. – eyni məlumatın getməsi vacibdir. Bu ictimaiyyətdə çaşqınlığın və çoxfikirliliyin qarşısını alacaq. Bunun üçün kommunikasiya meneceri xüsusi hazırlıq görməli, məlumatı paylaşacağı KİV-lərlə birbaşa əlaqə yaratmalıdır. Bu kütləvi informasiya vasitələri də əvvəlcədən strategiyada qeyd edilməlidir. Bizə lazım olan hədəf auditoriyanın harda olmasını mütləq şəkildə bilməliyik. Loru dildə desək nişan almadan atəş açmaq boşuna atılmış mərmidir

və lazımsız xərc yaradır. Məlumatı ötürən zaman unutmaq olmaz ki, müəssisə və təşkilatı təmsil edən kommunikasiya meneceri öz maraqları, problemləri , istək və arzuları olan auditoriya ilə işləyir. Bu insanlarla uyğun və sadə dildə danışmalıyıq. Çünki qəliz və qaranlıq cümlələr cəmiyyətdə səhv başa düşülən zaman şəxsi qəbuletmə və qıcıq yarada bilər. Buna görə də cəmiyyətin bizdən hansı addımı atmağımızı və nəyi eşitmək istədiklərini bilməli, özümüzü onların yerinə qoyub empati qurmalıyıq. Kiçik mesajlarla dialoq qurmaq və ya KİV-lərin sorğu keçirməsini istəyə bilərik. Bundan başqa baş vermiş böhran və ya hadisə ilə bağlı lokal və beynəlxalq təcrübəni də öyrənməliyik. Çünki cəmiyyətin psixologiyası oxşar xüsusiyyətlərə malikdir və çıxış yolları bəzən birəbir eyni ola bilir. Bu da müəssisələrin və təşkilatların ümumilikdə hədəf kütləsinin və auditoriyasının eyni olması və eyni auditoriya ilə işləməsi ilə əlaqədardır. Ola bilər ki, qarşılaşdığımız böhran dünyada mütləq hansısa bir formada baş vermiş və ondan uğurlu çıxış yolları tapılmışdır.

Məsələyə başqa cür yanaşsaq iki fərqli matrisdə biz qarşılaşdığımız problemin səbəblərini, cəmiyyətdə yaratdığı təsirləri sıralamalıyıq. Hər iki matrisdəki bölgü bizə hadisələri daha punktual və real analiz etməyimizə imkan yaradacaq. Böhran dönəmində ötürəcəyimiz hər mesaj ictimaiyyətdə təşkilatımızın və ya müəssisəmizin baş verən problemi (böhranı) aradan qaldırmaq üçün səyimizi görəcək və bunu mütləq müsbət qiymətləndirəcəkdir. Bəzən böhran haqqında planlar qurmağı ölüm barəsində düşünməklə eyniləşdirirlər. Çünki hər iki hadisənin baş verməsi labüddür. Bu baş verən zaman sonrasında nə olacağını bilmək çətindir, qeyri mümkündür. Lakin kommunikasiya meneceri şirkət rəhbərinə və çalışanlara böhranın baş verməsini zəiflik əlaməti kimi yox gələcəyə ümid və qətiyyətlə baxmaq üçün vasitə kimi təlqin etməlidir. Hər şey hər zaman öz qaydasında gedərsə heç vaxt uğur əldə etmək mümkün olmayacaq. Çünki böhran bizə boşluqları göstərir. Daha güclü olmağa təkan verir. Amma unutmaq olmaz ki, böhranın baş verdiyinə tam əmin olmadan hay-küy salmaq, cəmiyyətdə fərqli fikirləri tətikləmək lazım deyil. Təmkinlilik və sakitlik vacib menecerlik xüsusiyyətlərindəndir. Menecerin vəzifəsi təlaşlı və narahatlıq dönəmində fikirlərini dəqiq və aydın saxlamaq, insanları (rəhbər, müəssisə əməkdaşları, partnyorlar) düzgün istiqamətə yönləndirməkdir. Menecer emosiyalara qapılmamalı, emosional addımlar atmamalı, fikirlər söyləməməlidir. Bu zaman böhran vəziyyətində qələbə bizim olacaq. Qaranlıq, dağınıq, təlatümlü fikir və təlaş əhval-ruhiyyəsi problemin həllindənsə əksinə, onun dərinləşməsinə gətirib çıxarır. Bütün gücünüzün səfərbər edilməsinə nail olmaq lazımdır. Yalnız bu cür böhranın psixoloji tərəfini də öz xeyrinizə yönəldə bilərsiniz. Digər tərəfdən, hər hadisə böhran demək deyil. Böhranın öz xüsusiyyətləri var. Qurumun həyatına təhlükə yaratmayan, tarazlıq vəziyyətini pozmayan hər bir münaqişə və sıxıntını böhran adlandırmaq düzgün olmazdı. Böhranı adi mühitdən fərqləndirən xüsusiyyətlər bunlardır:

- Böhran ciddi bir xəstəlik kimidir və ciddi müdaxilə tələb edir;
- Böhranlar kritik və təhlükəlidir;
- Hər stresli mühiti böhran adlandırmaq olmaz;
- Böhran üçün qəti çıxış yolu, həll formulu yoxdur;
- Bəzi böhranlar yenidən baş verə bilər;
- Bəzən müəssisələr fürsətlərdən istifadə etmək üçün böhranı qəsdən inkişaf etdirirlər;
- Böhran mütləq fəlakət deyil, əksinə, imkanlara çevrilə bilər.

Böhranlar ümumiyyətlə zərərli vəziyyətlərdir, lakin onlar həmçinin aşağıdakı mümkün fürsətləri yarada bilərlər:

• İdarəetmə uğurları ilə yeni qəhrəmanlar meydana çıxa bilər;

• Regenerasiya prosesini sürətləndirə bilər;

• Müəssisə və təşkilat gizli problemlərini aşkarlamış olur və onunla üzləşir;

• Müəssisə əməkdaşlarında müsbət dəyişikliklər formalaşdırır;

• Mümkün yeni böhranlara qarşı yeni strategiyalar hazırlana və erkən xəbərdarlıq sistemləri yaradıla bilər;

• Yeni rəqabətli kanallar yarada bilər [4] .

Mümkün olan bu faydalara baxmayaraq, qurumların böhran nəticəsində baş verəcək zərər və faydaları əvvəlcədən hesablamaq kimi bir imkanı yoxdur. Buna görə də, müəssisələr və təşkilatlar üçün böhranlar çox vaxt arzuolunmaz hadisələrdir.

Böhranın idarə edilməsi planının qarsısında duran ikinci məsələ kriz zamanı müəssisə və ya təşkilat nüfuzunun qorunması, paralel olaraq möhkəmləndirilməsidir. Sahibkarlar düşünür ki, yaxşı məhsul istehsal edir və ya xidmət göstərirəmsə ictimai nüfuzum öz-özünə yaranacaq. Buna dəstək olmağa və qoruyub saxlamağa vaxt və pul sərf etmək doğru deyil. Lakin təəssüflə qeyd edək ki, bu yanaşma sahibkarlığın inkişafına birbaşa təhlükə və maneədir. Kiçik bir böhranla şirkət və təşkilatın illərlə ilmək-ilmək toxuduğu nüfuz bir neçə gün ərzində məhv ola bilər. Ona görə də müəssisə brendinqi mütəmadi aparılmalı, ictimaiyyətlə əlaqələr fəaliyyəti bütün istiqamət və sferada – dövlət təşkilatları, əməkdaşlar, rəqib müəssisələr, istehlakçılar, təchizatçı və tədarükçülər və b. – aparılmalı və möhkəmləndirilməlidir. Böhran zamanı nüfuzun bərpası və möhkəmləndirilməsi üçün vacib olan addımlar var. Sahibkarlıq, QHT və hökumət subyektləri informasiya və kommunikasiya siyasətini hazırlayan zaman hər kəsin bir nöqtəyə vurmasını təmin etmək lazımdır. Rəhbərlər və əməkdaşlar vahid istiqamətdə getməli, eyni məlumatı ötürməlidir. Buna görə də, informasiya ötürülməsində tək məsul şəxs olmalı, məlumatı nə vaxt, necə, kim tərəfindən və hara ötürüləcəyi qaydaları, kommunikasiya modelləri hazırlanmalıdır. Dünya praktikasında kommunikasiyanın bir neçə modeli var. Bunların ən əsasları kimi sentralizə, qismən sentralizə və desentralizə modellərini göstərmək olar:

• Sentralizə modelində böhran qrupuna əsasən təsisçilər və ya müşahidə şurasının üzvləri və kommunikasiya meneceri daxildir;

• Qismən sentralizə modelində böhran idarəetmə qrupuna təsisçilər və ya müşahidə şurasının üzvləri, müəssisə direktorları, kommunikasiya meneceri, risk idarəetmə qrupu daxildir;

• Desentralizə modelində isə "crisis management"ə demək olar ki təşkilatın bütün rəhbər heyəti - təsisçilər və ya müşahidə şurasının üzvləri, direktorlar, departament rəhbərləri, kommunikasiya meneceri, risklərin idarə edilməsi meneceri və eyni zamanda maliyyə meneceri daxildir.

Yuxarıda qeyd etdiyimiz model işini böhranın idarə edilməsi üzərində qurur. Kommunikasiya meneceri isə böhranla bağlı məlumat kütləvi informasiya vasitələrinə ötürməlidir. Bunun üçün də qaydalar toplusu və digər məsələləri özündə cəmləşdirən punktları qeyd edək:

• KİV-ə informasiya ötürülmə prinsipləri və məqsədləri

• Təşkilatın adından çıxış edən səlahiyyətli şəxslər

• Sorğuların qəbulu, cavablandırılması və ötürülməsi

• İctimaiyyət və KİV üçün cari məlumatların toplanması

- KİV üçün xüsusi razılıq tələb edən məlumatların toplanması
- KİV-də yayımlanması qadağan edilən (konfidensial) məlumatın toplanması
- KİV üçün məlumatların işlənməsi və təhlükəsizlik baxımından qiymətləndirilməsi
- Təşkilatın rəhbər şəxslərinin müsahibələrinin təşkili
- Press-relizlər, bəyanatların hazırlanması, brifinq və mətbuat konfraslarının keçirilmə qaydaları [1/2]

Bir məsələni hər zaman diqqətdə saxlamaq lazımdır. Krizlə bağlı böhranın idarə olunması komandası operativ olmalı, kommunikasiya kanallarına məlumatı tez ötürməlidir. Çünki böhran yaradan məlumat sürətlə yayıldıqca təhrif olunur. Ən pisi də odur ki, medianın yeni forması olan sosial şəbəkələr istifadəçiləri şəffaf olduğuna inandıra bilib. İlk informasiyaya inanan istifadəçilər, gecikən informasiyada şirkətin mövqeyini və səmimiliyini şübhə altında qoyur [5].

Böhran kommunikasiyasından danışarkən lokal və dünya təcrübəsinin öyrənilməsinin vacibliyini də qeyd etdik. Bunun üçün müəssisə və təşkilatların ictimaiyyətlə əlaqələr şöbəsində media monitorinq bölməsi olmalı və ya media monitorinqini həyata keçirən şirkətlərlə əməkdaşlıq edilməlidir. Bu bölmə lokalda və dünyada baş verən prosesləri, benəlxalq və yerli media orqanlarının müəssisə üçün maraqlı ola biləcək xəbərləri qısaltmalı, başlıqlar formasında risklərin idarə edilməsi şöbəsinə və müəssisə rəhbərinə göndərməlidir. Media monitorinq təcrübə baxımından böhranın idarə edilməsi planında kommunikasiya prosesinə mütləq öz töhvəsini verəcəkdir. Hadisə baş verən zaman böhran komandası problemin başvermə yeri, saatı, maddi və maliyyə itgiləri, bunun gətirəcəyi iqtisadi problemlər, insan tələfatı, hadisənin başvermə yeri barədə mümkün qədər tez araşdırma aparmalıdır. Buna qədər isə media bu hadisədən xəbərdar olmamış özümüz bununla bağlı qısa məlumat verməli və araşdırmanın başlanılması barədə informasiya ötürülməliyik.. Bu zaman ictimaiyyət hadisəni birbaşa sizdən eşidəcək, sizin də bu problemi həll etməkdə maraqlı olduğunuzu görəcək. Bəlkə də belə olan halda böhran dərinləşmədən ötüşəcək. Eyni zamanda xüsusilə vurğulamalıyıq ki, böhran zamanı müəssisə və təşkilatlar istehlakçılarla əlaqələrdə strateji yanaşmanı dəyişməlidirlər. İlkin açıqlama zamanı cəmiyyətdə yeni informasiya barədə gözlənti yaranacaq. Bu gözləntilər təmin edilənə kimi cəmiyyətin sosial şəbəkələrdəki müzakirələrini izləmək lazımdır. Ümumi rəyə əsasən problemin həlli istiqmətində addımlar atılmalı və cəmiyyətin gözlədiyi məlumatları ötürməliyik. İctimaiyyətlə əlaqələr meneceri mediada əsas sima olsa da brifing və ya mətbuat konfransları ilə birbaşa rəhbər də cəmiyyətə məlumat verməli, istehlakçı ilə özü arasında olan güvəni təzələməlidir.

Bütün bunların fonunda ehtimal olunan bütün böhranlar müəyyən edildikdən sonra böhran kommunikasiya planı yazılmalıdır. Böhran kommunikasiya planı daha böyük böhranın idarə edilməsi planının (CMP) bir hissəsi ola bilər və ya ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislərə böhranları daha effektiv idarə etməkdə kömək edən bir sənəd ola bilər. Böhran menecmenti planında evakuasiya prosedurları, şirkətin müxtəlif departamentlərinin fövqəladə işçi heyəti və fövqəladə hallar üçün avadanlıq, alətlər və ya nəqliyyat vasitələrinin alınması və ya icarəyə götürülməsi üçün yerlər - böhran zamanı şirkətin ehtiyac duyduğu bütün məlumatlar daxildir. [5].

Böhran idarəçiliyi zamanı təşkilat və müəssisənin təhlükəsizliyinin ən vacib elementlərindən biri də əməkdaşların gözündə müəssisə nüfuzunun qorunmasıdır. Böhran

zamanı əməkdaşlarla da düzgün kommunikasiya qurulmalıdır. Böhranın ilkin vaxtlarında əməkdaşlar arasında qorxu yaranır. Onları ixtisarlar, əməkhaqqının azaldılması və gələcək karyeralarının taleyi qorxudur. Böhran baş verərkən ilk növbədə mövcud vəziyyət barədə məlumat verilməlidir. Daha sonra davamlı olaraq media ilə bölüşülən məlumatın açılama hissəsi əməkdaşlarla bölüşülməlidir. Çünki mütləq şəkildə cəmiyyətə daxildən ötürülən informasiyalar ictimaiyyət tərəfindən daha güvənli hesab olunur. Yanlış məlumatların, şayiə və dedi-qoduların qarşısının alınmasında daxili kommunikasiya mütəxəssisinin üzərinə məsuliyyət düşür. Böhran zamanı və böhran bitdikdən sonra da kommunikasiya prosesi hətta böhranın pik həddini arxada qoysa belə dayandırılmamalıdır. Bəzən bir çox təşkilatlar uğurlu kommunikasiyadan sonra hesab edirlər ki, artıq ictimaiyyətin məlumatlara ehtiyacı yoxdur. Lakin bu, kökündən yanlış düşüncədir. Çünki böhrandan əvvəl, böhran zamanı və böhrandan sonra ictimaiyyətin düşüncəsini istiqamətləndirmək və ictimai rəy yaratmaq prioritet məsələdir.

**Nəticə**

Tədqiqat nəticəsində gəldiyimiz nəticə budur ki, bütün sahələrdə (dövlət qurumları, özəl təşkilatlar və qeyri hökumət təşkilatları) böhran baş verə bilər. Heç kim böhrandan sığortalanmayıb. Böhran zərərli olduğu kimi inkişaf üçün də hərəkətverici qüvvədir. Özəl təşkilatlarda böhran həm də zəif tərəflərin görülməsində, həmin tərəflərin aradan qaldırılıb inkişaf etdirilməsində təkanverici qüvvədir. Yəni biz zəif tərəflərimizi inkişaf etdirdikcə irəliyə getməyimiz daha da asanlaşır.

Tədqiqat nəticəsində Azərbaycanda özəl sektorda qarşılaşdığımız böhranların əsas səbəblərini aşağıdakı kimi qruplaşdıra bilərik:

- Şöbələr arasında daxili kommunikasiyanın zəif olması;
- Şirkətlərin loyal müştərilərinin az olması;
- Uzunmüddətli qazanca yox, mövsümü gəlirlərə üstünlük verilməsi;
- Cəmiyyətin rəyinin daimi öyrənilməməsi;
- Media ilə əlaqələrin zəif olması, reket jurnalistikanın mövcudluğu;
- Böhran menecmenti planının olmaması;
- Şirkət rəhbərlərinin böhran idarəçiliyi ilə bağlı məlumatlı olmaması;
- Şirkət əməkdaşlarında şirkətə bağlılıq yaradılmaması;
- Korporativ sosial məsuliyyət istiqamətində fəaliyyətsizlik və s.

Bütün bu və sadalanmayan problemlərin həlli, gələcəkdə baş verə biləcək hadisələrin simulyasiya yolu ilə müəyyənləşdirilməsi nəticəsində böhran riskini azaltmaq olar. Bundan sonra baş verə biləcək böhranlar isə qlobalda baş verəcək proseslərə bağlı olaraq əvvəlcədən kommunikasiya modelləri müəyyənləşdirilə bilməyənlərdir. Lakin bunun da çıxış yolu əvvəlcədən böhrandan çıxış komandasının olmasıdır. Beləliklə biz ictimaiyyətlə əlaqələr istiqamətində yeni cığırın açılmasına və gələcəkdə bu istiqamətdə müfəssəl araşdırmaların aparılmasına təkan vermiş olduq.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan tədqiqat işində böhran menecmentində bir sıra çatışmazlıqların olduğu aydınlaşmış, çatışmazlıqlar aşkarlanmış, hərəkət verici amillər tədqiq olunmuş və əsaslandırılmışdır. Bundan başqa Azərbaycanda özəl və dövlət qurumları üçün böhran idarəetmə konsepsiyası göstərilmişdir. Ölkəmizdə bu günə kimi böhran kommunikasiyası geniş araşdırılmamış və yerli nəzəriyyə yazılmamışdır. Bu tədqiqat gələcəkdə davam etdirilərək Azər-

baycan üçün xarakterik nəzəriyyənin ortaya çıxmasını tətikləyəcək.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. "Nəyi? Necə? Nə vaxt? – İctimaiyyətlə əlaqələrin idarə edilməsi", Namiq Əliyev, Bakı 2015, səh 25, səh 27
2. "Halkla İlişkiler ve Kriz Yönetimi", Mustafa Akdağ, səh 5
3. "Kriz İletişimi ve Yönetimi", Gürkan Haşit, Eskişehir 2013, səh.7
4. "Halkla İlişkiler Uygulamaları ve Örnek Olaylar", *İdil Suher, Eskişehir 2013, Səh:12*
5. "Crisis Communıcatıon", Peter F Anthonıssen, London 2008, səh.196
6. "Crisis Communications", Kathleen Fearn-Banks, Nyu York 2011, səh.306

**Эльвин Азизага оглы Бабаев**
Хазарский университет
руководитель отдела по связям с общественностью «Аврора Групп»

**ПРИЧИНЫ БИЗНЕС-КРИЗИСА И ВЛИЯНИЕ КРИЗИСА НА БИЗНЕС-СРЕДУ**

**Резюме**

В статье мы рассмотрим кризисы в деловом мире и в Азербайджане и причины этих кризисов. На фоне внимания и заботы государства о предпринимательстве в Азербайджане некоторые предприятия сокращаются, закрываются или работают в убыток из-за кризиса. В этой статье мы обрисуем этапы кризиса и шаги, которые необходимо предпринять. В конце были отражены результаты анализа.

**Ключевые слова:** связи с общественностью, кризис, антикризисное управление, кризис.

**Elvin Azizaga oglu Babayev**
Khazar University
Head of Aurora Group Public Relations

**CAUSES OF BUSINESS CRISIS AND THE IMPACT OF THE CRISIS ON THE BUSINESS ENVIRONMENT**

**Abstract**

In the article, we will examine the crises in the business world and in Azerbaijan and the causes of these crises. Against the background of the state's attention and care for entrepreneurship in Azerbaijan, some enterprises are shrinking, closing or operating at a loss due to the crisis. In the article, we will outline the stages of the crisis and the steps that need to be taken. In the end, the results of the analysis were reflected.

**Keywords:** Public Relations, Crisis, Crisis Management, Crisis

**Daxil olub:** 20.02.2021

**Səbinə Canoğlan qızı Nuruzadə**
Xəzər Universiteti
"AQTİ" Böyük mütəxəssis
E-mail: sabina.nuruzada@afsa.gov.az; nuruzade1989@bk.ru

# AZƏRBAYCANDA QİDA MƏHSULLARININ SATIŞ VƏ İXRAC FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Xülasə**

Məqalədə qida sektorunda sahibkarlıq subyektlərinin satış və ixrac fəaliyyətinin spesifik xüsusiyyətləri, onların fəaliyyət prinsipləri tədqiq edilir. Həmçinin, qida məhsullarının satış və ixracına təsir göstərən amillər, aqrar marketinqin təkmilləşdirilməsinin əsas istiqamətləri araşdırılır.

**Açar sözlər:** Qida sektoru, satış və ixrac fəaliyyəti, marketinqin təkmilləşdirilməsi.

**JEL A-13**
**UOT 659.3**

**Giriş**

Azərbaycanın aqrar-sənaye siyasəti ölkədə əhalinin kənd təsərrüfatı məhsulları ilə tam təminatının etibarlılığına, eləcə də onun keyfiyyətinin yüksəldilməsinə, ərzaq təhlükəsizliyinə yönəlmişdir. Bu baxımdan aqrar sənayenin inkişafı dövlətin ərzaq müstəqilliyini və cəmiyyətin sosial-iqtisadi sabitliyini müəyyən edir.

Müəssisələrin istehsl-satış fəaliyyətinin təkmilləşdirilməsində marketinqin əhəmiyyəti və rolu böyükdür. Belə ki, marketinqə əsaslanan rəqabət strategiyaları həm qlobal, eyni zamanda, daxili bazardakı dəyişiklikləri nəzərə almağa imkan verir. Zamanında aparılan marketinq tədqiqatları bazardakı cari vəziyyəti, istehlakçıların tələb və ehtiyaclarını, onların seçimlərindəki dəyişikliklərin səbəblərini müəyyən edə bilər. Bununla yanaşı, bazarda meydana çıxan yeni rəqiblərin öyrənilməsi yolu ilə müəssisənin inkişafı üçün rəqabət strategiyaları hazırlanır.

**Tədqiqatın metodikası:** Elmi-tədqiqat işinin yerinə yetirilməsində əsas tədqiqat metodları olan - sistem və proses yanaşma metodlarından, müşahidə, müqayisə üsulundan, statistik təhlildən, SWOT analiz metodikasından istifadə edilib.

**Tədqiqatın məqsədi:** Azərbaycanda ərzaq sektorunda sahibkarlıq subyektlərinin satış və ixrac fəaliyyətinin xüsusiyyətlərinin öyrənilməsi, onların fəaliyyət prinsiplərinin spesifik cəhətlərini ortaya çıxarmaq, qida məhsullarının satış və ixrac bazarındakı mövcud vəziyyəti təhlil etməklə perspektivləri müəyyənləşdirmək tədqiqatın əsas vəzifələrindəndir. Həmçinin, qida məhsullarının satış və ixracına təsir göstərən amillərin, aqrar marketinqin təkmilləşdirilməsinin əsas istiqamətlərinin müəyyən edilməsi araşdırma mövzusudur..

**Tədqiqatın nəticələri:** Tədqiqatda Azərbaycanda satış və ixrac həyata keçirən sahibkarların fəaliyyətinin spesifik xüsusiyyətləri öz əksini tapmışdır. Həmçinin strateji yol xəritələri və dövlət proqramlarının sahibkarlığın inkişafında oynadıqları rolu təhlil olunmuşdur.

**Qida məhsullarının satış və ixrac fəaliyyətinin genişləndirilməsi strategiyası**

Qida məhsullarının satış və ixrac

fəaliyyətinin genişləndirilməsi strategiyası çərçivəsində Azərbaycanın ixrac bazarının şaxələndirilməsi üçün konkret yol xəritələri hazırlanmışdır. BMT-nin malların ticarətinə dair məlumat bazasının əsasən respublikamızın ixrac edə biləcəyi ilkin əsas məhsullar üçün bazarlar müəyyən edilərək, əsasən coğrafi məkan baxımından ən uyğun və yaxın bazarların seçilməsi əsas götürülmüşdür.

Respublikamızın Rusiya bazarlarına daha çox çeşiddə məhsul ixrac edilməsi, ticarət sanksiyaları aradan qalxdıqdan sonra İran İslam Respublikası ilə ticarət əlaqələrinin inkişafı əsas götürülmüşdür. Çünki qısamüddətli dövr ərzində əsasən bu iki qonşu ölkələr üzrə ixrac imkanlarının genişləndirilməsi daha real görünür. Həmçinin, müxtəlif kənd təsərrüfatı və ərzaq məhsullarının məhsuldarlığını artırmaqla hər iki bazarda fəaliyyətin gücləndirilməsi üçün real imkanların mövcudluğu da nəzərdən qaçmamışdır.

Qida məhsullarının ixrac strategiyasının ikinci hissəsi olaraq əsas diqqət ölkəyə yaxın olan hədəf bazarların və bu bazarlar üçün əhəmiyyətli sayılan məhsulların müəyyənləşdirilməsinə yönəldilmişdir (şəkil).

**Şəkil 1.**

**Potensial ixrac bazarları və əsas ixrac məhsulları**




1. *Seçilmiş Orta Asiya ölkələri: Qazaxıstan, Türkmənistan, Özbəkistan*
2. *Avstriya, Belçika, Danimarka, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İtaliya, Niderland, Polşa, Portuqaliya, İspaniya və Birləşmiş Krallıq*
3. *Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Küveyt, Qətər.*

Rusiya bazarları ölkəmiz üçün əsas ixrac bazarlarından hesab olunur. Məlumdur ki, respublikada istehsal edilən müxtəlif növ qida məhsullarından pomidor, xiyar və kornişon ixracı Rusiya bazarlarına satılan əsas məhsullardır. BMT tərəfindən "heç bir mənbədə göstərilməyən" məhsul kateqoriyasına daxil edilmiş bu məhsulların ixrac potensialı dövlət tərəfindən qarşıya qoyulmuş əsas tədbirlərdən biridir. Ümumiyyətlə, Azərbaycandan və regionun digər ölkələrindən gələn məhsulun idxal dövriyyəsi 40 milyon ABŞ dollarından artıq olan məhsul kateqoriyası kimi təsnif edilib. Üzüm şərabından alınan spirt də yüksək potensiala malik olan məhsullar sırasındadır. Fındıq ləpəsi, təzə gilas və şaftalı da orta potensiala malik olan ixrac məhsulları kateqoriyasına aid edilir. Qeyd etmək lazımdır ki, bu məhsulların orta ixrac dəyəri 25 milyon ABŞ dollarından artıqdır.

**Qida məhsullarının satış və ixracında marketinqin əhəmiyyəti və rolu**

Marketinq - məhsula olan tələbatın və ya məhsul bazarının öyrənilməsini, eyni zamanda tədqiqini ifadə edən bir məfhumdur. Marketinq tədqiqatlarının aparılmasını istehlakçıların məhsul barədə rəyini öyrənmək, eyni zamanda, onları dinləmək kimi də qəbul etmək olar. İstənilən məhsulun istehsalı ilə məşğul olan hər hansı bir müəssisə, şirkət, fermer təsərrüfatı və digər təşkilatın ilk olaraq, istehlakçının hansı məhsulu nə səbəbə istədiyi barədə informasiyaya ehtiyacı vardır. Çünki sonda məhsulun alınıb alınması barədə qərarı məhz istehlakçı verir. Marketinq tədqiqatları, mövcud bazarın araşdırılması və təhlili də onun üçündür ki, istehsalçılar məhsul barədə əsaslandırılmış və düzgün qərar qəbul edə bilsinlər. Bəzən həmin informasiya məhsul istehsalçılarına məhsulun çeşidinin artırılması üçün istehsal və satış proqramlarını hazırlamaq, satış bazarının bu günə olan vəziyyətini qiymətləndirmək üçün lazım olur.

Müasir bazar iqtisadiyyatı şəraitində də fəaliyyət göstərdiyi sahədən asılı olmayaraq, bütün istehsalat müəssisələrində rəhbərliyi düşündürən ən önəmli məsələ məhz mövcud olan rəqabət şəraitində müəssisənin fəaliyyətinin davam etdirilməsi, həmçinin, onun hərtərəfli inkişafına səbəb olacaq əlverişli yolların tapılması, uğurlu strategiya və proqramların hazırlanması və uğurla tətbiq olunmasıdır. Bu məsələlərin reallaşdırılması istiqamətində həyata keçiriləcək ən mühüm tədbir həmin təşkilat və ya müəssisənin marketinq fəaliyyətinin səmərəli təşkilidir, çünki sadalanan məsələlərin həlli birbaşa marketinq fəaliyyəti ilə bağlıdır.

Menecerin marketinq siyasətinə bazar rəqabəti şəraitində qiymət səviyyəsinin müəyyənləşdirilməsi, məhsulun keyfiyyətinin yüksəldilməsi, onun yeniləşdirilməsi, növünün yaxşılaşdırılması, satışın təmin edilməsi, məhsula olan tələbatın dinamikasının, həmçinin, bazar rəqabətinin öyrənilməsi, həmçinin, istehsal olunan məhsul strukturunun bazar tələblərinə yönəldilməsi, tələbata və alıcılara müxtəlif vasitələrlə təsir göstərilməsi daxildir. Bütün bunları reklam, sərgilər və s. ilə həyata keçirmək mümkündür.

Müəssisənin ehtiyatlarına uyğun olan sərfəli bazarın müəyyən edilməsi, müəssisənin ehtiyatlarından məhsulun istehsalında düzgün istifadə olunması konkret bir müəssisə üçün marketinqin əsas vəzifələridir. Planlaşdırma strategiyasının əsas ünsürlərindən sayılan marketinq bazar iqtisadiyyatına əsaslanır və ona bizne-

sin əsası kimi baxılır.

Sistemli yanaşmadan və əks əlaqə prinsipindən istifadə sayəsində marketinq bazarın effektiv alətinə çevrilmişdir. Beləliklə, marketinq, xarici amillərin təsirini nəzərə almaqla qarşıya qoyulan məqsəd çərçivəsində istehsalı və ticarəti idarə etmə sistemidir. Xarici amillər dedikdə isə istehlakçının davranışı, bazardakı rəqabət, hökümətin və yerli hakimiyyətin hərəkəti (qanunlar, qərar və sərəncamlar), əmtəənin hazırlanma texnologiyasında nailiyyətlər və dəyişikliklər, informasiya vasitələrinin təsiri, ümumi iqtisadiyyatın vəziyyəti və s. nəzərdə tutulur ki, həmin amillər də bazar konyukturunu formalaşdırır.

Ümumiyyətlə, bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə marketinqin tətbiqindən uzun müddət vaxt keçməsinə baxmayaraq, bu ölkələrdə sözügedən fəaliyyətin hamı tərəfindən birmənalı şəkildə izahına rast gəlinmir. İnkişaf etmiş ölkələrdə marketinq fəaliyyətinin geniş yayılmasına və tətbiq edilməsinə baxmayaraq, onun vahid və hamı tərəfindən qəbul edilən tərifi yoxdur. Belə ki, aparılan araşdırmalar və tədqiqatlar göstərir ki, marketinqin tərifləri çoxdur və bu məfhum müxtəlif ədəbiyyatlarda müxtəlif mənaları ilə seçilir. Bu baxımdan, bu və ya digər ədəbiyyatda marketinqə verilən təriflə başqa bir ədəbiyyatda verilən tərif üst-üstə düşmür. Hətta marketinqin elmi-nəzəri və praktiki məsələləri ilə məşğul olmuş mütəxəssislərin qənaətinə görə, marketinqin tərifi marketinqlə məşğul olanlar qədərdir. Marketinqə aid dərslik hazırlamış amerika marketoloqlarının fikrincə, bu zamana kimi heç kəs marketinqin vahid tərifini müəyyən edə bilməmişdir. Marketinq məfhumu müxtəlif iqtisadi ədəbiyyatlarda "biznes fəlsəfəsi", "bazar konsepsiyası", "satış bazarlarının yaradılması və idarə olunması", "istehsal-satış fəaliyyəti zamanı meydana çıxan qeyri-müəyyənlik səviyyələrinin aradan qaldırılması", "müəyyən həyat standartlarına nail olunması", "məhsulların istehsalçılardan istehlakçılara çatdırılması" kimi izah olunur. Marketinqlə məşğul olan mütəxəssislər marketinqi biznes fəlsəfəsi, həmçinin, müəssisənin bazar fəaliyyətinin metodologiyası kimi qəbul edirlər.

Məlum olduğu kimi, yeyinti sənayesi istənilən dövlətin istehsal potensialının artırılmasında, onun iqtisadiyyatının intensiv inkişaf yoluna keçirilməsində, eləcə də iqtisadiyyatın bütün bölmələrinin qarşılıqlı fəaliyyətinin yüksəldilməsində vacib rol oynayır. Bu baxımdan sözügedən sahədə marketinq fəaliyyətinin səmərəli təşkil olunması onun inkişafının əsasını təşkil edir. Marketinqin səmərəli təşkili, hər şeydən əvvəl, marketinq konsepsiyasının mənimsənilməsi ilə başlanır.

Bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin səmərəli fəaliyyətinin təşkil edilməsi onların öz işlərini mövcud bazarın tələblərinə uyğun təşkil etmələrindən asılıdır. Bunun üçün həmin müəssisələrin marketinqin prinsiplərindən və praktiki xarakterli tədbirlərindən istifadə etmək bacarığı olduqca vacibdir.

Ümumiyyətlə, marketinq fəaliyyəti uzun illərdir ki, xarici ölkələrdə istehsal və satış fəaliyyəti üzrə bu işlə məşğul olan müəssisələrə müvəffəqiyyət qazandıran tədbirlər sistemi kimi çıxış etmişdir. Müəssisələr marketinq tədbirlərinin işlənib hazırlanması və həmin tədbirlərin keyfiyyətlə reallaşdırılması ilə həm özlərinin istehsal-satış fəaliyyətlərinin səmərəliliyini təmin edə, həm də rəqabət qabiliyyətliliklərini yüksəldə bilirlər.

Respublikamızda formalaşma dövrünü yaşayan və müxtəlif qida məhsullarını istehsal edən müxtəlif təşkilat və müəssisələrin səmərəli fəaliyyəti marketinq konsepsiyalarının həmin müəssisələrdə tətbiqindən əhəmiyyətli dərəcədə asılıdır. Bunun üçün təsərrüfat rəhbərlərinin marketinq, onun  konsepsiyaları və hər bir konsepsiyanın tətbiqi şəraiti haqqında məlumatlara sahib olmaları vacibdir.

Qeyd olunduğu kimi, ölkəmizin  qida sənayesi sahəsində fəaliyyət göstərən müəssisələrində marketinq konsepsiyalarının tətbiqinin vacibliyi bazar  münasibətlərinə keçidlə və istehsal-satış prosesinin bazar qanunauyğunluqları əsasında təşkil edilməsiylə bağlıdır. Məlum məsələdir ki, bazar münasibətlərinin formalaşdığı şəraitdə bu sahədə fəaliyyət göstərən müxtəlif istehsal strukturlarının əsas məqsədi mənfəət və gəlir əldə etməkdir. Mənfəət, istehsal edilən əmtəənin alış qiymətilə onların istehsal edilməsinə, həmçinin, satışına çəkilən xərclərin cəmi arasında fərq kimi nəzərdə tutulur. Məhsuldan əldə edilən mənfəət isə bir sıra amillərdən, məsələn, bazarda mövcud olan əlverişli şəraitdən asılıdır. Həmçinin, bazar konyukturasından bəhrələnərək, məhsulları daha ucuz alaraq və  baha qiymətə sataraq qazanc əldə etmək olar. Lakin bazarda eyniçeşidli malların çox olması və "bazarın bolluğu"nda rəqabət artdığından gəlirin əldə olunması, eləcə də müəssisənin uzunmüddətli dövr üçün istehsalının və satışının səmərəliliyinin təmin olunması çətinləşir.

Belə bir şəraitdə qida sektorundakı şirkətin alıcıları üçün dəyərlərin yaradılması ilə eyni zamanda şirkət özü də mənfəət əldə edə bilir. Müəssisənin rəhbərliyi məhz bu yolla öz alıcılarını və onların müəssisəyə olan loyal münasibətini formalaşdıra, onu qoruyub-saxlaya bilərlər. Bu məsələlərin həlli marketinq konsepsiyalarının aqrar sahə müəssisələrinə tətbiq olunması ilə mümkündür. Bu da, öz növbəsində, maketinqin əhəmiyyətini daha da artırır.

Marketinqin istehsal funksiyasına bazarda tələbat olan yeni məhsulların istehsalı, yeni texnologiyaların işlənib-hazırlanması,maddi-texniki təchizatın təşkili, məhsulun keyfiyyətinin idarə olunması,hazır məhsulun rəqabətqabiliyyətliliyinin təmin olunması aid edilir. Satış funksiyası dedikdə, əmtəənin hərəkəti sistemi, servisin, tələbin formalaşdırılması, satışın stimullaşdırılması, həmçinin, məqsədyönlü qiymət və əmtəə siyasətinin həyata keçirilməsi başa düşülür. İdarəetmə və nəzarət funksiyalarına isə müəssisədə operativ,strateji planlaşdırmanın təşkili, marketinqin idarə olunması, marketinqin kommunikasiyalı  funksiyası, informasiya təminati və marketinqə nəzarətin təşkili daxil edilir.

Müəssisə rəhbərləri marketinq barədə tədqiqatlar apararaq xarici mühitin onları maraqlandıran elementlərilə - bazarı, istehlakçıları, ərzaq məhsullarının istehsalçılardan alıcılara çatdırılmasında rol oynayan vasitəçilərlə əlaqələri və bağlılığı təmin edirlər. Sözügedən əlaqənin təmin olunması nəticəsində onlar öz istehsalını, satışlarını yaxşılaşdıra bilir, daha dayanıqlı şəkil alması məqsədilə doğru qərarlar verirlər. Ona görə də, çox zaman marketinq tədqiqatlarını (eyni zamanda, aqromarketinq tədqiqatlarını) "müəsisə ilə xarici mühit arasında əlaqə yaradan konmunikasiya kanalı" da adlandırırlar. Sözügedən "kommunikasiya kanalı"nın fəaliyyəti nəticəsində istehsal-satış prossesində yarana bilən problemlər vaxtında aşkar edilir və onların həllinə nail olunur.

Qida müəssisələri marketinq tədbirlərini həyata keçirməklə və artıq reallaşdırdıqları tədbirlərin səmərəliliyinin qiymətləndirilməsilə istehsal-satış-ixrac fəaliyyətlərinin keyfiyyətini artırmaq üçün imkanlar qazanırlar. Lakin aqrar sahadəki müəssisələr tərəfindən bazar tədqiqatlarının aparılmasına çəkilən xərclər özünü doğrultmasa da, müəssisənin səmərəliliyini azalda və təşkilatın bazardakı mövqelərini zəiflədə bilər. Marketinq tədqiqatlarının aparılması böyük vəsaitlər hesabına başa gəlsə də, əldə edilən məlumatlardan çıxarılan düzgün nəticə həmin müəssisələrin bazarda səmərəli fəaliyyət göstərmələrinin vacib şərtidir. Qeyd etmək olar ki, marketinq tədqiqatları ayrı-ayrı istiqamətlər üzrə aparıla bilər və ona uyğun olaraq qida sahəsinin inkişafı məqsədilə səmərəli strategiyalar işlənib hazırlana bilər.

Qida məhsulları bazarında aparılan marketinq tədqiqatlarının ən mühüm obyektlərindən biri məhz bazarın özüdür. Aqrar bazarın, mühüm seqmentlərindən biri kimi ərzaq və yeyinti məhsullarının bazarını öyrənmədən müəssisənin perspektivli bazarının seçilməsinə, satışın gələcəkdə mümkün olan həcminin müəyyənləşdirilməsinə və proqnozlaşdırılmasına dair qərar qəbul etmək mümkün deyil. Bazarın tədqiq edilməsi xarici ölkə bazarlarından yerli bazara daxil olan istehsalçılarla kəskin rəqabət şəraitində dayanıqlı fəaliyyət göstərmək üçün marketinq strategiyalarını müəyyənləşdirən yeni bazar imkanlarını aşkara çıxarır. Bazarın coğraflyası strukturu, həcmi, satışın dinamikası, rəqabətin kəskinliyi,şəraiti, mümkün imkanları və riskləri tədqiqat obyekti olaraq göstərilə bilər.

İstehlakçıların ehtiyac və tələblərinin öyrənilməsi də müəssisələrin bazarda əlverişli mövqe tutmalarında xüsusi əhəmiyyət kəsb edir. Bu zaman qarşıya qoyulan əsas məqsəd alıcıların seqmentləşdirilməsi və bazarın məqsəd seqmentini seçməkdir. Alıcıların tədqiqi zamanı onların aqro-ərzaq məhsullarını seçərkən əsaslandıqları sövqedici amilləri müəyyən etmək və onları öyrənmək vacibdir. Həmçinin, alıcıların hüquqları və həmin hüquqların qorunması şəraiti də təhlil oluna bilər.

Qida müəssisələri satışlarını yaxşılaşdırmaq və əlverişli mənfəət əldə etmək üçün onlarla eyni sahədə çalışan rəqiblərinin fəaliyyətlərini də izləməli, rəqib şirkətlərin güclü və zəif tərəflərini, istehlakçıların onların məhsullarına, məhsulların qiymətlərinə, reklam kompaniyalarına və s. reaksiyasını öyrənməlidirlər. Bu isə, şirkətə öz rəqibləriylə müqayisədə bazarda daha yaxşı mövqe tutmaq üçün əlverişli strategiyaların işlənib hazırlanmasına imkan verir.

Qida məhsulları bazarının firma strukturunun öyrənilməsi də müəssisəyə seçdiyi bazar seqmentlərinə çıxmaq, həmin seqmentlərdə öz fəaliyyətini təmin etmək məqsədilə mümkün vasitəçilər haqqında dolğun məlumatlar əldə etməyə imkan verir.

Müəssisələrin bazarlarda uzun müddətli və uğurlu fəaliyyəti üçün onların bazara təklif etdikləri qida və ərzaq məhsullarının keyfiyyət xüsusiyyətləri alıcıların maraq və tələblərinə cavab verməlidir. Bu məqsədlə hər bir müəssisə zəruri tədbirlər həyata keçirməli, istehlakçıların hansı xüsusiyyətlərinə görə əmtəələri aldıqlarını öyrənməli, həmin xüsusiyyətləri reklam kompaniyalarında vurğulamaqla daha çox alıcı cəlb etməlidir. Bundan əlavə, təklif edilən ərzaq məhsullarının qiyməti həm istehsalçılar, həm də istehlakçılar üçün münasib olmalıdır. Bunun üçün aparılan marketinq tədqiqatları zamanı müəssisələr

tərəfindən istehlakçıların qiymətlərə reaksiyaları və rəqib müəssisələrin hazırladıqları malın qiymətlərinin müəsisənin istehsal etdiyi qiymətlərə təsiri öyrənilməlidir. Bunun nəticəsində şirkət bazardakı mövqelərini gücləndirməyə imkan verən qiymət siyasəti işləyib hazırlayır və onu həyata keçirir.

Bazar münasibətləri şəraitində müəssisənin səmərəli fəaliyyətinin təşkil olunması onun əmtəələrinin düzgün bölüşdürməsindən və satış sisteminin qurulmasından birbaşa olaraq asılıdır. Bu baxımdan ərzaq məhsullarının bazara "yeridilməsinin" və satışının tədqiq olunması marketinq tədqiqatlarının önəmli istiqamətlərindən hesab edilir. Bu zaman malların bazarlar üzrə bölüşdürülməsi, satış kanallarının müəyyən edilməsi, məhsulların ötürülməsi, onların lazımı yerlərdə saxlanması və digər işlər icra olunur.

Bundan əlavə, marketinqin məhsulun çeşidinin planlaşdırılması, reklam işlərinin və satışın həvəsləndirilməsi, qiymət əmələ gəlməsi, nəzarət və mübadilə, nəqletmə, standartlaşdırma, risklərin idarə edilməsi kimi vacib funksiyalarının düzgün yerinə yetirilməsi yeyinti məhsulları sektorunda fəaliyyət göstərən müəssisələrin istehsalının və satışının səmərəliliyinin artırılmasına imkan verir.

## Ədəbiyyat siyahısı:

1. Axundov Ş.Ə. Marketinqin əsasları. Bakı: Əbilov, Zeynalov və oğulları nəşriyyatı, 2001, 572 s.
2. Binet, L. (2009). Marketing in a recession: 10 things to remember. *Adweek*. Retrieved October, 18, 2013, from http://www.adweek.com/news/ advertising-branding/marketing-recession-10-things-remember-98256
3. Kotler, P. (2000). *Marketing management: The millennium edition*. Upper Saddle River, NJ: Prentice-Hall.
4. Kotler, P., & Caslione, J. A. (2009). *Chaotics: The business of managing and marketing in the age of turbulence*. New York, NY: AMACOM.
5. The Nielsen Company. (2012). *The economic divide: How consumer behavior differs across the economic spectrum*. Retrieved August, 24, 2013 from http://www.nielsen.com/content/dam/corporate/us/en/reports-downloads/2012-Reports/ Economic-Divide.pdf

**Sabina Canoglan gizi Nuruzade**
Khazar University "AGTI" Senior Specialist
E-mail: sabina.nuruzada@afsa.gov.az; nuruzade1989@bk.ru

## IMPROVING FOOD SALES AND EXPORT ACTIVITIES IN AZERBAIJAN

**Abstract**
The article examines the specific features of the sales and export activities of businesses in the food sector, the principles of their operation. Also, the factors affecting the sale and export of food products, the main directions of improving marketing of agrarian sector are studied.
**Keywords:** Food sector, sales and export activities, improvement of marketing.

**Сабина Джаноглан кызы Нурузаде**
Хазарский университет
"АГТИ" старший специалист
E-mail: sabina.nuruzada@afsa.gov.az; nuruzade1989@bk.ru

# УЛУЧШЕНИЕ ПРОДАЖ И ЭКСПОРТА ПРОДОВОЛЬСТВИЯ В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

В статье рассматриваются особенности сбытовой и экспортной деятельности хозяйствующих субъектов пищевой отрасли, принципы их функционирования. Также изучены факторы, влияющие на реализацию и экспорт продуктов питания, основные направления совершенствования аграрного маркетинга.

**Ключевые слова:** пищевой сектор, сбытовая и экспортная деятельность, совершенствование маркетинга.

**Daxil olub:** 12.02.2022

**Nəcibə Qabil qızı Hacıyeva**
Bakı Dövlət Universitetinin
«Beynəlxalq münasibətlər və iqtisadiyyat»
fakültəsinin «Dünya İqtisadiyyatı»
kafedrasının i.ü.f.d., baş müəllim
E-mail: nadjiba_h@mail.ru

# AQRAR MÜƏSSİSƏLƏRİNDƏ QƏRARLARIN QƏBUL EDİLMƏSİ VƏ ƏSASLANDIRILMASI MEXANİZMLƏRİ

**Xülasə**

**Tədqiqatın məqsədi.** Azərbaycanda aqrar müəssisələrin idarə edilməsi və fəaliyyəti ilə bağlı qərarların qəbul edilməsi prosedurunu təhlil etmək, idarəetmədə səmərəliliyin təmin edilməsinin praktiki həll yollarını müəyyən etməkdir.

**Tədqiqatın metodologiyası.** Tədqiqat zamanı təhlil və müqayisə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Aqrar müəssisələrində qərar qəbulunun səmərəliliyinin artırılması üçün təklif edilən mexanizmlər müəssisələr tərəfindən istifadə edilə bilər.

**Tədqiqatın nəticələri.** Öyrənilən məsələlərin təhlili göstərir ki, bir çox hallarda aqrar sahənin, o cümlədən aqrar müəssisələrdə qərar qəbulunda çətinliklər var. Aqrar sahənin, o cümlədən aqrar müəssisələrin idarə edilməsi fəaliyyətinin effektivliyinin artırılması üçün yeni istiqamətləndirici mexanizmlərə ehtiyac var.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Aqrar müəssisələrin idarə edilməsi fəaliyyətinin effektivliyinin artırılması üçün yeni istiqamətləndirici mexanizmlər ölkəmiz üçün yenidir.

**Açar sözlər:** aqrar sahə, qərar, məqsəd, problem, idarəetmə, proses.

**UOT:** 380
**JEL:** K 17

## Giriş

Rəqabətli iqtisadi şəraitdə müasir idarəetmənin təməl prinsiplərindən öz işlərində səmərəli istifadə etməyi bacaran, habelə yeni idarəetmə mexanizmlərini tətbiq edən və mövcud idarəetmə qərarlarını qəbul etmə sistemini bazara uyğunlaşdıra bilən müəssisələr dayanıqlı olur və mənfəətlə çalışa bilir. Məlumdur ki, qərar qəbul etmə idarəetmə funksiyalarından biri və ən əsası olmaqla, nəticəsi aqrar müəssisənin məqsədinə çatması üçün müəyyən hərəkətlərin həyata keçirilməsinə yönələn bir addımdır. Müəssisə rəhbərliyinin müxtəlif hərəkətlərinin bir-biri ilə əlaqəli və ardıcıl dəyişməsi kimi başa düşülən qərarların qəbulu prosesinə xüsusi tələb mövcuddur. Bu, qərarların həyata keçirilə biləcək qədər əsaslandırılmış və həyata keçirilə bilən, qanuni, vaxtında, aydın və yığcam olması tələbidir. İdarəetmə qərarlarının obyekti müəyyən məsələlərin, əsasən problemlərin həllidir. Qərar qəbulu ya problemin baş verməsinin qarşısını almağa və ya artıq baş vermiş problemin nəticələrinin aradan qaldırılmasına yönəlmiş ola bilər. İdarəetmə qərarı faktiki göstəricilərin proqnozlaşdırılanlara yaxınlaşdırılması ilə də bağlı ola bilər. Ümumən, həll ediləcək problemlərin çətinliklərindən asılı olaraq M.Budkok (M. Woodcock) və D.Frensiz (D. Francis), hər biri üçün müəyyən idarəetmə bacarıqları tələb edən dörd qərar qəbul etmə səviyyəsini fərqləndirirlər: rutin, seçici, adaptiv, yenilikçi. [3, s.128-129] Bunların hər biri qərar qəbul edəndə xüsusi bacarıq və səriştələrin olmasını tələb edir. Biz bu bacarıq və səriştələrə deyil,

məhz rasional qərarların qəbulunda zəruri olan mexanizmlərə diqqət yetirəcəyik.

**Aqrar müəssisələrində qərarların qəbul edilməsi prosesi: problemlər və həlli yolları**

Rasional qərarın hazırlanması və qəbul edilməsi prosesi ümumi vəziyyət barədə bir sıra məlumatların təhlili ilə başlayır. Nəticədə problemlərin olduğu (problem sahəsi) sərhədlər müəyyənləşdirilir və simptomları, (əlamətləri) görünür. İdarəetmə qərarı zamanı aparılan təhlil problemin yaranmasına gətirən səbəbləri müəyyənləşdirməyə və təsdiqləməyə imkan verir. Bu səbəblər qismində təşkilatın fəaliyyətinin səhv prinsipə əsaslanması, fəaliyyətin qiymətləndirilməsi üçün yanlış meyarların seçilməsi, aqrar müəssisənin fəaliyyətinə təsadüfi deyil, qəsdən zərər vermək məqsədi ilə qərar qəbulu prosesində maneələrin yaradılması, gözlənilməz hallar, məsələn, təbii, texnogen fəlakətlər, siyasi və iqtisadi böhranlar və s. qeyd etmək olar.

Aqrar müəssisələrdə idarəetmə qərarlarının qəbul edilməsi mexanizminin strukturuna aşağıdakı elementlər daxildir:

- prinsiplər – sistemlilik, adekvatlıq, vaxtında olması, operativlik, risklərin nəzərə alınması;
- funksiyalar- proqnozlaşdrma, planlaşdırma, təşkiletmə, motivasiya və nəzarət;
- metodlar – ümumiqtisadi, statistik, riyazi və proqnoz metodları;
- resurslar – maliyyə, insan, istehsal, informasiya, zaman.

Müasir qərar qəbuletmə nəzəriyyəsi idarəetmə qərarlarının hazırlanması və qəbul edilməsi üçün bir çox fərqli metod təklif edir: evristik, kollektiv, kəmiyyət və s. Reallıqda isə bu gün kənd təsərrüfatı müəssisələrində, bir qayda olaraq, hər hansı bir idarəetmə qərarı verərkən, intuisiya, mühakimə və rasionallığa istinad edilir. İntuitiv bir qərar verərkən aqrar müəssisənin rəhbəri seçimin doğru olduğunu hiss etməsinə əsaslanır. Bir qayda olaraq, intuisiya təcrübə qazanmaqla təkmilləşir. Bununla belə, yalnız təcrübəyə güvənərək qərarın qəbulu səhv olma ehtimalını istisna etmir. İstənilən idarəetmə qərarı çox sayda amillərin eyni vaxtda təsiri nəzərə alınmaqla hazırlanır və qəbul olunur. Nəzərə almaq lazımdır ki, amillərin təsiri heç də birmənalı deyil, həm müsbət, həm də mənfi ola bilir. Onların təsirinin vaxtında nəzərə alınması və etibarlı təhlili qəbul edilən qərarın keyfiyyətini müəyyənləşdirir. İdarəetmə qərarları qəbul edərkən nəzərə alınması lazım olan amillərin tam siyahısını tərtib etmək praktikada demək olar ki, mümkün deyil. Bunları şərti olaraq iki qrupa bölərək idarəetmə qərarlarını qəbul etmək üçün psixoloji amillər və qərar qəbulu mühitinin amilləri kimi qeyd edə bilərik. Psixoloji amillər qrupuna, qərar qəbul edən şəxsin və ya şəxslərin fərdi keyfiyyətləri, peşəkarlığı, motivasiyası, təcrübəsi, mədəniyyəti, sosial məsuliyyəti, səriştəsi və s. aid edilir. Qərar qəbulu mühitinin amilləri kimi idarəetmə qərarlarını hazırlamaq və qəbul etmək üçün lazım olan məlumatların olması, pul və vaxt imkanı, istehsal imkanları (həllin inkişafı və tətbiqi üçün texniki avadanlıq və ixtisaslı, peşəkar heyət), həmçinin aqrar müəssisənin işinə, qərar qəbul edən subyektin davranışına və buna görə qərarların özlərinə birbaşa təsir edən iqtisadi, siyasi və hüquqi, sosial, ekoloji, elmi-texniki və digər amillər qəbul edilir. Lakin unutmaq olmaz ki, rasional qərarlar düzgün iqtisadi təhlillərə əsasən verilir. Belə ki, risk qeyri-müəyyənlik növü olsa da, öz növbəsində hadisələrin baş vermə ehtimalının və müəyyənləşdirilməsinin mümkünlüyünü göstərir [5, s. 189]. Məhz iqtisadi təhlil bu risklərin qarşısının alınmasına kömək etmiş olur. Bu baxımdan idarəetmə qərarlarının qəbul edilməsi prosesində faktiki göstəricilərlə planlaşdırılmış göstəriciləri müqayisə etmək, uyğunsuzluğun böyüklüyünü və səbəblərini müəyyənləşdirmək, bu uyğunsuzluqların son-

rakı mərhələdə bütün fəaliyyət prosesinə təsirini qiymətləndirmək üçün xüsusi mexanizmlərə ehtiyac var.

Təhlil göstərir ki, kənd təsərrüfatı müəssisələrində qərar qəbul etmə prosesi əsasən empirik-intuitiv səviyyədədir. Qərarların ümumi sayının 32-35%-i təcrübə, 25-27%-i intuisiya, 3-5%-i rəhbərin ümumi mövqeyi və yalnız 30-35%-i faktların təhlili əsasında qəbul edilir [9]. Lakin rasional qərar qəbulu prosesi həm xarici, həm də daxili mühit amillərini nəzərə almaqla bir məntiqi ardıcıllığa malik olmalıdır. Hesab edirik ki, bu ardıcıllıq aşağıda göstərilən (sxem 1)formada həyata keçirilməlidir.




**Sxem 1. Aqrar müəssisələrdə qərarların qəbul edilməsinin məntiqi ardıcıllığı**

Məlumatların emalı mərhələsində əvvəlki planlaşdırılmış dövrlər üzrə aqrar müəssisənin faktiki vəziyyəti təhlil edilir və kənarlaşmalar, onların səbəbləri dəqiqləşdirilir. Daha sonra aqrar müəssisənin istehsal və maliyyə göstəricilərinin əsasında növbəti dövr üçün (ay, rüb, yarım il, il və ya bir neçə il üçün) proqnozlar tərtib edilir. Məlumatlardan istehsalın həcmi, satış həcmi, vergi (hazırda bu bir çox kənd təsərrüfatı sahəsində torpaq vergisini çıxmaq şərtilə digərlərinin tətbiqi dayandırılıb), birbaşa xərclərin cəmi, məcmu və xalıs mənfəət, inzibati xərclər, istehsal xərcləri, inzibati işçilərin əmək haqqı, istehsalda çalışanların əmək haqqı, daimi xərclərin cəmi təhlil edilir. Ümumən aparılan araşdırmalardan aydın olur ki, təhlil zamanı rentabellik göstəricisi də qərar qəbuluna birbaşa təsir edir. Belə ki, 28,5% -dən 7,9 % -ə qədər rentabelliyi olan müəssisələrdə mülkiyyətçinin dəyişdirilməsi, müflis elan edilmə və investorun axtarılması qərarları qəbul edilmişdir. Rentabellik göstəricisi 7,9% -dən 12,6 %-ə qədər olan müəssisələrdə məhsul diffrerensasiyası, istehsalın yenidən təşkili və daxili resursların səfərbər edilməsi ilə bağlı, rentabellik göstəriciləri 12,6% -dən 33,2 %-ə qədər olan müəssisələrdə isə istehsal və satışın sabit saxlanması ilə bağlı qərarlar qəbul edilmişdir [9]. Beləliklə, aqrar müəssisənin fəaliyyəti ilə bağlı zəruri göstəricilər müəyyən dövrlər üçün təhlil edilməklə yanaşı daxili və xarici mühit amilləri nəzərə alınmaqla proqnozlar tərtib edilir. Bu zaman əvvəlki dövrdə baş vermiş nöqsanlar, çatışmazlıqlar və kənarlaşmalar, bir sıra xarici mühit amillərinin təsirləri də nəzərə alınmalıdır. Daha sonra bu proqnozlar əsasında indikativ (məsləhət xarakterli) planlar və imperativ (yetirilməsi mütləq olan) planlar tərtib edilir. Qeyd edək ki, belə planlaşdırma Yaponiyada

geniş tətbiq olunur və 5 illik müddət üçün edilir. Aqrar müəssisənin strateji məqsədi və indekativ, imperativ planlar əsasında növbəti dövr üçün inkişaf ssenariləri, müxtəlif vəziyyətlər, yəni sabit, böhran və artım halları nəzərə alınmaqla strateji planlar hazırlanaraq təsdiq edilir. Vəziyyətdən asılı olaraq bu planlardan zəruri olanı tətbiq edilir.

İdarəetmə qərarı qəbul edilən zaman aşağıdakı səbəblərdən çətinliklər yarana bilir [7]:

- aqrar müəssisələrdə müxtəlif idarəetmə səviyyələrində qəbul edilmiş qərarlar kifayət qədər koordinasiya edilməmiş ola bilir;
- idarəetmə qərarı qəbul edilən müddətdə subyektin bir-biri ilə zidd olan çox sayda problemi təhlil etməsi lazımdır;
- prioritetlər sabit deyil, buna görə də ən vacib problemləri ikinci dərəcəli problemlərdən ayırmaq vacibdir;
- kənd təsərrüfatı istehsalı gözlənilməz, bəzən böhranlı vəziyyətlərin baş verməsi ilə xarakterizə olunur.

Lakin bu hələ son variant hesab edilmir. Çünki, qərarların icrası prosesində müəyyən amillərin dəyişməsi bir çox hallarda ümumən qərarın korrrektə edilərək dəyişməsinə, bəzi hallarda isə hətta əvvəlki qərardan imtinaya səbəb ola bilir. Bu baxımdan qərarların qəbulu və icrası bir-biri ilə bağlı olduğu üçün təkrarlanan prosedur ardıcıllığına çevrilə bilir. Yəni zəruri dəyişikliklər nəticəsində qərar qəbulu prosesinin müəyyən mərhələsinə geri qayıtmaq və dəyişiklikləri nəzərə alaraq bu mərhələdən sonra prosedur ardıcıllığını həyata keçirmək zəruri olur. Yəni qərarların icrası zamanı aqrar müəssisənin fəaliyyət parametrlərinə nəzarət edilir və məlumat təhlili sisteminə yeni verilənlərin nəzərə alınaraq daxil edilməsi nəticəsində dəyişikliklər edilir. Prosesin sonunda əvvəlkindən fərqli, tam yeni qərar yarana bilir. Bu baxımdan qərar qəbulunun vaxtında tam və etibarlı məlumatla təmin edilməsi kənd təsərrüfatı müəssisələrində idarəetmənin təşkil edilməsinin ən çətin problemidir. İnformasiya dəstəyinin səmərəli təşkilinin əsasını idarəetmə uçotu, yəni xərclərin və gəlirlərin uçotu, normaların müəyyən edilməsi, planlaşdırılma, nəzarət və təhlil, operativ idarəetmə qərarları üçün məlumatların sistemləşdirilməsi və müəssisənin gələcək inkişafı problemlərinin əlaqələndirilməsi təşkil edir. Bundan əlavə, hər hansı bir qərar qəbul edərkən, onun effektivliyinin qiymətləndirilməsi aparılmalıdır, bu səbəbdən mexanizmdə qərar qəbuletmənin effektivliyini qiymətləndirən göstəricilər sistemini müəyyən etmək vacibdir. Beləliklə, idarəetmə qərarlarının qəbul edilməsi mexanizminin təkmilləşdirilməsi əsasən strateji planlaşdırma və informasiya texnologiyalarının istifadəsinin qarşılıqlı əlaqələndirilməsi nəticəsində mümkündür. Bu isə kənd təsərrüfatı müəssisələrinin effektiv idarəetmə üslublarından adaptiv (uyğunlaşma) sistemi tətbiq etməyi tələb edir. Uyğunlaşma sisteminin həyata keçirilməsi isə öz növbəsində müasir idarəetmə texnologiyaları ilə birlikdə dəyişən amillərin və şərtlərin qiymətləndirilməsinə əsaslanır.

Ümumiyyətlə, rasional qərarın qəbulu üçün iqtisadi təhlilin aparılması, zəruri prosedurun həyata keçirilməsi aqrar müəssisə rəhbərləri tərəfindən hələ də çətinliklərin olması ilə izah edilir. Məsələn, aqrar sahədə idarəetmə qərarlarının qəbulunda istifadə edilən informasiyanın vaxtında təmin edilməsində çətinliklər mövcuddur. Belə ki, “kənd təsərrüfatının mühüm xüsusiyyətlərindən biri də istehsalatdan buraxılan məhsul və onun satışından alınan pul gəliri qeyri-müntəzəm qaydada, fasilələrlə daxil olur. İstehsal edilən bütün məhsullar il ərzində plan maya dəyəri ilə mədaxil edilir və satılır. İstehsal edilən və satılan məhsulların faktiki maya dəyəri sənayedən (ayda bir dəfə) fərqli olaraq yalnız ilin sonunda hesablanır və kənarlaşmalar aşkara çıxarılır, plan maya dəyəri təshih edilir, yəni

faktiki maya dəyərinə çatdırılır və maliyyə nəticələri (mənfəət və yaxud zərər) müəyyən edilir [2, s. 74].

Bazar şəraitində yanacaq-sürtkü yağlarının, toxumların, gübrələrin, bitki mühafizə məhsullarının qiymətlərində dəyişiklik hallarının tez-tez baş verməsi istisna edilmir. Belə bir şəraitdə xərcləri, gəlirliliyi hesablamaq və mənfəəti proqnozlaşdırmaq çətindir. Əsasən də iri təsərrüfatlarda texnoloji xəritələrin hesablanması bir neçə gün, bəzən də həftələr çəkən çətin, zəhmət tələb edən bir prosesdir. Nəzərə alsaq ki, yuxarıda qeyd edilən xərc maddələrinin qiyməti ani, birdən dəyişərsə, kənd təsərrüfatı müəssisəsinin fəaliyyətinin iqtisadi təhlilini aparmaq üçün texnoloji xəritəni yenidən hesablamaq lazımdır. Həm də onların hazırlanmasında mövcud olan insan faktorunu da nəzərə almaq lazımdır. Məsələn, mövcud alternativlər arasından uyğun texnologiyanı seçən aqronom, yanacaq və sürtkü yağlarının dəyəri, texniki xidmət, amortizasiya ayırmalarını nəzərə alan, maliyyə təhlilini aparan iqtisadçı ilə birlikdə təklif olunan bütün kənd təsərrüfatı texnologiyalarından ən məqbul və iqtisadi cəhətdən gəlirli olanı seçirlər. Texnoloji xəritənin formalaşdırılması və iqtisadi təhlilin aparılması kimi zəhmətli bir proseslə mütəxəssislərdən birinin səhv etməsi ehtimalı istisna edilmir və ən problemli məsələ odur ki, belə səhvlərin bəzən aşkarlanması da tez baş vermir. Bu hal yeni bir qərar dəstəkləmə metodunun hazırlanmasını tələb edir. Əsasən də iqtisadi-riyazi modellərin və idarəetmə metodlarının aktuallığı hiss edilir. Bəzən təhlilin aparılması və qərarların düzgünlüyünün yoxlanması üçün 16 və daha artıq modeldən istifadə edilə bilir[6].

Kənd təsərrüfatı fəaliyyətinin planlaşdırılması və kommersiya əsasında həyata keçirilməsi tələbi olsa da, çox vaxt vəziyyətin tez-tez dəyişə bilməsi, qeyri-müəyyənliklərin mövcudluğu məlumatların tam və yetərli olmamasını nəzərə almağı tələb edir. Məhz bu tam olmayan informasiya ilə qərar qəbul edən aqrar müəssisələrin rəhbərləri öz təcrübə, səriştə və yaradıcılıqlarına əsaslanırlar. Araşdırma göstərir ki, kənd təsərrüfatı müəssisələrinin rəhbərlərinin (58,6%) işçiləri ilə münasibətləri əsasən iyerarxiya üzrə "hakimiyyət-tabeçilik" prinsipi üzərində qurulur, rəhbərlərin bir qismi (24,3%) həvalə edilmiş səlahiyyətlərə uyğun olaraq məsuliyyət təyin edir, rəhbərlərin qalan hissəsi (17,1%) qərar qəbul etmə səlahiyyətlərini tabeçiliyində olanlara verir. İndiki vaxtda, müəssisə rəhbərləri daha aşağı səviyyəli rəhbərlər və ya mütəxəssislər tərəfindən həyata keçirilməli və ya edilə bilən fəaliyyətlərə əsassız iş vaxtı (35-57%) sərf edirlər. [8].

Qərarların qəbulu mexanizminə qoyulan əsas tələblərdən biri onun iqtisadi cəhətdən səmərəli olması ilə bağlıdır. Yəni qəbul edilmiş qərarın icrasına görə əldə edilən nəticə onunla əlaqəli xərclərdən yüksək olmalıdır. Təhlildən aydın olur ki, 15 il ərzində kənd təsərrüfatında fəaliyyət göstərən müəssisələrin sayında 38,4% azalma olmuşdur. Əmək məhsuldarlığı 2005-ci ilə nisbətən 2019-cu ildə 6,1 dəfə artdığı halda, 2020-ci ildə 2019-cu ilə nisbətən 2,4 dəfə aşağı düşmüşdür. Mənfəətin məbləği zərərə nisbətən 2005-ci ildə 5,9 dəfə çox olduğu halda 2020-ci ildə 4,6 dəfə yüksək olmuşdur. Satışdan əldə edilən gəlir 15 il ərzində 8,9 dəfə artmışdır. Yəni idarəetmə qərarları bu baxımdan müsbət nəticə vermişdir. Ümumilikdə isə mənfi tendensiya odur ki, əmək haqqının artmasına baxmayaraq ziyanın məbləği mənfəətin məbləğinə nisbətən azalmamışdır. Daha geniş təhlil üçün Dövlət Statistika Komitəsi tərəfindən açıq istifadəyə verilən məlumatlarda kənd təsərrüfatı müəssisələrində əmək haqqı göstəriciləri ilə bağlı inzibati heyətin və istehsalda çalışan heyətin əmək haqlarının ayrılıqda göstərilməməsi, bizə kənd təsərrüfatı müəssisələrində inzibati

heyətin əmək haqqının qəbul edilən qərarlara təsirini təyin etməyə imkan vermir.

**Cədvəl 1.**

**Kənd təsərrüfatı müəssisələrinin bəzi makroiqtisadi göstəriciləri**

| Göstəricilərin adı | 2005 | 2019 | 2020 |
|---|---|---|---|
| **Fəaliyyət göstərən müəssisələrin sayı, vahid** | **1782** | **1471** | **1096** |
| o cümlədən: | | | |
| mənfəətlə işləyənlər | 1579 | 1376 | 880 |
| zərərlə işləyənlər | 203 | 95 | 61 |
| Mənfəətin məbləği, min manat | 7098 | 120622 | 132835 |
| Zərərin məbləği, min manat | 1207 | 27926 | 28820 |
| Ümumi mənfəət, min manat | 5892 | 92696 | 104016 |
| Satışdan əldə edilən gəlir, min manat | 70882 | 622035 | 637351 |
| Bitkiçilikdə mənfəət (zərər (-), min manat | 2769 | 68795 | 69321 |
| Heyvandarlıqda mənfəət (zərər (-), min manat | 3117 | 10481 | 27180 |
| Kənd təsərrüfatının ümumi məhsulu, (faktiki satış qiymətləri ilə), min manat | 79683 | 615203 | 814426 |
| Əmək məhsuldarlığı-bir işçiyə düşən ümumi məhsul, manat | 4804 | 29631 | 12099 |

Mənbə:Cədvəl müəllif tərəfindən https://www.stat.gov.az/source/agriculture/ 04.04.2022-ci il tarixə olan məlumatlar əsasında tərtib edilmişdir.

Aparılan araşdırmalar kənd təsərrüfatı müəssisələrinin əksəriyyətində məhdud sayda göstəricinin təhlil edildiyini göstərir. Belə ki, sorğu aparılan müəssisələrdə "itkisizlik nöqtəsi" yalnız 60% rəhbərlər tərəfindən təhlil edilir. İqtisadi-riyazi modelləşdirmə daha az, 35% rəhbər tərəfindən, "məqsədlər ağacı" isə cəmi 15% rəhbər tərəfindən tətbiq edilir. Alternativ qərarlar cəmi 57 % rəhbərlərdə var. Alternativ qərarların arasından uyğun olanını seçməkdə 27% rəhbər çətinlik çəkir. 42% rəhbər isə ümumiyyətlə qəbul etdikləri qərarları reallaşdırmaqda problem yaşayırlar [4]. Bunun da bir neçə səbəbi var. İlk növbədə problem aqrar sahədə çalışanların təhsilinin yetərli olmaması ilə əlaqədardır. "2013-cü ildə aparılan əhalinin seçmə müayinəsi nəticəsində əldə edilən məlumatlara görə, kənd təsərrüfatı sektorunda çalışanların 2,2 faizi ali təhsilə, 0,4 faizi natamam ali təhsilə, 4,6 faizi orta ixtisas təhsilinə və 3,4 faizi texniki peşə təhsilinə malikdirlər. Bu da o deməkdir ki, hazırda aqrar sahədə çalışanların demək olar ki, 90 faizi hər hansı bir ixtisas və ya peşə üzrə təhsil almayan orta və ya ibtidai təhsilli insanlardır" [1,s.27].

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ində qeyd edilir ki, "2025-ci ilə qədər kənd təsərrüfatı istehsalında qabaqcıl texnologiyaların tətbiqi təcrübəsinin genişləndirilməsi, istehsalçıların bilik və bacarıqlarının artırılmasına imkan verən elm, təhsil və məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsi nəticəsində məhsuldarlıq göstəricilərinin yüksəldilməsi təmin olunacaqdır"[1,s.44-45]. Ölkədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) tərəfindən maliyyələşdirilən "Aqrar məsləhət xidmətlərinin gücləndirilməsi" layihəsi, AR KTN yanında Aqrar Xidmətlər Agentliyi, Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən, KOBİA tərəfindən bu istiqamətdə mütəmadi işlər görülür.

Qərarların qəbulu həm qısa müddətli dövr üçün cari qərarlar, həm də uzun müddətli

dövr üçün strateji qərarları əhatə edə bilər. Bu zaman carı qərarlara qısa müddətdə razılaşdırılaraq həyata keçirilməsi mütləq olanlar kimi baxılmalıdır. Razılaşdırılma mərhələsi qərar qəbul etmə proseslərində çox əhəmiyyətli bir rol oynayır. Təcrübə göstərir ki, qərar qəbulu fəaliyyətində iştirak edənlərə ekspertlərin (istər KOBİA əməkdaşı, istərsə də müstəqil ekspertlərin) qəbul edilmiş qərarla bağlı fikirlərini bildirmək, təkliflər, şərhlər vermələri qərarların effektiv olması və sürətli həyata keçirilmə ehtimalını xeyli artırır. Əsasən aqrar müəssisənin nəzərə alınmış plan göstəricilərinin daha səmərəli həyata keçirilməsi bir sıra hallarda redaktə edilə bilən və kifayət qədər dəyişkən xarakterli ola bilər. lkin strateji qərarlar aqrar müəssisənin gələcəyi ilə bağlı olduğundan bu proses daha çox prosedur ardıcıllığına məruz qala bilər və belə qərarlar bəzən məsləhət xarakterli və ya istəyi əks etdirən olduğundan zamanla korrektə edilə bilir. İdealda problemin həllinin bütün alternativ yollarını müəyyənləşdirmək lazımdır və yalnız bu halda optimal həll düzgün seçilə bilər. Lakin praktikada mümkün olan bütün alternativləri formalaşdırmaq və qiymətləndirmək üçün heç də bütün rəhbərlər bilik və vaxta sahib deyil. Hazırda bir çox ölkələrdə, o cümlədən bizdə aqrar müəssisələrdə istifadə edilən qərar qəbulu mexanizminin ənənəvi prosesdən fərqi məhz bu prosesdə məlumatların avtomatlaşdırılmış təhlil sisteminin tətbiqidir. Bu hazırda informasiya texnologiyalarının və artıq hazırlanmış modellərin köməyi ilə daha dəqiq və daha sürətli həyata keçirilir. Formalaşdırılmış imitasiya modelinin köməyi ilə aqrar müəssisənin əldə etmək istədiyi inkişaf istiqaməti və göstəriciləri, hadisələrin reallaşma vəziyyətlərinin müxtəlif variantları müəyyən edilir. Nəticədə müəssisə rəhbərliyi tərəfindən resurs, vaxt və digər imkanlar baxımından optimal olan variant seçilir.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə qeyd edilir ki, "aqrar sahə üzrə modernləşdirilmiş elm, təhsil və informasiya məsləhət xidmətləri sisteminin mövcudluğu bu sahədə rəqabətqabiliyyətliliyin təmin edilməsi üçün zəruri resurslardan biri kimi çıxış edir...Yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslər üçün digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyin təmin edilməsinə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflər ilə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir" [1,s.10,46]. Qərar qəbulu zamanı ən çox çətinlik xərclərin azaldılması, istehsalın çeşidinin və ölçüsünün əsaslandırılması, qiymətlərin təyini, öz istehsalına və ya xammalın alınmasına üstünlüyün verilməsi arasında seçim, yeni məhsulların istehsalı ilə bağlı qərarlarda olur. Qeyd edilən çətinlikləri aradan qaldırmaq üçün ölkəmizdə kənd təsərrüfatı məhsullarının qiymət informasiya portalı hesab edilən www.agro.az elektron ticarət portalı istifadəyə verilmişdir. Bu portalda məlumatlar gündəlik yenilənməklə aqrar sahədə çalışanlara məhsul və xidmətlərinin keyfiyyət və qiymət göstəricilərini müqayisə etməyə, rəqabət üstünlüklərini təyin etməyə imkan verir.

Avropa İttifaqının təcrübəsindən istifadə edilərək "Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi" (FTMMS) qurulmuşdur. Bu sistem informasiya bazası rolunu (təkcə 2014/2015-ci illər üzrə 4 mindən artıq aqrar sahədə fəaliyyət göstərən təsərrüfatla bağlı məlumatlar elektron bazaya daxi edilib) oynamaqla yanaşı fəaliyyətin təhlilinə, iqtisadi səmərəliliyin qiymətləndirilməsinə imkan verir. Dövlət orqanlarına aqrar sahədə həyata keçirilən siyasətin nəticələrini monitorinq

etməyə, nəticədə tətbiq edilən təsir vasitələrini təkmilləşdirməyə şərait yaradır.

Elektron Kənd Təsərrüfatı informasiya Sistemi (EKTİS- https://eagro.az/) aqrar sahə üçün geniş və vahid informasiya bazası rolunu oynamaqla yanaşı, həm də "tənzimləmə-dəstək-xidmət" proseslərini özündə birləşdirən bir idarəetmə mexanizmi rolunu oynayır. Əsasən də iqtisadi baxımdan çətin hesab edilən qərarların verilməsinə və gələcək dövrlər üçün planların tərtibinə yardım edən təhlillərin aparılmasına, modellərin qurulmasına imkan verir.

Lakin bütün bu yeniliklərlə paralel aşağıdakıların da həyata keçirilməsi zəruridir:

- Aqrar müəssisələrin idarə edilməsi fəaliyyətinin effektivliyinin artırılması məqsədilə yeni istiqamətləndirici mexanizm kimi ixrac ölkələrinin və alternativ ixrac edilə bilən ölkələrin hər il (mövsüm) üçün PESTEL təhlilinin aparılaraq nəticələrinin təqdim edilməsi;
- yerli və xarici bazarlarda kənd təsərrüfatı məhsullarının BCG təhlilinin təqdim edilməsi;
- aqrar müəssisələr üçün öncədən hər məhsul üzrə səmərəliliyin qiymətləndirilməsini apararaq proqnozlar vermək.

Məqsəd aqrar müəssisələrə qəbul etdikləri qərarın düzgün olub-olmamasına və ya ümumilikdə qərar qəbuluna dəstəyin göstərilməsidir. Bunun üçün sxem 1-in prosedurlarının həyata keçirilməsini təmin edəcək bir alqoritmə ehtiyac var. Həmçinin qeyd etdiyimiz təhlillərin nəticələrini ümumiləşdirilmiş şəkildə aşağıdakı qərarvermə alqoritmində istifadə etmək olar:




**Şəkil 1. Qərarların qəbulu prosesinə dəstək alqoritmi**

Burada, başlanğıc; kənd təsərrüfatı müəssisələri tərəfindən məlumatların (əkin sahəsinin ölçüləri, torpağın keyfiyyətinin, maliyyə, işçi qüvvəsi və s. haqda) daxil edilməsi;

1- problemin (maddi-texniki, inzibati və s.) qeyd edilməsi;

2- istəyin (gəlirin həcmi və s.) qeyd edilməsi; (problem və istək uyğundursa hə, uyğun deyilsə yox keçidi)

3- təhlillərin (PESTEL, BCG və digər) aparılması;

4- problemin həllinin (məsələn, hansı məhsulu hansı bazara çıxara bilmə ilə əlaqədar nəticənin) təqdim edilməsi;

5- yol xəritəsinin hazırlanması;

6- yekun

Göstərilən bu alqoritm digər informasiya sistemlərinin məlumatlarından yararlanmaqla təhlilin aparılması və düzgün qərarın verilməsi üçün bir platforma ola bilər.

**Nəticə**

Ümumiyyətlə, rasional qərarın qəbulu üçün iqtisadi təhlilin aparılması, zəruri prosedurun həyata keçirilməsi aqrar müəssisə rəhbərləri tərəfindən hələ də çətinliklərin olması ilə izah edilir. Aparılan araşdırmalar kənd təsərrüfatı müəssisələrinin əksəriyyətində məhdud sayda göstəricinin təhlil edildiyini göstərir.

Aqrar sahə müəssisələrində idarəetmə qərarlarının qəbul edilməsi prosesini yaxşılaşdırmaq üçün ilk növbədə strateji planlaşdırma metodları və üsulları təkmilləşdirilməlidir. Qərar qəbul etmə prosesi problemin həlli və yaradıcı düşüncə prosesləri ilə əlaqəli olsa da bu üç proses arasında fərqlər var. Əgər qərar qəbul etmək - həyata keçirilmək üçün nəzərdə tutulmuş fəaliyyət istiqamətini seçməkdirsə, problemin həlli rasional fəaliyyət istiqamətinin və vasitəsinin tapılması ilə bağlıdır. Ancaq nə texnoloji imkandan, nə də qərar qəbul edənin intelekti kimi təqdim edilə bilməyən, rasional qərarların qəbulu və həyata keçirilməsinə imkan verən və hazırda daha vacib olan qərar qəbul edənin yaradıcı düşüncə tərzinin olmasıdır. Bu, qeyri-standart vəziyyətlərdə yeni, dəyərli, orijinal fikirlərin, inkişaf yollarının tapılmasıdır. Aqrar sahənin inkişafının perspektiv imkanlarının kəskin genişlənməsini də məhz bunların vəhdəti təmin edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

**1.** Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"

2. Abbasov İ.M., Məmmədov İ.A., Cabbarov A.S. "Mühasibat uçotu (sahələr üzrə)" – dərslik. Bakı, 2017 – 424 s.

3. Вудкок М. Френсис М. Раскрепощенный менеджер. Для руководителя-практика: Пер. с англ. М. Дело, 1991. 320 с.

4. Грушина О.Ю. Принятие экономических решений руководителями сельскохозяйственных предприятий: Сущность, анализ и методы.

5. Лифшиц А.С. Управленческие решения: учеб. пособие. М., 2009.

6. Система поддержки принятия решений управления экономическими параметрами в растениеводстве.https://studwood.ru/1555459/ekonomika/sistema_podderzhki_prinyatiya_resheniy_upravleniya_ekonomicheskimi_parametrami_v_rastenievodstve

7. Смирнова Ирина Георгиевна Анализ механизма принятия управленческих решений в агропромышленном комплексе как экономической системе // Вестник ПАГС. 2014. №2 (41)

8. Сюн Ли Стили и методы управления предприятиями в условиях реформирования аграрной сферы экономики, Автореферат, Санкт-Петербург, 2007.

9. Шеверев С.Н. совершенствование механизма принятия управленческих решений в организации с помощью информационных технологий (на примере сельскохозяйственных предприятий Курской области)

10. http://www.e-rej.ru/Articles/2006/Sheverev.pdf

**Наджиба Габиль k. Гаджиева**
Ст.преподаватель kафедры «Мировая экономиkа» БГУ, д.ф.э.
E-mail: nadjiba_h@mail.ru

## МЕХАНИЗМЫ ПРИНЯТИЯ И ОБОСНОВАНИЯ РЕШЕНИЙ В СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ ПРЕДПРИЯТИЯХ

### Резюме

Цель исследования. Проанализировать порядок принятия решений по управлению и деятельности аграрных предприятий в Азербайджане, определить практические решения для обеспечения эффективности управления.
Методология исследования. В ходе исследования использовались методы анализа и сравнения.
Важность исследовательского применения. Предложенные механизмы могут быть использованы предприятиями для повышения эффективности принятия решений в сельскохозяйственных предприятиях.
Результаты исследования. Анализ изучаемых вопросов показывает, что во многих случаях возникают трудности в принятии решений в аграрной сфере, в том числе и аграрными предприятиями. Необходимы новые направляющие механизмы для повышения эффективности управления аграрным сектором, в том числе аграрными предприятиями.
Оригинальность и научная новизна исследования. Новые направляющие механизмы повышения эффективности управления сельскохозяйственными предприятиями являются новыми для нашей страны.
**Ключевые слова:** аграрная сфера, решение, цель, задача, управление, процесс.

**Nadjıba Qabil Hajıyeva**
PhD in Econ., Senior lecturer of "World Economy" department of "International relations and economy" faculty of Baku State University
E-mail: nadjiba_h@mail.ru

## MECHANİSMS OF ADOPTİON AND JUSTİFİCATİON OF DECİSİONS İN AGRİCULTURAL ENTERPRİSES

### Abstract

The purpose of the study. To analyze the order of adoption of management decisions and the activities of agricultural enterprises in Azerbaijan, to determine practical solutions to ensure the effectiveness of management.
Research methodology. The methods of analysis and comparison were used in the study.
The importance of research application. Suggested mechanisms can be used by enterprises to increase the effectiveness of decisions taken in agricultural enterprises.
The results of the study. The analysis of the studied issues shows that in many cases there is a difficulty in accepting decisions in the agricultural sector, including agrarian enterprises. Need new guiding mechanisms to increase the efficiency of management in the agricultural sector, including agrarian enterprises.
Originality and scientific research. New guiding mechanisms to increase the efficiency of management of agricultural enterprises are new for our country.
**Keywords:** agrarian sphere, decision, purpose, task, management, process.
**Daxil olub:** 20.02.2021

**Səbuhi Mübariz oğlu Abbasov**
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: sebuhi.finance@gmail.com

# ANTIİNFLYASİYA YÖNÜMLÜ PUL-KREDİT SİYASƏTİNİN NƏZƏRİ ASPEKTLƏRİ

**Xülasə**

Tədqiqat zamanı müxtəlif iqtisadi məktəblərin inflyasiya ilə bağlı səsləndirdikləri fikirlər öyrənilmiş, onlar tərəfindən səsləndirilən inflyasiya nəzəriyyələri və ortaya qoyulan antiinflyasiya vasitələri araşdırılmışdır. Qeyd olunan fikirlər ümumiləşdirilərək vahid nəticəyə gəlinməyə çalışılmış, tarixən antiinflyasiya yönümlü nəzəriyyələrin ideoloji baxımdan necə fərqlilik göstərdiyi müşahidə edilmişdir. Məqalədə həmçinin müasir şəraitdə inflyasiya dərəcələrini aşağı həddə saxlamaq üçün atılan addımlar nəzəri aspektdən qiymətləndirilmişdir.

**Açar sözlər:** pul-kredit siyasəti, inflyasiya, antiinflyasiya siyasəti, iqtisadi nəzəriyyə, iqtisadi məktəblər.

**UOT**: 336.7
**JEL**: – E52

## Giriş

Pul-kredit siyasətinin əsas məqsədi milli valyutanın möhkəmliyini və dayanıqlılığını təmin etmək, onun dəyərini qoruyub saxlamaqla iqtisadi sabitliyə nail olmaqdır. Buna görə də inflyasiya ilə mübarizə aparılması və təsirli antiinflyasiya siyasətinin qurulması baxımından pul-kredit siyasəti əvəzsiz rola malikdir. Antiinflyasiya siyasəti dedikdə inflyasiya probleminin həllinə yönəldilmiş tədbirlər toplusu və onlar üzərində nəzarət başa düşülür.[1] Müxtəlif iqtisadi şəraitlər, coğrafiya və iqtisadi dövrlərdən aslı olaraq həm inflyasiyanın həm də onun həllinə istiqamətlənən antiinflyasiya siyasətinin strukturu müxtəliflik göstərir. İEÖ-in iqtisadiyyatı və milli valyutaları inflyasiyaya daha dayanıqlı olması baxımından İOÖ-dən xeyli fərqlənir. İnkişaf etməkdə olan ölkələr xüsusilə də ikinci dünya müharibəsindən sonra güclü iqtisadiyyata malik ölkələrlə rəqabətə girməyə çalışmış və iqtisadi inkişaf əldə etmək istəmişlərdir. Yüksək texnologiyaya və spesifik iqtisadi modellərə sahib olan Koreya, Çin kimi bir sıra uzaq şərq ölkələri bunu bacarmışdırlar.

**Mövzunun aktuallığı.** Post-müharibə dövründə İOÖ-in çoxu iqtisadiyyatlarını qurarkən inflyasiyaya lazım olan diqqəti verməmiş, hətta bəzi ölkələr iqtisadiyyatını qurarkən inflyasiyadan alət kimi istifadə etməyə çalışmışdır. Lakin sonralar inflyasiyanın davamlı inkişaf qarşısında ən böyük əngəl olduğu, milli valyutaya zərbə vuraraq daxili və xarici borcu artırdığı, insanların pul itirməsinə səbəbiyyət verdiyindən rifah səviyyəsini aşağı saldığı ortaya çıxmışdır. Antinflyasiya siyasəti də məhz bu zərurətdən yaranmış və inkişaf etdirilmişdir. Bu baxımdan nəzəri olaraq antiinflyasiya yönümlü pul-kredit siyasətini tətqiq etmək olduqca vacibdir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədi müxtəlif tarixi dövrlərdə və şəraitlərdə iqtisadi məktəblərin antiinflyasiya yönümlü pul-kredit siyasətinə dair səsləndirdikləri fikirləri öyrənmək və zəruri

məqamları bir elmi işdə cəmləyərək nəticə əldə etməkdir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti rolunda müxtəlif ölkələrin antiinflyasiya siyasətlərinin nəzəri quruluşu, iqtisadi məktəblərin antiinflyasiya yönümlü fikirləri, o cümlədən monetarist iqtisadi fikirlər çıxış etmişdir.

**Tədqiqatın metodları.** Tədqiqat işində sistemli yanaşma, nəzəri əsaslandırma, müşahidə, təhlil, məntiqi ümumiləşdirmə və digər metodlar tədbiq edilmişdir.

**Materiallar və müzakirələr**

Antiinflyasiya yönümlü pul-kredit siyasətinin nəzəri aspektlərinə baxan zaman müxtəlif iqtisadi dövrlərdə iqtisadi məktəblərin inflyasiya haqda hansı fikirdə olduqlarını nəzərdən keçirmək xüsusi önəmə sahibdir. Çünki istənilən iqtisadiyyatlarda antiinflyasiya tədbirləri işlənib hazırlanmazdan əvvəl mütləq həmin iqtisaddiyata xas inflyasiyanın forması, yaranma səbəbləri, strukturu, təsir obyektləri və s. kimi amillər araşdırılır. İnflyasiya anlayışını daha aydın başa düşmək və antiinflyasiya siyasətinin nəzəri yanaşmalarını fərqləndirmək baxımından müxtəlif fikirlərə nəzər salmaq xeyli əhəmiyyətlidir. İnflyasiya və antiinflyasiya nəzəriyyələri iqtisadi məktəblərə uyğun olaraq aşağıdakı kimi qruplaşdırılır [2]:

1. Klassik iqtisadi məktəbin yanaşmaları, inflyasiyanın klassik modeli.
2. Neo-Klassik yanaşmalar.
3. Keynsçi yanaşmalar, inflyasiyanın Keyns təlimi.
4. Neo-Keynsçi yanaşmalar.
5. İnflyasiyanın strukturalist nəzəriyyəsi.
6. İnflyasiyanın fiskal nəzəriyyəsi.
7. Monetarist inflyasiya nəzəriyyələri.

Klassik iqtisadi məktəbin fikirləri 1929-cu illərdə baş verən "Böyük iqtisadi böhran"a qədər aktuallığını qoruyub saxlamışdır. İqtisadiyyatın ilk dəfə bir elm şəklində formalaşdırılması və sistemləşdirilməsi baxımından klassik iqtisadi məktəbin rolu əvəzsizdir. İlk klassik iqtisadçılar Adam Smith, John Stuart Mill, David Ricardo və Jean-Baptiste Say iqtisadiyyatın bir çox sahəsinə toxunmuş və ilk əsaslı iqtisadi nəzəriyyələrin formalaşdırılmasında iştirak etmişdirlər. Klassik iqtisadçılar inflyasiya və onunla mübarizə istiqamətində də bir sıra fikirlər səsləndirmişdilər. İnflyasiya haqda ilk əsaslı nəzərriyə pul miqdarı nəzəriyyəsi hesab olunur. Bu nəzəriyyə ilk dəfə XVI əsrdə Jean Bodin tərəfindən səsləndirilmiş, daha sonralar David Ricardo tərəfindən inkişaf etdirilərək nəzəriyyə şəklini almışdır. Pul miqdarı nəzəriyyəsinə görə bir ölkə iqtisadiyyatında mövcud bazar qiymətləri dövriyyədə olan pulun həcmindən aslıdır. Dövriyyədə pul nə qədər çox olarsa alıcılıq qabiliyyəti yüksələr və tələb artar, bu da qiymətlərin bahalaşmasına və pulun dəyərinin düşməsinə gətirib çıxarar. Pul miqdar nəzəriyyəsi bir çox zəruri amil nəzərə alınmadan səthi şəkildə ifadə olunsa da özlüyündə bir xeyli tutarlı və əsaslı bir yanaşmadır. Bu nəzəriyyə sonralar digər iqtisadçılar, xüsusilə də neoklassik iqtisad məktəbinin nümayəndələri tərəfindən inkişaf etdirilmişdir. Pul miqdarı nəzəriyyəsinin tam şəkildə reallaşdırılması üçün əsas dörd amil mövcud olmalıdır: Birincisi, ölkə iqtisadiyyatında tam rəqabətlilik təmin olunmuş olmalıdır; İkincisi, pulun əsas funksiyası mübadilədir və operativ xarakter daşıyır - pulun ayrılıqda heç bir dəyəri yoxdur; Üçüncüsü, iqtisadi subyektlərin hər biri tam rasional olmalı və bu şəkildə davranmalıdırlar – cari vəziyyət haqda tam şəkildə məlumatlı olmalı, istehlakçılar maksimum fayda, istehsalçılar isə maksimum mənfəət əldə etmək üçün addımlar atmalıdırlar; Dördüncüsü, ölkə iqtisadiyyatında mütləq tələb və təklif arasında tarazlıq olmalıdır, Jean-Baptiste Say tərəfindən

irəli sürülən *hər təklif öz tələbini yaradır* qanunu keçərli olmalıdır. Bu qeyd etdiyimiz amillərin hər birinin mövcud olduğu iqtisadiyyatlarda klassiklərin fikrinə görə inflyasiya pul təklifinin artıq olması səbəbindən yaranacaqdır. Bununla mübarizə vasitəsi kimi də pulun miqdarının azaldılması, pul təklifinin lazımi səviyyəyə salınmasına istiqamətlənmiş antiinflyasiya siyasətinin işlənib hazırlanması göstərilir.

Neoklassik iqtisadi məktəbin nümayəndələri əsasən özlərindən əvvəl mövcud olan klassik iqtisadi məktəbin fikirlərini alaraq inkişaf etdirmişdirlər. Bu baxımdan neoklassik iqtisadçılar arasında Alfred Marshall, Irving Fisher, Leon Walras, Arthur Pigou kimi iqtisadçılar xüsusilə fərqləndirilir. Onlar əvvəl qeyd etdiyimiz inflyasiyanın pul miqdarı nəzəriyyəsini alaraq daha da inkişaf etdirmiş, riyazi bərabərsizliklər vasitəsilə modelini işləyib hazırlamışdırlar. Fisher bu baxımdan aşağıdakı bərabərsizliyi təklif etmişdir:

$$M*V=P*T \qquad (1)$$

Bu bərabərsizlikdə, M – pul təklifi, V – pulun tədavül sürətini, P – qiymətlərin səviyyəsini, T isə ümumi transaksiyaların həcmini bildirir. Bu bərabərsizlikdə pul təklifi (M) və qiymətlər (P) arasında asılılığı daha aydın görmək üçün komponentlər arasında yerdəyişmə etsək aşağıdakı bərabərsizliyi alarıq:

$$P=(V/T)*M \qquad (2)$$

Göründüyü kimi qiymətlərlə pul təklifi arasında birbaşa asılılıq vardır. Bu da klassik inflyasiya nəzəriyyəsinin əsasını formalaşdıran *pul təklifi nə qədər çoxdursa qiymətlər də bir o qədər yüksək olacaq* fikrini riyazi şəkildə əsaslandırır. Klassiklər tərəfindən (2) saylı düsturda V və T sıfıra bərabər fərz edildiyindən, inflyasiya sadəcə pul təklifinin səbəbiyyət verdiyi bir iqtisadi hadisə kimi xarakterizə edilir. Buna bənzər digər bir mənzərəni də A.Marshall tərəfindən irəli sürülən "Cambridge pul tələbi" nəzəriyyəsində müşahidə etmək mümkündür:

$$M=k*P*T \qquad (3)$$

Cambridge nəzəriyyəsini Fisher nəzəriyyəsindən ayıran yeganə fərq odur ki, burada pulun tədavül sürəti (V) əvəzinə insanların əllərində saxladıqları pulun onların ümumi gəlirlərinə nisbətini əks etdirən *k* əmsalından istifadə olunmuşdur. Nəticə etibarı ilə həm klassiklər, həm də neoklassiklər inflyasiya ilə mübarizənin ən effektiv yolu kimi pul təklifinin azaldılmasını görürdülər. Onların fikrincə antinflyasiya siyasəti aparılarkən dövriyyədə olan pulun miqdarını aşağı salmaq və bununla da pulun dəyərinin artmasına nail olmaq lazımdır. [4]

İnflyasiya və onunla mübarizə haqqında digər əsaslı fikirlərdən birinin müəllifi kimi John Maynard Keynes çıxış etmişdir. Xüsusilə 1929-cu ildə baş vermiş böyük iqtisadi böhran zamanı klassik iqtisadi məktəbin fikirlərinin kifayət qədər təkmil olmadığını və mürəkkəb iqtisadi vəziyyətlərdə öz reallığını tapmadığını müşahidə edən Keyns klassiklərin fikirlərinə etiraz olaraq öz nəzəriyyələrini formalaşdırmış və beləliklə iqtisadiyyat elmində Keynsçi məktəbin əsasını qoymuşdur. Keynsin ilk etirazi pul təklifindəki artıqlığın birbaşa inflyasiyaya səbəbiyyət verməsinə qarşı olmuşdur. Onun fikrincə bu yalnız tam işsizlik səviyyəsinin əldə olunduğu halda mümkün ola bilər. Çünki bazarda qiymətlərin formalaşması dövriyyədə olan pulun miqdarından çox işsizlik səviyyəsindən aslıdır. Keyns inflyasiyaya baxarkən əsas amillər kimi əməkhaqqı, qiymət və faiz dərəcələrini nəzərdən keçirmişdir. Keynsə görə əməkhaqqı səviyyəsinin aşağı salınması istehlak xərclərini aşağı salacaq, məhsul satışı azaldığından şirkətlər işçiləri ixtisar etməli olacaq və işsizlik səviyyəsi artacaq. Bu proseslər də birbaşa bazarda qiymətlərə təsir edəcək. Pulun miqdarından

çox işsizlik səviyyəsi qiymətlərə və inflyasiyaya təsir göstərəcəkdir.

Ümumiyyətlə Keyns inflyasiyanın iki növünü xüsusilə fərqləndirmişdir: Bunlardan birincisi qiymətlərin təbii artması ilə xarakterizə olunan inflyasiya növüdür, bu zaman qiymətlərin artımı iqtisadi zərurətdən yaranır; İkincisi isə iri şirkətlər arasında rəqabətdən qaynaqlanan süni qiymət artımı ilə xarakterizə olunan inflyasiya növüdür.

Keynsin klassik iqtisadçılarla fikir ayrılığına düşdüyü bir digər məsələ isə pul ilə bağlıdır. Klassiklərin əksinə Keyns pulu sadəcə bir tədavül vasitəsi kimi görmürdü. Onun fikrincə pul həm də ehtiyat vasitəsi kimi saxlanılır və spekülativ məqsədlər üçün aktiv bir şəkildə istifadə olunur. İqtisadi subyektlər gələcək dövrlər üçün gözlənti içində olurlar. Bu gözləntilərinin yaxşı və ya pis olmasına uyğun olaraq əllərindəki pulu ehtiyat kimi saxlayırlar. Bu ehtiyatların dəyərləndirilməsi birbaşa faiz dərəcələrindən aslıdır və dövriyyədəki pul miqdarına əsaslı şəkildə təsir edir. Keyns gələcək dövr üçün inflyasiya proqnazlaşdırılması aparılarkən və ya antiinflyasiya siyasəti formalaşdırılarkən bu məsələnin diqqətə alınmasının önəmini xüsusən vurğulamışdır. Keynsə görə insanlar əlində nə qədər çox pul saxlasalar bu işsizlik səviyyəsini bir o qədər artıracaqdır. Hətta bu məsələnin önəmini vurğulamaq üçün Keyns demişdir: "Nə zaman ki, kənara 5 şillinq pul qoyursunuz bir adamı bir günlük işindən etmiş olursunuz"

Keynsin fikirləri daha sonralar neokeynçi iqtisad məktəbinin nümayəndələri tərəfindən inkişaf etdirilmişdir. Keynsin hər zaman önəmlə vurğuladığı inflyasiya və işsizlik arasındakı əlaqə ilk dəfə Alban William Phillips tərəfindən modelləşdirilmişdir. Bu model iqtisadi ədəbiyyatlara Phillips əyrisi adı ilə düşmüşdür. Phillips əyrisi daha sonralar Robert Sollow və Paul Samuelson kimi iqtisadçılar tərəfindən inkişaf etdirilmişdir. Phillips əyrisinə görə işsizlik ilə inflyasiya arasında qarşılıqlı tərs bir əlaqə vardır, inflyasiya səviyyəsi nə qədər yüksəkdirsə işsizlik səviyyəsi bir o qədər aşağıdır və ya əksinə aşağı inflyasiya səviyyəsində işsizlik bir o qədər yüksək olacaqdır. Phillips əyrisi aşağıdakı şəkildədir şəkil 1.




Şəkil 1: Phillips əyrisi

XX əsrin 60 cı illərindən etibarən iqtisadiyyatda həm yüksək işsizlik həm də yüksək inflyasiyanın xarakterik olduğu staqflyasiya halları müşahidə olundu. Bu hal istər Phillips əyrisi timsalında neokeynsçi nəzəriyyələr, istərsə də digər neoklassik nəzəriyyələrlə izah oluna bilmədi. Bu da öz növbəsində yeni iqtisadi məktəb olan Monetarist iqtisadi məktəbin yaradılmasını zəruri etdi. Monetarist iqtisadi məktəb ölkədə baş verən iqtisadi prosesləri pul və faiz aspektindən təhlil edən və bu istiqamətdən yanaşan iqtisadi fikir məktəbidir. Monetaristlərin inflyasiya və antiinflyasiya siyasəti ilə bağlı səsləndirdikləri fikirlər mövzu ilə daha çox əlaqədar olduğundan əvvəlcə strukturalist və fiskal nəzəriyyələrə toxunmaq daha məqsədəuyğun olardı.

İnflyasiyanın strukturalist nəzəriyyəsi struktural və neo-struktural olmaqla iki versiyada təqdim olunmuşdur. Bunlardan ilk versiya olan struktural yanaşma XX əsrin 60-cı illərində Latın Amerikalı iqtisadiyyatçılar tərəfindən ikinci dünya müharibəsindən sonra Latın Amerika ölkələrində baş vermiş yüksək qiymət artımını və onunla mübarizə yollarını xarakterizə etmək üçün ortaya

atılmışdır. İkinci versiya olan neo-strukturalist yanaşma isə Skandinaviya ölkələrinə xas olub XX əsrin 70-ci illərindən etibarən iqtisadi ədəbiyyatlara daxil edilmişdir. Ümumiyyətlə strukturalist inflyasiya nəzəriyyəsi daha sonra ətraflı şəkildə bəhs edəcəyimiz monetarist iqtisadi görüşə qarşı olaraq ortaya atılmışdır. Strukturalist nəzəriyyəyə görə inflyasiyada iki amil xüsusilə fərqləndirilməli və diqqətə alınmalıdır: Bunlardan birincisi inflyasiyanın səbəbləridir; İkinci amil isə inflyasiyanın inkişaf etmə, yayılma mexanizmidir.

Strukturalist nəzəriyyəyə görə "inflyasiyanın yaranma səbəbi yalnız pul təklifindəki artım və ya məcmu tələbdəki artışdır" deyən iqtisadi nəzəriyyələr yanılırlar. Strukturalistlərin fikrincə məsələyə daha geniş aspektdən yanaşmaq iqtisadi strukturun hər bir həlqəsinin inflyasiyadakı rolunu müəyyən etmək, sosial iqtisadi sistemin təməllərini daha diqqətlə tədqiq etmək lazımdır. İnflyasiyanın səbəbi, genişlənmə mexanizmi və onunla mübarizə yolları müəyyənləşdirilən zaman ümümilikdə ölkədəki hüquq sistemi, əhalinin sosial tərkibi, əhalinin bölgədə məskunlaşma səviyyəsi, texnologiyanın hansı səviyyədə inkişaf etmiş olması, ölkə iqtisadiyyatının nə qədər müstəqil və ya digər ölkələrdən aslı olması, gəlir bölgüsü, təbi resursların bol və ya məhdud olması, effektiv vergi sisteminin mövcudluğu, iqtisadi savadlılıq və qənaət səviyyəsi, ayrı-ayrı iqtisadi subyektlərin davranışı və sair kimi bir çox amil struktural şəkildə nəzərdən keçirilməli və qiymətləndirilməlidir. Əlbəttə ki, strukturalist nəzəriyyə inflyasiyada pulun rolunu tam şəkildə təkzib etmir. Monetaristlər pul təklifini inflyasiyaya səbəb olan əsas amil kimi dəyərləndirirlər, strukturalistlər isə əksinə inflyasiyanın pul təklifində artıqlığa səbəb olduğunu deyirdilər (inflyasiya halında məcmu tələb artır, bu da birbaşa pul təklifinin artmasına səbəbiyyət verir). Onların fikrincə pul sadəcə vasitə rolunu oynayır. Strukturalist nəzəriyyə tərəfdarları bildirirlər ki, ölkə iqtisadiyyatında tam tarazlıq əldə edildikdə bu zaman inflyasiya monetarist modellər vasitəsilə izah oluna bilər, lakin əksər hallarda bu tarazlığa nail olmaq mümkün olmur həmin qeyri-tarazlıq şəraitində inflyasiya yalnız strukturalist modellər tərəfindən effektiv şəkildə qiymətləndirilə bilər.

İnflyasiyanın digər bir nəzəriyyəsi də fiskal nəzəriyyədir. Fiskal nəzəriyyə inflyasiyanın təbiətini və onunla mübarizə yollarını ölkənin mövcud vergi və büdcə sistemi aspektindən tədqiq edir. Ümumi mənada fiskal nəzəriyyə vergi dərəcələrinin və büdcə xərclərinin artırılıb azaldılması yolu ilə inflyasiya ilə mübarizə aparılmasına nail olmaq məqsədi daşıyır. Keynsçi iqtisadi məktəbin müasir nümayəndələri tərəfindən təklif olunan fiskal antiinflyasiya nəzəriyyəsi fəal büdcə siyasətinin aparılması ilə xarakterizə olunur. Bu siyasət ilk növbədə dövlətin vergilərin səviyyəsini artırması və büdcə xərclərini azaltması şəklində özünü göstərir. Bu tədbirlərin nəticəsi kimi tələb azalır, qiymətlər aşağı düşür və inflyasiya səviyyəsi də aşağı çəkilmiş olur. Fiskal antiinflyasiya siyasətinin ən böyük mənfi cəhəti bəzi hallarda ölkə iqtisadiyyatında durğunluğa gətirib çıxara bilməsidir. Belə ki, vergilərin artırılması sahibkarlıq fəaliyyətinin zəifləməsinə, bu da öz növbəsində investisyanın və istehsalın azalmasına səbəb ola bilər. Bir çox sosial sahə üzrə büdcə xərclərinin azaldılması rifah səviyyəsinin aşağı düşməsinə, istehsalatın zəifləməsi təsərrüfat subyektlərində işçi ixtisarlarına və işsizlik səviyyəsinin yüksəlməsinə gətirib çıxara bilər.

Fiskal antiinflyasiya siyasəti nəzəri olaraq uzunmüddətli və qısamüddətli dövr üçün fərqləndirilir. Qabaqcıl iqtisadiyyata sahib İEÖ-in təcrübəsinə əsaslanaraq deyə bilərik ki, bu iki dövrün əlaqələndirilərək fiskal

tədbirlərin kompleks şəkildə icra edilməsi xüsusi önəm daşıyır. Qısamüddətli siyasət müvəqqəti xarakter daşıyır və qısa müddətə sürətli şəkildə inflyasiyanın aşağı salınmasını hədəfləyir. Qısamüddətli tədbirlərə vergilərin stimullaşdırılması, istehsalatın artırılması üçün təsərrüfat subyektlərinə vergi güzəştlərinin verilməsi, büdcə gəlirinin və xərcinin tarazlaşdırılması kimi bir sıra amillər aid edilir. Uzunmüddətli siyasətə dövlət büdcəsinin xərclərinin əsaslı şəkildə azaldılması, vergilərin artırılması, vergilərin tərkibində dolayı vergilərin çəkisinin artırılması və vergi hesabına büdcə kəsrinin minimum səviyyədə saxlanılması kimi tədbirlər aid edilir.

Monetarist inflyasiya nəzəriyyələri əhəmiyyəti baxımından günümüzdə də öz aktuallığını qoruyub saxlayır. Təsadüfi deyil ki, müasir pul-kredit siyasəti nəzəriyyəsinin təməlləri ilk dəfə monetaristlərin səsləndirdikləri fikirlər əsasında atılmışdır. İlk dəfə monetaristlər pulun və faizin ölkə iqtisadiyyatında necə önəmə sahib olduğunu vurğulamış, inflyasiya və işsizlik kimi iqtisadi problemlərin həm yaranmasında həm də həllində pul siyasətinin əhəmiyyətini gözlər önünə sərmişdirlər. Monetarizmin iqtisadi məktəb kimi formalaşdırılması 1976-cı il Nobel mükafatına layiq görülmüş amerikalı iqtisadiyyatçı Milton Friedmanın adı ilə bağlıdır. Milton Friedman özünün Anna Schwartz ilə birlikdə yazdığı "A Monetary History of the United States, 1867–1960" ("1867-1960 illərdə Birləşmiş Ştatların Monetarist Tarixi") əsərində *"inflation is always and everywhere a monetary phenomenon"* (inflyasiya hər zaman və hər yerdə monetar fenomendir) fikirlərini səsləndirərək monetarist inflyasiya nəzəriyyəsinin də əsasını qoymuşdur.

Monetarizm mərkəzi bankların fəaliyyətlərinin və pul təklifinin makroiqtisadi təsirlərinin tədqiqinə yönəlmiş iqtisadi nəzəriyyədir. Monetarist iqtisadi məktəbin nümayəndələri hökümətlərin rolunun düzgün pul-kredit siyasəti aparmaqla iqtisadi inkişafa nail olmaqdakı önəmini xüsusi şəkildə vurğulamışdırlar.

Anna Schwartz və Edmund Phelps kimi ilk monetarist iqtisadiyyatçıların fikrincə ölkə iqtisadiyyatında özəl sektor xarakteri etibarı ilə dövlət sektorundan daha dayanıqlı olduğundan hərhansı iqtisadi geriləmə və ya durğunluq halından sonra özəl sektorun iqtisadiyyatı elastik bir şəkildə əvvəlki vəziyyətinə qayıdır. Və bununla da ümumi işsizlik səviyyəsi də lazımi həddə geri dönür. Bunun əsas səbəbi kimi də özəl sektorda təsərrüfat subyektlərinin baş verən iqtisadi proseslərə daha aktiv bir şəkildə reaksiya verməsi, vəziyyəti öyrənməsi və öz fəaliyyətinə uyğun ən rasional addımı atması göstərilir. Sırf bu baxımdan ölkə iqtisadiyyatında sabitliyin əldə olunmasında hökümətin rolunu xüsusilə vurğulamış, effektiv pul-kredit siyasətinin önəmini ayrıca qeyd etmişdirlər. [5]

İnflyasiyanın səbəbinin hər zaman pul olduğunu irəli sürən monetaristlər inflyasiyanı klassiklərin pul miqdarı nəzəriyyəsi vasitəsilə izah edilməsini qəbul etmir, özlərinin pula tələb nəzəriyyəsi vasitəsilə izah olunmasını təklif edirdilər. Monetaristlərə görə pul tələbi klassiklərin qeyd etdiyi kimi sabit bir əmsal deyil, sərvət sahiblərinin aktivində yer alan bir varlıq kimi dəyərləndirilməlidir. Tələb olunan pul miqdarı bir sıra dəyişilənin daxil edildiyi mürəkkəb bir düstur şəklində nəzərdən keçirilməli, bu bərabərsizlik formalaşdırılarkən pul təklifi və qiymət səviyyəsi ilə yanaşı nominal gəlir səviyyəsi, tələb edilən pul miqdarı, qeyri bəşəri sərvətin (və ya mülkiyyətdən əldə edilən gəlirin) həcmi, bir sıra aktivlərin və pulun gətirdiyi fayda kimi amillər nəzərə alınmalıdır. Monetaristlər sözügedən bərabərsizliyi aşağıdakı şəkildə vermişdirlər:

$$\frac{M}{P} = f\left(y, w; r_m, r_b, r_e, \frac{1}{P}\frac{dP}{dt}; u\right)$$

Burada, M – pul təklifini, P – qiymətlərin səviyyəsini, y – nominal gəliri, w – qeyri bəşəri sərvəti, r – aktivlərin verdiyi fayda miqdarı, 1/P*dP/dt – praqnoz olunan qiymət dəyişikliyi miqdarı, u – gəlir sayılmayan digər dəyişilənlərin məcmu miqdarı bildirir.

Monetaristlərin fikrincə pul təklifi hər-hansı bir səbəbdən artarsa bankların və iqtisadi subyektlərin əlində lazım olandan artıq pul cəmləşmiş olacaq. Belə olan halda həmin subyektlər əllərində olan artıq pul ilə yeni aktivlər almaq istəyəcəklər və bu da bazarda aktivlərin qiymətini artıracaq, əlindəki pulu kredit şəklində vermək istəyən bankların təşəbbüsü ilə isə faiz dərəcələri aşağı düşəcək. Real sektor bundan təsirlənəcək, mal və xidmətlər bazarında da qiymət artımı müşahidə olunacaq, pulun real dəyəri düşəcək. Nəticə etibarı ilə, qeyd edilən inflyasiya halı faiz dərəcələrinin yenə əvvəlki həddə yüksələcəyi və real pulda tələb/təklif tarazlığı yaranacağı ana qədər davam edəcək. Odur ki, bunu nəzərə alan hökümətlər antiinflyasiya yönümlü pul-kredit siyasəti yeridən zaman ilk növbədə faiz dərəcələrini artırırlar və beləliklə təsərrüfat subyektlərinin əlində daha az pul cəmləşməsinə nail olurlar, bu da öz növbəsində pulun real dəyərinin artmasına gətirib çıxarır. Pul-kredit siyasətinin bir vasitəsi hesab olunan faiz dərəcələrinin artırılması inflyasiya ilə mübarizə baxımından xeyli effektiv olsa da, uzunmüddətli tədbiq edilməsi ölkədə sahibkarlıq fəaliyyətinin geriləməsinə, investisya və istehsalatın zəifləməsinə əsaslı şəkildə zəmin hazırlayır.

Monetaristlər inflyasiya ilə işsizlik arasındakı əlaqəyə də toxunmuşdurlar. Onlar Phillips əyrisini birmənalı şəkildə qəbul etməmişdirlər. Monetarist iqtisadçıların fikrincə pul təklifindəki artım ilk başlarda iqtisadiyyatı canlandırır, hətta işsizlik səviyyəsini aşağı çəkir, ancaq bu sadəcə qısamüddətli xarakter daşıyır, uzunmüddətli dövrdə iqtisadi canlanma tədricən yox olur və pulun miqdarındakı artış yalnız inflyasiya səviyyəsini artırmağa xidmət edir. Digər bir sözlə, Philips əyrisinin ifadə etdiyi yüksək inflyasiya zamanı aşağı işsizlik səviyyəsinə nail olunur fikri yalnız qısamüddətli dövr üçün xarakterikdir, bir müddət sonra pulun təsiri neytrallaşır – inflyasiya səviyyəsi yüksəlməyə davam etdiyi halda işsizlik səviyyəsi azalmır, təbii səviyyəsində qalır.

Monetaristlərin digər bir inflyasiya nəzəriyyəsi də subyektlərin gələcək dövrlə əlaqədar gözləntilərinə əsaslanır. Onlar iqtisadiyyatın hər zaman əvvəlki tarazlıq halına geri dönməsinin də gözləntilərin strukturuna bağlı olduğunu qeyd etmişdirlər. İqtisadi subyektlər hər daim qiymətlərdəki dəyişikliklər barəsində gözlənti içində olurlar, lakin bu gözləntilər zamanı bütün informasiyalara sahib olmurlar və praqnozlarında səhvlərə yol verirlər. Məsələn, pul təklifi artdıqda işsizlik səviyyəsi də düşür və bunun əsas səbəbi bir çox hallarda bildiyimiz kimi tələb miqdarındakı artım yox, işçilərin qiymət artımını səhv proqnazlaşdırmaları olur. İşçilər ilk əvvəl qiymətlərin düşəcəyini və ya əməkhaqqındakı artım ehtimalını praqnozlaşdırırlar, odur ki işlərin səviyyəsində heç bir geriləmə müşahidə olunmur. Hətta tam əksinə, ilk əvvəllər işverənlər daha çox işçi işlədə bilirlər və istehsalatın həcmini də artıraraq yüksək gəlir əldə edirlər. Bunun nəticəsində də ilk dövrlərdə iqtisadiyyatda canlanma yaranır. Daha sonra işçilər yalnış gözlənti içində olduqlarını anlayırlar, inflyasiya artdıqca qiymətlər də artmağa davam edir, işçilər həvəsdən düşürlər - əmək bazarında təklif azalır. Əmək bazarında təklif azaldığından işçiyə olan tələb artır və əməkhaqqılar yüksəlir. Uzunmüddətli dövrdə əmək bazarında iqtisadi tarazlığa nail olunur, lakin inflyasiyanın miqdarı yüksəldikcə yüksəlir. Qeyd etdiyimiz, iqtisadi subyektlərin gözləntilərinin

önəmi məsələsi monetarist iqtisadçılar tərəfindən riyazi şəkildə aşağıdakı formada ifadə olunmuşdur:

$$\pi_t^e = \pi_{t-1} + \gamma\left(\pi_{t-1}^e - \pi_{t-1}\right)$$

Bu düstur $\gamma$ subyektinin keçmiş dövrdə gözləntiləri nəticəsində etdiyi xətalara bu gün verdiyi reaksiyanı ifadə edir. Burada, ($\pi_{t-1}$) - əvvəlki dövrdə qeydə alınmış inflyasiya dərəcəsini, ($\pi_{t-1}$)$^e$ – gələcək dövr üçün proqnozlaşdırılan inflyasiya dərəcəsini göstərir. İqtisadçıların fikrincə uzunmüddətli dövrdə iqtisadi subyektlər əvvəlki dövrdə baş vermiş inflyasiyadan daha effektiv nəticə çıxaracaqları üçün gələcək üçün proqnozları düzgün olacaqdır. Belə olan halda praqnoz xətası sıfır (düsturda $\pi^e = \pi_{t-1}$ halını nəzərə alsaq) və ya sıfıra yaxın olacaqdır.

Qısacası, monetarist iqtisadi məktəbin nümayəndələri inflyasiyanın hər zaman pul ilə əlaqədar bir problem olduğunu vurğulamış, inflyasiya ilə effektiv mübarizənin yalnız pul-kredit siyasətinin düzgün aparılması yolu ilə mümkün ola biləcəyini bildirmişdirlər. Həmçinin monetaristlər pul təklifindəki artıqlığın səbəb olduğu inflyasiyanın bir müddət sonra tarazlıq halına gələcəyini də iddia etmiş, sırf bu baxımdan bir çox iqtisadçılar tərəfindən tənqid olunmuşdurlar. Bunlara misal kimi strukturalist iqtisadi məktəbin nümayəndələrini göstərmək olar. Strukturalistlər iqtisadiyyatın dayanıqlı təbiətə malik olması, həmişə tarazlıq halına geri dönməsi fikrini qəbul etməmişdirlər. İnflyasiyanın hər daim struktural problemlərə yol açdığını, bu problemlər həll edilmədiyi müddətcə heç bir iqtisadi dayanıqlılıqdan söhbət gedə bilməyəcəyini bildirmişdirlər. Yeni klassik iqtisadi məktəbin nümayəndələri isə monetaristlərin "gözləntilərin inflyasiyaya təsiri" nəzəriyyəsi ilə tam razılaşmamış, işçilərin proqnoz xətası etdikləri iddiasına şübhə ilə yanaşmışdırlar. [6]

**Nəticə**

Antiinflyasiya yönümlü pul-kredit siyasətinin nəzəri aspektlərini tədqiq edən zaman tarix boyunca iqtisadi məktəblərin bu haqda səsləndirdiyi fikirlərin necə müxtəlif və çoxşaxəli olması xüsusilə nəzərə çarpır. Bu müxtəlifliyin əsas səbəbi də odur ki, iqtisadi məktəblərin hər biri öz fikirlərini formalaşdıran zaman aid olduqları tarixi dövrü, öz ölkələrinin coğrafi, siyasi və sosial-iqtisadi şəraitini nəzərə almışdırlar. Və hər bir iqtisadi məktəbin nəzəri fikirləri özündən sonra gələn məktəblər tərəfindən daha da inkişaf etdirilmiş, dövrün tələblərinə uyğunlaşdırılmışdır. Müasir antiinflyasiya yönümlü pul-kredit siyasətlərinə də nəzər salan zaman bu sözü gedən müxtəlifliyi müşahidə edə bilirik. Lakin bu müxtəlifliklərə baxmayaraq, qeyd olunan inflyasiya yönümlü nəzəriyyələrin hamısında əsasən iki fikrin xüsusilə fərqləndirildiyi nəticəsinə gələ bilərik: Birincisi, inflyasiyanı yaradan ən əsas səbəb dövriyyədə olan pulun miqdarının artıqlığı, pul təklifinin normadan daha yüksək olmasıdır; İkincisi, inflyasiya ilə mübarizə aparan zaman qiymətlərdəki artımın səbəbinin müəyyənləşdirilməsi xüsusi önəmə sahibdir və diqqətlə tədqiq olunmalıdır.

**Tədqiqat işinin yeniliyi.** Tədqiqat zamanı ilk dəfə antiinflyasiya yönümlü pul-kredit siyasətinin nəzəri aspektləri iqtisadi məktəblərin fikirləri əsasında araşdırılmış, bu fikirlər tarixi ardıcıllıqla sıralanmış, bu vasitə ilə daha aydın mənzərə gözlər önünə sərilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqat zamanı çoxşaxəli iqtisadi fikirlərə nəzər salınmış, ənənəvi iqtisadi modellər təhlil edilmişdir. Bunun sonunda əldə olunan nəticələr gələcəkdə müasir antiinflyasiya nəzəriyyələrinin formalaşmasında yardımcı rolda çıxış edəcəkdir. Həmçinin digər tədqiqatçılar üçün referans mənbəyi kimi çıxış edəcəkdir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Tədqiqat işi nəzəri aspektləri təhlil edərək inkişafa nail olunması istiqamətində aparılmışdır. Nəzəri olaraq inkişaf etdirilmiş anti-inflyasiya siyasəti öz növbəsində praktiki olaraq da daha yüksək fayda verəcək, bu yolla gələcəkdə inflyasiyanın aşağı həddinə nail olunacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. "İnflyasiyanın anatomiyası" Tofiq Quliyev. Bakı. 2016.
2. "İqtisadi nəzəriyyə" Bakı, 2014.
3. "Azərbaycanda monetar idarəetmə sisteminin inkişafının aktual problemləri" Babayev A, Abdillayev X. Bakı. 2015.
4."Dünya iktisat tarihi." Mesud Küçükkalay. İstanbul. 2021
5. "Anti-inflationary policies:alternative approaches" Dennis J. Weidenaar. Purdue. 2020.
6. "Anti-Inflationary Policies in a Democratic Free Market Society" Barry Bosworth. Massachusetts. 06.2018
7. "Финансы и банковское дело" Г.Р. Державина. Москва. 2019.

**Sabuhi Mubariz oglu Abbasov**
Azerbaijan State Economic University

## THEORETICAL ASPECTS OF ANTI-INFLATION FACING MONETARY POLICY

**Abstract**
The study examined the views of various economic schools on inflation, the theories of inflation voiced by them and the anti-inflationary tools developed. By summarizing the above-mentioned ideas, an attempt was made to come to a single conclusion, and it was observed how historically anti-inflation theories differed from the ideological point of view. The article also evaluates the steps taken to keep inflation rates low in modern conditions from a theoretical point of view.
**Keywords:** monetary policy, inflation, anti-inflation policy, economic theory, economic schools.

**Сабухи Мубариз оглы Аббасов**
Азербайджанский Государственный Экономический Университет

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ АНТИИНФЛЯЦИОННОЙ ДЕНЕЖНО-КРЕДИТНОЙ ПОЛИТИКИ

**Резюме**
В ходе исследования были рассмотрены взгляды различных экономических школ на инфляцию, озвученные ими теории инфляции и разработанные антиинфляционные инструменты. Обобщая вышеизложенные идеи, была сделана попытка прийти к единому выводу, и было замечено, насколько исторически антиинфляционные теории различались с идеологической точки зрения. В статье также с теоретической точки зрения оцениваются предпринимаемые шаги по удержанию низких темпов инфляции в современных условиях.
**Ключевые слова:** денежно-кредитная политика, инфляция, антиинфляционная политика, экономическая теория, экономические школы.

**Daxil olub:** 14.04.2022

**Səmayə Oqtay qızı Babayeva**
Azərbaycan Dövlət Aqrar Universiteti, Dissertant
E-mail: nihat-020@mail.ru

# AQRAR SAHƏDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ ONUN KƏND TƏSƏRRÜFATINDA TƏZAHÜRÜ

**Xülasə**

Məqalədə aqrar sektorunda dövlət tənzimlənməsinin müasir istiqamətləri barədə danışılır. Burada əsas diqqət aqrar sektorun müasir tələblərə uyğun tənzimlənilməsinə, çayçılığın inkişaf vəziyyətinə, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə əlaqədar Azərbaycan Respublikasının Strateji Yol Xəritəsinin icraatına və s. məsələlərə yetirilmişdir. Məqalədə aqrar sektorun kompleks inkişaf aspektləri geniş tədqiq olunmuşdur.Məqalənin sonunda müəllifin ümumiləşdirilmiş elmi nəticələri əks edilmişdir.

**Tədqiqatın məqsədi**–aqrar sektorda dövlət tənzimləməsinin əsas sosial-iqtisadi aspektlərin qiymətləndirilməsi.

**Tədqiqatın metodu** - sistemli yanaşma, müqayisəli təhlil.

**Tədqiqatın nəticələri** – aqrar sahədə dövlət tənzimlənməsinin müasir tendensiyaların müəyyən edilməsi.

**Açar sözlər:** aqrar sektor, dövlət tənzimlənməsi, çayçılıq, strateji məqsədlər, strateji istiqamətlər.

**UOT:** 39.56.31
**JEL:** Q 18

## Giriş

Azərbaycan Respublikasında kənd təsərrüfatında həyata keçirilən geniş miqyaslı islahatlar nəticəsində sözügedən sahədə dayanıqlı inkişaf və artım təmayülləri diqqəti cəlb edir. 2003-2021-ci illərdə kənd təsərrüfatı məhsullarının istehsalında real artım 175,4 % olmuşdur. Deyilənlərlə yanaşı bitkiçilikdə 145,7%, heyvandarlıqda 157,6% olmuşdur. Dünya Bankının məlumatlarına görə bu illər ərzində Azərbaycanda kənd təsrrüfatında real artım bütün dünya üzrə orta göstəricilərdən yüksək olmuşdur. Belə bir təmayül, region ölkələri ilə müqayisələrdə də müşahidə olunur. Dinamik inkişaf trendi 2021-ci ilə qədər davam etmişdir. Bu illər ərzində kənd təsərrüfatı məhsulları əvvəlki illərlə müqayisədə 3, 8% artmışdır, o cümlədən bitkiçilikdə 4,7%, heyvandarlıqda 2,5 dəfə olmuşdur.

Aqrar islahatların indiki mərhələsi, yüksək əlavə dəyər yaradan sahələrin inkişaf etdirilməsi ənənəvi sahələrin inkişafında tarixi dönüş mərhələsi kimi də dəyərləndirilə bilər. Qəbul edilmiş dövlət proqramları çərçivəsində ölkədə pambıqçılığın, tütünçülüyün, düyü istehsalının, ipəkçiliyin, çayçılığın, üzümçülüyün, sitrus bitkilərinin becərilməsinin inkişaf etdirilməsi tədbirlərinin ardıcıl və sistemli islahatların həyata keçirilməsi ilə nəzərdə tutulmuşdur. Nəticədə yüksək əlavə dəyər yaradılan, sənaye təyinatlı və ixrac yönümlü sahələrdə əhəmiyyətli dərəcədə inkişaf dinamikası əldə edilmişdir. Pambıqçılıqda məhsuldarlığın artırılmasına yönəldilmiş həyata keçirilən məqsədyönlü tədbirlər son nəticədə həmin sahələrin nüfuzunun artırılmasına xidmət edir. Həyata keçirilmiş tədbirlər respublikada kənd təsərrüfatı məhsullarının emalı göstəricilərinin yüksəldilməsinə də təsir göstərmişdir. Ucar rayonunda pambıq emalı zavodu istifadəyə verilmişdir. Sözügedən müəssisə 12 may 2017–ci il tarixində

yaradılmışdır və bu günə kimi fəaliyyət istiqamətini genişləndirərək qabaqcıl şirkətlərdən birinə çevrilmişdir. Eyni zamanda respublikada yerli pambıq toxumçuluğu bazasının yaradılması mümkün olmuşdur. Deyilənlərlə yanaşı intensiv ferma modelinin tətbiqi nəticəsində son illərdə ölkədə heyvandarlıq sahəsində yüksək artım əldə edilmiş, əsasən intensiv inkişaf tədbirləri nəticəsində bütün bunlar mümkün olmuşdur. Azərbaycanda kənd təsərrüfatında müqayisəli üstünlüklər sayəsində kənd təsərrüfatı məhsullarının istehsalında ciddi artım müşahidə edilmişdir. 2003-2018-ci illərdə Azərbaycanda ixrac edilən kənd təsərrüfatı məhsullarının həcmi 6,5 dəfə artmışdır [1]. 2003-2020-ci illərdə kənd təsərüfatı məhsullarının ixracı aşağıdakı kimidir: Meyvə-tərəvəz məhsulları-orta hesabla 6,9 dəfə; çay 1,3 dəfə; xam pambığın ixracı 2,9 dəfə artmışdır [2]. Bu tendensiyaların əsasını aqrar sektorun dövlət tənzimləməsi istiqamətlərinin düzgün seçilməsi təşkil edir.

**Azərbaycanda aqrar sektorda dövlət tənzimləməsinin qiymətləndirilməsi**

Azərbaycanda həyata keçirilən uğurlu aqrar siyasəti nəticəsində əlverişli bazar mühiti yaradılmış, biznes fəaliyyəti üçün əlverişli şərait yaranmışdır. Müvafiq olaraq muzdlu işçilərin sayı və investisiya yatırımlarının həcmi xeyli yüksəlmişdir.

Yerli istehsalın potensialının artırılması və ölkənin rəqabət qabiliyyətliliyinin artırılması hesabına ölkənin ərzaq məhsulları ilə təmin olunması səviyyəsi xeyli yüksəlmişdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunması dövründə respublikanın ət və süd məhsulları ilə təmin olunması səviyyəsi 30-35% idi. İndiki dövrdə bu göstərici 90% civarındadır. Bütün meyvə və tərəvəz məhsulları ilə təmin olunma səviyyəsi 100% -in üzərindədir. Yerli istehsal hesabına bir sıra sahələr üzrə özünütəminetmə səviyyəsi xeyli yüksəldiləcəkdir. İnkişaf və idarəetmə məsələləri daha çevik həll edilməkdədir. Bunun üçün isə dövlət dəstəyi proqramlarının həyata keçirilməsi, ünvanlı dəstək mexanizminin tətbiqi tələb olunur. Dövlət başçısının tapşırığı ilə aqrar sektorda həyata keçirilən tədbirlər heyvandarlığın intensiv inkişaf etdirilməsinə, örüş torpaqlarının, otlaqların səmərəli istifadə edilməsinə xidmət edir. Eyni zamanda, toxumçuluğun inkişaf etdirilməsi sahəsində də müvafiq tədbirlər həyata keçirilmişdir. Həyata keçirilən islahatlar elmi cəhətdən əsaslandırılmış tədbirlərə əsaslanır. Fermerlərin maraqlarına, kənd zəhmətkeşlərinin maraqlarının təmin edilməsinə xidmət edir. Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirliyi 3 əsas prinsip üzərində öz işini qurur; kəndlilərə və fermerlərə yaxınlıq, səmərəli idarəetmə, innovasiyaların tətbiqi. Deyilənlərlə yanaşı qeyd etmək lazımdır ki, indiki dövrdə aqrar sektorun müasir tələblərə uyğun tənzimlənilməsi 5 strateji istiqamət üzrə həyata keçirilir:

*1. Aqrar təhlil.* Aqrar sektorda təhlilin həyata keçirilməsi məqsədi ilə qiymətləndirmələr, proqnozlaşdırmalar aparılır, proqram və layihələr hazırlanır, sahənin strateji planlaşdırılması həyata keçirilir.Sahənin innovasiyalı inkişaf etdirilməsi məqsədi ilə Aqrar Tədqiqatlar Mərkəzi yaradılmışdır. Aqrar Tədqiqatlar Mərkəzi 1962-ci ildən fəaliyyət göstərən Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi Tədqiqat İnstitutunun bazasında yaradılmışdır.

Mərkəzin hüququ statusu vardır. Qarşıya qoyulmuş məqsədlərə nail olunması üçün Mərkəzin peşəkar strukturu formalaşmış, araşdırmalarla məşğul olan informasiya-analitika xidmətləri göstərilir. Sözügedən mərkəz beynəlxalq tələb və çağırışlara cavab verən mərkəz kimi fəaliyyət göstərir. Hazırda

Aqrar Tədqiqatlar Mərkəzinin fəaliyyətinin yeni missiya, yeni iş prinsipləri, yeni vəzifələr, ən əsası isə innovativ metodlar və müasir texnologiyalar əsasında qurulması mərhələsi davam edir.

2. *Aqrar məsələlərin həlli*. İndiki dövrdə kənd təsərrüfatı sahəsində rəqabətqabiliyyətliliyin və ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması üçün məhsuldarlığın yüksəldilməsi mühüm yer tutur. Qeyd edilən məqsədlərə nail olunması üçün innovativ istiqamətlər üzrə texnologiyaların tətbiq edilməsi, idarəetmənin yüksək səviyyədə təşkili, elmi cəhətdən əsaslandırılmış mütərəqqi müasir texnologiya və metodlara ehtiyac vardır. Göründüyü kimi, aqrar təmayüllü elmi müəssisələrin fəaliyyətinin yaxşılaşdırılması məqsədi ilə institusional islahatlar həyata keçirilərək innovativ yeniliklərin fermerlərə çatdırılması, həmin strukturların konsultasiya xidməti şəbəkələrinin yaradılması məqsədi ilə Aqrar Elmlər və İnnovasiyalar Mərkəzi yaradılması özünü doğruldur. Müasir dövrdə aqrar sektorun tənzimlənilməsinin mühüm elementi kimi aqrar elmin müasirləşdirilməsi istiqamətində də islahatlar həyata keçirilir. İslahatlar çərçivəsində bütün elmi tədqiqat institutlarının laboratoriya binalarının əsaslı təmiri sona çatdırılmışdır. İnstitutlarda aqroekologiya və aqrokimya, genetika, seleksiya, torpağın, bitkilərin, suların analizi laboratoriyaları müasir avadanlıqlarla təmin olunmuş, müasir işıqlandırılma qurğuları istifadəyə verilmişdir. Eyni zamanda ilkin toxumçuluq, fidanların yetişdirilməsi, xəstəliklər və ziyanvericilərə nəzarət laboratoriyaları müasir texnikalarla təmin edilmişdir. Deyilənlərlə yanaşı toxumun emalı punktları, müasir və məhsuldar meyvə bağları da yaradılmışdır. Elmi tədqiqat institutlarındakı potensial hesabına istehsalçılar yüksək məhsuldarlığı ilə diqqəti cəlb edən toxumlarla, tinglərlə təmin olunacaqlar. Fermerlərin yüksək məhsuldarlığı ilə seçilən məhsuldar buğda, arpa, qarğıdalı toxumları ilə təmin olunması gerçəkləşdirilir. Həmin bitkilərin Xaçmaz, Şəki, Ağcabədi, Qobustan, Tovuz rayonlarında beçərilməsi nəzərdə tutulur. Bu məqsədlə eyni zamanda sözügedən rayonlarda dənli bitkilərin alaqlardan təmizlənməsi kombinatları yaradılır.

3. *Aqrar biliklər və vərdişlər*. Müasir dövr eyni zamanda "Biliklər əsri" də adlandırılır. Aqrar sektorun davamlı inkişaf etməsi üçün ilk növbədə elm və təhsilin müasir tələblərə uyğun təşkil edilməsi tələb olunur. Bu məqsədlərə nail olunması məqsədi ilə Azərbaycan Dövlər Aqrar Universitetinin tədris planı və proqramları qurulmuşdur. Azərbaycan Dövlət Aqrar Universiteti aqrar mütəxəssislərin hazırlanılması mərkəzi kimi diqqəti cəlb edir. Sözügedən institut dünyanın aparıcı universitetləri ilə əməkdaşlıq edir. Azərbaycan Dövlət Aqrar Universitetinin tamamilə yenilənməsindən sonra institut yeni avadanlıqlarla təmin edilmişdir. Praktiki olaraq yeni elmi araşdırmalar bazası, laboratoriyalar yaradılmışdır. Deyilənlərlə yanaşı peşəkar mütəxəssislərin hazırlanılması məqsədi ilə mükafatlandırıcı tədbirlər də həyata keçirilir.

Dövlət başçısının tapşırığı ilə bu ildən 400 və 500 bal toplayan və aqrar təmayüllü ali məktəblərə qəbul olan tələbələrə əlavə təqaüdlərin verilməsi , müvafiq olaraq 100 və 200 manat təqaüdün verilməsi nəzərdə tutulmuşdur. Aqrar sektorda treninq və informasiya konsultasiya (məsləhət) sisteminin mövcudluğu sözügedən sahənin rəqabət qabiliyyətliliyinin təmin olunması üçün yaradılan müasir tələblərdən biri kimi dəyərləndirilə bilər. Bu məqsədlə nazirlik treninqlərin və konsultasiyaların təşkili strategiyasını işləyib hazırladı, müvafiq olaraq fermerlər üçün peşə kursları və maarifləndirici tədbirlər təşkil olunur.

Təlim mövzuları bir sıra aktual məsələləri əhatə edir. Bunlar aşağıdakılardır:

- Torpaqların becərilməsi məsələləri və torpağın səpinə hazırlanması;
- Bitki yetişdirilməsi (buğda və arpa);
- Suvarma işlərinin idarəolunması;
- Dənli bitkilərin inkişaf mərhələlərinin diaqnostikası;
- İlkin toxumçuluq və reproduksiyalı toxum istehsalı.

Qeyd etmək lazımdır ki, təlim iştirakçılarının nəqliyyatı şirkət tərəfindən təmin edilir. Daha sonra qeyd etmək lazımdır ki, Azərbaycanda aqrar sferada çalışan fermerlərə konsultasiya xidmətləri də gösrərilir. Konsultasiya xidmətlərinin sistemli və mütəmadi olaraq həyata keçirilməsi məqsədi ilə həmin sistem müasirləşdirilmiş elmi araşdırmalar mərkəzi kimi də fəaliyyət göstərir. Görülən işlər bununla kifayətlənmir. Eyni zamanda sözügedən sistem kənd təsərrüfatı sahəsində tədris və təlim işlərinin təşkilini də həyata keçirir. Görülən işlər, əsasən respublikada aqrar elmin inkişaf etdirilməsi Dövlət Proqramı çərçivəsində reallaşdırılır.

4. *Aqrar dəstək.* Məhsul istehsalçılarının stimullaşdırılması məqsədi ilə, onların istehsal xərclərinin azaldılması, mənfəət əldə edilməsi imkanlarının artırılması məqsədi ilə dövlət tərəfindən nəhəng tədbirlər həyata keçirilir. Müxtəlif tədbirlər çərçivəsində son 10 ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına 1,2 milyard manat subsidiyalar verilmişdir. Eyni zamanda, aqrar sektorun dəstəklənməsi istiqamətində tədbirlərin həyata keçirilməsi davam etdirilir. Xüsusi ilə də dəstək məqsədləri üçün həyata keçirilən tədbirlər kənd təsərrüfatı texnikası təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilir. "Aqrolizinq" ASC tərəfindən ölkəyə 54 min kənd təsərrüfatı texnikası, 945 min ton mineral gübrə və 45 min baş məhsuldar malqara cinsləri gətirilərək kənd təsərrüfatı məhsulları istehlakçılarının istifadəsinə verilmişdir. Kənd təsərrüfatı nazirliyi sistemi tərəfindən yaradılan "Elektron kənd təsərrüfatı" sistemi aqrar sahənin çevikliyi və şəffaflığına xidmət edir. Belə bir çevik və şəffaf mühitin xüsusi ilə subsidiyaların verilməsi ilə əlaqədar yaradılması məqsədəuyğundur. Elektron hökumət vasitəsi ilə göstərilən xidmətlər fermerlər üçün əlavə üstünlüklər verir. Onların informasiyalılığı, məhsuldarlıq səviyyəsi yüksəlir. Deyilənlərlə yanaşı dövlət xidmətlərinin göstərilməsi prosedurları sadələşdirilir, tələb olunan sənədlər azaldılmışdır, xidmətlər fermerlər üçün daha əl çatan olmuş, yeni bazar mexanizmləri tətbiq edilməkdədir. Dövlət qayğısının institusional mexanizmlərinin təkmilləşdirilməsi məqsədi ilə fermerlər arasında maarifləndirmə işləri aparılır. Fermerlərin hansı sahədə məşğul olmalarının daha məqsədəuyğun olması ilə bağlı maarifləndirmə işləri təşkil olunur. Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Dövlət Aqrar İnkişaf Mərkəzləri yaradılmışdır. Deyilənlərlə yanaşı nazirlik nəzdində Fermerlər Şurası və Aqrar Konsultasiya Şurası, eyni zamanda yerlərdə kənd təsərrüfatı idarələrinin əsasında Dövlət Aqrar İnkişaf Mərkəzləri yaradılmışdır. Qeyd etmək lazımdır ki, Aqrar İnkişaf Mərkəzlərinin yaradılması prosesi başa çatmışdır. Qeyd edildiyi kimi bu mərkəzlərdə eyni zamanda Fermerlər Şurası da fəaliyyət göstərir.

5. *Aqrar ticarət.* İndiki dövrdə kənd təsərrüfatı sferasında iqtisadi fəallıq müşahidə olunur. Sözügedən sahəyə marağın artması, məhsuldarlığın da artması ilə müşaiyət olunur. Fermerlər üçün bazar şəraitinin yaxşılaşdırılması həmçinin onların problemlərinin aradan qaldırılması məqsədi ilə müvafiq tədbirlər həyata keçirilməkdədir. Həmin tədbirlər xüsusi ilə hazır məhsulun satışı zamanı həyata keçirilən məqsədyönlü tədbirlər kimi

diqqəti cəlb edir. Bu məqsədlə Dövlət aqrar ticarət kompaniyası yaradılmışdır.

Qeyd etmək lazımdır ki, "Dövlət Aqrar Ticarət Şirkəti" MMC 8 iyun 2018-ci il tarixində təsis edilmişdir. Şirkətin yaradılmasında əsas məqsədlər aşağıdakılardır:

- dövlətin həyata keçirdiyi aqrar siyasət konsepsiyasının dəstəklənilməsi;
- ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının yerli və xarici bazarlara rahat, maneəsiz və rəqabətə dayanıqlı şəkildə çıxışının təmin olunması;
- kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafına nail olunması;
- kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının təmin olunması;

Eyni zamanda qeyd edək ki, Azərbaycan Respublikasında çayçılığın inkişaf vəziyyəti diqqəti cəlb edir. Azərbaycanda çay bitkisi ilk dəfə XIX əsrin sonlarında becərilmiş, çayın respublikada elmi əsaslarla becərilməsinə isə 1929-cu ildən , sənaye masştablarında plantasiyaların salınmasına isə 1932-ci ildən başlanılmışdır.

Ümumiyyətlə, çayçılıq dünyada kənd təsərrüfatı məhsulları istehsalının geniş yayılmış formalarından biridir. Göründüyü kimi, bu sahənin Azərbaycanda inkişaf etdirilməsi uzun illər bundan əvvəl başlanılmışdır. 1937-ci ildə Lənkəranda zavodun tikintisi respublikada çay istehsalının təşkilini daha intensiv inkişaf məcrasına daxil etmişdir. "Azərbaycanın buketi" adlı Lənkəran çayı 1981-ci ildə Leypsiqdə keçirilən müsabiqədə qızıl medala layiq görülmüşdür. Sovet dövründə çayçılıq Azərbaycanda çətin inkişaf yolu keçmişdir. Lakin eyni zamanda o, ölkəmizdə ən inkişaf etmiş aqrar sahələrdən biridir. Aparılan elmi araşdırmalar nəticəsində məlum olur ki, republikada çay plantasiyalarının əsas hissəsi Lənkəran-Astara iqtisadi rayonunun payına düşür, lakin qeyd etmək lazımdır ki, 21 min hektara yaxın ərazinin təbii iqlim şəraiti, torpaqlarının mövcud vəziyyəti Azərbaycan ərazisində çay bitkisinin becərilməsinə imkan verir. Çayçılıq ənənələri zəngin olan respublikanın digər rayonu Astara rayonudur. Ölkəmizdə mövcud çay plantasiyalarının təxminən 26,4 faizi, çay istehsalının isə 60 faizi Astara rayonunun payına düşür [3].

Digər tərəfdən təkcə bir faktın qeyd edilməsi yerinə düşərdi ki, Lənkəran-Astara iqtisadi rayonunun 98%-ində çay becərilir. Buna isə Lənkəran-Astara iqtisadi rayonunun iqliminin rütubətli olmasıdır. Sovet dövründə Azərbaycan çayı xarici ölkələrə ixrac olunurdu. Sovet İttifaqı parçalandıqdan sonra bir çox sahələrdə olduğu kimi çayçılıq sahəsində də böhran yaşandı. Çay plantasiyalarının ərazisi sürətlə azalmağa başladı. Sovet dövründə Azərbaycanda 36 min ton çay yarpaqları istehsal olunurdu. Həmin dövrün ölçülərinə görə bu çox diqqətəlayiq və əhəmiyyətli göstəricilər idi. Son illərdə bu göstərici bəzi hallarda aşağı düşür. Bəzən 500 tondan belə aşağı düşür. Müvafiq olaraq çayçılığın bərpa və inkişaf etdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Lakin yenə də çay bitkisinin əhəmiyyətli hissəsi xarici ölkələrdən idxal olunur. Bəzən idxal edilən çay məhsulu heç də yüksək keyfiyyətli məhsul olmaya bilir. Bu gün respublikada çayın 2%-i Zaqatalada istehsal olunur. Zaqatalada çay plantasiyaları XX əsrin 40-50 –ci illərindən salınmışdır.

*Əvvəllər Zaqatala rayonda 100 hektara yaxın ərazidə çay becərilirdisə, indi məhsul verən çay plantasiyasının ərazisi cəmi 15 hektardır. Göründüyü kimi, əvvəlki illərdə olduğu kimi yenə də* Lənkəran-Astara iqtisadi rayonu çay becərilməsi üçün respublikada daha münasib ərazilərdəndir. Hesab edirik ki, respublikada çay plantasiyalarının , xüsusi ilə də əvvəlki çay plantasiyalarının ərazisi genişləndirilərək çoxaltma işlərinin aparılması daha məsə-

dəuyğun olardı. Lənkəran-Astara iqtisadi rayonunun potensialının əsas hissəsi çay və digər sitrus bitkilərinin becərilməsinə yönəldilməlidir. Məlumdur ki, Kür-Araz iqtisadi rayonunda çay becərilməsi qeyri mümkündür. Bu səbəbdən də Kür-Araz iqtisadi rayonunda meyvə tərəvəz bitkilərinin becərilməsi daha məqsədəuyğun olardı. Hazırda Lənkəran-Astara iqtisadi rayonunda çay plantasiyalarının genişləndirlməsi istiqamətində məqsədyönlü şəkildə işlər görülür, eyni zamanda xarici ölkələrin təcrübələri də öyrənilir. Yeni çay sortlarının becərilməsi respublikaya mənfəət gətirə bilər. Digər tərəfdən respublikanın cənub bölgələrində əhalinin çay becərilməsi ilə bağlı vərdiş və bilikləri vardır. Bütün bunları nəzərə alaraq çayçılığın həmin ərazilərdə inkişaf etdirilməsinin perspektivlərindən danışmaq mümkündür. Əvvəlki illərdə ölkədə çay fabriklərinin sayı əhəmiyyətli dərəcədə məhdudlaşmış, . bazara çay məhsullarının daxil olması xeyli azalmışdır. Hesab edirik ki, respublikada çayçılığın inkişaf etdirilməsi ilə bağlı xüsusi Dövlət Proqramının qəbul edilməsi olduqca məqsədəuyğun bir dövlət tədbiridir. Məhz bu baxımdan qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 sentyabr 2017-ci il tarixli 3227 nömrəli Sərəncamına uyğun olaraq hazırlanmış "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı" ölkəmizdə çayçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsinə, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsinə, çay istehsalına marağın artırılmasına yönəldilmişdir [4].

Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatının müasirləşdirilməsi məqsədi ilə 29 dekabr 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti Fərman imzalamışdır. İnkişaf Konsepsiyası "Azərbaycan 2020: gələcəyə baxış" konsepsiyasının əsasını ixrac yönümlü sahələrin inkişaf etdirilməsi təşkil edir. Eyni zamanda neft və neft məhsullarının artırılması ilə yanaşı respublika iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi və onun strukturunun təkmilləşdirilməsi, başlıca məqsədlərdən biri kimi təsbit olunmuşdur. Qarşıya qoyulmuş məqsədlərə nail olunması üçün mövcud müqayisəli üstünlüklərin və bir sıra digər amillərin nəzərə alınması tələb olunur. 2016-cı ilin dekabrında "Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə əlaqədar Azərbaycan Respublikasının Strateji Yol Xəritəsi" qəbul edilmişdir [5].

Sözügedən Starteji Yol Xəritəsi 2020-ci ilə qədər aqrar sektorun inkişafı və uzun müddətli perspektivdə 2025-ci ilə qədər aqrar sahənin inkişafına həsr olunmuş strateji baxışları özündə əks etdirir. Uzun müddətli perspektivlər çərçivəsində kənd təsərrüfatında strateji məqsədlər müəyyənləşdirilmişdir. Bunlar aşağıdakılardır:

- ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə institusional potensialın gücləndirilməsi;
- maliyyə resurslarına çıxışın asanlaşdırılması;
- kənd təsərrüfatı sferasında istehsal vasitələri bazarının inkişaf etdirilməsi və onlara xidmətlərin göstərilməsinin yaxşılaşdırılması;
- kənd təsərrüfatı sahələsində elm, təhsil, konsultasiya-informasiya xidmətlərinin göstərilməsinin inkişaf etdirilməsi;
- kənd-təsərrüfatı məhsulları bazarının infrastrukturunun inkişaf etdirilməsi, istehsalçıların bazara çıxış imkanlarının asanlaşdırılması;
- ətraf mühitin qorunması, təbii resurslardan davamlı istifadə edilməsi, kənd təsərrüfatına təbii amillərin təsirinin idarə edilməsi;

- aqrar sektora dövlət tənzimlənməsinin səmərəliliyinin yüksəldilməsi və biznes mühitin təkmilləşdirilməsi;
- kənd yerlərində əhali məşğulluğu və əhalinin həyat səviyyəsinin yüksəldilməsi.

**Nəticə**

Apardığımız tədqiqat nəticəsində bəlli oldu ki, indiki dövrdə Azərbaycanda aqrar sektorun müasir tələblərə uyğun tənzimlənməsi 5 əsas istiqamət üzrə aparılır. Bu istiqamətlərin bizim tərəfdən təsnifatlaşdırılması aqrar sektorun tənzimlənməsində konkret səmərəverici və çevik idarəetmə qərarlarının verilməsinə xidmət edəcək. Müasirləşdirmə innovasiyalı inkişaf modelinə keçidi, dünya iqtisadi böhranının nəticələrini aradan qaldırmağı mümkün edir. Müvafiq olaraq ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyəti yüksəlir. Geniş miqyasda qabaqcıl texnologiyalar,ilk növbədə bitkiçilik, heyvandarlıq, emal sahələrində tətbiq edilir. Bütün bunların nəticəsində müasirləşdirmə və innovasiyalar intensiv iqtisadi artım amili kimi çıxış edərək, Aqro-Sənaye Kompleksi Azərbaycan Respublikasında inkişaf strategiyasına öz təsirini göstərməkdədir. Müvafiq olaraq ardıcıl şəkildə informasiya təminatı da təkmilləşdirilir, çünki informasiya təminatının təkmilləşdirilməsi zamanın başlılca tələblərindən biri kimi diqqəti cəlb edir. Keyfiyyətli informasiya təminatı real qiymətləndirmələrin aparılmasını mümkün edir, eyni zamanda sözügedən qiymətləndirmələr nəticəsində aqrar sferada uğurlu siyasətin həyata keçirilməsinə də əlverişli şərait yaradılır.

***Tədqiqatın elmi yeniliyi.*** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- müasir dövrdə aqrar sektorun müasir tələblərə uyğun tənzimlənməsinin strateji istiqamətləri;
- aqrar sektorun tənzimlənməsinin kənd təsərrüfatı məhsullarının səmərəliliyinin yüksəldilməsinə təsiri;
- təsərrüfatların müasirləşdirilməsi, təsərrüfatların yeni maşınqayırma texnikaları ilə təmin olunması, maşınqayırma məhsullarının kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması sayəsində kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətinin yüksəldilməsi;
- müasir dövrdə aqrar sektorun tənzimlənməsinin baçlıca amili kimi aqrar elmin müasirləşdirilməsi istiqamətində də islahatların həyata keçirilməsi;

***Tədqiqat işinin tətbiqi əhəmiyyəti.*** Aqrar sektorun qiymətləndirilməsinin tətbiqi konkret olaraq əkin sahələrinin düzgün seçilməsində, əmtəə istehsalının proqnozlaşdırılmasında, maddi-təchizat məsələlərinin optimallaşdırılmasında və s. istiqamətlərdə özünü büruzə verə bilər.

***Tədqiqat işinin iqtisadi səmərəsi.*** Beləliklə, kənd təsərrüfatı məhsullarının istehsalının səmərəliliyinin yüksəldilməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi ancaq yüksək səviyyədə inkişaf etmiş maddi-texniki baza şəraitində mümkündür.

**ƏDƏBİYYAT SİYAHISI:**

1.https://finans.az/xeber/inam-kerimov-son-15-ilde-kend-teserrufati-mehsullarinin-ixrac-hecmi-6-3-defe-artib.html

2. https://www.stat.gov.az/source/trade/az/f_trade/xt009_2.xls

3.https://azertag.az/xeber/Azerbaycanda_isteh-sal_olunan_chayin_60_faizi_Astara_rayonunun_payina_dusur-1826571

4. https://atm.gov.az/pdf/magazine/4.pdf, s.99-103.

5.https://mida.gov.az/documents/strateji_yol_xeritesi_kend_teserrufati_mehsullarinin_istehsalina_ve_emalina_dair.pd

**Самая Огтай кызы Бабаева, диссертант**
Азербайджанский Государственный Аграрный Университет,

## ГОСУДАРСТВЕННОЕ РЕГУЛИРОВАНИЕ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ И ЕГО ОТРАЖЕНИЕ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ

### Резюме

В статье рассматриваются современные тенденции государственного регулирования в аграрной сфере.Основное внимание здесь уделяется регулированию сельскохозяйственного сектора в соответствии с современными требованиями, состоянию развития чая, реализации Стратегической дорожной карты Азербайджанской Республики в связи с производством и переработкой сельскохозяйственной продукции и т.д. вопросы.В статье широко исследуются комплексные аспекты развития аграрного сектора.В конце статьи отражены обобщенные научные результаты автора.

**Цель исследования** - оценка основных социально-экономических аспектов государственного регулирования агарарного сектора

**Метод исследования**–системный подход, сравнительный анализ.

**Результаты исследования**– выявление современных тенденций государственного регулирования агарарного сектора.

**Ключевые слова**: аграрный сектор, государственное регулирование, чаеводство, стратегические цели, стратегические направления.

**Samaya Ogtay kyzy Babaeva,** PhD student
Azerbaijan State Agrarian University,

## STATE REGULATION IN AGRICULTURE AND ITS REFLECTION IN AGRICULTURE

### Abstract

The article discusses modern trends in state regulation in the agricultural sector.The main focus here is on the regulation of the agricultural sector in accordance with modern requirements, the state of development of tea, the implementation of the Strategic Road Map of the Republic of Azerbaijan in connection with the production and processing of agricultural products, etc. issues.The article extensively explores the complex development aspects of the agricultural sector.At the end of the article, the author's generalized scientific results are reflected.

***Purpose* -** assessment of the main socio-economic aspects of state regulation of the agricultural sector

***Design/method/ approach* -** system approach, comparative analysis

***Findings (Results)* -** identification of modern trends in state regulation of the agricultural sector

**Keywords**: agricultural sector, state regulation, agriculture, strategic goals, strategic directions.

**Daxil olub:** 03.03.2021

**Rasimə Əlihüseyn qızı Atakişiyeva**
ADPU Fiziologiya kafedrası baş müəllim
E-mail: rasima.atakishiyeva@gmail.com

# AZƏRBAYCAN RESPUPLİKASINDA FÖVQALADƏ HALLARLA MÜBARİZƏ SİSTEMİNİN FORMALAŞMASI

**Xülasə**

Məqalədə göstərilir ki, ətraf mühitə və maddi itkilərə dəyən zərərin həcminin azaldılmasına yönəlmiş tədbirlər sisteminin həyata keçirilməsi dövlətin əsas vəzifələrindən biridir. Təqdim olunan materialda bu mənada Azərbaycan Respublikasının fövqəladə hallarla mübarizə sisteminin hüquqi bazasının formalaşdırılması prosesinin birinci mərhələsi geniş şərh olunur. Müəllif göstərir ki, 28 fevral 2006-cı il tarixdə Azərbaycan Respublikası Prezidentinin imzaladığı “Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinin təşkili haqqında” Sərəncamın Fövqəladə Hallar Nazirliyinin qarşısında duran vəzifələrin həllində böyük rolu olmuşdur.

**Açar sözlər:** fövqaladə hallar, *texnogen, həyat fəaliyyətinin təhlükəsizliyi, yanğın təhlükəsizliyi*

**UOT:** 380
**JEL:** J42

## Giriş

Müstəqillik illəri dövründə Azərbaycan dövlətinin fövqaladə hallarla mübarizə sahəsində topladığı təcrübənin tarixi baxımdan öyrənilməsinin mühüm əhəmiyyəti vardır. Belə ki, Azərbaycan Respublikasında həyat fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, fövqaladə halların qarşısının alınması, nəticələrinin ləğv edilməsi sahəsində qısa müddət ərzində çox görülmüş, zəngin təcrübə toplanılmışdır.

